**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU**

**ƏBDÜLBAQI GÖLPINARLI**

# “TƏSƏVVÜFƏ DAİR 100 SUAL”

*(müxtəsər tərcümə, qeyd və şərhlər*
*Radif Heybət oğlu Mustafayevindir)*

**"Elm və təhsil"**
**Bakı – 2022**

***Kitab AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun 23 yanvar 2022-ci il tarixli, 1 saylı protokolunun qərarı ilə çapa məsləhət görülmüşdür.***

***Həmişə həqiqət axtarmış və deməyə çalışmış Əmirşah Babaşah oğlu Əmirəhmədovun əziz xatirəsinə ithaf olunur.***

Rəyçilər: **Nərgiz Axundova**
T.e.d., prof., AMEA-nın həqiqi üzvü

**İmamverdi Həmidov**
Filologiya elmləri doktoru, professor

Elmi redaktor: **Əhməd Niyazov**
İlahiyyat üzrə fəlsəfə doktoru

Redaktor **Qabil Camalov**

**Əbdülbaqi Gölpınarlı. Təsəvvüfə dair 100 sual**
*(müxtəsər tərcümə, qeyd və şərhlər Radif Heybət oğlu Mustafayevindir)*
**Bakı, "Elm və təhsil". 2022. 180 səh.**

*XX əsr Türkiyə tədqiqatçısı Əbdülbaqi Gölpınarlının müxtəsər tərcümə edilərək qeyd və şərhlər verilmiş bu əsəri təkcə sorğu kitabı kimi dəyərləndi-rilməyib, eləcə də artıq həyata keçirilmiş araşdırmaların elmi-fəlsəfi tənqidi şəkildə gələcək tədqiqatlar üçün istiqamətverici rol oynaya bilər.*

**4702000000 qrifli nəşr**
**N-98-2022**

**© Ə.Gölpınarlı, 2022**

# MÜNDƏRİCAT

Giriş.........................................................................12
Ön söz .......................................................................19

## I BÖLMƏ

### TƏSƏVVÜF, SUFİ, MÜTƏSƏVVÜF SÖZLƏRİ NECƏ ORTALIĞA ÇIXMIŞDIR? – SUFİLƏRİN TƏSƏVVÜF ANLAYIŞI, İLK SÜFİ[LƏR] VƏ TƏKKƏLƏR

1-ci sual: Təsəvvüf nə deməkdir; bu söz Quranda varmı; [Məhəmməd] Peyğəmbər onu işlətmişdirmi..........................21
2-ci Sual: Sufilər [özlər] "təsəvvüf" və "sufi" [anlayışlarını] necəizah edirlər...............................................23
3-cü Sual: İkinci suala verdiyiniz cavabda "təvil" sözü işlədilib, bu nə deməkdir?..............................................27
4-cü Sual: Təvildə hər-hansı bir metod varmı, [və ya təvil zamanı] müəyyən bir əsasa istinad edilirmi...........................29
5-ci sual: [Siz] təsəvvüfdən bəhs edərkən həmişə [ona] məslək deyirsiniz; təsəvvüf biliyi adlandırıla biləcək bir bilik[lər sistemi] vardırmı? ..................................29
6-cı sual: Təsəvvüf sözü hansı dövrdə ortalığa çıxmışdır.......31

## II BÖLMƏ

### TƏKKƏ, DƏRVİŞ, TƏRİQƏT DƏRƏCƏLƏRİ- ZAHİDLİK – TƏSƏVVÜFÜN QAYNAQLARI- QURAN, HƏDİS VƏ ŞƏRİƏTƏ NƏZƏRƏN TƏSƏVVÜF VƏ SUFİLƏR

7-ci sual: Təkkə nə deməkdir? ...............................................32
8-ci sual: Dərviş kimə deyilir?...............................................32
9-cu sual: Təriqət nə deməkdir?.............................................33

## III BÖLMƏ
### İLK SUFİLƏR-TƏSƏVVÜF HAQQINDA FİKİRLƏR – QABA ZAHİDLİK

10-cu sual: Əbu Haşimi əl-Kufi haqqında nə bilirsiniz? ........35
11-ci sual: Qaba zahidlik və [ümumiyyətlə] zahidlik nədir; belə bir şey İslamda vardırmı? ........36

## IV BÖLMƏ
### TƏSƏVVÜFÜN QURUCULARI – İSLAMA YAD TƏSİRLƏR – TAC, XİRQƏ VƏ ZİKR

12-ci sual: Bu məsləyin ilk qurucuları kimlərdir ........40
13-cü sual: Təsəvvüfün Hind-İran, Roma-Bizans təsirinə düşdüyünü qeyd etdiniz; ilk təsəvvüf cərəyanının qurucuları da bu təsirə məruz qalmışdırlarmı ........41
14-cü sual: Təriqətlər geyim – keçim özəlliklərinə görə bir-birindən fərqlənirlər; bunu bir qədər açıqlaya bilərsinizmi ........41
15-ci sual: [Məgər] Quranda və hədislərdə zikrə dair sözlər yoxdurmu? ........43
16-cı sual: Sufilərdə zikr necə edilir; [və bu zikr] hansı adla anılır ........46
17-ci sual: Bu terminlər haradan və necə götürülmüşdür; Quranda bu cür yeddi nəfs [anlayışı] vardırmı? ........47
18-ci sual: Salik adlandırdığımız təsəvvüf yolçularının hər biri eyni dərəcədə olmadığına görə toplu [halında] zikr edildikdə [Allahın] hansı adı anılır və [ümumiyyətlə] toplu hallarında zikr necə edilir? ........51
19-cu sual: Hal sözünün bizə məlum olduğu anlamdan başqa bir anlamı [da] vardırmı ........54

## V BÖLMƏ

### VƏHDƏT-İ VÜCUD (VARLIĞIN BİRLİYİ) - TÖVHİD[İN] MƏRTƏBƏLƏRİ – PANTEİZMLƏ BU İNANCIN FƏRQLƏRİ - VƏHDƏT İNANCININ QAYNAQLARI – VƏHDƏTİ MÖVCUD VƏ VƏHDƏTİ ŞÜHUD- MƏSULİYYƏT, CƏBR VƏ İXTİYAR – YƏQİNİN DƏRƏCƏLƏRİ


20-ci sual: Tövhid və vəhdət inanc[lar]ını[n mahiyyətini] açıqlaya bilərsinizmi? ......................................................55
21-ci sual: [Bəs] bu panteizm deyildirmi...............................56
22-ci sual: Qurandakı o ayə hansı surədədir və [orada] nə deyilir?..................................................................60
23-cü sual: Sizə görə İslamda vəhdət-i Vücud inancı vardırmı? ....................................................................61
24-cü sual: [Siz] Tövhid mərtəbələrini izah edəndə “tövhid-i əfal, tövhid-i sıfat, tövhid-i zat” adlanan üç mərtəbə sadalamışdınız [ki,] tövhid-i əfalda hər edilənin əslində Allah tərəfindən edildiyini söyləmişdiniz. Belə bir təqdirdə, [yəni əgər] hər şeyi O (Allah – R.M.) edirsə, [onda insanın] iradə və ixtiyara [sahibi olması] ortadan qalxmırmı? Bu inanca görə məsuliyyətin, savab və günahın, cənnət və cəhənnəmin aradan çıxması (ortalıqdan götürülməsi) lazım deyildirmi...............................................65
25-ci sual: Bundan öncə sualları cavablandırarkən “bilmək, görmək, olmaq” sözlərini istifadə etdiniz. Bu [anlayış]ları bir qədər [də] izah edərdinizmi .....................68
26-cı sual: Bu terminlər Qurani Kərimdə vardırmı.................69
27-ci sual: [Əvvəlki] Sualımıza cavab verəndə geri dönəndə üç mərtəbə[dən] bəhs etdiniz. Tövhidin fəna mərtəbələrindən sonra üç mərtəbəsi də vardırmı? ..................70
28-ci Sual: Bu terminləri bir qədər də açıqlaya bilərsinizmi ..71
29-cu sual: Bununla [da] suluk başa çatırmı? ........................72

## VI BÖLMƏ

### TƏSƏVVÜFDƏ DÜNYAGÖRÜŞÜ – İNSAN – YARADILIŞ, ƏBƏDİ BİR MÖVCUDLUQDUR – ZAMAN VƏ MƏKAN – TƏSƏVVÜFDƏ QƏDİM İNANCLARIN İZLƏRİ – QEYBDƏ OLANLAR – TƏSƏVVÜF VƏ FƏLSƏFƏ – EŞQ VƏ CAZİBƏ

30-cu sual: Vəhdət-i Vucud inancında hər şey Haqqın məzhəri olunca, hər şeydə Haqqın sifətləri görünüb o sifətlərə görə işlər ortalığa çıxınca dünyagörüşü adətən ortadan qalxan kimi bir şey [olur]. Bu mistik inancda dünyanın önəmi, kainatın önəmi yoxdurmu? [Bütün bunlarla əlaqədar] Sufilərin dünyagörüşləri necədir....................73
31-ci sual: [Sufilərin] məkan haqqında baxışları, anlayışları necədir/nədən ibarətdir....................76
32-ci sual: [Sufilərin] İnsan haqqındakı baxışları, anlayışları necədir/nədən ibarətdir?....................76
33-cü sual: Bu izahata görə Mütləq Varlığın sifətləri cəsədə (cismə, bədənə - R.M.) bürünür kimi bir baxış ağla gəlir ki, [bəs] buna nə deyirsiniz?....................78
34-cü sual: [Məgər] Təsəvvüfün insan[a] baxışı bundan ibarətdir?....................79
35-ci sual:Doqquz göy, yeddi ulduz haqqında nə düşünürsünüz?....................82
36-cı sual: Fırlanma/Dövr dediyiniz nəzəriyyəylə tənasüx arasında bir əlaqə vardırmı; yaradılış və qiyamət haqqında sufilərin fikirlərini bir qədər də açıqlaya bilərsinizmi?....................83
37-ci sual: [Siz] Cansızlar, bitkilər, canlılar olaraq üç [qrupdan ibarət] bir təsnifat etdiniz. Təsəvvüf əhlinə görə bitkilər cansızlarla canlılar arasında bir yaradılmış olur. Onlar (sufilərə - R.M.) görə bitkilərdə can yoxdurmu?....................85
38-ci sual: Təsəvvüf ilk insanın yaradılışı haqqında nə söyləyir....................86
39-cu sual: Bundan əvvəlki suallara verdiyiniz cavabda kamillik mərtəbəsinə yalnız Həzrəti Məhəmmədin çatdığını söyləmişdiniz və ondan öncəkilərin də, sonrakıların da ondan feyz aldıqla-

rını bildirmişdiniz. Bu tam anlaşılmadı. [Çünki] ortalığa [başqa] suallar, cavablar, mövzular girdi. Zəhmət olmasa bunu daha aydın, daha ətraflı izah edərsinizmi? ........................................ 87
40-cı sual: Mehdi inancı haqqında fikriniz nədir [və] bu inancda qədim dinlərin təsirləri vardırmı? ........................ 89
41-ci sual: Sabiilik nədir? .................................................... 90
42-ci sual: Təsəvvüf niyə fəlsəfəni inkar edir? ....................... 93
43-cü sual: Eşq və cəzb etmək nədir və nə deməkdir ............ 93
45-ci sual: "Sahv, mahv" nə deməkdir? ................................. 96
46-cı sual: Şath dediyiniz şeyi misllarla bir az daha açıklaya bilərsinizmi? .......................................................... 97

## VII BÖLMƏ
### BATİNİLİK – TƏSƏVVÜF ƏHLİNİN HAMISI BATİNİ DEYİLDİR-TƏSƏVVÜFDƏ MƏZHƏB-TƏSƏVVÜFDƏ BEYƏT VƏ NİSBƏT- KƏRAMƏT

47-ci sual: Batinilik nədir, bunu izah edə bilərsinizmi? ......... 99
48-ci sual: Bunu bir nümunəylə açqlaya bilərsinizmi? ........... 100
49-cu sual: Təsəvvüf əhlinin hamısını Batini saymağımız doğrudurmu? ..................................................... 102
50-ci sual: Doğulan, yeyib-içən, uşağı olan, xəstələnən və ölən bir insanı yaradıcı (Xaliq, Tanrı – R.M.) qəbul etmək necə mümkün [hesab] ola/edilə bilər? .................................. 103
51-ci sual: Hüseyn b. Mənsuril-Həllac haqqında bir qədər məlumat verə bilərsinizmi? .................................... 105
52-ci sual: Belə bir adamı bir çox sufinin, xüsusən [də] şair sufilərin, üstəlik Mövlana kimi həqiqətən bilikli bir şəxsin [onun tərəfini] tutmasına, [onu] öyməsinə/təriflməsinə nə deyirsiniz? .................................. 106
53-cü sual: Bundan əvvəlki 41-ci suala verdiyiniz cavabda təsəvvüfün biliyi arxa plana atdığını deyən kimi oldunuz ki, diqqətimizi çəkməyə bilməzdi. [Sizcə] təsəvvüf biliyi necə başa düşür/təsəvvür edir? ....................... 106
54-cü sual: Təsəvvüf əhli müəyyən bir məzhəbdədirmi;

məsələn, bir təriqətə daxil olan eyni zamanda o təriqətin qəbul etdiyi məzhəbə də daxil olurmu? ....... 108
55-ci sual: İnsanı yaranmanın, yaradılışın səbəbi bilən təsəvvüfdə din, irq, soy-boy və rəng ayrı-seçkiliyi varmı?..... 110
56-cı sual: Sufilər təsəvvüf nisbətini Hz. Məhəmmədə qədər necə aparıb çıxarırlar? ....... 113
57-ci sual: Üveysi deyə bir söz dediniz. Bu nə deməkdir? ..... 115
58-ci sual: Təsəvvüf əhlinin beyət ayəsinə istinad etməsi haqqında nə düşünürsünüz? ....... 116
59-cu sual: Təsəvvüf əhli bir güc halına gəldikdən sonra başçılarla, iqtidarla münasibətləri necə idi? İqtidar bu gücə də istinad etdimi? ....... 117
60-cı sual: Kəramət demişkən: təsəvvüfçülərə görə kəramət nədir və kəramət haqqında fikirləri, baxışları necədir? .......... 118

## VIII BÖLMƏ

### TƏSƏVVÜF İÇƏRİSİNDƏ TƏSƏVVÜFƏ MÜXALİFƏTÇİ CƏBHƏ – MƏLAMƏTİLİK HAQQINDA QƏNAƏTLƏR-İLK MƏLAMƏTİLƏR-FÜTÜVVƏT VƏ MÜRÜVVƏT-SİYASƏTDƏ MÜRÜVVƏT-FÜTÜVVƏTNAMƏLƏR – BAYRAMİ MƏLAMİLƏRİ VƏ AXIRINCI MƏLAMİLƏR

61-ci sual: Axırıncı sözlərinizdən məlamət əhli adlandırdığınız toplumun təsəvvüf içərisində təsəvvüf əhlinə qarşı müxalifət təşkil edən bir zümrə olduğu başa düşüldü. Bunu izah edərsinizmi? ....... 121
62-ci sual: Məlaməti haqqında sufilərin qənaətləri nədir?...... 123
63-cü sual: Bu istiqamət nə vaxt başlamışdır; ilk məlamətilik nümayəndələrinə nə vaxt rastlaşırıq; “məlamət” sözü hansı dövrdə [ortalığa] çıxmışdır? ....... 125
64-cü sual: Məlamətilər bu adı [özlərinə] götürdükdə istinad etdikləri bir şey vardırmı? ....... 127
65-ci sual: Məlamətilik yalnız etirazçı bir hərəkat olaraqmı qalmışdır; bu etiraz fəal bir durum ortalığa çıxartmamışdır; məlamətilərin xalqa istinad etdiklərinə

görə xalqa münasibətdə vəziyyətləri necə olmuşdur? ............127
66-cı sual: Mürüvvət və fütüvvəti bir az daha [da] açıqlaya bilərsinizmi? ..........................................................128
67-ci sual: Niyə məlamətilik və fütüvvət Xorasanda cəmləşmişdi?...............................................................130
68-ci sual: Fütüvvət əhliylə təriqətçilər yəni, təsəvvüf əhli arasındakı fərq yalnız geyim-keçim özəlliklərini, zikri, təqiyyəni qəbul etmədikləridirmi; bunların ortaq nöqtələri yoxdurmu? ..............................................................132
69-cu sual: Əxi nə deməkdir? ...............................................134
70-ci sual: Fütüvvət nümayəndələri arasında hər [bir] sənətin bir piri var[dır] de[miş]diniz. Bunlara nümunə göstərə bilərsinizmi? ..........................................................135
71-ci sual: Fütüvvətdə ticarətçilər necə təşkilatlanmışdı? ......135
72-ci sual: Hər məlaməti mütləq [bir şəkildə] fütüvvətə daxil olmuşdurmu və bu yol nə vaxta qədər davam etmişdir? [Onların] Məzhəbləri nə idi?...................................................136
73-cü sual: Fütüvvət nümayəndələrinin təşkilatı və inancları haqqındakı biliklərimizin qaynaqları nələrdir?........139
74-cü sual: Fütüvvət nümayəndələri ilə məlamətilərin və sonrakı [nəsil] məlamilərin məzhəbləri haqqında fikriniz nədir?..................................................................141

## IX BÖLMƏ
### SOSİAL ASPEKTDƏN TƏSƏVVÜF-SƏMA-TƏSƏVVÜFDƏ İSLAHAT-BU İSLAHATA TARİXİ NƏZƏR-ƏLƏVİLİK TƏRİQƏTDİRMİ-TƏSƏVVÜFDƏ QADIN-TƏSƏVVÜF VƏ İQTİDAR

75-ci sual: Səma haqqında nə düşünürsünüz? ........................144
76-cı sual: Təsəvvüfdə [hansısa] bir islahat olmuşdurmu; olmuşdursa bunu kim etmişdir?.............................................146
77-ci sual: Bu islahat davam etmiş və təsəvvüf xalq [səviyyəsinə] enmişdir? Yoxsa elit zümrənin bir fantaziyası olmuşdur? ...........................................................151
78-ci sual: Ələvilik təriqətdirmi?...........................................152

79-cu sual: Hürufilik haqqında fikriniz necədir? .................... 154
80-cı sual: Təsəvvüfün toplum həyatındakı təsirləri nələr[dən ibarət]dir və bu təsirlər hansı nəticələrə gətirib çıxartmışdır? ........................................................................ 154
81-ci sual: Təsəvvüfün qadın[lar] haqqında düşüncələrini izah edərsinizmi? ................................................................ 155
82-ci sual: Təsəvvüfdə məşhurluq qazanmış qadınlar vardırmı və [onlar] kimlərdir? ............................................... 156
83-cü sual: Təsəvvüf uyuşdurucu bir rol oynamışdır deyildiyini eşidirik. Buna nə deyirsiniz? ............................... 158
84-cü sual: Təriqətlərin xalq hərəkətlərində, xalqın mübarizələrində müsbət yaxud mənfi bir rolu olmuşdurmu?..159
85-ci sual: Hökümətin təriqətlərdən faydalandığı, yaxud bunlar əleyhinə yönəldiyi olmuşdurmu? ...................... 160
86-cı sual: Təriqətlərdə xarici istismara qarşı mübarizə olmuşdurmu? ......................................................... 161

## X BÖLMƏ

### ƏDƏBİYYATDA TƏSƏVVÜF-TƏSƏVVÜF TERMİNLƏRİ-TERMİNLƏRƏ DAİR YAZILMIŞ ƏSƏRLƏR-DİVAN VƏ XALQ ƏDƏBİYYATINDA TƏSƏVVÜF

87-ci sual: Təsəvvüf terminləri hansılardır; bunlar necə meydana çıxmışdır; bunları təsnifatlandıra bilərikmi? ........... 162
88-ci sual: Bunlar haqqında yazılmış kitablar vardırmı? ........ 164
89-cu sual: Təsəvvüfün ədəbiyyata təsirləri haqqında fikriniz necədir? ................................................................ 165
90-cı sual: Zuhdi ədəbiyyat dedikdə nəyi nəzərdə tutursunuz? ........................................................................ 166
93-cü sual: Xalq ədəbiyyatındakı təsəvvüfi ədəbiyyatı izah edərsinizmi? ................................................................ 166

## XI BÖLMƏ

**TƏSƏVVÜF, [İNCƏ]SƏNƏT VƏ BİLİK – FOLKLORDA TƏSƏVVÜF-TƏSƏVVÜF VƏ MUSİQİ**

94-cü sual: Təsəvvüfün [incə]sənət və bilik dünyasında nə kimi rolu olmuşdur? ........................................................ 169
95-ci sual: Folklorda təsəvvüf izləri vardırmı? ....................... 170
96-cı sual: Təsəvvüfün müsiqiyə təsirlərindən bəhs edə bilərsinizmi? ................................................................ 170
97-ci sual: Digər təriqətlərin müsiqisiylə Mövləvi müsiqisi arasında hansı fərqlər vardır? .................................. 171

## XII BÖLMƏ

**TƏSƏVVÜFÜN GÜNÜMÜZDƏKİ VƏZİYYƏTİ-ŞƏRİƏT VƏ TƏRİQƏT İFRATÇILIĞI – TƏSƏVVÜF TARİXİNİ OXUTMAQ, TƏDQİQ ETMƏK LAZIMDIRMI?-MÜASİR BƏŞƏRİ DURUMDA TƏSƏVVÜFÜN GƏRƏKLİLİK VƏ MÖVCUDLUQ TƏRƏFLƏRİ VARDIRMI?**

98-ci sual: Şəriət və təriqət ifratçılığı nədir? .......................... 172
99-cu sual: Təsəvvüfün tarixini öyrətmək, tədqiq etmək lazımlıdırmı? ................................................................... 174
100-cü sual: Müasir bəşəri vəziyyətdə təsəvvüfün lazımlılıq və mövcudluq tərəfləri vardırmı? .......................... 175

## Giriş

Mərhum tədqiqatçı Əmirşah Əmirəhmədovun "Sufizm (təsəvvüf, sufilik) nədir, yaxud Füzuli sufidirmi?" proqram səciyyəli tənqidi məqaləsində qeyd etdiyi kimi, "Əslində kifayət qədər öyrənilmiş bu dini-fəlsəfi cərəyana (sufiliyə - R.M.) maraq səngimək bilmir, əksinə, qloballaşma dövrünün aktuallaşdırdığı və irəli sürdüyü ekzistensializm, fenomenologiya və başqa fəlsəfi təlim və cərəyanların inkişaf edib şaxələnməsi İslam Şərqi fəlsəfəsinin bu özünəməxsus təliminə də yenidən baxılmasını zəruri edir."[1] Amma dilimizdə, o cümlədən də, xarici dillərdə sufiliklə əlaqədar çoxlu sayda məqalələr, müxtəlif həcmli tədqiqat işləri, monoqrafiya və kitablar mövcud olmasına baxmayaraq onlarla "...tanışlıq müəlliflərin bir çoxunun (biz deyərdik ki, mütləq əksəriyyətinin) tədqiqat obyekti seçdikləri fenomeni – sufiliyi yaxşı (tam obyektiv – R.M.) öyrəndiklərini, onu (sufiliyi – R.M.) əsasında yarandığı İslam dinindən, funksiyasını icra etməyə çalışdığı fəlsəfədən ayıran cəhətləri ayırd edə bildiklərini deməyə əsas vermir."[2] Bu baxımdan sufiliyi İslamdan fərqləndirməyən və onun yeretikliyi ilə razılaşmayan son dövr tədqiqatlarından biri kimi, Rusiya Elmlər Akademiyası Fəlsəfə İnstitutu Elmi Şurasının qərarı ilə 2009-cu ildə çap edilmiş "İslam mistisizminin əsaslandırılması (mənşəyi və təkamülü)" adlı kitab olduqca səciyyəvidir. Biz bu əsərin ümumiləşdirici xüsusiyyətini əldə rəhbər tutaraq onun timsalında yenidən sufilik və sufilər haqqındakı təsəvvürlərə ekskurs edilməsini faydalı hesab edərdik.

---

[1] Əmirşah Əmirəhmədov. Sufizm (təsəvvüf, sufilik) nədir, yaxud Füzuli sufidirmi?//Elmi əsərlər №1-2, 2005, s.209- 219, s.209

[2] Yenə də orada.

Belə ki, bu kitabdan oxuyuruq ki, avropalıların sufiliklə tanışlığı elə orta əsrlərdə baş versə də, sufizmin elmi öyrənilməsi XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Avropa şərqşünaslığının formalaşmasının əvvəllərindən başlamışdır. "Sufizm sahəsində ilk tədqiqatların müəllifləri isə britanyalılar B.Counzun və C.Qrexemin, o cümlədən "İran tarixi" adlı işinə sufi təlimini qiymətləndirməyi əlavə etmiş D.Malkolmun adları ilə əlaqədardır."[3] Amma müəllif vurğulayır ki, bu zaman "...mühüm ilkin mənbələrin olmadığından sufizmin mənbələri və başlıca təlimlərinin və əsas anlayışlarının, ilk müəyyənlikləri, müxtəlif təsisatların və ritualların meydana gəlməsi, sufizmin mənbələrini anlamaqda müxtəlif yanaşmaların formalaşması, komparativistik tədqiqatların ilk təcrübələri B. Conz, D.Malkolm, J.Qarsen de Tassi, S.de Sasi, F.Tolyuk, M.d'Osson, Y. Fon Hammer-Purqştal və digərlərinin adları ilə bağlıdır."[4] Daha sonra oxuyuruq ki, XIX əsrin ikinci yarısında C.Braunun, O. Deponun, R.Dozinin, A. Fon Kremerin, K. Kappolaninin, E. Palmerin, L.Rinnanın, A. Le Çatelyerin, M. Kazımbəyin, P.Pozdnevin, A.Z.Runovskinin və digərlərinin sufiliyə həsr edilmiş əsərləri çap olunmuşdur. XIX əsrin sonu XX əsrin birinci yarısında isə sufizmin öyrənilməsində etibarlı mənbəşünaslıq əsasında tərtib edilmiş əsərlər meydana çıxdığından, yuxarıda adı çəkilmiş kitabında İ.R.Nasırov bunlardan ən mühüm tədqiqat müəlliflərindən T.Andrenin, A. Vensikin, İ.Qoldçierin, R.Zaenerin, D.Makdonaldın, L.Massinyonun, R.Nikolsonun, M.Asin Palasiosun, Marqaret Smitin, K.Snuka-Hyurqronun, R.Hartmanın, M.Hortenin adlarını sadalamışdır. Hətta o bunlardan bəzilərinin, məsələn, L.Massinyonun və R.Nikolsonun mühüm sufi ilk mənbələrini orjinaldakı dildən Avropa dillərinə tərcümə etdiklərini də vurğulamışdır.[5] XIX əs-

---

[3] Насыров И.Р. Основания исламского мистицизма (генезис и эволюция). М., Языки славянских культур, 2009, 552 с., s.18-19

[4] Yenə orada, s.19

[5] Yenə orada, s.20

rin sonu XX əsrin başlanğıcında rus şərqşünaslığının da sufizmin akademik öyrənilməsinə böyük töhvələr verdiyini qeyd etmiş tədqiqatçı bu baxımdan V.Jukovskinin, A.Krımskinin və A. Şmidtin adlarını və əsərlərini xatırlatmışdır. İ.R. Nasırov N.Veselovskinin, K.Kazanskinin və N.Lıkoşinin "xalq" sufizmi haqqında təcrübi tədqiqatlarının da öz əhəmiyyətini itirmədiyini vurğulamışdır. Amma tədqiqatçıya görə, "Sufiliyin tədqiqatının (XX əsrin ikinci yarısından başlayaraq) müasir vəziyyəti daima genişlənmək, dar ixtisaslaşmaya doğru səylərin, sufi tədqiqatlarında yeni istiqamətlərin öyrənilməsi və çərçivələrində sufi tədqiqatlarının aparıldıqları şərqşünaslıq məktəblərinin artması ilə səciyyəvidir ki, avstrya-alman, britaniya, fransız və holland məktəblərinə amerikan, italyan və yapon məktəbləri də əlavə olmuşdur."[6] Bunların sırasında o, J.Anavatinin, A.Arberrinin, Q.Boverinqin, T.Burkxardtın, V.Dannerin, J.Qobilonun, L.Qardyenin, T.İzuçunun, Əli Əbd əl-Qadirin, L.Kinberqin, A.Korbenin, M.Linqzin, K. Melçyortun, S.Nasrın, P.Nviyyanın, H.Ritterin, M.Xodkeviçin, V.Çittikanın, A.-M.Şimmelin, K.Ernstin, həmvətənlilərindən: O.F.Akimuşkinanın, Ə.K.Ələkbərovun, Y.A.Bertelsin, M.M.əl-Cənəbinin, T.İbrahimin, A.A. İqnatenkonun, Q.M.Kərimovun, A.D.Knışın, V.V.Naumkinin, V.M.Nirşinin, A.R.Petrosyanın, İ.P.Petruşevskinin, S.M. Prozorovanın, A.V.Saqadeyevin, A.V. Smirnovun, M.T.Stepanyançın, Y.A.Frolovanın, A.A.Hismatulinanın, müsəlman Şərqi tədqiqatçılarından isə Məhəmməd əl-Ədluni əl-İdrisinin, Seyid Məhəmməd Naqib əl-Attasın, Ə.E.Əffifinin, Ömər Fərruxun, İbrahim Mədkurun, Məhəmməd Yasir Şərəfin, Məhəmməd Qəllabın adlarını və əsərlərini qeyd etmişdir.

Tədqiqatçı sözügedən əsərdə erkən İslamdakı mistik-asketik hərəkat kimi zühdun və yaxud zahidliyin mahiyyəti ilə əlaqədar suallar haqqında və bu prosesin izah edilməsində doktrinal sufizmə doğru təkamül ideyasının müəllifləri kimi K.Melçört,

---

[6] Yenə orada, s.21

L.Kinberq, A.D.Knışın və A.A. Hismatulinin adlarını vurğulayır. Hətta klassik dövr sufi tədqiqatları korifeylərinin baxışlarına tənqidi yanaşmanı obyektivliklə əlaqələndirməyi zəruri hesab edərək bunlardan T.Andrenin, Ed. Braunun, İ.Qoldçierin, A.Korbinin, D.Makdonaldın, L.Massinyonun, R.Nikolsonun, M.Smit və digərlərinin adlarını vurğulamışdır. Bütövlükdə isə, müəllifə görə sufizmin meydana gəlməsi və inkişafı ilə əlqədar bir neçə baxış mövcuddur. Bunlardan "Bir çox Qərb (XIX əsrdə, elə müyyən dərəcədə indi də) və oktyabraqədərki dövr rus tədqiqatçıları sufizmi islam üçün yad mənşəli hesab edərək, onun digər konfessiyalardan və dini-fəlsəfi təlimlərdən əxz edildiyi qənaətində olmuşlar."[7] Tədqiqatçı T.Andere, Ed.Braun, A.Vensiq, D.Maqdonald, M. Asin Palasios, Marqaret Smit və digərlərinin baxışlarını misal çəkərək bildirir ki, bunlara görə "...islam xristian asketizmindən impuls almaq nəticəsində onun sadəcə yerinə yetirilməsindən imtina edib xüsusi mənəvi özünükamillədirmə yolunu (sufizmi) hazırlayıb eyni zamanda nə xristian, nə qnostik, nə də ki, buddist istiqamətə oxşamamışdır."[8] Daha da konkret olaraq müəllif, məsələn, R.Dozinin sufiliyin kökünü zərdüştilikdə, K.Kazanskinin isə "İran panteizmi" adlandırdığında axtarmışdır. R.Hartman, M.Horten və digər tədqiqatçılar isə sufizmin hind təlimləri olan induizmin, vedanta fəlsəfəsinin və buddizmin təsiri altında əmələ gəldiyini iddia etmişlər. Tədqiqatçı A.fon Kremer sufizmin bir neçə mənbədən, əsasən də iki – xristian-asketik və buddist-mücərrəd mənbələrdən əmələ gəldiyini, İ.Qoldsierin üç – Şərqixristian, buddist və neoplatonik mənbələrdən, Ö.Fərruxun isə hətta dörd mənbədən- neoplatonik, hind, xristian və erkən Çin mənbələrindən törəndiyini irəli sürmüşlər. Digər baxış isə İ.Nəsirova görə, ilk müsəlman ardıcıllarının yüksək səviyyəli dini möminliklərinin təzahür etməsi ilə əlaqədardır. Bu istiqamətin tərəfdarları kimi, L.Kinqberin, A-M.Şimmelin,

[7] Yenə orada, s.24
[8] Yenə orada, s.24

A.V.Saqadeyevin, T.İbrahimin, A.R.Petrosyanın, AA.Hismatulinin adlarını çəkmiş tədqiqatçı qeyd edir ki, sözügedənlərin "Asketik əhval-ruhiyyələri (zühd) erkən islamda ən mömin dairələrin müxtəlif istiqamətlərinin davamçılarının əhval-ruhiyyəsində və davranışlarında dominant kimi nəzərdən keçirilmişdir."[9]Beləcə müəllif ümumiləşdirir ki, "bu iki baxış islamdakı erkən mistik-asketik hərəkatın müstəqil intellektual təzahür olmayıb, əksinə, əvvəla, varlanmaq və dünya naz-nemətləri arxasınca getməyə etiraz kimi sosial eskapizmin bir növü olduğunu, ikincisi isə, antiintellektuallığın növlərindən biri kimi siyasi parçalanmalar dövründə dini təlimlərin ifrat şəkildə siyasiləşdirilməsinə etiraz olub, erkən islam ilahiyyatçılarının dini spekulyasiyalara alüdəçiliklərini qəbul etməmişdir."[10]

Üçüncü qrup baxış tərəfdarlarına A.Arberini, J. Qobilonu, A.Korbini, L.Massinyonu, S.Nasrı, R.Nikolsonu, O.F.Akimuşkini, Ə.K.Ələkbərovu, M.M.əl-Cənabini, M.T. Stepanyançı, E.A.Fralovanı və digərlərini misal çəkmiş tədqiqatçı bildirir ki, bunlara görə sufizm elə əvvəldən erkən islamın "dünyadan əl çəkmək" (zühd) mistik-asketik hərəkatı çərçivəsində inkişaf edib daha sonra aparıcı dini-fəlsəfi istiqamətlərdən birinə çevrilmişdir.

Tədqiqatçı məşhur fransız şərqşünası, filosof və din tarixçisi A.Korbenin sufizmi İslamın ezoterik interpretasiyası (təvil) kimi nəzərdən keçirdiyini, islamşünas L.Massinyonun isə, sufilərin terminologiyasının təkamülü texnikasına diqqət edərək bunun Quran əsasında baş verib erkən müsəlman mistikləri və ardıcılları tərəfindən formalaşdığını iddia etmişdir. Öz növbəsində bu dövrün dəqiq tədqiq edilmədiyini vurğulayan İ.Nəsirov, müsəlman asketizmi ifadəsinin də uğursuz olduğunu bildirir. Tədqiqatçıya görə "Mütəxəssislər verilmiş problemin tədqiqi zamanı keçmişdə də, indi də başqa məsələlərə müraciət edir və müraciət

[9] Yenə orada, s.24
[10] Yenə orada, s.24-25

ediblər ki, bunlar ya ümumi ..., ya da əksinə çox məhdud... olanlardır."[11]

Bir sözlə, müəllifin özünün də etiraf etdiyi kimi, hələ də sufizmlə əlaqədar bir-çox qaranlıq məqamlar qalmaqdadır. Bu baxımdan da biz tədqiqatçıların tanıyıb nüfuzunu qəbul etdikləri, amma bəzən unudub, olduqca az istinad etdikləri başqa bir müəllif vasitəsilə sözügedən problemlərə aydınlıq gətirmək istədik. Belə bir tədqiqatçı isə əslən Azərbaycandan olmuş Əbdülbaqi Gölpınarlıdır (1900-1982).

Ə.Gölpınarlı XX əsr Türkiyənin məşhur tədqiqatçılarından biridir. Onun bir çox əsərləri kimi sufiliyə aid sorğu kitabı da özünün fundamentallığı və olduqca lakonikliyi ilə seçilir. Biz onun "Təsəvvüfə dair 100 sual" (hərfən: "100 sualda təsəvvüf") kitabını dilimizə çevirərkən əsərin fonunda ortalığa çıxan sualların daha da əsaslı şəkildə anlaşılmasını görə bilərik. Üstəlik, kitabda müəllifin sanki oxucu ilə söhbət etmək üslubundan istifadə etməsi mövzunun daha da geniş dairədə mənimsənilməsinə imkan verən məziyyətlərindəndir. Odur ki, biz, Ə.Gölpınarlının bu əsərinin ruhunu qoruyub saxlamağa çalışmış, eyni zamanda da digər tədqiqatlardan da əldə etdiyimiz məlumatları bir daha dəqiqləşdirərək, burada olan və çatışmayan cəhətləri müqayisə etmək imkanı ilə maksimum şəkildə obyektivliyə nail olmağa səy göstərmişik.

Qeyd edək ki, mətnin daxilində ədəbiyyat istinadlarının olduğu kimi saxlanması biblioqrafik səciyyə daşıyır. Ən başlıcası isə, müəllifin cəsarətli mövqeyi ilə əlaqədar olub oxucuya daha çox İslam adı ilə təqdim edilən sufiliyin və bunun timsalında digər istiqamətlərin də doğru-dürüst anlaşılmasında mühüm metodoloji yanaşmaya imkan verməsidir. Bütün bunları nəzərə alaraq tərəfimizdən əsərin müxtəsər tərcüməsi gerçəkləşdirildiyi kimi, ehtiyac duyulduğu təqdirdə mətnə lazımi qeydlər edilmiş, izahatlar verilmiş, bu və ya digər mövqelər müqayisə edilmişdir.

[11] Yenə orada, s.25

Buna görə də, təqdim edilən kitab təkcə sorğu kitabı kimi dəyərləndirilməyib, eləcə də artıq həyata keçirilmiş araşdırmaların elmi-fəlsəfi tənqidi şəklində gələcək tədqiqatlar üçün istiqamətverici rol oynaya bilər.

Kitab AMEA Fəlsəfə və Sosiologiya İnstitutu "İslam fəlsəfəsi" şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü K. Bünyadzadənin rəhbərliyi və İnstitutunun Baş direktoru f.e.d. İ.Məmmədzadənin və digər əməkdaşların iştirakı ilə müzakirə edilmişdir. Dəyərli fikir, qeyd və şərhlərini təqdim etdiyinə görə kitabın redaktoru Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, i.ü.f.d. Əhməd Niyazova dərin minnətdarlığımızı bildiririk.

**Radif Mustafayev**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.

# Ön söz

Az-çox həcmi müəyyən [bir] kitaba "100 sualda təsəvvüf"ə [sığışdırılmış bu kitabda] təsəvvüfün qaynaqları, ilk təmsilçiləri, təsəvvüfün formalaşmasını, istiqamət[lər]ini, iqtidarda olanlara qarşı münasibətini, sufilərin təsəvvüf anlayışlarına qarşı hətta içərilərindən ortalığa çıxmış reaksiya[lar]ı, bu reaksiya[lar]ın nəticələrini uyğunlaşdırmanı, təsəvvüfün başlıca müddəalarını, təsəvvüfü təsiri altında saxlamış inancları, [onların] günümüzədək gəlib çıxmasını və bugünkü durumunu[n] araşdırılmasının, [sufiliyin] tənqid edilməsinin nə qədər çətin olduğunu [nəzərə alıb] təsəvvüflə maraqlananların [bu əsəri] təqdir edəcəklərindən əminəm. Həqiqətən də belə bir kitaba və bu kitabı tamamlayacaq "Məzhəblər və təriqətlər tarixi" [əsərinə böyük] ehtiyac vardı. Bu ehtiyacı duymamış deyildim. Fəqət başqa işlərlə məşğul olmağım belə bir əsəri yazmağıma vaxt saxlamır, mənə fürsət vermirdi.

"Gerçək Yayınevi" bu vaxtı tapmağa, bu fürsəti əldə etməyə məni məcbur etdi. Oxucular görəcəklər ki, hökmlərim tamamilə tərəfsiz olub istinadlıdır. [Bu kitabda mən] Nə təsəvvüf dinin əsasıdır demiş, nə də [ki,] dində belə bir zövq yoxdur deməmişəm.

Mövzu ağırdır; anladılması çətindir. Kitabın ilk hissələri bəlkə oxucunu yoracaqdır, bəlkə də hətta bezdirəcəkdir. Amma [oxucudan onu] əlindən atmamasını, sonadək oxumasını diləyirəm. [Çünki] Dini tarixi yoğuran, şeirimizin klassik və xalq bölümlərini formalaşdıran, hətta insaniləşdirən, əsrlər boyu toplumumuzu təsiri altında saxlayan, müsbət və mənfi rollarıyla istiqamətlər ortalığa çıxaran bir inanclar tamlığını bilməmək, keçmişi anlamamaqdır. Kitabımız [isə] xüsusən də gənc oxuculara keçmişdən bir pərdə açır; görülməsi, bilinməsi, anlaşılması həqiqətən də gərəkli bir səhifəni gözlərinin önünə sərir. Bunu qəti olaraq bilmək lazımdır ki, bizim ən böyük nöqsanımız öndə

olanlarımızın keçmişi bilmədikləri, keçmişə bağlı olanlarımızın da bu günkü dünyagörüşlə keçmişi tənqid etməmələridir. Kitabımızda da bir neçə dəfə buna toxunduq; keçmişi bilməyən bu günü anlamaz; bu günü anlamayan sabahı görməz, sabahı inşa edə bilməz; hətta keçmişdən gələn həmlələrin səbəblərini belə düşünə bilməz.

Həyat axır; tarix gedir; səbəblər nəticələrini meydana gətirir; nəticələr nəticələrə səbəb olur. Bu axının qaynağını, bu gedişatın mənzərəsini, bu səbəblərin nəticələrini, bu nəticələrin toplum həyatımızdakı təsirlərini mütləq bilməyimiz lazımdır. Könlüm istərdi ki, ölkəmizdə, Osman oğullarının ilk dövrlərindən bugünədək təsəvvüfün mənzərəsini izləyək. Fəqət təsəvvüfün əsas[lar]ını anlatmağımıza əngəl olacağından bunu ikinci kitabımızda etməyi daha uyğun bildik.

Oxucu oxuduqca bu kiçik kitabın önəmini anlayacaq, axıra qədər [onu] əlindən buraxmayacaq, [oxuyub] bitirincə də güman edirik ki, keçmişin ən önəmli bir probleminə dair fikir irəli sürəcək, söz deyəcək [bir] vəziyyətə gəlib çıxacaqdır.

Mənbələrimiz əsas qaynaqlardır; fəqət bu kitab yalnız oxunmuşlardan əldə edilmiş biliklərə istinad etmir; yaşanılmış bir yaşantı[lar]ın da hekayəsidir. Müəllif bütün bu inancları duymuş, görmüş, belə bir mühitdə böyümüş, yaşa dolmuşdur. Ərəb dilində "Əsərlərimiz bizi izah edirlər; bizdən sonra əsərlərimizə baxın" mənasında bir beyt vardır. Atalar sözü dəyərliliyində olan bu sözlə ön sözümüzə son verib tarix səhifələrini bir-bir açmağa başlayırıq.

**Əbdülbaqi Gölpınarlı**

# I BÖLMƏ

## Təsəvvüf, sufi, mütəsəvvüf sözləri necə ortalığa çıxmışdır? – Sufilərin təsəvvüf anlayışı, ilk süfi[lər] və təkkə[lər]

### 1-ci sual: Təsəvvüf nə deməkdir; bu söz Quranda varmı; [Məhəmməd] Peyğəmbər onu işlətmişdirmi?

Qurani-Kərimdə [nə] təsəvvüf, [nə də ki,] sufi adlı heç bir söz yoxdur. Hətta sufilər Həzrət Peyğəmbərin “Allahla oturub durmaq istəyən suf (qaba yun – R.M.) geyinənlərlə əyilib qalxsın” mənasını verən bir hədisin olduğunu söyləsələr də bu söz uydurma bir hədisdir (Süyuti: al-Laalil-masnua fil-Əhadisil-mavzua, II, Mısır, Adabiyya Mat. 1317, s.142); [eləcə də] suf geyinmək haqqında hədislər də uydurmadır (yenə orada s.142-143).

Bu sözün ərəbcədən törədiyini bildirən təsəvvüfçülər də bütün bunlara baxmayaraq deyilənlərin heç də həqiqi olmadığını etiraf etmək məcburiyyətində qalırlar.

Sözügedən izahatları aşağıdkı şəkildə sıralamaq olar:

1. Təsəvvüf məsləyi seçildiyindən buna uyğun olaraq suf, [qaba] yun paltar geyindiklərinə görə beləlirinə sufi, bu yola isə təsəvvüf deyilmişdir.
2. Həzrəti Peyğəmbərin sağlığında məscidin eyvanında (süffə) məskunlaşmış yoxsul səhabələrə “süffədə yaşayanlar” mənasında “Əshabi suffa” deyilirdi. Sufilər də onlar kimi, yoxsulluğa üstünlük verdiklərindən özlərinə sufi, bu yola təsəvvüf adını vermişlər.[12]
3. [Bu söz] oxun hədəfdən sapması, adamın hər hansı bir tərəfə əyilməsi mənasını verən “suvuf” sözündən əmələ gəlmişdir. Təsəvvüfçülər də dünyadan üz çevirdiklərinə görə bu adla anılmış, məsləklərinə isə təsəvvüf deyilmişdir.

[12]Fikrimizcə, bu faktın tarixi tərəfi güclü olduğu kimi, ondan istifadə edilməsi ehtimalı da böyükdür.

4. Bu söz "səf" [sözün]dən əmələ gələrək özlərini Tanrıya yaxın bildiklərindən mənən ümmətin ön sıralarında olduqlarından "sufi" adını almış, məslәkləri də "təsəvvüf" adlanmışdır.
5. Bu qəbildən olanlar saflığa, daha doğrusu qəlb təmizliyinə, ixlasa sahib olduqlarından onlara sufi, məsləklərinə təsəvvüf deyilmişdir.
6. Tərtəmiz mənasını verən "savafi" sözü danışıqda çətinlik törətdiyindən "sufi" şəklinə çevrilmişdir.
7. Çöldə-bayırda bitən "sufanə" adlı bir bitki vardır. Sufilər də yaxşı şeyləri yemədiklərindən, daima çalışmaqda (riyazət) olduqlarından, çöllərdə gəzib dolanaraq otlarla qidalandıqlarından, bu bitki kimi sufi adlanmışlar.
8. Cahiliyyət dövründə, yəni Həzrət peyğəmbərdən (Məhəmməd peyğəmbərdən – R.M.) öncə Mudar qəbiləsindən olmuş Sufa oğulları özlərini Kəbə evinə xidmət etmək üçün vəqf etmişdilər (ibadət səciyyəli öhdəlik götürmüşdülər). Belə ki, həcc mərasimini onlar idarə edirdilər. Sufilər də özlərini Tanrının xidmətinə həsr etdiklərindən bu qəbilə kimi sufi adlanmış, məsləklərinə isə təsəvvüf deyilmişdir (Kuşeyri: Ar-Risalatül-Kuşeyriyye fi ilmit-Tasavvuf, Bulak-1284, s.164; Et Taarruf li Mezhebi Ehlit-Taassuf, Mısır-1933, s.5; Avariful-Maarif, İhya haşiyesinde, c.I, s.233; Nefahat tercemesi, İst. 1289, s.82 və sonrakı səhifələr).

Təsəvvüfçülər bütün bunları bildirməklə yanaşı onların heç birinin ərəb dilinə uyğun gəlmədiyindən sadəcə "təsəvvüf" sözünün bir ad olaraq ortalığa çıxdığını və özlərinə də "sufi" deyildiyini iddia etməyə məcbur olurlar (Kuşeyri, s.165). Amma Nasrabadi kimi müəllif (ölüm tarixi hicri 366, miladi 976) özünün təsəvvüfə aid "Əl-lumə fit-Tasavvuf" adlı dəyərli əsərində suf geyindiklərinə görə sufi adlandıqlarına üstünlük verərək (Leyden, 1914-cü il, s.21, Nicolson basımı) sufi adının sonradan uydurulmadığını, hicri 110-cu ilin Rəcəb ayında (m.728) vəfat etmiş Həsən əl-Bəsrinin sufi kimi xatırlandığı və barəsində bəhs edilərkən "təvaf edərkən (Kəbə evinin ətrafında dolaşarkən – R.M.)

bir sufi gördüm, ona bir şey verdim, amma götürmədi...” –deyə bir hadisənin nəql edildiyi bildirilir. Həmçinin Sufyani Sivrinin də (h.166/m.777) “Əgər mən Əbu Haşimi Sufiyi görməsəydim riya[za]nın (sufi çalışmalarının–R.M.) incəliklərinin nə olduğunu bilməzdim” dediyinin, Yasar oğlu İshaq oğlu Məhəmməd və başqalarından cahiliyyət dönəmində uzaq bir yerdən bir sufinin Məkkə şəhərinə gəlib Kəbəni təvaf etdiyi haqqında rəvayət nəql edilərək, əgər “bu doğrudursa” qeydi ilə bu adın (sufi – R.M.) İslam dinindən öncə də pak və yüksək əxlaq sahiblərinə aid edilən bir ad olduğu qeyd edilir (s.23). Amma bu kimi məlumatlar özünün “həqiqət” kimi təqdim etməsinə baxmayaraq digər və ən başlıcası doğru mənbələrdə öz əksini tapmamışdır. Buna görə də biz, təsəvvüf və sufi sözləri ilə əlaqədar aşağıdakı qənaətimizi ifadə etmək məcburiyyətindəyik:

9-cu. “Təsəvvüf” sözü, yunan dilindəki “Sofos” sözündən ərəbcəyə keçmiş, elə “sufi” sözü də “təsəvvüf” sözündən ortalığa çıxmışdır. Necə ki, ilahi və dini bir fəlsəfə varlığını ifadə etmiş “Kəlam” sözü də yunan dilindəki “Loqos” sözünün tərcüməsindən başqa bir şey deyildir (Ferit Kam: Vahdet-i Vücud, ümmet. Mat.Amire – 1331, s.76, Şemseddin Sami: Kaamusi Türki, tasavvuf ve sufi maddeleri).

## 2-ci Sual: Sufilər [özü] “təsəvvüf” və “Sufi” [anlayışlarını] necə izah edirlər?

[Qeyd edək ki,] Sufilərin təsəvvüfə və sufiyə verdikləri təriflər sözügedən məsləyin inanclarına görə fərqlidir. [Belə ki,] onlar kitaba, yəni Qurana və sünnəyə, yəni Hz. Peyğəmbərin sözlərinə, etdiklərinə, edərkən görüb çəkindiklərinə əməl edənləri üç qrupa ayırırlar:

1. Hədisə uyğun davrananlar;
2. Fəqihlər, yəni dini hüququn biliciləri;
3. Sufilər (Al-Luma, s.5-7).

[Bunların sırasında] Onlara görə Sufilər öz istəkləri ilə yoxluğu varlığa[13] dəyişənlər, xalqdan ayrılmayı, tənhalığı seçənlər, aclığı toxluqdan, azı çoxdan üstün hesab edib ucalığı və yüksəlmək həvəsini tərk edərək vəzifə sahibi olmaqdan əl çəkənlər, xalqa hörmət edib [istər] kiçiyə, [istərsə də] böyüyə könül xoşluğu ilə yardım edən, ehtiyacı olanlara öz varından verən, Allaha istinad edən, nəfsin istədiklərinə üstün gələn, yaxşı keyfiyyətlərə sahiblənən, varlıqlarını əzəli varlıqda, sonradan ortalığa çıxanları, yəni özlərini və dünyanı qədim, yəni başlanğıcına bir başlanğıc olmayan Tanrıda yox edən, əliaçıq, ehsan etməyi əliaçıqlıqda, ehsan sahibində, diləməyi diləyəndə yox edən insanlardır (yenə də orada, s.11-15).

Belələrinə görə bilik iki cürdür:

a) Zahiri bilik,

b) Batini bilik.

[Belə ki, onlar Qurani-Kərimdəki] "[Ey insanlar!] Məgər Allahın göylərdə və yerdə olanları (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) sizə ram etdiyini (sizin istifadənizə verdiyini), aşkar (görmə, eşitmə, sağlamlıq) və gizli (əql, şüur, fəhm, elm və i.a.) nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?"[14] (XXXI, 20) ayəsindəki görünən nemətləri zahiri bilgi, görünməyənləri isə batini bilgi kimi təvil edirlər (mənalandırırlar, başa düşür, anladırlar). Yenə də onlara görə, "Münafiqlərə [bəzi müsəlmanların sadəlövhlüyü üzündən döyüş meydanından] əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə dərhal onu yayarlar. Halbuki əgər [müsəlmanlar] bunu

---

[13]İslamda bu dünya fani hesab edildiyindən onun mövcudluğu yoxluğa məhkumdur. Əsl varlıq isə əbədi mövcudluq və ya varlıqdır. Bu isə Allah tərəfindən yoxdan var edilmiş (kreatsionizm) varlığın təkcə bu dünyadakı mövcudluğunu nəzərdə tutmur. Üstəlik, biz müəllifin Allahı varlıq adlandırmasını da doğru hesab etməyib, buna qarşılıq olaraq dilimizdə hüquq qazanmış "fövqəlvarlıq" anlayışından çıxış etmək niyyətindəyik.

[14] Quran tərcüməsi Akademiklər Z.Bünyadov və V.Məmmədəliyevin 1992-ci ildə nəşr edilmiş nüsxəsindəndir.

[münafiqlərə deyil] Peyğəmbərə və ya özlərindən (möminlərdən) olan ixtiyar sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varan (belə bir xəbərin yayılmasının məqsədəuyğun olub-olmadığını təyin etməyə qadir olan) şəxslər (əmr sahibləri–R.M.) bilərdilər...” (IV, 83) ayəsindəki “əmr sahibləri olanlar”ı batini biliklərə sahib olanlar hesab edirlər. Eyni zamanda batin bilgisiylə insan qəlbinə xas olan ixlas (saflıq), təmizlik kimi keyfiyyətlər, zahiri bilgilərlə isə şəriət əmrləri, ibadətlər və əməllər qəsd edilir/nəzərdə tutulur (yenə də orada, s.23-24).

[Biz (müəllif- R.M.)] burada tanınmış sufilərin bəzilərinin təsəvvüf və sufi haqqında tərif və vəsf etdiklərini bildirə bilərik:

**Əbu Turabun Naxşəbi** (245 H.859): Sufini heç bir şey bulaşdırmaz; fəqət hər şey onunla durular.

**Əbu Hafisul Həddad** (264 H.877): Təsəvvüf ədəbdən ibarətdir; [belə ki,] hər vaxta, hər hala, hər məqama aid bir ədəb vardır. Əgər kimsə mövcud olduğu zamanın ədəblərinə riayət edərsə, ərlər (layiqli, möhtərəm şəxslər) dərəcəsinə yüksələr; ədəbi itirən isə yaxınlaşmaq istəsə də uzaqlaşdırılar; qəbul edilməsini diləsə də rədd ediləndir.

**Səhl ibni Abdullahit-Tustəri** (283 H.896): Sufi qanını axıdılmış görən, malını bəyənilən, mübah bilən şəxsdir.

**Əbül-Hüseyn-i Nuri** (295 H.907): Təsəvvüf nəfsə aid bütün istəkləri, zövqləri buraxmaqdır (tərk etməkdir).

**Əmr ibni Osmanul-Məkki** (296 H.908): Təsəvvüf qulun (özünü Allaha təslim etmiş insanın – R.M.) hər zaman həmin vaxta uyğun və gərəkli bir işlə məşğul olmasıdır.

**Cüneydi Bağdadi** (297 H.909): Təsəvvüf [insanın] varlığında ölmən (ölməsi), Tanrıda dirilməndir (dirilməsidir).

Təsəvvüf yaxşılıqdır: yaxşılığın nə qədər çoxalırsa, təsəvvüfdə bir o qədər irəliyə getmiş olursan.

Sufi yer üzünə bənzər: ona istənilən pis şey atılır: fəqət ondan ancaq gözəl və təmiz şeylər bitər; üzərində yaxşı da gəzib dolanar, pis də. Sufi bulud kimidir: hər yerə, hər şeyə kölgə sa-

lar: yağmur kimidir: hər kəsi yaşardar. Əgər hansısa bir sufini üstü bəzənmiş görsən, bil ki, [beləsinin] içi korlanmışdır.

Təsəvvüf gözlə görünən bağla bağlı olmadığın halda Allahla olmadır.

Təsəvvüf uca (kamil) toplumda, kamil insandan, kamil bir dövrdə ortalığa çıxan yaxşılıqlardır.

**Ruveym** (303 H.915): [Təsəvvüf və ya sufi] Özünü Allahın istədiyinə bağlatmaqdır.

**Sümnun** (Cüneydin müasiri): Təsəvvüf heç nəyə sahib olmamağındır. Heç nəyin də səni özünə qul etməməyidir.

**Şəbi** (334 H.946): Sufi xalqdan ayrılmış, Haqla (Allahla – R.M.) birgə olandır.

**Əbu Səidul-Ərəbi** (341 H.952): Təsəvvüf bütün lazımsız şeyləri, mənasız işləri tərk etməkdir.

**Nəsrabadi** (366 H.976): Təsəvvüfün əsası kitaba (Qurana – R.M.) və sünnəyə (Məhəmməd peyğəmbərdən nəql edilmiş hədislərə, davrandıqlarına, söylədiklərinə - R.M.) uyğun davranmaq, nəfsin istədiklərindən və sonradan meydana çıxmış, dinə zidd olan şeylərdən uzaqlaşmaq, böyüklərə hörmət etmək, xalqın çatışmazlıqlarını qəbul etmək, dua-səna edən olmaq, edilməsində günah olmayanları özünə görə təvil etmək (mənalandırmaqdır).

**Əbu Səid Əbül-Xeyr** (440 H.1049): Yeddi yüz şeyx təsəvvüfün insanın vaxtını ən lazımlı olanlara həsr etmək barədə qənaətində ortaq olmuşlar (Kuşeyri: s.164, 165, Masum-Alışah: Taraikul-Hakaayık, Muhammed Cafer Mahsub tashıhiyle, c. I, Tehran -1339 Şemsi hicri, s.99-109).

Göründüyü kimi buradakı bütün təriflər vəsf etmək, tərifləmək mahiyyətindədir. Bu zaman sufilərdən bir qismi gəzib-dolaşaraq inanclarını yaymağa çalışdıqları, məskunlaşmadıqları üçün qəriblər və səyyahlar (səyahət edənlər) anlamında "Qurəba, Səyyahin", az qidalanmağı vərdiş etdiklərindən çox zaman ac halda olduqlarından aclar, aclığı qəbul etmişlər anlamında isə "Cuiyyə", mal-mülkə (var-dövlətə) sahib olmağa yaxşı baxmadıqlarından yoxsullar (bizə

görə, kasıblar – R.M.) anlamında "Fuqəra" (fəqirlər), çöllərdə, mağaralarda yaşadıqları, ev, bağça-bağ sahibi olmadıqlarına görə mağara sakinləri anlamında "Şukuftiyyə" kimi adlarla da adlandırıldıqlarını qeyd edə bilərik (Avarifül-maarif, I, s.231-232, Et-Taarruf li Mezhebi Ehlit-Tasavvuf, s.6 Taraik, s.109).

### 3-cü Sual: İkinci suala verdiyiniz cavabda "təvil" sözü işlədilib, bu nə deməkdir?

Təvil mənalandırmaq, məna anlamına gələn ərəb sözüdür. Məsələn, yuxuda bal, yaxud süd, yaxud da duman görmək inancla, müsəlmanlıqla, itki ilə mənalandırılır. Bu zaman hər bir mənalandıran yuxunu özünə görə, yaxud yuxu görmüş şəxsin halına (vəziyyətinə) görə mənalandırır. Buradan da mənalandırmada yeganə bir üsul və əsas yoxdur. [Necə ki,] Qurani Kərimdə [bu anlamda] ayələrin birində deyilir ki: "[Ya Məhəmməd!] Sənə Quranı nazil edən Odur. Onun bir hissəsi Quranın əslini, əsasını təşkil edən möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (mənaca bir-birinə oxşar, məğzi bəlli olmayan) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki, onların həqiqi izahını Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara inandıq, onların hamısı Rəbbimiz tərəfindəndir", - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər" (III, 7). Öz növbəsində, mənası aydın, hökmləri qəti olan ayələrə "Möhkəm", müxtəlif anlamlara gələnlərə isə "Mütəşabih" ayələr deyilir. Yerigəlmişkən iyirmi doqquz surənin başlanğıcında qarşılanan hərflər (hurufi-muqəttəə - R.M.), yaxud XX surənin "Rəhman ərşə hakim və mutəsarrıf (hərfən: "istifadə edən") oldu"[15] anla-

[15]Sözügedən ayənin tərcümələri müxtəlifdir. Belə ki, rus tədqiqatçısı A,A.İqnatenkoya görə Kraçkovskinin "ərşi öz hökmü altına aldı" tərcüməsi ən uğur-

mına gələn 5-ci ayəsi kimi ayələr mütəşabih ayələrdir. Bunların anlamını ancaq Hz. Rəsul-i əkrəm və yaxınları bilir: biz yalnız onların təfsirlərinə müraciət edə bilərik, özümüz bunlara məna verə bilmərik: çünki, Hz. Peyğəmbər "Quran haqqında biliksiz söz söyləyən [cəhənnəm] atəşində yerini hazırlasın" və "Qurana dair öz rəyi ilə söz söyləyən doğru desə belə xətaya yol vermiş olar" (Camius-Sağıyr, Mısır-1321, II, s.162), "Kim Quranı öz rəyiylə təfsir edərsə [cəhənnəm] atəşində [öz] yerini hazırlasın" buyurmuşdur (Munavi: Künuzül-Hakaik, Camius-Sağıyr haşiyesində, II. S.175).

[Quran] Təfsir[in]də bir üsul vardır. [Bu da] Ayənin niyə nazil olduğu (endirildiyi), hökmünün qəti olub-olmadığı araşdırılır; fiqhə (hüquqa – R.M.) dair bir hökmü ehtiva edib-etmədiyi axtarılır; ona aid hədislərə müraciət edilir. Hədisdə də onun vurud, yəni, niyə və nə zaman söyləndiyi araşdırılır; əldə edilən nəticəyə görə təfsir və şərh edilir. Sufilər isə, yuxarıda qeyd edilmiş ayəni də başqa cür oxuyub, vurğunu (durğu yerini) dəyişdirməkdədirlər: [belə ki, bu, sufilərə görə] "onların (mütəşabeh ayələrin – R.M.) mənasını ancaq Allah və bilikdə şübhələri olamayacaq qədər qüvvətli olanlar bilir" şəklinə çevrilir. [Beləliklə də, sufilərin] Hər biri özlərində bu gücün olduğuna inanır, yaxud da xalqı inandırırlar. Məsələn, XVIII surədə Əshab-i Kəfin (Mağara dostları[16]) bütlərə tapınmamaq/ibadət etməmək üçün mağarada gizləndikləri, orada uzun bir yuxuya getdikləri, kənardan onlara baxarkən oyaq olduqları zənn edilən, Allahın onları sağ və sol tərəflərinə çevirdiyi, [onlarla mağarada olan] itin də ön pəncələrini uzadaraq yuxuya getdiyi təsvir edilir (9-23). Sufilər bunu [mağaradakıların] varlıqlarından çıxaraq xoşbəxtlik aləminə çat-

---

ludur. Amma yenə də ayənin məntiqli tərcümələri ortalığa çıxdıqca elə həmin məntiqlə də sualların ardı-arası kəsilmir.

[16]Burada orjinaldakı variant verilib. Halbuki, bizdəki yazı ənənəsinə və dilimizə görə, "Mağara sakinləri və ya sahibləri" yaxud da "Mağarada gizlənmişlər, olanlar" şəklində verilə bilər. Müəllifin variantını isə "birlik" mənasında da başa düşmək olar.

dıqları, özlərini Allahın ixtiyarına buraxmış insanlar, iti isə [onların] nəfsi olaraq mənalandırırlar (Tevilat-i Abdürrazzaak-ı Kaşani, c.I, s.391-401).

## 4-cü Sual: Təvildə hər-hansı bir metod varmı, [və ya təvil zamanı] müəyyən bir əsasa istinad edilirmi?

[Sufilər təvil edərkən onların] Heç bir metodları yoxdur; heç bir əsasa istinad etməzlər. [Belə ki,] Hər bir sufi nəyisə başqa cür mənalandırır. Hətta onlar (sufilər – R.M.) uydurma hədisləri belə hədis biliciləri tərəfindən nəql edildiyini, "biz (sufilər – R.M.) Hz.Peyğəmbərin mübarək ağzından (dilindən) duyduq/eşitdik" kimi adamı təəccübləndirən bir hökmlə bu cür saxta hədisləri qəbul etməkdən çəkinməzlər. [Məsələn] Qəzalinin (505 H.1111) təsəvvüfə dair "İhyau Ulumid-din" adlı kitabı yalan hədislərlə doludur. Bu cür mənalandırma isə, İslama (bizsə deyərdik ki, İslam aləminə, müsəlmanlara, o cümlədən də bütün bəşəriyyətə - R.M.) olduqca böyük zərərlər vermişdir.

## 5-ci sual: [Siz] təsəvvüfdən bəhs edərkən həmişə [ona] məslək[17] deyirsiniz; təsəvvüf biliyi adlandırıla biləcək bir bilik[lər sistemi] vardırmı?

[Əgər biz] Nəyəsə bilik demək [istəyiriksə, onda onun] mövzusu, qayəsi (prinsipi), metodu olmalıdır. Sufilər [isə] təsəvvüfün müxtəlif təriflərindən də anlaşıldığı kimi bunu (təsəvvüfü – R.M.) hala, əxlaqa aid bir məslək olaraq göstərirlər. [Beləliklə

[17]"Məslək" sözü ərəbcədən "suluk" yəni, "yolçu" sözündəndir. Sufi təcrübəsində Allaha qovuşmaq üçün gedilən yol dini cərəyanlardakı təriqət əsaslı olsa da, bu təriqətlər kimi, onların yolçuları – saliklər də müxtəlifdir. Ən başlıcası, sufi şeyxinin- mürşidin başçılığı ilə müridin – salikin bu yolla addımlamasıdır ki, burada da yalnız ikinci mərhələ, şəriətdən sonra, təriqətdir. Sufiliyə görə, mürid və ya salik mərifətdən sonra həqiqətə və ya Allaha qovuşmuş olur.

də sufilər] təsəvvüfə hal biliyi, o biri, digər biliklərə isə qaal bilgisi, yəni söz bilgisi deyirlər. Hətta bunların içərisində oxumağı, öyrənməyi, insana varlıq, mənlik verdiyi üçün pis əməl kimi nəzərdən keçirənləri də vardır. Məsələn, Əbdül-Qadir Gilaniyə (561 H.1166), yaxud da Muhiyyəddin ibni Ərəbiyə (638 H.1240) aid edilən "Risale-i Gavsiyyə" də, "Bilgi sahibinin biliyiylə mənə yolu yoxdur; ancaq biliyindən əl çəkdikdən sonra yol tapa bilər" ifadəsini oxuyuruq (Seyyid Muhtarın şerhi; İlhamat-ı Kaadiriyye; Prof. Hasan Reşat basımı; Bombay – 1356 H.1938, s.65). Bu baxımdan təsəvvüfə elm desək belə, onlar (sufilər – R.M.) kimi ancaq hal elmi deyə bilərik.[18]

Təsəvvüfün mövzusu nəfsi islah etmək, pis əməllərdən və varlıqlardan çəkinmək (tərki-dünyalıq, asketiklik, zahidlik – R.M.), Tanrıya çatmaq, Onun varlığıyla (oluşuyla – R.M.) var olmaqdır. Təsəvvüfü:

1) Allahı bilmək;
2) Allahın adlarını, sifətlərini, əməllərini bilib başa düşmək;
3) Nəfsi və [onun] pisliklərini dərk etmək;
4) [Şeytanın insanın köksündə törətdiyi]Vəsvəsələri, dünyəvi istəkləri anlayıb onlardan uzaqlaşmaq kimi dörd əsasını qeyd edənlər də vardır (Ebu Nuaym Ahmed b. Abdullah-ı İsfahani: Hilyetül-Evliya; Kahire-Saade Mat. 1351-1357, 1932-1938; c.X, s.20 və sonrakı səhifələr).

Təsəvvüfdə bilikdən artıq hissiyyatlılıq, baxış və mövcudluq əsasları vardır. Bunu Hacı Bayrami Vəli (833 H. 1429-1430) şerlərinin birində gözəl bir şəkildə ifadə etmişdir:

Bayram (Hacı Bayrami Vəli) özünü bildi (tanıdı),Biləni Onda (Allahda) buldu (tapdı), Bulan (tapan) o özü oldu, Sən səni

[18]Müəllif, təsəvvüfün irrasional bilik sahəsinə aid olduğunu qeyd etməklə haqlıdır. Amma bu irrasionallıqda rasionallıq axtarmaq heç də doğru deyildir. Odur ki, biz, sufiliyin ortalığa çıxması barədə müəllifin fikirlərilə tam razılaşsaq da, bu təlimin fəlsəfəsi ilə və yaxud da fəlsəfiliyi ilə əlaqədar baxışları heç də əhəmiyyətsiz və ya əsassız hesab etmirik.

bil sən səni. (A.Gölpınarlı: Melamilik ve Melamiler; İst. Üniv. Türkiyat Enst. Yayın. 1931, s.36)

Bu səbəbdən də sufilər sözügedən yola qədəm atanları "sufi, mütəsəvvif, müstəsvif" deyə üç yerə ayırırlar. Burada sufi məqsədə çatan, mövcudluğunu qurban edən (tərki-dünyalığı seçmiş) şəxsdir. Mütəsəvvif özünü sufi hesab etsə də əsl həqiqətdə o bu mərtəbəyə (sufiliyə - R.M.) çatmamış insandır. Müstəsvif isə, onları (sufiləri – R.M.) təqlid edən, amma əslində onlardan olmayandır. (Aliyy b. Osman-ı Gaznavi: Keşfül-Mahcub, Lahur – 1923, s.22-23). [Öz növbəsində] Cami də (898 H.1492-1493) "Nəfahatul-Uns" əsərində sufi ilə müstəsvifi bir-birindən fərqləndirmişdir (Lamii tərc. s.14-15). Elə bu səbəbdən də Rüveymi "təsəvvüf canını qurban etməkdir: bunu edə bilmədinsə heç sufilərin boşboğazlıqları, sayıqlamaqları ilə məşğul etmə" söyləmişdir (yenə də orada, s.148).

Bir hal biliyi, daha doğrusu mövcudluq yolu olaraq qəbul edə biləcəyimiz təsəvvüfün metodu təhsil ilə deyil, halla məqsədə çatmaq olduğunu qeyd edə bilərik. Buna görə də sufilər hal əhli olan birinə (mürşidə, şeyxə) tabe olub onun yolu ilə davam etməkdən başqa bir çıxış yolunun olmadığını bildirmişlər.

## 6-cı sual: Təsəvvüf sözü hansı dövrdə ortalığa çıxmışdır?

Yuxarıda qeyd edildiyi kimi, təsəvvüf sözü sufi adlanan şəxslərin məsləklərinə verilmiş bir addır. Xüsusən də 481-ci hicri ilində vəfat edən və Şeyxül-İslam (1088) kimi xatırlanan Əbu İsmail Abdullah-i Hərəvinin 412-ci ildə (m.1021-1022) vəfat etmiş Əbu Əbdürrəhman-i Süləminin kitablarından və onun dövrünədək təsəvvüfə dair yazılmış əsərlərdən faydalanaraq yazılmış Nəfahatda ilk dəfə olaraq 161-ci ildə (m.777) ölən Sufyan-i Sivri ilə müasiri Əbu Haşimi Kufiyə sufi deyildiyi və ilk təkkənin bir xristian şəxs tərəfindən Şamın tabeliyində olmuş Rəmlə şəhərində qurulduğu bildirilməkdədir (tərcümə, s.86).

# II BÖLMƏ

## TƏKKƏ, DƏRVİŞ, TƏRİQƏT DƏRƏCƏLƏRİ- ZAHİDLİK – TƏSƏVVÜFÜN QAYNAQLARI- QURAN, HƏDİS VƏ ŞƏRİƏTƏ NƏZƏRƏN TƏSƏVVÜF VƏ SUFİLƏR

### 7-ci sual: Təkkə nə deməkdir?

Mənşəyi "təkyə" sözündən olan və fars dilində dayanmaq, dayanılan yer anlamlarını ifadə edən bu söz təkyəgah kimi də istifadə edilir. Daha çox dərviş adlandırılan təsəvvüf əhlinin (nümayəndələrinin) toplandıqları, zikr etdikləri, özlərinə aid adətləri yerinə yetirdikləri məkan, toplantı bu cür adlanır. Türk dilində isə "tekke" (təkkə) kimi ifadə edilir. Hətta el arasında "dərviş dərvişi təkkədə, hacı hacını Məkkədə bular (tapar)" deyə bir atalar sözü də vardır. Təkkəyə yenə də farsca huzur (əmin-amanlıq), böyüklərə aid, qapı kandarı anlamını verən "dərgah" da deyilir. Təriqətin, yəni təsəvvüf yollarından birinin mənsublarına məxsus olan və o təriqətin başçılarından birinin şeyx olduğu, yaxud ən böyüyünün dəfn edildiyi təkkəyə "hankaah" (xənəkə) deyilir ki, bu söz də farscadır.[19] Bundan başqa yolüstü dərvişlərin bir-neçə günlük qonaq edildikləri kiçik təkkələr olmuşdur ki, bunlara "zaviyə" deyilmişdir. Bu söz isə ərəbcə olub, künc, bucaq mənasındadır.

### 8-ci sual: Dərviş kimə deyilir?

"Dərviş" sözü farsca olub "yoxsul" mənasını verir. Təsəvvüf əhli tərki-dünyalığı özlərinə şüar etdiklərinə görə bu adla adlandırılırlar; hətta bu fars dilində olan sözdən yenə də farsca "dərvi-

---

[19]Farsca olduğu iddia edilən bu söz "xanegah" formasının, yəni "ev olan yer", "məskən" sözlərinin transformasiyası, şəkildəyişməsi ola bilər.

şan", yəni "dərvişlər" kimi çoxluq forması əmələ gəldiyitək, ərəb dilinin qanunları ilə "dəravişə, Dəraviş" kimi cəm formaları düzəldilir. [Əksər hallarda] "dərviş" sözünün yerinə öz iradəsini və ixtiyarını şeyxə, başçıya vermiş insan mənasında "mürid" sözü də istifadə edilir. Dərvişlərin mənəvi yolçuluqlarına başçılıq edən, tərbiyyələrinə, təkkənin nizam-intizam qaydalarına nəzarət edən və bu mərtəbəyə çatmış şəxsə də ulu, böyük, arzu edilən, istənilən (sevilən, lider, öndər) anlamlarını verən "şeyx" və "murad" deyilir ki, bu sözlərin ikisi də ərəbcədir. Təriqət qurucusuna isə farsca ixtiyar (ağsaqqal), qoca və böyük mənasında "pir" deyirlər. Əgər eyni bir təriqətdə müəyyən təfərrüatlara görə fərqli bir şöbə qurucusu olarsa, beləsinə ikinci pir mənasında "pir-i sani" deyilir.

## 9-cu sual: Təriqət nə deməkdir?

Təriqət sözü ərəbcədə "tarıyqun" sözündən olan "yol" deməkdir. Yuxarıda qeyd etdiyimiz kimi, sufilərə görə dinin bir xarici, bir də daxili üzü vardır. [Dinin] Xarici (görünən) tərəfi lüğət baxımından su çıxanın su içiləcəyi yeri mənasını verən "şəriət"dir. Bir termin olaraq din və şəriət səmavi əmrlərin bütöv toplusudur ki, bunlar da öz növbəsində inanclar, ibadətlər və dünyaya aid işlər olaraq üç hissəyə bölünürlər. Bunlardan hərhansı birini inkar etmək küfürdür. Dinin daxili üzü isə, bildiyini, gördüyünü və olduğunu gerçəkləşdirməkdir ki, buna "həqiqət" deyilir. Şəriətdən həqiqətə isə mənəvi yolla getmək olur. Bu cür getməyə "suluk", yəni mənəvi yol, mənəvi yolçuya isə "salik" deyirlər. Əslində təriqətlərin sayı çoxdur.

Hər bir təriqətdə isə, müridə ona mənəvi yolçuluğunda rəhbərlik edən şeyxə, doğru yola aparana, irşad edən mənasında "mürşid" deyilir. Mürşidə beyət edib (and içərək təslim olmaq – R.M.) təriqətə daxil olmuş insan da salik sayılır. [Başqa sözlə deyilərsə,] Şeyx sulukunu bitirmiş insandır ki, o "xəlifə" adlanan birisindən bu mərtəbəyə çatdığına dair icazə almışdır, yəni

diplomludur. Buna görə də hər bir təriqətdə aşağıdan yuxarıya doğru bu dərəcələr vardır:

a) Mürid, salik;
b) Şeyx;
c) Xəlifə;
d) Pir.

Bəzi təriqətlərdə müridlə şeyx arasında "nayib" deyilən və adətən şeyxin vəkili olan bir insan da olur ki, onun vəzifəsi zikr mərasimini idarə etmək, müridlərə rəhbərlik etməkdir. Fütüvvətə aid bunu daha sonra izah edəcəyik...

Həqiqətə çatmışların tam bir azadlığa qovuşacağını və artıq bundan sonra heç bir qulluq etməyə ehtiyacın qalmadığını sanmaq yanlışdır...[Çünki,] Həqiqətə çatmışlar bilmək və görmək dərəcələrini aşsalar da [necə] olmaq (oluş) dərəcəsinə gəlib çıxmışlar ki, bunun qulluğu da olmaq dərəcəsinə çatmışların qulluğudur. [Əgər bu cür şəxslərin] Əməlində heç bir fərq yoxdursa, anlamasında, duymasında, özünü qulluğa həsr etdikdə özünü necə hiss etməsində müəyyən fərqlər vardır. [Başqa sözlə deyilərsə,] Həqiqətə çatmış [şəxs, salik] şəriətlə həqiqəti birləşdirməzsə, [onda beləsi] tam kamilliyə nail olmuş sayılmaz. Bu birləşdirməyə (vəhdətə) [isə] "mərifət" deyilir ki, o ən uca dayanacaqdır. Həqiqətdə qalan özündə deyildir, [beləsi] Tanrının varlığında yox olmuşdur. [Əgər o] Orada qalarsa [bu durumdan alacağı] zövq yalnız özünə aiddir. Oradan dönüb təkrar şəriət mərhələsinə gələrsə, kamilliyə yetişib əldə etdiyi zövqü başqalarına da dadızdırar.

# III BÖLMƏ

## İLK SUFİLƏR-TƏSƏVVÜF HAQQINDA FİKİRLƏR – QABA ZAHİDLİK

### 10-cu sual: Əbu Haşimi əl-Kufi haqqında nə bilirsiniz?

Küfə şəhərindən olmuş bu şəxs Süfyani Səvrinin müasiri olub Şamda məskunlaşmışdır. Süfyan isə öz növbəsində, "[əgər] Əbu Haşim olmasaydı mən ibadətdəki[20] incəlikləri bilməzdim; onu görməyənə qədər [mən] sufinin nə demək olduğunu bilmirdim; [baxmayaraq ki,] ondan öncə də zahidlikdə, Tanrıya bağlılıqda böyük şəxsiyyətlər olub sevgi yolunda gözəl əməllər həyata keçirsələr də, fəqət sufi ancaq Əbu Haşimdir; ondan başqasına bu ad verilməmişdir" söyləmişdir. [Burada Əbu Haşim əl-Kufinin] Şama getməzdən öncə Bağdadda da yaşadığı məlum olur (Nefehat tərc. s.86-87).

Əhli-beyt imamlarından olan və on iki imamları tanıyanlar (isna-əşərilər – cəfərilər) on birinci imam qəbul edilən Həsən ül-Əskəriyyədən (260 H.874) Əbu Haşim-i Kufinin necə adam olduğunu soruşanda [o] beşinci nəsildən babası İmam Cəfərus-Sadiqin (148 H.765) [onun barəsində] "həqiqətən də inancı pozulmuş [bir şəxsdir], təsəvvüf deyilən pis inancları toplamış bir yol icat etmiş, bu məzhəbə bir-çox pis inanclı insanlar qoşulmuş və batil inanclarına bu yolu bir qalxan (qoruyucu) etdilər" söylədiyini rəvayət etmişdir (Hac Şeyh Abbas-ı Kummi: Sefinetül-Bıhar ve Medinetül-Hikemi vel-asasr: Necef – 1355, daşbasması, II, s.57). İmam Cəfərüs-Sadiqin Süfyan-i Səvri və digər sufilərlə təsəvvüf hakkında və bu məsləyin əleyhinə [ifadə etdiyi başqa] sözləri də vardır (yenə orada, s.56).

[20]Mətndə "riyadaki" şəklində getmişdir. Fikrimizcə, bu ərəbcə "riyada" (hərfən: çalışmaq, səy göstərmək, burada isə, ibadət) anlamında işlədilmiş və sufi praktikasını ifadə edir.

Əhli Sünnə bilicilərinin əksəriyyəti də onları (sufiləri – R.M.) rəqs etdikləri, çalğı çaldıqları, zahidlikdə həddi aşaraq kimsə xəstələndikdə onu müalicə etmədikləri, təkbaşına ibadətə üstünlük verib camaat (toplu), cümə namazlarını qılmadıqlarını, evlənmədiklərini, təkbaşına çöllüklərdə mənasız gəzib-dolaşdıqları, mənalandırmada/təvil və yorumlamada həddi aşdıqları, ağla və şəriətə uyğun olmayan sözlər söylədiklərini bildirərək əleyhlərinə çıxış etmişlər.(Məsələn 597-də, m.1200-cü ildə vəfat etmiş Cəmaləddin Əbil-Fərəc Əbdürrəhman ibnil-Cəvzinin "Təlbisu İblis"inin X babına (fəslinə) bax. Misir, 1928, s.160-377).

**11-ci sual: Qaba zahidlik və [ümumiyyətlə] zahidlik nədir? belə bir şey İslamda vardırmı?**

Zahidlik dini əmirlərə tamamilə əməl edib, bundan başqa şübhəli olanlardan çəkinmək, rüxsət (asan olanla kifayətlənmə) yolunu deyil, əzimət (çətin və ağır olanların) yolunu, yəni haram və suç olduğu bilinməyən, amma şübhə edilən işləri etməkdən qaçmaq, fərzlərdən (vacib olanlardan – R.M.) başqa sünnələrə, nafilələrə (vacib xaricindəkiləri) davam etdirmək, az yemək, az yatmaq, hər bir halda Tanrının buyurduqlarını qorumağa çalışmaqdır. [Bəli, bütün bunlar] İslamda vardır, amma həddi aşmaq şəklində deyildir. Məsələn, [Qurani Kərimdə] "[Ey insanlar!] Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki (məhsul) əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. [Dünya malına aldananları] axirətdə şiddətli əzab, [dünya malına uymayanları isə] Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan, yalandan başqa bir şey deyildir" kimi dünyanı, dünya həyatını olduğu kimi təsvir edən ayələr vardır (LVII, 20); Fəqət bunlar dünyaya, var-dövlətə qapılmağı, həyatı yalnız fərdi bir baxışla başa düşməyi qınayan ayələrdir. Elə hə-

min sürədə “Onlar (xristianlar – R.M.) özlərindən rahiblik (tərkidünyalıq) icad etdilər. Biz rahibliyi onlara vacib buyurmamışdıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər, lakin ona layiqincə əməl (riayət) etmədilər (İncili təhrif edib İsanı Allah bildilər, Məhəmməd əleyhissəlamın peyğəmbərliyini dandılar). Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə [Allaha asi olan] fasiqlərdir” ayəsində (27), rahibliyin, evlənməməyin, dünyadan çəkinib, xalqdan ayrılıb özünü ibadətə həsr etməyin Allah tərəfindən fərz edilmədiyi bildirilməklə yanaşı bunun insanın yaradılışı baxımından da mümkün olmadığı vurğulanmışdır. [Üstəlik, Qurani-Kərimdə] Qul azad etmək, yoxsulları doyurdmaq, yetimə qayğı göstərmək, insanlara faydalı olmaq haqqında çoxlu sayda ayələr vardır. Bir-çox ayələrdə namazla bərabər xatırlanan zəkat haqqında, çalışmağı əmr edən buyuruqları qeyd etməyə, bildirmək istəsək növbəti bir kitab yazmalı olacağıq. [Bir sözlə qeyd edək ki,] Bütün bunlar ancaq çalışmaqla əldə edilən, çalışmaqla edilən xeyirli işlər və ibadətlərdir. “İnsana ancaq öz əməli, öz zəhməti qalar!...Şübhəsiz ki [qiyamət günü] onun əməli, zəhməti görünəcəkdir!” kimi ayəsi (LIII, 39-40) [insanlara] dünya və axirət üçün çalışmayı əmr edən ayələrdəndir. “Yaxşı əməl heç də [ibadət vaxtı] üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərə inanan, Allaha məhəbbət yolunda [və ya mal-dövləti çox sevməsi baxmayaraq] malını [kasıb] qohum-əqrabaya, yetimlərə, yoxsullara, [pulu qurtarıb yolda qalan] müsafirlərə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı [məşəqqətlərə] səbr edənlərdir. [İmanlarında, sözlərində və əməllərində] doğru olanlar onlardır. Müttəqi olanlar da onlardır!”(II,177). “Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma...Allah sənə [sər-

vət verməklə] yaxşılıq etdiyi kimi, sən də [varından yoxsullara, qohum-əqrəbaya xərcləməklə] yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!" ayəsi (XXVIII, 77) dünya ilə axirət nisbətini olduqca gözəl anlatmaqdadır.

Hz. Məhəmməd həqiqətən də olduqca zahidcəsinə yaşamaqdaydı; amma [o] dünya işlərindən də heç birini ehmal etmirdi (aradan qaldırmırdı/geri durmurdu/vaz keçmirdi). [Peyğəmbər Allaha] inanmayanları dinə dəvət edir, inananlara din hökmlərini bildirir, qarşı çıxanlarla savaşır, [cəmiyyətin xeyirinə] zəkat toplayır, yoxsulların qayğısına qalır, sosial bir qurumun təməllərini qurmağa çalışırdı. [Beləliklə də] İslamdakı zahidlik azadlığı əsas bilən, [düşmənə/nəfsə qarşı] savaşı əmr edən, yardımlaşmanı, birləşməyi, sevgini öyən müsəlmanlığa heç bir formada yad [olan] və dindən ifrat deyildir...

Peyğəmbərin zahidliyini duymuş və görmüş səhabələrdən bir qismi gecələri sabahadək namaz qılmağa, bir qismi həmişə oruc tutmağa, bir qismi isə qadınlara yaxınlaşmamağa, evlənməməyi qərar verəndə Peyğəmbər onlara: "Mən Tanrıdan ən çox qorxanınız olduğum halda oruc tuturam, həm də yemək yeyirəm; namaz qılıram, fəqət yatıb istirahət də edirəm; qadınlarla da evlənirəm. [Mənim] Etdiyimi etməyən məndən deyildir" (yenə orada, II, s.133)...

Quranın və onu bildirmiş, çatdırmış İslam Peyğəmbərinin mötədil (orta) və müvazinətli baxışlarını heç bir zaman əsl azadlığı tam yoxluqda tapan Buddizmlə, yaxud da var-dövləti tamamilə tərk etməyi söyləyib buna nümunə vermiş (Matyus, VI, 24-28), Qeysərə aid olanın Qeysərə verilməsinin gərəkliyini əmr edən İncillə (yenə də orada, XXII, 15-22) müqayisə edə bilmərik. Amma buna baxmayaraq müsəlmanlar ölkə sərhədlərini genişlətdikcə bir tərəfdən Roma-Bizans, başqa bir tərəfdən də Hind-İran mədəniyyəti ilə və bu mədəniyyətləri ortalığa çıxartmış dinlərlə təmasa girmiş [və] bunların təsiri altına düşmüş[dür]. [Həmçinin] ifrat zənginlik, yüksək rifaha sahib bir

zümrənin ortalığa çıxması, hələ əməvilərin ilk dövründə Hz. Ömərin dediyi kimi Ərəb Qeysəri olmuş Müaviyyənin dəbdəbəli saray quruluşu və buna münasibətdə ortalığa çıxan daxili və dərin nifrət hissi (mənbələri ilə daha artıq bilik əldə etmək üçün Avlunyalı Süreyyanın "Fetretül-İslam" adlı əsərinə baxın; üst. 1325, s.319-327), eyni zamanda da daxili qarışıqlıqların ortalığa çıxartdığı mənzərə İslamda ifrat və qaba zahidliyə gətirib çıxartmışdı.

Bu [cür] qaba zahidlər böyük səylərlə Tanrıya doğru can atır, tək halda, heç bir azuqə götürmədən çöllərə düşür, evlənmir, müalicə olunmur, yatmamağa, günboyu ibadət etməyə, Tanrıya zikr etməyə çalışdıqlarından ruhi xəstəliklərə tutulur, biliyə düşmən kəsilərək hamıya eyni baxılması buyurulduğu təqdirdə özlərindən olmayanları [özlərindən] aşağı görürdülər. Buna görə də hansı məzhəbə aid olmasına baxmayaraq şəriətçilər (ortodoksiya – R.M.) haqlı olub onlara yaxşı baxmır, çəkinmədən onları qınayır, tutduqları yolun batil olduğunu söyləyirdilər...

# IV BÖLMƏ

## TƏSƏVVÜFÜN QURUCULARI – İSLAMA YAD TƏSİRLƏR – TAC, XİRQƏ VƏ ZİKR

### 12-ci sual: Bu məsləyin ilk qurucuları kimlərdir?

Sufilər Hz.Məhəmməddən başlayaraq dinin bütün görkəmli şəxsiyyətlərinin, o cümlədn də Əhlibeyt imamlarının bu məsləkdən olduğunu qeyd edirlər (məsələn, Kitabüt-Taarruf, Hancı K., Mısır – 1352-1933, s.10-11). Halbuki, [biz artıq] xüsusilə də Əhlibeytin təsəvvüf və sufilər haqqında baxışlarını qeyd etmişik.

İlk dəfə sufi adını almış Əbu Haşimi Kufi olduğundan ilk təsəvvüf qurucuları da hicri II əsrin sonlarında və III əsrin əvvəllərində yaşamış şəxslərdir ([m.] VIII-IX). Bunlardan [biz] İbrahim ibni Ədhəmi (161 h.777), Davudi Taini (165 h.781), Şəqiqi Bəlhini (174 h.790), Fudeyl b. İyyadı (181 h.797), Marufi Kərhini (200 h.815), Bişr Xəfiyi (227 h.841), Əhməd b. Hidrəveyhini (240 h.854), Haris b. Əsədül Muhasibini (243 h.857), Əbu- Turabi Nəhşəbini (245 h.859), Zün-Nunnu (245 h.859), Yəhya b. Muazı (258 h.871) və nəhayət Əbu Yəzid Bistamini (261 h. 874) göstərə bilərik.

İnkişaf edib formalaşmağa başlamış təsəvvüf eyni zamanda qərarlaşmaya, məskənlər qurmaya başlamış, qurucuları içərisində daha bilikli olanları ibadət etməyi (riyaziyyatı) ikinci plana ataraq eşq və irfan yolunu tutmuş, bunlara mənsub olanlar güc sahiblərinə çevrilmiş, ənənə və adətlər müəyyənləşmiş, xüsusi örtüklər (kisvələr), geyim tərzləri [ortalığa çıxmış], əsasən bərabər olsalar da bəzi özəlliklərinə görə üzvlər arasında mərtəbə və dərəcələrdən ibarət zümrələr peyda olmuşdu. Haris b. Əsədül-Muhasibi tərəfdarlarına “Muhasibiyyə”, Əbu Yəzid tərəfdarlarına “Tayfuriyyə”, Səhl b. Abdullah (283 H.896) tərəfdarlarına “Səhliyyə”, Hamdun-i Qəssar (271 H.884) tərəfdarlarına “Qəs-

sariyyə" kimi adlar verilməyə və ilk [sufi] təriqətləri meydana çıxmağa başladı. Hakim dairələr də xalqın belələrinə yönəldiyini, [onlara] önəm verdikləri, hörmət etdikləri üçün hakimiyyətlərini möhkəmlətmək üçün onlara (sufilərə - R.M.) təkkələr qurmağa, təkkələrə vəqflər etməyə, [və] bu yolla da üzvlərini özlərinə tərəfdar etməyə çalışmışlar.

**13-cü sual: Təsəvvüfün Hind-İran, Roma-Bizans təsirinə düşdüyünü qeyd etdiniz; ilk təsəvvüf cərəyanının qurucuları da bu təsirə məruz qalmışlarmı?**

Bəli. Sufilər xüsusilə də Xorasan, İraq, Suriya və Misirdə mərkəzləşmişdilər. Hətta bu ərazilərə görə onları xorasanilər, iraqilər deyə adlandırırdılar. [Bütövlükdə] Təsəvvüf öz-özünü formalaşdırıb bir məslək, mistik fəlsəfi sistem halına gətirdikdən sonra onu aşağıdakı üç aspektdən incələyə bilərik:

I Nəzəri təsəvvüf. [Sufilikdə] Bu həqiqətən də əxlaq və davranış hissəsidir: yəni, mənəviyyat bir təsəvvüf olub zahidlik əsasına istinad edir.

II Təəssuri-ruhi tasavvuf (təsəvvüfün ruhi təsir etməsi). Bu eşq və cazibə (çəkicilik) təməlinə dayanır; sufi təsəvvüfün bu cəbhəsində inancını [hiss və] həyəcanıyla yaşadır.

II Ayin və ərkan baxımından olanlar. Bu hissə bir [sufi] təriqətini o birilərindən fərqləndirməyin ən başlıca amilidir. [Belə ki,] hər bir [sufi] təriqət[in]də mürşid, mürid və başqa bu kimi dərəcələr buna görədir.

**14-cü sual: Təriqətlər geyim – keçim özəlliklərinə görə bir-birindən fərqlənirlər; bunu bir qədər açıqlaya bilərsinizmi?**

...[Sufi] təriqətlərində baş geyimi olan sərpuşa "tac" və "faxir", əynə geyilən və əksər hallarda yundan toxunan yaxasız, uzun və önü açıq, geniş geyimə isə "xirqə" deyirlər. [Bu zaman]

Taclar hər bir təriqətdə fərqli formadadır ki, bu da həmin təriqətin fərqləndirici əlamətidir. [Qeyd edək ki,] Hədislərdən Hz. Peyğəmbərin [başına] yun baş geyimi qoyduğu, [belinə] qurşaq sarıdığı məlumdur (Cami, I, s.37; II, 86, 100). Ancaq [sufilərin iddia etdikləri kimi peyğəmbərin] kiməsə dua və səna ilə, təkbir deyərək [başına] kulah (papaq- R.M.) geydiyi barədə heç bir məlumat yoxdur. Xəndək döyüşündə [Məhəmməd peyğəmbərin] Hz. Əliyə öz i(ə)maməsini, yəni sarıqlı sərpuşunu (baş geyimini – R.M.) geydirməsi [ona qarşı] bir iltifat olmuşdur. Sufilərsə Adəm peyğəmbərin cənnətdə [başına] tac qoyduğunu, yer üzünə endirildikdə də Cəbrayılın onun saçını qırxıb başına tac qoyduğunu (Mustakimzade Sadettin Süleyman; Tac-Name, bizdəki yazma, s.3), digər peyğəmbərlərə də göydən tac endiyini iddia etmişlər, tacların şəkillləri, bunların dəlalət etdiyi mənalar haqqında kitablar yazmışlar ki, bu kitablara "Tac-Namə" deyilir. Amma bütün bu rəvayətlər [sufilər tərəfindən] sonradan uydurulmuşdur.

Hz. Peyğəmbərin Əliyə xirqə geyindirdiyi, başqa bir xirqəsini isə Üveysül-Qaraniyə göndərdiyi hakkında hədislər də uydurmadır; [O cümlədən də] Həsən-i Bəsriyə və Kümeyl b. Ziyada Hz. Əlinin xirqə geyindirdiyi hakkında rəvayətlər də bu qəbildəndir (Aliyyül-Kaarı: Mavzuatu Kebir, İst. Mat. Amire -1289, s.62-63). [Belə ki,] Həsən-i Bəsri hicrətin 110-cü ilin Rəcəb ayında (728), səksən doqquz yaşında ölmüşdür. Hz. Əli Bəsrəyə getdiyi zaman Həsənin yalnız on beş yaşı ola bilərdi. Əlinin Bəsrə məscidində xalqa hekayələr söyləyən, uydurma dastanlar başa salan insanları vəəz etməkdən (çıxışdan) kənarlaşdırdığı halda ona (Həsən əl-Bəsriyə - R.M.) icazə verməsi haqqında rəvayətə inanmaq mümkün deyildir. Birdə ki, Həsən-i Bəsri Əliyə qarşı olaraq Cəməl və Siffin döyüşlərinə qatılmamış, Əlinin hərəkətini qınamış, [hətta buna] qoşulmaq istəyənlərə də mane olmağa çalışmışdır. [Rəvayətə görə,] bir gün Hz. Əli onu (Həsən əl-Bəsrini – R.M.) dəstnamaz aldıqda çoxlu su istifadə etdiyini görüb bundan çəkindirmək istədikdə [o] Əliyə, "sən də müsəlmanların qanlarını çox tökdün" demiş bir şəxsdir. Haqqında

müxtəlif rəvayətlər olan və sonda Əliyə dost olub əvvəlki halına döndüyü bildirilən bu şəxsin Əliyə nisbət edilməsi olduqca şübhədoğurucudur (Haç Şeyh Abdullah-ı Mamakaanı: Tankıyhul-makaal fı Ahvalir-Rical; I, Necef – 1349, s.269-270; Taraikul-Hakaaık, Hasan əl-Bəsrini iltizam etməklə yanaşı barəsindəki rəvayətləri qaynaqları ilə nəzərdən keçirmək baxımından önəmlidir; II, s.57-75).

[O cümlədən də,] Hz. Peyğəmbərin Hz. Əliyə gözlərini yumub başını sağa və sola çevirməklə "La ilahə illəllah" deyizdirib zikri təlqin etdiyi barədə rəvayətin də heç bir əsası yoxdur (Ahmet Rifat: Miratül-makaasıd fı defil-mefasir; İst. Vezirhanı, İbrahim Mat. Taşbasması-1293, s.45 və ardı). Bu baxımdan da sufilərin özlərini cəhri yaxud xəfi zikr əhli, yəni Tanrı adlarını yüksək səsələ, yaxud səssizcə xatırlayanlar olaraq iki yerə ayırmaları da, Hz. Peyğəmbərin yüksək səslə deyilən zikrin Əliyə, xəfi zikrini isə Əbu Bəkrə təlqin etdiyini söylədikləri də sonradan uydurulmuş rəvayətlərin təkrar edilməsindən başqa bir şey deyildir.

## 15-ci sual: [Məgər] Quranda və hədislərdə zikrə dair sözlər yoxdurmu?

Olmamış olarmı? Amma bu ərəbcə olan söz (zikr) anmaq, xatırlamaq, unudulduğu təqdirdə, yaxud da unutulduqdan sonra yenidən bu haqda fikirləşmək mənasındadır. Məsələn, [Qurani-Kərimin] II sürəsinin 148-150-ci ayələrində hər kəsin yönələcəyi bir yerin olduğu, müsəlmanların da harada olmalarından asılı olmayaraq namaz qılarkən Kəbəyə [tərəf, istiqamətdə] yönəlmələri, buna etiraz edənlərə uymayıb onlardan deyil, Allahdan qorxmaları, Allahın da [onların] sıralarından bir [şəxsi] peyğəmbər göndərdiyi, onun (Məhəmməd peyğəmbərin– R.M.) Allahın ayələrini oxumaqda müsəlmanlara kitabı və hikməti öyrətməkdə, onları bilgi sahibi etməkdə olduğu bildirildikdən sonra 152-ci ayədə: "Belə olduqda siz [itaətlə] Məni xatırlayın ki, Mən də

sizi yada salım! Mənə şükr edin, kafir olmayın (nemətlərimi danmayın!)" buyurulmuşdur. Buradan da aydın başa düşülür ki, sözügedən anmaq Kəbəyə yönələrək namaz qılmaqdır. Təfsirçilər [bu ayəti-kəriməni] "Mənə itaət etmək, dua etmək, şükr etməklə Məni anın ki, Mən də sizi rəhmətimlə dua[ları]nızı qəbul edərək nemətimi çoxaldaraq sizi anım" tərzində mənalandırmışlar (Məsələn, Şeyh Ebül-Fadl b. Hasanıt-Tabrasının Mecma ul-Beyanına b. I, Tehran-Ofset basım, 1379 Hicrı, 1339 Şemsı Hicrı, s.234). [Qurani- Kərimin] III surəsinin 190-cı ayəsində Allahı ayaq üstə [durarkən], oturaraq, yatarkən anmaq da, ayaq üstə [durub] namaz qılan insanın duraraq, dura bilməyənin oturaraq, buna da gücü çatmayanın yatarkən, amma mütləq [bir şəkildə] namazını qılmasına dair [Allahın] əmridir (yenə də orada, II, s.556); necə ki, [Qurani-Kərimin] II surəsinin 198 və 200-cü ayələrindəki zikr də həcc mərasimindəki şükür, təkbir və duadır. IV surənin 103-cü ayəsindəki zikir də namazdır.V surənin 110-cu ayəsində, XIX surənin 16, 41, 51, 54 və 56 ayələrində, XXI surənin 36-cı, XXVI surəsinin 227-ci ayəsindəki [zikr] anmaq, xatırlamaq (yada salmaq) anlamındadırlar. VII surənin 205-ci ayəsində [zikr] dua, XXII surəsinin 28 və 34-cü ayələrində heyvan kəsərkən bismilla (Allahın adını) söyləmək, 35-ci ayəsində Allahın adını anmaq (xatırlatmaq), XVII surənin 46-cı ayəsində Hz. Peyğəmbərin Allahın bir (yeganə ) olduğunu söyləməsi, XVIII surəsinin 24 və 67-ci ayələrindəki xatırlamaq, XXXIII surəsinin 41-ci ayəsindəki [zikr] unutmamaq, anmaq və namazdan sonra təsbeh çevirmək [anlamında], LXXII surəsinin 8-ci ayəsiylə LXXVI surəsinin 24 və 25-ci ayələrində namaz, LXXXVII surəsinin 15-ci ayəsində namaza təkbirlə ("Allahu Əkbər" deməklə- R.M.) durmaq və namaz [qılmaq] anlamlarını daşımaqdadır. [O cümlədən də] XIII surənin 28-ci ayəsindəki zikr Tanrının [bəxş etdiyi] nemətlərini anmaq (xatırlamaq) və Ona (Allaha – R.M.) inanmaqdır. XXIX surənin 45-ci ayəsində də namazın Allahı anmaq (xatırlamaq, yada salmaq) olduğu və bunun olduqca böyük (əhəmiyyətli) bir davranış olduğu bildirilir. [Həmçinin]

Qurani-Kərimin bir-çox sürələrində namaz "zikr" kimi işlədilmişdir. [Halbuki İslamda] Qurandan irəli gələrək dairə şəklində oturub, yaxud da ayaq üstündə atılıb-düşərək Tanrının adlarından birini bəlli və bəlli olmayan sayda təkrarlamaq kimi zikir yoxdur (Rağıb-ı İsfahanının Tehranda Murtazavviyye K. tərəfindən basdırılmış "El-Müfredat fi Garibil-Kuran"ına da b. s. 179-180).

Hz. Peyğəmbərin cənnət baxçaları adlandırdığı zikr dairələrindən məqsədi Tanrının, Tanrı qüdrətinin anıldığı toplantılardır (Cami, I, s.29). Necəki [Məhəmməd peyğəmbər] elm məclislərinə, məscidlərə də cənnət baxçaları demiş (eyni səhifədə), oralar (bu qəbildən olan yerlərə) məcazi mənada otluq (yaşıllıq- R.M.), suluq (sərinlik- R.M.), bolluq (bərəkət – R.M.) yerləri demiş, bu cür yerlərdə oturmağı əmr etmiş, [buralarda] "necə əyləşək?" – deyə soruşulduqda isə, [peyğəmbər] "Subhanallah val hamdulillah va lə ilahə illəllahu vallahu əkbər" deməyi, [eyni zamanda da insanın öz] təbii mənasını da düşünərək Tanrının nöqsan sifətlərdən uzaq olduğunu [xatırlaması], ona (Allaha – R.M.) həmd (şükr) etmənin, birliyini, ucalığını təsdiqləmənin [də] oralarda əyləşmək olduğunu bildirmişdir (eyni səhifə).

[Məhəmməd peyğəmbərdən nəql edilmiş] hədislərdə Allahı anmaq üçün toplanan bir topluluğun günahlarının bağışlanacağı, bir topluluğun Allahı anmadan və Peyğəmbərə salavat (salam) vermədən dağılmalarının xeyirli olmayacağı [haqda məlumat] vardırsa da bu toplulukda Allahın anılmasına edilmiş bir əmr olub, [heç də] sufilərin zikirləri deyil (Cami, II, s.119). [Öz növbəsində] Süyuti zikr və dua haqqında uydurma hədislərin bir qismini "El-Lealil-Masnua fil Ahaddisil-Mavzua" sında toplamışdır (Mısır, Edebiyye Mat. 1317, II, s.182-191). "Allahı an; O anmaq, dilədiklərini əldə etməyinə yardımçıdır", "Allahı elə anın ki, münafiqlər (ikiüzlülər– R.M.) yalandan etdiyinizi söyləsinlər", "Allahı gizli [şəkildə] anın" (Cami, I, s.30), "Allahı hər daşın, hər ağacın yanında anın" kimi hədislərin (Künuz, I, s.31, Cami, II, s.15) mənalarından da başa düşülməli olanı [sufilərin etdikləri kimi] bir yerə toplanıb oxunan ilahiyə (dini müsiqiyə - R.M.) dalıb

temp tutaraq xüsusi bir tərzdə, bir səslə və getdikcə də söylənilənlərin anlaşılmayacağı, [belə bir mənzərəni] görənləri çaşdıracaq qədər sürətlənərək edilən zikrlə heç bir əlaqəsi yoxdur.

## 16-cı sual: Sufilərdə zikr necə edilir; [və bu zikr] hansı adla anılır?

Sufilər təsəvvüfün formalaşdığı vaxtlarda "La ilahə illallah (Allahdan başqa ilah yoxdur), Allah, Hu" adlarının zikredildiyini, bu adların 700-cü hicri ilində (1301) vəfat etmiş və xəlvətiyyə təriqətinin qurucusu sayılan Öməri Xəlvəti tərəfindən dövriyyəyə salındığı bildirilir (Mevlevi Adab ve Erkanı; İst. İnkılap K. 1963, s.121). Amma bundan çox öncə qurulmuş Qadiri və Rifai təriqətlərində də başqa təriqətlərdə də yeddi ad zikr edilir ki, bu baxımdan bu təriqətlərə də yeddi adın sonradan xəlvətilərin təsiriylə gəldiyini, yaxud xəlvətilikdən sonra yeddi adla zikrin qəbul edildiyini [tam dəqiqliklə] söyləyə bilmərik. [Həmçinin] bu yeddi ad "La ilahə illəllah, Allah, Hu, Haqq, Hayy, Qayyum, Qahhar"-dır ki, [bunların] mənaları "Allahdan başqa ilahın olmadığı, [Onun] bütün kamil sifətlərə sahib, nöqsan sifətlərindən isə pak olduğu, oluşu dərk edilməz, heyrətə, acizliyə gətirib çıxaran Məbudtək, Həqiqətən olduğu, daim Diri, hər an tədbir və təsərrüf (imkan – R.M.) sahibi, hər şeydən üstün [olduğu demək]"dir.

[Təsəvvüfdə] salik, yəni bir mürşidə tabe olub, həqiqi yolçuluğa çıxmış [bir] insan, [hər şeydən] öncə mürşidindən ilk zikri, [yəni] müəyyən bir sayda qəbul edərək səhər namazından sonra, yaxud [da] gecə [vaxtı] həmin adı kimsənin görməyəcəyi, onu narahat etməyəcəyi bir yerdə təmiz paltar [geyinib] üzü qibləyə oturub muraqəbə ilə, yəni gözünü yumub şeyxinin simasını xatirinə gətirərək dünya işlərini könlündən çıxartmaya çalışıb zikretməyə başlayır. Zikr əsnasında, yaxud da röyada gördüklərini şeyxinə bildirir. Şeyx [isə] ona lazım olan öyüd [və tövsiyyə]lərini verib zikrini[n sayını] artırır; [ki, beləcə] zikr[lərin sayı] yüzlərdən minlərə yüksələr [və] hətta [bunu da ötüb] keçər.

[Əgər salikin, müridin] gördüyü xəyallar, röyalar şeyxinə görə onun dərəcəsinin artdığına dəlalət edərsə, şeyxi onu ikinci ada keçirib bu ardıcıllıqla yeddinci ada [aparıb] çıxarır. Bu yeddi ad [isə] onlara müvafiq yeddi məqama işarədir ki, onlar da aşağıdakılardır:

I Nəfs-i Əmmarə - olduqca çox pisliyə aparan (təhrik edən) nəfs;

II Nəfs-i Ləvvamə - pislik edən kimi sahibini olduqca çox qınayan nəfs;

III Nəfs-i Mülhimə - sahibini yaxşılığa ilhamlandıran nəfs;

IV Nəfs-i Mütməinnə - imanda, xeyir işlər görməkdə heç bir şübhəsi qalmamış nəfs;

V Nəfs-i Radıyyə - Tanrıdan gələn hər nəyə razı olan nəfs;

VI Nəfs-i Mardiyyə - Tanrının razılığını qazanmış nəfs;

VII Nəfs-i Safiyyə yaxud da Zəkiyyə - hər cür pislikdən arınmış, təmizlənmiş nəfs.

Bu yeddi nəfsdə ardıcıl olaraq yuxarıda qeyd etdiyimiz [Allahın] yeddi ad[ı] zikr edilir.

## 17-ci sual: Bu terminlər haradan və necə götürülmüşdür; Quranda bu cür yeddi nəfs [anlayışı] vardırmı?

Nəfs-i Əmmarə [ifadəsi] Qurani Kərimdə XII sürə olan Yusif sürəsinin 53-cü ayəsində vardır. [Belə ki,] Züleyxanın özünü Yusif peyğəmbərə təslim etmək istədiyi təsvir edilərkən Yusif [peyğəmbər bu zaman] “Mən özümü (nəfsimi – R.M.) təmizliyə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs [insana] pis işlər görməyi (şəhvətə uymağı) əmr edər. Həqiqətən Rəbbim bağışlayan və rəhm edəndir!” deyir. [Qurani-Kərimin] LXXV sürəsi isə “And içirəm qiyamət gününə; And içirəm [günah etdiyi üçün, yaxud yaxşı əməlim azdır deyə] özünü qınayan nəfsə!...” ayələri ilə başlayar(1-2). [Beləliklə də] Nəfs-i ləvvamə [ifadəsi] bu sürənin 2-ci ayəsindən götürülmüşdür. [Qurani-Kə-

rimin] [X]CI[21] surəsində "And olsun nəfsi (insanı və ya insan nəfsini) yaradana; Sonra da ona günahlarını və pis əməllərindən çəkinməsini (xeyir və şəri) öyrədənə ki," buyurulmuşdur (7-8).[22] [Beləliklə də] Nəfs-i Mülhimə [ifadəsi] bu surənin 8-ci ayəsindən götürülüb uydurulmuş bir addır. [Qurani-Kərimin] LXXXIX ("əl-Fəcr" – "Dan yeri") surəsinin son ayələri olan 27-30-cu ayələrində [deyilir ki]: "[Qiyamət günü Allah təala mömin kimsəyə belə buyuracaqdır]: "Ey [öz imanından, əməlindən və Allahın və dindən] xatircəm olan kəs! [Və ya ey arxayın nəfs!] Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! [Əməlisaleh] bəndələrimin zümrəsinə daxil ol! [Onlarla birlikdə] Cənnətimə varid ol!".[23] Bu ayələrdən isə [sufilər] Mütməinnə, Radiyyə və Mar-

---

[21]Burada hansısa səbəbdən CI, yəni, 101-ci surə verilmişdi. Halbuki, tərcüməyə istinad edib bunun 91-ci surə, yəni XCI olduğunu, başqa sözlə desək, yəni söhbətin "əş-Şəms" (Günəş) surəsinin 7-8-ci ayələrindən getdiyini müəyyən etdik.

[22] Mərhum Əmirşah Əmirəhmədov 2013-cü ildə nəşr edilmiş "Qurani-Kərimdən surələr" poetik-filoloji tərcümə və təfsirdə bu ayələri aşağıdakı şəkildə çevirmişdir: "7. "And olsun ruha, onu düzəldib yaradana!". Ehtimal olunur ki, burada başqa canlıların ruhuna işarə olunur, əksəriyyət (ümumi rəy) də bunu təsdiq edir.

Başqa bir ehtimala görə, bu ayədə yalnız öz hərəkətlərinə görə cavab verməli olan insanın ruhuna (özünə (Ərəb dilində "nəfs" sözünün "ruh", "can", "qan", "tamah" mənaları var. Şəxs sonluqları olan bitişən əvəzliklərlə birlikdə, yaxud ismi birləşmələrin tərkibində "öz", "eyni" mənalarında da çox işlənir. Ərəb dilinin izahlı sözlüklərində insanın "üç nəfs" – ruhun, canın və qanın birləşməsi kimi təsvir olunmasının da şahidi olmaq olar) ) and içilir. Sonrakı ayənin məzmunu bunu göstərir.

Hər halda ruh Allahın and içməyə layiq olan möcüzələrindən biridir. Çünki ona olduqca zərif, yüngül olmaq, sürətlə bir yerdən başqasına keçə bilmək, hərəkət etmək və dəyişmək kimi xüsusiyyətlər, təsirlənmək, iradə, istək, məhəbbət və nifrət kimi psixoloji təəssürat və həyəcanlar (reaksiyalar) xasdır.

Ruh o şeydir ki, o olmasaydı, bədən yalnız faydasız bir heykəl olardı. Elə ruhun necə var eləcə də (olduğu kimi) düzəldilməsinin (yaradılmasının) özü də Allahın böyük möcüzələrindən biridir" (s.162-163).

[23] Bu ayələr Ə.Əmirəhmədov tərəfindən aşağıdakı şəkildə tərcümə və təfsir edilmişdir:

dıyyə adları[nı] (ifadələrini) uydurmuşlar. XCI sürənin 9-cu ayəsində bildirilir ki, "Nəfsini [günahlardan] təmizləyən mütləq nicat tapacaqdır!"; eyni zamanda da XVIII sürənin 74-cü ayəsində öldürülməsindən bəhs edilən uşaq haqqında [onun] "tərtəmiz" (pak, məsum) olduğu bildirilir.[24] [Sufilikdə] Nəfs-i Zəkiyyə də bu ayələrdən götürülmüşdür. [Bütövlükdə] Qurani-Kərimdə bu cür ardıcıllıqla yeddi nəfs [anlayışı] yoxdur. Hələ [üstəlik] bunlara uyğun və ya münasibətdə [Allahın] yeddi ad[ların]dan heç bəhs edilmir. Qurani-Kərimdə nəfs [anlayışı] insanın özü, bədənlə bərabər [başa düşülən] can, insan mənalarını verir.

[Türkiyə] türkcəsində nəfs "nəfsim çəkdi, nəfsimi öldürə bilmədim, nəfsimə uydum, nəfsin əlindən çəkdiyim nədir bu, nəfsini islah et (təmizlə)" kimi örnəklərdən də başa düşüldüyü kimi,

---

"Ey özündən arxayın olan kəs! (27)
Öz Tanrının yanına qayıt sən, razı qal, [həm] razı sal özündən (28)
Gəl ol bəndələrimdən, (29)
Cənnətimə buyur sən. (30)" s.151
"27. "Ey Allahın adını tutaraq, Ona olan sevgisinə güvənərək Allahdan şad olduğu üçün "özündən arxayın olan kəs!" səni neməti ilə bəsləmiş
28. "Öz Tanrının yanına qayıt sən, razı qal [həm] razı sal özündən"- yəni Allahdan və Onun verdiyi mükafatdan razı, Allahın da səndən razı olduğu halda.
29-30....- Bu, Qiyamət günü mömінin ruhuna olunan müraciətdir. Ona bu sözlərlə sorğu-sual meydanına gətirilərkən və ölərkən də (ölümqabağı da) müraciət olunur." (s.155)

[24]Burada söhbət Xızırla səfər etmiş Musa peyğəmbərin onun rastlaşdıqları oğlan uşağını öldürərkən söylədiyi: "[Heç bir günah iş tutmayan, buna görə də, qisasa layiq olmayan] pak, məsum bir canamı qəsd etdin? Doğrudan da, çox pis iş gördün!" –deməsindən gedir. Öz növbəsində Xızır digər anlaşılmayan əməllərinə aydınlıq gətirdiyi kimi, bu hadisəni də: "Oğlana gəldikdə, onun ata-anası mömin kimsələr idi [Mən (Xızır – R.M.) onun alnına baxıb gördüm ki, həddi-buluğa yetişəndə kafir olacaq] buna görə də biz [onun böyüyəndə] ata-anasını da [öz arxasınca] azğınlığa və küfrə sürüklənməsindən qorxduq. Və Rəbbinin onun əvəzində onlara daha təmiz və [ata-anasına qarşı] daha mərhəmətli olan başqa bir övlad verməsini istədik" (əl-Kəhf (Mağara), 80-81) şəklində izah edir.

insanın yaxşı və xüsusən də pis olanlara meyl və bulaşmaq anlamlarına gəlir. [Elə] Yunus İmrənin [də]:

*Çəkmiş qüdrət qılıncın kəsmiş nəfsin boynunu*
*Nəfsini təpələmiş əlləri qan içində*

(Yunus Emre, Risalat al-Nushiyya ve Divan; hazırlayan: A.Gölpınarlı; Eskişehir Turizm ve Tanıtma Derneğı yayını, İst. 1965; fotokopi, s.327-328, Metin, s.119, CXLVIII. şiir, beyit 5) beytində təsvir etdiyi nəfs də [elə] budur.

İslam filosoflarına görə nəfs yaşamaq, duymaq (hiss etmək), istəyərək hərəkət etmək qüvvəsinə sahib olan lətif, yəni gözəgörünməz, [əllə] tutulmayan nəsnədir (nə isədir). Heyvani nəfs yuxuda, bədənin zahirindən (xaricindən) ayrılır; [canlı] öldükdə bədəndən tamamilə [əlaqəsi] kəsilir. Törəmək, böyümək, böyümək əlamətləri nəfs-i nəbati[yə] (bitki nəfsinə), zərrə hissəcikləri (təfərrüatı, xırdalıqları) anlayışı (başa düşmək) və istəyilə hərəkət etməsi və hiss etmək əlamətləri nəfs-i heyvani[yə] (heyvani nəfsə), hər şeyi anlamaq və [onlar barəsində] düşünmək (fikir yürütmək) əlamətlərinə isə nəfs-i insani (insan nəfsi) deyirlər. Bir də gördüyü işlər baxımından bədənlə [birgə]olan, amma zatı (mahiyyəti) etibarilə maddi olanlardan ayrı olan nəfs-i natiq (nitqi nəfs) vardır ki, bu [da] yeddi nəfs olub nəfs-i natiqin dərəcələridir (Seyyid Şerif-i Cürcani: Tarifat; İst. 1300, s.164-165). Qədim [təsəvvürlərə] görə nitqi nəfsin mərkəzi "qəlb"dir. [Sufi baxışlarında] Əmmarə mərtəbəsində qəlbə "sadr- köks" deyilir. Ləvvamədə [isə] pisdən yaxşılığa çevrilmə mənasını verən "qəlb" sözüylə adlanır. [Nəfsi] Mülhimədə artıq Tanrı[nın] ilhamına (öyrətməsinə) əsas olduğu üçün "sirr" adını almış olur. [Nəfsi] Mütməinnidə gizli mənasını verən "xəfi", o biri mərtəbələrdə isə ən gizli mənasında "əxfa" adlanır ki, bu [da öz növbəsində] beş dərəcəyə [bölünür ki, onlara da] "beş lətif olan" mənasında "Lətaif-i Xəmsə" deyilir.

Sufilər nəfsin yeddi mərtəbəsinə yeddi mərtəbə, yeddi dərəcə mənasında "ətvar-ı səba" deyilir. [Təsəvvüf əhli arasında] Lətaif-i Xəms yerinə "sədr, qəlb, şeğaf – çox sevgi, fuad – könül,

hübbətül-qəlb- sevgiyə çatmış, suveyda – sirlərə çatmış, mühcətül-qəlb- könül qanı, könülün öz adlarıyla könlün yeddi halının olduğunu qeyd edənlər də vardır (Masum Alişah: Taraıkul-Hakaık, I, Tehran – 1339 Şemsi hicri; Muhammed Cafer Mahcub basımı, s.498-500).

## 18-ci sual: Salik adlandırdığımız təsəvvüf yolçularının hər biri eyni dərəcədə olmadığına görə toplu [halında] zikr edildikdə [Allahın] hansı adı anılır və [ümumiyyətlə] toplu hallarında zikr necə edilir?

Qeyd etdiyimiz kimi, zikr təsəvvüf yoluna girmiş insanın özünə aid [olan] öhdəliyidir. Toplu halında zikr isə, təkkədə müəyyən günlərdə [və yaxud] ehya gecələri adlanan mübarək gecələrdə (qəndillər, qədir və bayram gecələrində) həyata keçirilir. [Belə ki, sufi] şeyx[i] "müqabələ-xanə" yaxud da "tövhid-xanə" adlanan geniş və mehrablı bir otaqda mehrabın önündə oturur. Bu otağın hərəm dairəsindən nərdivanla çıxılan və tövhid-xanəyə baxan qəfəsli bir hissəsi də vardır ki, qadınlar müqabələyi (qarşılarında olanları – R.M.) oradan seyr edirlər. Müridlər şeyxin sağ və sol tərəfindən başlayaraq təriqətə daxil olduqları sıralarına görə diz çöküb oturaraq bir dövrə/halə təşkil edərlər. İlahi oxuyanlar məzhər (cıqqasız dəf) və xəlilə (çalpara) ifa edənlər bu dairənin ortasında səf qurub otururlar. İlahidəki tempi idarə edən və zikri davam etdirən insan "zakirbaşı" adlanır. Əvvəlcə, "La ilahə illəllah" [ifadəsi] zikredilir. Zikr [isə] tempinə görə getdikcə sürətlənir. Axırda şeyx gur bir səslə "illəllah" deyir və tövhid kəlməsinin zikr etməklə başa çatdırır; [daha sonra] "Allah" ["Allah" deyərək] zikrə başlayıb ayaq üstə qalxırlar. [Əgər] təkkədə mövləvi dərvişi qonaq olaraq gəlmişsə, [buradakı] zikrə qoşulmaz; yalnız "Allah" zikrində ayağa qalxaraq səmaya (fırlanmağa) başlayar. Mövləvilərin "sufi dərvişləri" adlandırdıqları təsəvvüf və əsma, yəni Tanrı adını zikr [etmək] əsasına dayanan təriqət əhli onların təkkələrinə gəlib səma etmələrindən olduqca

şad olurlar; çünki, səma zikr etməyə [olduqca] başqa bir nəşə və coşqunluq verir. “Allah” [“Allah” demək] zikri ayaq üstə bitər. Yalnız ilahi oxuyanlar, məzhər və xəlilə ifa edənlər ayaq üstə qalxmazlar. Axırda yenə [də] ayaq üstə, [amma bu dəfə] daha az davam edən “Hu” zikriylə müqabələ (toplantı – R.M.) başa çatar. Ərəb dilində müqabələ qarşılaşma mənasını verir. Üz-üzə zikr edildiyindən bu söz terminə çevrilmişdir. [Sufilərin Allahın] bu üç adlarından başqa adların[ı] da zikr etdikləri olur.

[Sözügedən] zikr əsnasında ağlayan, bağıran, üst-başını cıran, özündən gedən insanlar da olur ki, buna “vəcd” deyilir. Ərəbcə [bu sözün] lüğətdə mənası tapmaq olsa da [ona aşağıdakı] tərif verilir: “[Vəcd] qəlbə insanın öz istəyi ilə və həqiqi bir həyəcandır [ki, sanki] şimşək çaxmasına bənzəyir” (s.169).

Sufilər vəcddən öncə “təvacüd”, sonra isə “vücud” adını verdikləri iki halı da qəbul edirlər. [Bunlardan] təvacüd [insanın] istəyərək, bilərkdən vəcdə gəlmiş kimi görünmək, bağırıb-çığırmaq, ağlamağa çalışmaqdır. [Sufilərdən] bir qismi bunu qəbul etməsə də, başqa bir qismi “ağlamasanızsa da ağlayan kimi görünün” hədisinə istinad edərək buna yaxşı [bir iş, əməl kimi] baxmışlar (eyni [əsər], s.48). “Vücüd” isə qulun (insanın – R.M.) bəşəri sifətlərindən tamamilə arınıb Tanrının varlığına bürünməsidir. Əbül-Hüseyn Nuri (295 H.907) Cüneydin (297 H.909) “tövhid bilgisi o (vücud – R.M.) biliyin ortalığa çıxmasına maneədir; tövhidə çatmaq isə tövhid biliyinə yaddır. Tövhid başlanğıcdır, vücud isə son (axır). Təvacüd [isə] bu ikisinin arasında bir vasitədir” fikrinə uyğun olaraq “İyirmi ildir ki, mən vəcdlə yoxluq arasındayam; Rəbbimi tapan kimi könlümü itirdim” söyləmişdir (eyni, s.169).

Zikirdə[ki] “La ilahə illəllah”ın ilk “La ilahə”[sin]də baş sinədən sağa tərəf qaldırılır, “illəllah” deyəndə [isə] sol [tərəfə], ürək istiqamətində [aşağı] endirilir. Sonra yenə [də baş] qaldırılaraq ikinci “kəlimeyi-tövhid” də birincisi kimi deyilir. Başı göbəyə tərəf endirəndə “La”, yuxarı, sağ tərəfə qaldıranda “ilahə”, sola tərəf çevirəndə “illa”, ürəyə tərəf endirəndə [isə] “llah” de-

yilir [ki] beləcə zikredilməsi olduğu kimi, bu cür zikrə "dörd [dəfə] vurmaq" mənasında "çahar zərb" deyilir.

Zikirdə tövhid kəlməsini sözdən daha yüksək səslə demək, "La ilahə" deyərkən [isə] vücudu (gövdəni) və başı sağa tərəf qaldırmaq, "illallah" deyərkən [isə] sola tərəf və aşağıya [doğru] dərhal əymək adətən şaqqıltıya (vıyıltıya) bənzər bir səsi xatırladır ki, buna testere/mişar zikri mənasında "zikr-i ərrə" deyilir. 678-ci hicri [ilin]də (1276) Mərakeşin Tanta qəsəbəsində vəfat etmiş Seyyid Əhmədül-Bədəvinin qurduğu Bədəviyyə təriqətinin Beyyumiyyə qolunda tövhid kəlməsi, [insanın] içindən gələn qırıq səslərlə zikr edilir. [Belə ki,] bu zikrdə söz heç olmayan kimidir [ki,] bu [cür] zikrə də Beyyumi zikri deyilir.

[Ümumiyyətlə] zikr [etmək] sürətləndikcə [insanın] daxilindən gələn bir səsdən başqa bir şey hiss edilmir. Buna görə də sufilərə qarşı olanlar onların zikrlərinə "hönkürmək" (və ya "hönkürtü"-R.M.) deyirlər.

Xəfi, yəni gizli zikirdə də səs yoxdur. Bu cür zikri əsasən nəqşibəndilər və nəqşibəndi qolları həyata keçirirlər. [Belə ki, burada] zikr edən [üzü] qibləyə tərəf oturub sağ əlinin baş barmağıyla o biri barmaqları arasına qoyduğu təsbehi çevirərək daxildən [xəfi (gizli)] zikr edir.

Zikr edilərkən ümumiyyətlə gözlər qapadılır. Qiyami, yəni ayaq üstə [duraraq] edilən zikrdə zikr edənlər sağa, sola tərəf vücudlarını (bədənlərini) döndərib müntəzəm [şəkildə] əyilmə-dikəlmə hərəkətlərini edirlər.

Sufilər zikr etməyin nəticəsi olaraq qəlbin daimi bir şəkildə zikr edəcəyinə inanırlar. Onlara görə, dil-dodaq tərpənməsi qəlbin tövhid kəlməsini, yaxud da Allahın gözəl adlarını zikr etməsidir. Belə bir hala gəlib çatmağa "istəkli uşaq" anlamında "vələd-i qalb"ın doğulması deyilir.

## 19-cu sual: Hal sözünün bizə məlum olduğu anlamdan başqa bir anlamı [da] vardırmı?

Lüğətə görə "hal" keçmiş zamanın sonu, gələcək zamanın başlanğıcı, yəni içində olduğumuz zaman deməkdir. Təsəvvüfdə [bir] termin olaraq [hal] salikdə bir nəşə (sevinc), bir sıxıntı, yaxud zikr və ya gözəl bir səsdən, bir nəğmədən meydana [çıxan] mənəvi bir zövq mənasını verir. Amma bu (hal-R.M.) [insan onu] istəyərək, arzulayaraq baş verməyib öz-özlüyündə ortalığa çıxır və sufilərə görə salikin bu zövq, nəşə, sıxıntı, cazibə halında (çəkicilikdə) bəzi sirlər açılmış olur. [Bir sözlə,] hal gəlib keçər, salikdə qərarlaşar. [Əgər] salik o halı özündə qərarlaşdıra bilirsə, [onda o hal] "məqaam" (məqam) adını almış olur.

# V BÖLMƏ

## VƏHDƏT-İ VÜCUD (VARLIĞIN BİRLİYİ) - TÖVHİD[İN] MƏRTƏBƏLƏRİ – PANTEİZMLƏ BU İNANCIN FƏRQLƏRİ - VƏHDƏT İNANCININ QAYNAQLARI – VƏHDƏT-İ MÖVCUD VƏ VƏHDƏT-İ ŞÜHUD- MƏSULİYYƏT, CƏBR VƏ İXTİYAR – YƏQİNİN DƏRƏCƏLƏRİ

### 20-ci sual: Tövhid və vəhdət inanc[lar]ını[n mahiyyətini] açıqlaya bilərsinizmi?

Lüğətə görə tövhid bir bilmək, vahidləşdirmək[dir ki,] şəriətdə [bu] Tanrının varlığını, birliyini, kamil sifətlərlə sifətləndiyini (muttasıf), nöqsanlı sifətlərdən kənar olduğunu, tayı, bənzəri, bərabəri olmadığını bilmək və buna inanmaqdır. [Həmçinin] Hz. Məhəmmədin peyğəmbər olduğunu və son peyğəmbər kimi aləmlərə rəhmət olaraq göndərildiyini bilib [buna] inanmaq da sözügedən tövhidin ikinci rüknü olub [ondan] əvvəlki inancı tamamlayır. Bu baxımdan şəriətdə tövhid kəlməsi “La ilahə illəllah Muhammədur Rasulullah” yəni, “Allahdan başqa ilah yoxdur. Məhəmməd onun elçisidir” ifadəsidir.

Sufilərə görə isə, tövhid Allahdan başqa [heç] bir [varlığı] var bilməmək, tanımamaq və bütün varlıqları onun (Allahın – R.M.) varlığında yox bilib onun (Allahın – R.M.) varlığıyla var olmaqdır. Bu isə əvvəlcə bilik, sonra görüş (baxış), [daha] sonra isə olmaqla (oluş) gerçəkləşir ki, sülükdə (təsəvvüf yolçuluğunda – R.M.) bu bilik, görüş və olmaqlığa çatmaq üçün dəf edilən mənəvi yoldur.

[Bütövlükdə] tövhidin üç mərtəbəsi, üç mərhələsi vardır:

Tövhid-i əfal, Tövhid-i sıfat, Tövhid-i zat.

Tövhid-i əfal hər edilən işin Tanrı işi [olduğunu] bilmək, bunu görüş və [var] olmaq (oluş) halına gətirməkdir. Tövhid-i sıfat bütün sifətləri Tanrı sifətləri bilməklə bu biliyi görüş və olmaq

halına gətirib çatdırmaqdır. Çünki, [baş verən] sonsuz sayda işlər (hadisələr) sifətlərin nəticəsi, təzahürləridir. Məsələn, lütf etmək, diriltmək, öldürmək [hadisələri] lütf sahibi, dirildən, öldürən olmağın sifətlərinin təcəllisidir (ortalığa çıxartdığıdır). [Belə ki,] o sifətlər olmasaydı bu işlər (hadisələr) təzahür edə bilməzdi. Tövhid-i zat isə hər nəyin izafi (həddən ziyadə böyük, əzəmətli – R.M.) bir varlıqla var olduğunu, əsl varlığın yalnız Tanrı varlığı[nı] tapdığını və bütün var olanların onun varlığından zuhur etdiyini bilmək, görmək və bu biliyi, bu görüşü, olmaqla gerçəkləşdirməkdir.

## 21-ci sual: [Bəs] bu pantezim deyildirmi?

Panteizm [termini] ərəb dilinə “vücudiyyə” sözü ilə tərcümə edilmişdir. [Panteizm isə] hər şeyi Allah bilmək, varlığı ancaq ona (Tanrıya – R.M.) aid etməkdir. Bunu (panteizmi – R.M.) sonsuzluq və sonlu varlıq [qarşılıqlı münasibətləritək], Tanrı[nın] təbiət olduğunu bildirərək başa düşənlər [də] olmuşdur. [Əslində] vəhdət-i vücud Varlığın birliyi (birgəliyi) deyil, Vəhdət-i mövcud yəni, varlıqların, təbiətin birliyi (birgəliyi) inancına aparıb çıxarır ki, [bu da öz növbəsində] ateizmdən, Allahı tanımamaqdan başqa bir şey olmayan təbiətin Tanrı olduğuna, təbiətdən başqa [heç] bir varlığın, [heç] bir Tanrının, [heç] bir gerçəyin (reallığın) olmadığına inanmaqdır. Sonsuzluq olan Tanrı sonlu varlıqlar aləmini ortalığa çıxartmışdır. Var olanlar Onun (Tanrının – R.M.) təcəllisidir (ortalığa çıxanlarıdır – R.M.). Amma bu təcəlli təcəlli edənin (Tanrının – R.M.) eynisi deyildir. [Necə ki,] günəşin işığı Günəş olmadıqda meydana gələ bilmir. Amma o işıq (gün işığı – R.M.) Günəşin özü olmayıb özündən ayrı da deyildir deyildiyi vaxt bu inanc Allahı tanımamaqdan qurtarır ki, Spinozanın (Benedikt Barrux – R.M.) da inancı bu qəbildəndir. Ona (Spinozaya – R.M.) görə yaradıcı qüdrət sonsuzluq, əbədilik, əzəlilik keyfiyyətlərinə sahibdir ki, bu vəsflər (sifətlər) sonlu çoxluqlar aləmini meydana çıxartmışdır. [Əslin-

də] yaradıcı qüdrət və bu qüdrət sahibi həm sonsuzluqlardan münəzzəh (fərqli, ayrı – R.M.), həm də sonlu olan, ayrı-ayrı nəzərdən keçirilib bir çoxluqlar aləmindən, o cümlədən də sonu olan bu dünyadan fərqlidir. Halbuki, sözügedən doktrina həqiqətən də bir qədər mürəkkəb [bir konsepsiya]dır. Çünki, sonsuzluq vəsfiylə görünən tək (yeganə) Yaradıcı, [əgər] sonlu çoxluqlar aləmi halında ortalığa çıxırsa, [onda] bu aləm gerçəkdir. [Deməli, belə olan] halda Tanrı bu dünyanın [elə] özüdür və ya mənasıdır. Yaxud da, [əgər başqa cür deyilərsə,] o (Tanrı-R.M.) vardır, bu aləm (dünya) bir xəyaldan ibarətdir. [Deməli,] var olan ancaq yaratmaq qüdrəti sahibidir.

Bu cür dünyagörüşü[ə] Hindistanda da vardır [rast gəlmək olur]. [Belə ki,] Veda məzhəbində[25] təbiət [anlayışı] yoxdur. [Burada] var olan ancaq yaradıcı qüdrətdir. Sankya məzhəbində isə var olan ancaq maddədir. [Bu] maddədən ilk təcəlli edən (törəyən) ağıl, yəni Budhadır. Necə ki, dəniz sudan ibarətdir: dalğa, köpük, damla dənizin görüntüləridir, [eləcə də] Günəş birdir, yalnız [müxtəlif] suya (sularda) [əksi] düşüncə yayılıb, çox görsənir.

Qədim Yunan fəlsəfəsində də əşya bir tam kimi nəzərdən keçirilir. Amma [bütün olanların] daimi əmələgəlmə halında olduqları [da] qeyd edilmişdir. [Necə ki,] Heraklitin eyni bir çaya insanın iki dəfə girə bilmədiyi ifadəsi bu dəyişilmə və [daimi] əmələgəlmə inancını müəyyən etmişdir.[26] Ona (Heraklitə - R.M.) görə, kainatın əsli, həyat və canlılığın qaynağı atəş, oddur. [Heraklitin] tam ağıl adını verdiyi bu başlıca ünsür kainatı və kainatdakı [bütün] dəyişiklikləri əmələ gətirmişdir. Təbiəti başlıca ittihaz etmək-

---

[25]Müəllifin Vedaya məzhəb deməsi görünür onun İslam reallıqlarından çıxış edərək başqa dinlərə münasibət bildirməsindən irəli gəlir. Halbuki, biz Vedaların qədim Hind dini mətnləri olduğunu qeyd edib, yalnız onun hansı hissəsindən söhbət getdiyini bildirə bilərik. Üstəlik, mətnin davamında müəllif "Sankya məzhəbi"ndən bəhs etdiyindən fikrimizcə, bu Veda deyil, Vedanta darşana şəklində oxunub ortodoksal təlim olan Vedantanın əsasları izah edilməlidir.

[26] Dialektika

dən (ilahiləşdirmək, naturfəlsəfəçilik – R.M.) başqa bir şey olmayan bu məslək Parmenid və Zenonla daha [da] mücərrəd bir tərz alaraq kainat, təbiət bütöv bir varlıq, bütün var olanlar isə bu tamlığın tərkib hissələri (üzvləri) hesab edilmişdir.

İsgəndəriyyə məktəbi [isə] vəhdətin, yəni birliyin kəsrətə, yəni çoxluğa meyilli olduğunu, bu meylliliyin isə ağlı, ağlın isə ruhu əmələ gətirdiyini [və beləliklə də] bütün aləmin (dünyanın) bu üç əslin şəkillərinə (formalarına) bürünərək təzahür etmələrindən ibarət olduğunu qəbul etmişlər. Bu məslək sahib[lər]i insanı ağlıyla insan bilib, onun özündən uzaqlaşmasını (arınmasını), eşqlə həqiqi varlığa çata biləcəyinə inanırdı[lar]. [Belə ki,] Avropadakı mistik fəlsəfə bu məsləklərdən ortalığa çıxmışdır (törəmişdir). Əflatun (Platon – R.M.) isə bu dünyanı İde (Eydo, İdeal – R.M.) aləmin bir xəyalı [olduğunu] qəbul etməklə o aləmin həqiqi varlıq olduğunu iddia etmişdir. Qeyd edək ki, Əflatun nəzəriyyəsinin hər şeyin fikirdən (ideyadan – R.M.) törədiyi şəklində izah edənlər də vardır.

Misir və Suriyada İsgəndəriyyə məktəbinin təsiriylə meydana gəlmiş yeni əflatunçular (neoplatonçular – R.M.) da eydo nəzəriyyəsini qəbul edərək insanın həqiqətə yalnız eşqlə çata biləcəyini söyləmişlər. Xristianlıqda isə İsanın kəlam sifətinin təcəssüdü olaraq qəbul edilib inananlara "Tanrının övladı" kimi məcazi anlamlı bir ifadəylə [ona (İsa peyğəmbərə - R.M.)] ilahi bir xüsusiyyət verildiyini, müsəvilikdə (yəhudilikdə - R.M.) Kabbala fəlsəfəsində də vücudiyyə qənaətinin izləri aşkarlandığını söylədikdən sonra [artıq biz] təsəvvüfdəki "Vəhdət-i Vücud yəni, Varlığın birliyi (vəhdəti)" inancına diqqət edə bilərik.

Qurani-Kərimdə Allahın adları [:] "Tək, Bir, Daimi (Yeganə - R.M.), Diri" (Fard, Vahıd, Ahad, Hayy) kimi zatına (mahiyyətinə); "Duyan, Bilən, Görən, Gücü çatan (Qüdrətli), Üstün olan" (Səmi, Alim, Basır, Qadir, Əziz) kimi sifətlərinə; "Dirildən, Öldürən, Bağışlayan, Rəhmli, Qəhr edən, Lütfkar, Ruzi verən" (Muhyi, Mumit, Əfuv, Rəhman, Rəhim, Qəhhar, Rəzzaq) kimi fellərinə, yəni yaratdıqlarına [münasibətdə] etdiyi işlərə aid olmaqla üç [yerə, qrupa]

ayrılırlar. [Allahın] bu adları arasında "Vücud" adı yoxdur. İslam dininə görə Allahın adları təvkıyfiyyədir, yəni [Allah] Quranda hansı adlarla anılmışsa, ancaq o adlarla anıla bilər. Sufilər isə, Allahı mütləq, yəni hər cür qeydlərdən ayrı varlıq mənasını verən "Vücud-i Mütləq" adlandırırlar. Əslində isə Allah mövcud, yəni vücud (cism, maddə, material – R.M.) almış olmadığı kimi vücud, yəni [maddi] varlıq da deyildir. Ona (Allaha – R.M.) varlıq demək, Onu var olan (mövcud) şeylər[lə bir] sıraya qoymaqdır. Sufilər deyə bilər ki, biz də bunu anlayırıq. [Axı] hər şey Ondan (Allahdan – R.M.) təzahür edir, Onunla olur. [Biz (sufilər)] anlayışı anlaşıqlı etmək, başa salmaq naminə Ona (Allaha – R.M.) vücud deməkdən başqa bir çıxış yolu tapa bilmədik. Buna görə də Onu (Allahı) "Mütləq Varlıq" adlandırdıq. Bizə (sufilərə - R.M.) görə vücud yəni, varlıq Allahdan ibarətdir və Ondan başqa zatıyla (mahiyyəti ilə) mövcud olan, öz-özlüyündə var olan yoxdur. Hətta Ona (Allaha – R.M.) "mütləq" vəsfini vermək də yol verilməzdir. Çünki, O (Allah – R.M.) heç bir şeylə müqayisə edilmədiyi kimi mütləq olmaqdan da münəzzəhdir (aralı, saf, təmiz – R.M.). O (Allah – R.M.) nə çoxalır, nə [də] bölünür. Hər var olan Onunla vardır. Varlıq Onun (Allahın – R.M.) sifəti deyil, zatıdır (mahiyyətidir – R.M.). [Biz (sufilər – R.M.)] deyirlər ki, vücud sözüylə var olan şeylərin öz-özlüyündə varlığını, gerçək və mütləq varlıqları ilə varlıq aləmində təcəlli etdiklərini (ortalığa çıxdıqlarını – R.M.) başa salmaq istəyirik. Sufilərə görə aləmin (dünyanın – R.M.) varlığı izafidir, yəni Allahın varlığına nisbətdə aləm yoxdan, yoxluqdan [da] ibarətdir. [Aləmin] Yalnız Onun (Allahın – R.M.) sifətlərinin təcəllisi olması, hər yerdə Onun (Allahın – R.M.) qüdrəti, hikməti, yaratdıqları (sunun), əsəri [kimi] göründüklərinə görə [yalnız Allaha] var deyilə bilər. Yoxsa kainat heç bir vaxt O (Allah – R.M.) deyildir və ola da bilməz. [Deməli,] Bu qeyri-mümkün olduğu kimi O (Allah – R.M.) da kainat surətində görünməz. Mümkün və keçici [olanlar] yəni, həm olması, həm də yox olması imkan daxilində olan və sonradan yox ikən var olan şey vacib, yəni olmadığı qeyri-mümkün olan bir varlıq olmadığı kimi, vacib də mümkün və keçici ola bilməz. [Mə-

sələn:] Günəşin işığı, Günəş olmadıqda var ola bilməz. Amma Günəşin işığı Günəş deyildir, onun [yalnız] bir təcəllisidr (ortalığa çıxmasıdır)...

## 22-ci sual: Qurandakı o ayə[27] hansı surədədir və [orada] nə deyilir?

Bu ayə [Qurani-Kərimin] VIII sürəsinin 17-ci ayəsidir. [Bu ayədə] deyilir ki: "[Ey möminlər! Bədrdə] kafirləri siz öldürmədiniz, Allah öldürdü. [Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq] atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri [qənimət əldə etmək və zəfər çalmaq üçün] yaxşı bir sınaqdan keçirtdi. Allah [hər şeyi] eşidən və biləndir!". [Belə ki, məlumatlara görə] Bədr döyüşündə [Məkkə] müşriklərinin ölən öldürülmüşlərinin Allahın qüdrətiylə öldürüldükləri [iddia edilib] bu baxımdan da [onların] həqiqətən də Allah tərəfindən öldürüldüyü bildirilir. [Belə ki, Bədr] Döyüş[ün]dən öncə Hz. Peyğəmbər [düşmənlərə tərəf] bir ovuc qum və [ya] çınqıl atmış [və bunu] müşriklərə qarşı edərkən [onların] üzləri qara olsun [deyə] söyləmişdir (qarğış etmişdir). [Deyilənlərə görə] Bu qum və çınqıl müşriklərin üzlərinə [və] gözlərinə dəymişdir. Buna görə də Qurani -Kərimdə bunu sən etmədin, Allah atdı (etdi), yəni Onun qüdrəti ilə atdın (etdin), sən (peyğəmbər – R.M.) əslində bir vasitə idin, atan [isə] sənə o qüdrəti verəndi [deyə] buyurulmaqdadır (Mecmaul-Beyan, IV, s.530 və bütün [digər] təfsirlər).

[Öz növbəsində] Sufilər bu ayəni vəhdət-i vücuda bir dəlil hesab edirlər. Onlar "...Allah buyurmuşdu: "Mən sizinləyəm..." (V, 12), "Allah buyurdu: "Qorxmayın, Mən də sizinləyəm, [hər şeyi] eşidirəm və görürəm!" (XX, 46), "...Siz harada olsanız, O (Allah – R.M.) sizinlədir..." (LVII, 4) kimi ayələri də Vəhdət-i Vücuda dəlil göstərirlər. "Mənim [hər hansı] bir döstumla düşmənliyə başlayana mənimlə döyüşməyə icazə verirəm. Qul (in-

[27] Burada müəllif iradə azadlığı ilə əlaqədar məsələyə aid ayədən bəhs edir.

san, bəndə - R.M.) ona fərz (vacib) etdiyim şeylərə riayət etməklə Mənə yaxınlaşır [ki,] bu daha [artıq] istədiyim [bir] şeydir. Qulum nafilələrə ona fərz etmədiyim ibadətlərə davam etdirdikdə də Mənə yaxınlaşır ki, [bu halda da] onu sevirəm. Sevmək nədi, eşitdiyi qulağı, gördüyü gözü, tutduğu əli, yeridiyi ayağı məsabəsində (yaxınlığında – R.M.) oluram. Məndən bir şey istəyərsə verərəm, bir şeydən onu qorumağımı istəyərsə qoruyaram...” mənasında qüdsi hədis də (Tanrının ilhamıyla Hz. Məhəmmədin Allahın dediyinə görə nəql etdiyi, amma vəhy yoluyla, mələklə gəlməyən və Quranda olmayan Allahın buyuruğu) onlara (sufilərə - R.M.) görə Vəhdət-i Vücuda dəlildir. (Muhammedül- Medeni: Al-İthafatüs-Seniyye fil-Ahadısil-Kudsiyye, Haydarabad – 1323, Buxaridən nəql edilərək, s.82).

## 23-cü sual: Sizə görə İslamda vəhdət-i Vücud inancı vardırmı?

Bu inanc hər şeydə Tanrının qüdrətini, qüvvətini, lütfünü, bir sözlə varlığını, birliyini, sifətlərinin təcəllisini görmək, hər şeyin Onun varlığıyla qaim (ortalıqda) olduğunu, amma bütün varlıqların onun əzəli və əbədi varlığına nəzərən bir kölgədən, bir sərapdan başqa bir şey olmadığını qəbul etmək şəklində başa düşülərsə, bu suala müsbət cavab verə bilərik. Amma “Allah vardı, Onunla [bərabər] heç bir şey yoxdu” hədisindən təsirlənərək “hələ də necəsə belədir” ifadəsini də hədisin təqriri hesab etmək, yəni, Hz.Peyğəmbərin huzurunda bu söz deyiləndə [onun] susaraq doğruluğunu qəbul etdiyini söyləmək (Mavzuatu Kebir, s.59) yaxud [da] Geybi Sunullahın (1072 H. 1661-dən sonra) “Kəşfül-Gita” adını verdiyi qəsidəsində:

Bir vücuddur cümlə əşya eyni əşyadır Xuda (Allah – R.M.)
Həp huviyyətdir (hamısı Odur) görünən yox Xudadan mada (əvvəl/Ondan başqa) Lakin vardır ol vücudun zahiri və batini Bəs hüviyyətdən deyilir əvvəli axır ona Etibarıdır vücuda əvvəli

axır demək Bir vücudun eynidir ol ibtidayi intiha. Əvvəl axır fərz edərsən belədir ol yoxsa kim.

İbtidasız (başlanğıcsız) intihasız (sonsuz) bir Xudadır sərməda (başdan-başa – R.M.) - tərzində hər şeyi, kainatı, bütün varlıqları, var olanları bütöv bir varlıq sayıb o varlığın eynisini Allah[ı] tanımaq/qəbul etmək, [Onu] kainatdan münəzzəh (təmiz, ayrı – R.M.) bir məbud (Tanrı-R.M.) tanımamaq "Vəhdət-i Vücud"dan artıq "Vəhdət-i Mövcud", yəni bütün varlıqların yeganə bir varlığın müxtəlif surətləri olduğu inancına aparıb çıxarır ki, Allah bu inancda kainatın özü, əsli olur. Daha doğrusu bu inanc kainatsız, maddəsiz Allahın varlığını qəbul etməmək nəticəsini ortalığa çıxardır ki, bu da [öz növbəsində] maddəçilikdən (materializmdən – R.M.) başqa bir şey deyildir. Yuxarıdakı beytlərə görə Qeybi varlığın bir görünən, bir də görünməyən tərəflərinin olduğunu, varlığın əvvəl və axır adlandırılması etibarilə olduğu bildirilməkdədir (bizdəki (Türkiyədəki – R.M.) yazı, 7, ey. Gaybı divanı; İst. Büyük Matbaa – 1963, s.7).

İslam dini orta bir [yol] din[i]dir. [Belə ki,] Qurani Kərim Məhəmməd ümmətinə "ümməti vəsət" (orta, mötədil ümmət – R.M.) adlandırır (II, 143). İslam dinində tərkidünyalıq edib ibadətə qapılmaq, axirət üçün yaşamaq, yaxud da axirəti heç düşünməyib dünyaya qapanmaq olmadığı kimi, tam bir tənzih, yəni Allahı kainatdan ayrı saymaq, yaxud da tam bir təşbeh, yəni Allahı kainat olaraq qəbul etmək, bir insanı tanrılaşdırmaq kimi ifrat və təfrit də yoxdur ki, bunlar haqqında yuxarıda bəhs etmişdik. Vəhdət-i Vücudu kainatın hər zərrəsində Allahın təsirini yaratdıqlarını, qüdrət və hikmətini görmək, hər şeyi onun varlığına, birliyinə dəlil hesab etmək, hər varlıqda onun sifətlərinin təcəllisini görmək, amma [bu] təcəllini təcəlli edən qəbul etməmək tərzində qəbul [etmək] İslama yad deyildir. Lakin kainatı Allah olaraq, yaxud [da] Allahı kainat şəklində zuhur etmiş qəbul edərək bu cür bir inanca bağlanmaq İslamın ruhuna, əsasına yaddır. Sufilərin Vəhdət-i Vücudda orta yolu tutanları da belə bir inanca tərəfdar olmamışlar. Çün-

ki, bu inancın nəticəsi, yaradılışı zahir olan qəbul etmək, yaradılmışı [isə] yaradan bilmək (qəbul etmək)dir.

Yunan fəlsəfəsini islamiləşdirən və özlərini "hukəma" adlandırmış filosoflar "vahiddən ancaq vahid çıxar" müddəasını əldə rəhbər tutaraq yaradıcı qüdrətdən fəal, yəni aktiv bir qüvvənin ortalığa çıxdığını qəbul edərək buna bütöv ağıl anlamında "Aql-ı Kull" (Fəal Ağıl) adlandırmışlar. Fəal Ağıl münfail (passiv) bir qüvvət meydana gətirmiş, bu iki qüvvətdən göylər və göylərin cirimləri (nəfsləri) olan yeddi ulduz meydana gəlmişdir. Göylərin və göylərlə bərabər ulduzların fırlanması mövcud olmağa olan istəklərindən irəli gəlir. Hər ulduzun da bir aktiv, bir də passiv qüvvəsi vardır. Bu fırlanma [isə] dörd ünsürü, yəni,havanı, suyu, odu, torpağə əmələ gətirir. Yeddi ulduzun olduğu yeddi göy, yeddinci göyü əhatələyən və sabitələrin olduğu Bürclər göyü və bu göyü əhatələyən və içində heç bir şeyin olmadığı Atlas göy fırlandıqca dörd ünsürü əmələ gətirdiyi kimi doqquz göylə dörd ünsürün birləşməsindən də üç törəmələri, yəni cansızlar, bitkilər və canlılar (heyvanlar və insanlar – R.M.) əmələ gəlir. Göründüyü kimi, yaradıcı qüdrət yalnız əsl ağlı ortalığa çıxartmışdır ki, bu ağıldan passiv bir qüdrət, Nəfs-i Küll meydana çıxmışdır. Bu ikisi (ağıl və nəfs – R.M.) göyləri, göylərin fırlanmasını, dörd ünsürü, doqquz göylə dört ünsürün birləşməsi, cansızları, bitkiləri, canlıları yaratmışdır. Canlıların içində ən kamil olan varlıq insandır. Bu fəlsəfə nəzəriyyəsində yaradılış olmayıb, "sudur [etmək] – çıxış (törəmə - R.M.)" vardır. Eyni zamanda [da] əsl ağıl yaradıcı qüdrətdən müəyyən bir zamanda ortalığa çıxmaz. [Belə ki,] bu zuhur [etmək] o qüdrətin əbədi sifətlərindədndir. Bu baxımdan aləm yaradıcı qüdrətə nisbətdə ortalığa çıxmış isə, onunla var olduğundan qədimdir, yəni, [aləmin] önünə ön yoxdur. [Məsələn] əlimizdəki dəyənəyi fırlatsaq, dəyənək əlimizlə bərabər fırlanar. Halbuki, əlimizin dəyənəyə nisbətdə mahiyyət [baxımından] bir öncəliyi vardır. Hükəma[nın iddia etdiyi:] "Aləmin maddəsi (heykəl) qədim olandır" [ifadəsini], yəni bütün aləmin maddəsi, önünə ön olmayan, amma yaradıcı qüdrətə nəzərən sonradan olmuş sayılan bir

varlıqdır fikri ilə bunu ifadə etmişlər. Bu nəzəriyyəyə görə axirət lüğət mənası baxımından hər bir ortalığa çıxmışın sonudur. Aləm maddəsi baxımından dünya, mənası baxımından axirət olduğu kimi bütün kainat hər an yaradıldığından, [onun] içində olan an[da] dünya, o andan sonrakı an[da isə] axirətdir və bu [cür durum] beləcə davam etməkdədir.

Simavna qazisi oğlu Bədrəddinin (823 H.1420) müxtəlif zamanlarda, müxtəlif məsələlərə aid sözlərinin, suallara verdiyi cavablarının toplanmasından meydana gəlmiş "Varidat" [əsər]ində varlığın birliyi [məsələsi] bu tərzdə olub, onun fikrincə kainat Allah olub əvvəli və axırı yoxdur. Qiyamət isə, ölümdən ibarətdir (Gölpınarlı: Sımavna kadısı oğlu Şeyh Bedreddın, İst. Eti yayın 1966, s.31-33. Varidat tercemesi, s.55-66 və 75).

Bu inanc İslam [dininin] əsasına heç uyğun deyildir. Çünki, İslam dinində hər şeyi yaradan Allahdır. Aləm [isə] sonradan yaradılmışdır. Allah hər şeydən münəzzəhdir (təmizdir/ nöqsanlıqdan uzaqdır – R.M.).

Süfilər içərisində Vəhdəti Vücudu fərqli düşüncə şəklində qəbul edənlər də vardır. Belələrinə görə salik (təsəvvüf yolçusu – R.M.) sulukda (təsəvvüf yolunda – R.M.) elə bir mərtəbəyə gəlib çatır ki, [o] bütün varlığı Tanrı görmüş olur. Bu mərtəbə[yə] kamillik mərtəbəsi deyilir. [Salik] Bu mərtəbəni aşdıqdan sonra başa düşür ki, varlıqlar sonradan yaradılmışdır, yoxdan var edilmişdir və vücudda (varlıqda – R.M.) çoxluq vardır. Bu inanca "Vəhdət-i şühud" yəni, birliyə şahidlik deyilir. Nəqşibəndi [təriqəti]ndə "Mücəddidi əlifi sani – İkinci minillikdə İslam dinini yeniləyən" adlanmış və İmam Rəbbani deyə xatırlanan Əhməd Faruqiyyi Sirhindinin (1034 H. 1624) vəhdəttəki məzhəbi [elə] budur.

**24-cü sual: [Siz] Tövhid mərtəbələrini izah edəndə “tövhid-i əfal, tövhid-i sıfat, tövhid-i zat” adlanan üç mərtəbə sadalamışdınız [ki,] tövhid-i əfalda hər edilənin əslində Allah tərəfindən edildiyini söyləmişdiniz. Belə bir təqdirdə, [yəni əgər] hər şeyi O (Allah – R.M.) edirsə, [onda insanın] iradə və ixtiyara [sahibi olması] ortadan qalxmırmı? Bu inanca görə məsuliyyətin, savab və günahın, cənnət və cəhənnəmin aradan çıxması (ortalıqdan götürülməsi) lazım deyildirmi?**

Sufilərin Vəhdət-i Vücuda inananları bu mərtəbədə (Allaha qovuşmalarında – R.M.) sevinclərinə, yaradılışlarına, nail olduqlarına, istedatlarına (bacarıqlarına - R.M.), bilgilərinə və düşüncələrinə görə müxtəlif hallara sahib olurlar. [Məsələn] Mövlana “Məsnəvi”[sinin] dibaçəsində kitabını “[Allaha] yetişmə və yaxınlaşma sirlərini aşkarlamada dinin əslinin əslinin əsillərini...[açıqlayan bir əsər]” kimi təriflədikdən sonra onu (Məsnəvini – R.M.) Misirdəki Nil [çayının] suyuna bənzətmiş və [qeyd etmişdir ki, bu] “Səbredənlərə içəcəkləri sudur. Firon nəsli və kafirlərə isə [o çəkəcəkləri] həsrətdir. Necə ki, Allah da onunla çoxlarını çaşdıraraq azdırır, çoxlarını da doğru yola aparır [çıxarır]” demişdir (Nicholson nəşri, I, s.1. Ayə, II, 26).

Varlıq, Tanrı sifətlərinin məzhərləri (ortalığa çıxanları – R.M.), sifətləri də zatın (mahiyyətin – R.M.) zuhuru (ortalığa çıxanı – R.M.) qəbul edilərsə, əlbəttə [ki, insanın] iradə və ixtiyar [sahibi olması] aradan qalxır. Xeyir və şərə, yaxşılıq və pisliyə gəlincə [isə]:

Sufilər bunları etibari və nisbi (insan davranış və hərəkətləri ilə əlaqədar – R.M.) qəbul edirlər. [Yəni] Əsas olaraq görülmüş iş (əməl – R.M.) vardır, bu iş [isə] məzhərinə (onu ortalığa çıxarana – R.M.) görə öz yerindədir, doğrudur. Necə ki, dəmirdən qılınc, ağacdan isə masa düzəldilir. Ayaqqabı ayağa geyilir, papaq isə başa qoyulur. Oğrunun oğruluq etməsi, zahidin namaz qılması

olası işdir (təbii olandır). Heç bir varlıq istidadından (təyinatından – R.M.) kənar bir iş görə bilməz. İstidatsa (təyinat isə) məzhariyyətdir (ortalığa çıxmalı olandır – R.M.). Təzahür etməsinə görə hər iş (əməl) doğrudur. Xeyir, şər, yaxşı, pis izafidir (nəyəsə aiddir – R.M.) və nisbətdən ortalığa çıxır. Birinə görə xeyir olan, başqa birisinə görə şər ola bilir. Qılıncın kəsiciliyindən, suyun boğmasından, atəşin yandırmasından daha təbii və adi bir şey olmaz və Mütləq Varlıq məzhərin (ortalığa çıxanın – R.M.) istedadına görə əməl törədər. Hətta xeyir, şərlə, yaxşı, pislə başa düşülür. [Əgər] Soyuq olmasaydı isti[nin nə olduğunu] bilməzdik. Ölmək olmasaydı dirilməyin [nə olduğu] bilinməzdi.

Bu belə qəbul edildiyi təqdirdə artıq sufinin təbiəti (şəxsi xüsusiyyətləri – R.M.), inkişaf səviyyəsi, zövqü və sevinci işə başlayır. Bu zaman hər bir iş (əməl)[in sahibi] odur, əslində hər şeyi edən odur anlamında [özünü] zövq[ü-səfaya] verən, axirəti [bu] dünyada görüb o biri dünyadan (axirətdən) heç bir xəbər yoxdur deyərək ibahaya üstünlük verən, yəni hər şeyi mübah (bəyənilən – R.M.) hesab edənlər beləcə dini, dinin əmirlərini [ancaq] aləmin nizamı üçün qoyulmuş olduğunu sayanlardır. Qeyd edək ki, biz (A.Gölpınarlı – R.M.) bu ifadələri [öz] ağlımızdan, yaxud da yalnız biliyimizin nəticəsi kimi demirik. [Çünki, biz] bu inancda olanları görmüş və onlardan bu ifadələri özümüz eşitmişik.

Aralarında şəriətə bağlı olanlarsa hər bir təzahür olana görə ondan ortalığa çıxan işi (əməli) doğru hesab etsələr də, kamil insanın bütün bunlardan arınmış olacağına inanaraq dini əmrləri tamamilə başqa və daxildən gələn bir zövqlə edən və şəriətdən zərrə qədər ayrılmayan inasanlardır. Onlar elə bil, eyni bir nərdivandakı ən yüksək pilləyə yüksəlmişlərdir. [Sanki, nərdivanın] o biri pillələrinin hər biri o pillələrdə olanların dayanacaqları olub, hamısı da öz yerində, başqa bir işdə deyildir. Amma onlar bunları (ruhi vəziyyətləri – R.M.) baxıb seyr edərlər. Özləri isə bütün bu qeyd edilmişlərdən qurtulmuşlardır.

Məsuliyyət məsələsinə gəldikdə, məsələn, [əgər] bir insan başqa birisini öldürərsə bu [onun] istidadına (seçiminə) görə et-

diyi bir işdir ki, bu zaman məsuliyyət aradan getməz. Çünki, cinayətkarı yaxalayan, onu istintaq edən, barəsində qisas hökmünü verən, onu [bu] hökmə görə öldürtən və öldürən də seçiminə görə, üzdə olanlara (məzhariyyətinə) görə davranmışlardır. Bu baxımdan nə qisas, nə [də ki,] məsuliyyət [ortadan] qalxmaz və belə bir inanc anarxiyaya gətirib çıxartmaz.

Burada dini inancın da təsiri vardır. [Belə ki,] Əhli Sünnəyə görə qulda (insanda – R.M.) azacıq bir iradə və ixtiyar vardır. Qul [bu] cüzi iradəsiylə yaxşılığı, pisliyi etmək istəyər [və] Allah da onu (sözügedən əməlləri – R.M.) xəlq edər. Mütəziliiliyə, yəni İslam inancında nəqlə, ağla üstünlük verənlərə görə isə, qul iradə və ixtiyar sahibidir. [İnsanın] Ağlı vardır və ağıl[la] yaxşını, pisi biləcək bir qabiliyyətdədir. Allah hər kəsin nə edəcəyini bilir. Amma [Onun] bilgisi "mücbir-i fiil" (məcburi hərəkət – R.M.) deyildir. Yəni ona (insana – R.M.) həmin yaxşılığı, həmin pisliyi zorla etdirməz. İmam Cəfər əs-Sadiq buyurduğu kimi, "[İnsanda] Cəbr (məcburiyyət – R.M.) və təfviz (sərbəstlik – R.M.) yoxdur. [Çünki] iş ikisinin arasındadır". Yəni Allah qul[un]a məcburən yaxşılıq və pislik etdirməz. Amma qul [da] özbaşına buraxılmış deyildir. Qul istədiyini yenə Allahın gücü ilə həyata keçirər. Ağlı isə yaxşını, pisi bilir, anlayır. Üstəlik Allah [da] peyğəmbər[lər] yollamış kitab[lar] endirmiş, yaxşını, pisi anlatmışdır. [Bu səbəbdən də] Artıq qul yaxşılığı, pisliyi öz iradəsi ilə etmiş olur. Qarşılığında da Allah ona ədaləti ilə müamilə edib mükafatlandırır və [ya] cəzalandırır. [Əgər] Bunun əksi düşünüləcəksə, [Allahın] qul[un]a ağıl verməsi, peyğəmbər yollaması, kitab endirməsi əbəs, mükafatlandırması və cəzalandırması [insana] zülm etmək olardı (Hac Şeyx Abbasi Qummi: Sefinetül-Bihar va Mədinətül-Hikəmi val-Asar, I, Nəcəf – 1352, Cəbr baş. Və Biharül-Ənvar)...

## 25-ci sual: Bundan öncə sualları cavablandırarkən "bilmək, görmək, olmaq" sözlərini istifadə etdiniz. Bu [anlayış]ları bir qədər [də] izah edərdinizmi?

Sufilərə görə tövhidin hər üç mərtəbəsində, yəni, tövhid-i əfal, tövhid-i sifat və tövhid-i zat mərtəbələrində [qeyd etdiyiniz] bu mərhələ[lər]in dəf edilməsi lazımdır. Hər üç mərtəbəyə də fəna, yəni yoxluq mərtəbələri deyilir. [Belə ki,] Tövhid-i əfalda salik (təsəvvüf yolçusu – R.M.) bütün işləri[ni] Tanrı əməllərində yox edər, hər işi Onun işi bilib, görür və bu biliyi, gördüyü[nü] olmaq (mövcudluq – R.M.) halına gətirər. [Salik] Tövhid-i sıfatda işlərin sifətlərdən ortalığa çıxdığını, sifətlərin hamısının da Tanrı sifətləri olduğunu başa düşər [ki, onun] gözündən varlıqlara, yaradılmışlara aid sifətlər yox olur. Tövhidi zatda (mahiyyətdə - R.M.) hər şeyin məcazi və izafi varlıqla var olduğunu, sifətlərin Tanrı zatının təcəllisi (ortalıqda olanı – R.M.) olduğunu bilir, görür və hər şey [onun] gözündən silinir; [o] Tanrıdan başqa bir varlıq görməz və bu bildiyini və gördüyünü [mövcud] olmaq halına gətirib çıxarır. Təsəvvüf terminləri olaraq bilməyə, görməyə və olmaya "İlməl-yaqın, Aynəl-yaqın, [və] Haqqal-yaqın" deyilir.

Ərəbcə bir söz olan "yaqın"ın lüğətdə mənası [heç bir] şübhəsiz bilik [demək]dir. Termin olaraq [isə bu söz] bir şeyin başqa cür olmasının mümkün olmadığına inanaraq [onu] olduğu kimi bilməkdir (Tarifat, s.175). Bilik yolu ilə bir şeyin bu çeşit bilinməsinə "ilməl-yaqın", kəşf [etmək] və görməklə bilməyə "aynəl-yaqın" deyilir (eynisi, s.104, 107). Haqqal-yaqın [isə], qulun Haqqda (Allahda – R.M.) yox olması və Haqq varlığıyla varlığa çatmasıdır. İlməl-yaqın şəriətin zahiri, aynəl-yaqın [İlahi, dini] əmirləri ixlaslı etmək, haqqal-yaqın [isə] adətən Haqqı görməkdir də deyilir (eynisi, s.62. Risalətul Quşeyriyyədə b. s.57)...

## 26-cı sual: Bu terminlər Qurani Kərimdə vardırmı?

"İlməl-yaqın" Qurani Kərimin CII surəsində vardır; "aynəl-yaqın" də eyni surədədir; bu surənin 5-8-ci ayələrinin mənaları aşağıdakı kimidir: "Xeyir, əgər [qiyamət günü sizə nə ediləcəyini] tam yəqinliklə bilsəydiniz [fani dünya malına uymazdınız!]. [Ey müşriklər! Qiyamət günü] siz o Cəhənnəmi mütləq görəcəksiniz! Bəli, siz [Cəhənnəmə vasil olduqdan sonra] onu mütləq öz gözünüzlə görəcəksiniz! Sonra da həmin gün [Allahın dünyada sizə əta etdiyi] nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!" LVI surənin 95-ci ayəsində və ondan öncə ayələrində Tanrının dinini yalanlayanların cəhənnəmə atılacaqlarını bildirildikdən sonra "haqqəl-yaqın" [ifadəsi] "Şübhəsiz ki, bu, təkzibolunmaz həqiqətdir!" şəklində qeyd edildiyi kimi, LXIX surənin 50-ci ayəsində Quranın kafirlər üçün bir peşimançılıq, həsrət olduğu bildirildikdən sonra 51-ci ayəsində "Doğrudan da bu [Quran] gerçək bir həqiqətdir" şəklində bildirilir. [Göründüyü kimi] Bu terminlər göstərdiyimiz ayələrdən götürülərək istifadə edilmişdir. Amma göründüyü kimi bu ayələrdəki sözlər termin deyildir və sufilərin yaqin (yəqinlik) dərəcəsi verdikləri izah etdiyimiz mənalarla bu sözlərin heç bir əlaqəsi yoxdur. Başlıca olaraq tövhidin üç mərtəbəsi kimi fəna mərtəbəsi, geri dönməkdə olan üç bəqa mərtəbələri, hətta bəqa və fəna sözləri də [nə] Quranda, [nə də ki,] hədislərdə yoxdur. Əlbəttə ki, Quranın LV (ər-Rəhman) surəsinin 26-27-ci ayələrində "Yer üzündə olan hər kəs fanidir [ölümə məhkumdur] Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir"[28] deyilsə də, bu ayələrdəki fanilik, baqilik sufilərin izah etdikləri kimi deyildir.

[28] Ə.Əmirəhmədova görə sözügedən ayənin tərcüməsi: "Onun (Yerin – R.M.) üstündə kim varsa fanidir [, amma] (26) [sənin] O Böyük, O Əzizlənən Tanrının üzü qalar [hər zaman]. (27)" s.66; Təfsir: "26-27. Yəni yer üstündə olan hər bir insan, cin, heyvan və başqa yaradılmışlar yoxa çıxacaq, məhv olacaq,

**27-ci sual: [Əvvəlki] Sualımıza cavab verəndə geri dönəndə üç mərtəbə[dən] bəhs etdiniz. Tövhidin fəna mərtəbələrindən sonra üç mərtəbəsi də vardırmı?**

Bəli, Vəhdəti vücuda inananlar suluku, yəni mənəvi yolçuluğu bir dairə fərz edirlər. [Bu dairənin] Çıxış qövsündə izah etdiyimiz fəna mərtəbələri vardır. Amma bu mərtəbələrə çatanlar kamilliyə çatmazlar. Kamilliyə yetişmək üçün bəqa mərtəbələri ilə seyri suluka (mənəvi yolçuluğa – R.M.) başladığı yerə dönmək lazımdır. [Necə ki, məsələn,] Cüneyddən son nədir soruşulduqda [o] başlanğıca dönməkdir deyə cavab vermişdir (Avariful-Maarif-dən nəql edilərək Taraikul-Hakaaik, II, s.412).

Mənəvi yolçu tövhidi zatdan sonra hər şeyin Tanrı[nın] varlığı ilə var olduğunu, varlıqların Tanrı zatının məzhərləri (təzahürləri – R.M.) olduğunu başa düşər, özünü də Tanrı zatıyla birgə görər. İkinci mərtəbədə Tanrı sifətlərini məzhərlərdə, yəni kainatda, var olan şeylərdə görər, öz sifətlərinin də Tanrı sifətlərinin zuhuru olduğunu dərk edər. Üçüncü mərtəbədə hər işin, sifətlərin müqtəzası (səbəbinin – R.M.) olduğunu anlayar, öz işlərinin də Tanrı işləri olduğunu bilər. [Salik dövriyyədən] Çıxarkən işləri, sifətləri, hər şeyi yox [hesab] etmişdi, bu cür bir zövqə çatmışdı. Enmə qövsündə isə hər şeyin Allahın zatıyla, hər sifətin Allahın sifətləriylə, hər işin Allahın işləriylə qaim olduğunu hiss edərək varlıq aləminə dönməkdir. Öncə [salik] hər işi, hər sifəti Tanrıdan ayrı bilir, hər şeyin bir varlığı olduğunu sanarkən axır dönüşdə hər şeyin

---

təkcə heç vaxt ölməyən, əbədi Diri olan "O Böyük" Allah Özü qalacaq – Yəni Əzəmətli, Təkəbbürlü (Alicənab), Canlı, hamının təzim etdiyi, təriflədiyi, böyüklüyünü etiraf etdiyi; "O Əzizlənən" - əzizləmə Allahın Öz övliyalarına (dostlarına, yaxınlarına), yaratdıqlarının seçmələrinə növbənöv əzizləmələr (hörmətlər) şəklində göstərdiyi lütfün və səxavətin genişliyi deməkdir. Allaha yaxın adamlar da Allahı həmin növlərdən olan ehtiramla əzizləyir, böyük tutur, Ona təzim edir, Onu sevir, Onun qarşısında tövbə edir və Ona ibadət edirlər." s.74

Tanrı[nın] zatıyla var olduğunu, hər sifətin, Tanrı sifətlərinin təcəllisi və hər işin o sifətlərin zuhuru olduğunu hiss edərək Allahla var olmaq hisslərinə çatır. Qayıdışdakı ilk mərtəbəyə "cəm", ikincisinə "cəmül-cəm", üçüncüsünə "fərqlə bərabər olan cəm" yaxud [da] "ikinci fərq" deyirlər.

## 28-ci Sual: Bu terminləri bir qədər də açıqlaya bilərsinizmi?

Lüğətdə "farq" "ayırmaq"/ "fərqləndirmək", "cəmaa" "toplamaq"/ "cəmləndirmək" mənasını verir. [Bir] Termin olaraq xalqı Haqqdan, Tanrıdan ayrı bilməyə "farq" və "təfrıqa" (təfriqə) deyirlər. Adam fərq aləmində varlıqları, aləmi görərək onlardakı sifətləri onlar[a məxsus] sanır, işlərini[n] onlardan [irəli gəldiyini] bilir. Sülükə (təsəvvüf yolçuluğuna – R.M.) başlayan kimi əvvəlcə baş verənlərin hamısının Tanrı[nın] işi olduğunu, sonra bunların Tanrı sifətlərinin (atributlar – R.M.) zuhuru olduğunu, sonra da hər [bir] varlığın Tanrı varlığının məzhəri (ortalığa çıxanı – R.M.), yaxud aynası olduğunu başa düşər və hər şey gözündən silinər, özü də yoxluq aləminə gedib çıxır. [Salik/yolçu] Geri dönərkən əvvəlcə hər şeyin Haqqla qaim olduğunu, sonra hər şeydəki sifətlərin Tanrı sifətləri, hər sifətdən zuhur edən işin də Tanrı işi olduğunu isbat [etmək] yolu ilə başa düşər. [Başqa sözlə deyilərsə, əgər salik] Gedərkən nəfi, yəni yoxluq yoluyla anlamışdı[sa], geri qayıdarkən isbat, yəni varlıq yolu ilə zövq almış olar. Bilməyindən, görməyindən, olmağından yoxa çıxmış varlıqlar, sifətlər, işlər adətən bu dəfə öz yerlərinə qayıdar/gələr. [Belə ki,] Artıq salik həm xalqı görür, həm [də ki] Haqqı. [Halbuki] İlk fərq aləmində xalqı görürdü[sə də,] Haqq isə əvvəlcə xalqdan ayrıydı. İkinci fərq aləmində isə xalq əvvəlcə Haqqın məzhərləridir, onların sifətləri, o sifətlərin müqtəzası (baş verməsi – R.M.) olan işlər Haqqındır [ki] əsl varlıq ancaq Haqq [ın] varlığıdır. Çünki, hər şey Haqqla qaimdir. Hər şeydən zahir olan

sifət Haqqın sifətidir. Hər [baş verən] iş də bir sifətin zuhurudur/ortalığa çıxmasıdır.

Bu bilməkdə, görməkdə, olmaqda bir dəyişmədir. İkinci fərq [vəziyyətin]ə gələ bilən adam hər şeyi olduğu kimi görür, heç bir şeyi əbəs saymır. Amma hər şeylə, hər kəslə müamiləsi (əlaqə qurması – R.M.) onun (salikin – R.M.) [əldə etdiyi] mərtəbəsinə görədir. Elə sufilərə görə suluk, yəni mənəvi yolun yolçusu olmaq budur.

### 29-cu sual: Bununla [da] suluk başa çatırmı?

Sufilər sözügedən mənəvi yolçuluğa seyri-suluk deyirlər. Ancaq haqqın təcəllilərinə son olmadığı üçün suluk, yəni yolçuluq başa çatar, amma seyrin, yəni təcəlliləri görməyin sonu yoxdur. Çünki, təcəllilərin sonu olmaz. Bu baxımdan da yola davam etmək, yüksəlmək bitməz, onun sonu ola bilməz.

# VI BÖLMƏ

## TƏSƏVVÜFDƏ DÜNYAGÖRÜŞÜ – İNSAN – YARADILIŞ, ƏBƏDİ BİR MÖVCUDLUQDUR – ZAMAN VƏ MƏKAN – TƏSƏVVÜFDƏ QƏDİM İNANCLARIN İZLƏRİ – QEYBDƏ OLANLAR – TƏSƏVVÜF VƏ FƏLSƏFƏ – EŞQ VƏ CAZİBƏ

## 30-cu sual: Vəhdət-i Vucud inancında hər şey Haqqın məzhəri olunca, hər şeydə Haqqın sifətləri görünüb o sifətlərə görə işlər ortalığa çıxınca dünyagörüşü adətən ortadan qalxan kimi bir şey [olur]. Bu mistik inancda dünyanın önəmi, kainatın önəmi yoxdurmu? [Bütün bunlarla əlaqədar] Sufilərin dünyagörüşləri necədir?

Vəhdəti-vucudçulara görə mütləq varlıq olan Tanrının mahiyyətli bir iqtizası (oluşu – R.M.) vardır. Su boğduğu, atəş yaxdığı, yalım (çıraq – R.M.) aydınlatdığı kimi, boğmaq, yaxmaq, aydınlatmaq sifətləri necə suyun, atəşin, yalımın mahiyyətində mövcuddursa, onlardan bu vəsfləri ayırmaq necə mümkün deyildirsə, Mütləq Varlığın mahiyyət təzahürü olan ortalığa çıxmaq vəsfini də ondan ayırmağa imkan yoxdur. [Onun] zatı/mahiyyəti hər şeydən münəzzəhdir (fərqlidir/ qüsurlu deyildir – R.M.). Amma hər şey onun zatındadır və zatı daima sifətləriylə zuhur edər/ortalığa çıxar. [Onun] İlk zuhuru bütün aləmin mücməl (cəm halda – R.M.) olaraq elmində təhəqquq (haqq – R.M.) etməsidir. [Yəni] Hərşey mücməl olaraq [Onun] elmində sabit olur. Bu sübut gördüyümüz aləmi izhar edər/bildirər. [Onun] Zatına Mütləq Varlıq, Mütləq Qeyb, yəni gizlilik, Lahut və Əhədiyyət, yəni birlik (əslində "əhəd" "yeganə" deməkdir – R.M.), kitabın, yəni qədərin əsli anlamında Ümmül-kitab, sirrlər sirri mənasında Qaybul-quyub, yağış yağdıran və yağmurlu bulud anlamında Əma, təəyyünsüzlük, maddi varlıq olmayan aləm mənasında lə-təəyyün aləmi kimi adlar verilmişdir. Əhədiyyət alə-

mindən sonra Tanrı [nın] biliyində bilik surətləri (obrazları – R.M.) olaraq sabit olan və əşyanın ilk təəyyünü (müəyyənləşməsi– R.M.) sayılan aləmə, daha doğrusu hər şeyin Tanrı elmindəki sübutuna "Ayan-i sabitə" deyilir ki, bu aləmdən Tanrı adları və sifətləri zuhur edər və bunlar, mücərrəd ruhlar və nəfslər aləmi olan Mələkut aləmini meydana gətirir. Bu aləmə qüvvətlər aləmi də deyə bilərik. Qüvvətlərin maddə halında zuhuruysa Mülk aləmi deyilən aləmimizi izhar edər. Mülk aləminə duyulan, görülən və görüntü aləmi mənasında Şəhadət və Hiss aləmi də deyilir. Bütün bu aləmlər insanda toplanmışdır. Bu baxımdan kövni fəsad, yəni mövcudluq və yoxluq aləmi adlandırdığımız bu maddi aləmdə insan vücudu bədəni baxımından bu aləmə, Mülk və şəhadət aləminə, ruhu baxımından [isə] Mələkut aləminə, Mələkut aləmiylə Lahut aləmi arasında bir keçid, bir bərzəx olan sifətlər aləminə və nəhayət Tanrının zati iqtizasına məzhər olan (Tanrının mahiyyəti olanlara təzahür olaraq – R.M.) bir yaradılmışdır. Ancaq bütün bunlar Tanrı sifətlərinin və sifətlərə görə Tanrı adlarının zühurundan başqa bir şey deyildir, [Allahın] zatıysa bütün bunlardan münəzzəhdir (uzaqdır, pakdır – R.M.).

Bir də bunu demək lazımdır [ki]:

Bu olmaq zaman baxımından başa düşülməməlidir. Yəni, bir vaxtlar Tanrıdan başqa heç nə yox idi. Sonra [Onun] elmindən hər şey sabit oldu. Sonra[dan] bu sübut mücərrədlər aləmini meydana gətirdi. O aləmin maddə halında təzahürü də kainatı izhar etdi kimi düşünülməməlidir. Mütləq Varlıq hər an bütün aləmdən münəzzəhdir. [O] bütün qeydlərdən mütləqdir və hər an zatı iqtizası [yəni] zuhura (təzahür etməyə - R.M.) olan meyli bütün varlıqları bilməsində sübutunu/dəlilini meydana gətirir. [Allahın] Elmindəki bilgi surətləri/formaları şəklində olan varlıqlar hər an qüvvət/imkan halında var olub qalmaqdadır və bu qüvvət də hər an gerçəkləşib maddə şəklinə bürünməkdədir/təzahür etməkdədir. Allahın əvvəlinə bir əvvəl düşünmək qeyrimümkün olduğu kimi, sonuna da bir son düşünmək olmaz. O əzəli və əbədidir. Amma əzəl və əbəd önsüzlük və sonsuzluq an-

lamına gəlir və bu sonsuzluqda yaratmaq və yaradılış, daha doğrusu zühur etmək daimidir. Bütün aləm tamamilə hər an Mütləq Varlığın təcəllisi olaraq zühur etməkdə [və] yenə hər an tamamilə yoxluq aləminə keçib getməkdədir/çevrilməkdədir. Sufilər bunu, "Məgər Biz ilk yaradılışdan acizmi qaldıq?...Onlar yeni yaradılış (təkrar dirilmə) barəsində şək-şübhə içindədirlər" ayəsindəki (L, 15) şübhə anlamına gələn "Ləbs" sözünü libas, geyim anlamında şərh edib "Onlar yeni bir yaradılışdan geyinməkdədirlər" kimi olduqca uzaq və fərqli bir təvil, izah etmək yolu tuturlar. [Sufilər] kainatın hər an yenidən təzəliklə yaradılmaqda və dərhal da yox olmaqda, [daha] sonra yenə zuhur etməkdə olduğunu [və] beləcə də hər an bütün kainatın qeybdən ayna (göz önünə, reallığa – R.M.) gəlib ayndan qeybə getdiyini, yəni, Mütləq Varlığın sifətlərinin hər an zuhur etməklə [var] olduğunu, təcəllidə (ortalığa çıxmaqda) də təkərrür (təkrar) tapılmadığını deyərlər. Əsasən onlara (sufilərə - R.M.) görə keçmiş zaman yoxdur, çünki [keçmiş] ancaq zehindədir. Gələcək zamana heç bir vaxt çata bilmərik. Çünki, dan yeri kimi biz [ona doğru] getdikcə o da uzaqlaşar. İçində olduğumuz zaman isə dayanmaz. Belə [olduğu] halda zaman hadisələrin zehindəki nisbətindən ortalığa çıxan mücərrəd bir məfhumdur. Əslində zaman bölünməyəcək qədər az olan ancaq "an"dır və "an" da uzununa yenilənməkdədir. Biz bu yenilənməyi dərhal görə bilmirik. [Məsələn, necə ki,] ucu yanan bir dəyənəyi olduqca sürətlə sağa və sola yellətsək gözümüzə alov xətti görünəcəkdir. Halbuki, [bu] dəyənəyin heç saxlanılmadığındandır. Çay axıb getməkdədir. Axan su geriyə dönmür. Gələn su daim yenidir. Amma biz onlara bir ad vermişik. Beləcə o adla onları xatırlayırıq (Məsnəvi, I, s.70-71, beyt: 1135-1149)...

Zaman haqqında sufilər bu baxışı, bu anlayışı mənimsədiklərindən onlara görə "sufi vaxtın oğludur". Yəni [sufi] keçmişi, gələcəyi deyil, içində olduğu anı düşünür, o anın icab etdirdiyi/tələb etdiyi kimi hərəkət edər, o andakı Tanrı təsərrüfünə (özünü Tanrıya həsr etməyə - R.M.) uyar/bağlanar amma şəriətin buyurduqlarından da çıxmaz. "Vaxt kəsici bir qılıncdır" ifa-

dəsi də sufilər arasında atalar sözü olaraq deyilir. Bu ifadə ilə hər an Tanrı təsərrüfünə bağlanmağın gərəkliliyi bildirilir (Kuşeyri: Risale s. 40-41, Tahsin Yazıcı terc. Milli Eğitim B. Şark – İslam Klasikleri: 40, İst. Milli Eğitim Basımevi – 1966, s.136-138; Mesnevi, I, s. 10, beyit, 132-134).

Sufilər "Allah qatında ay işığı olan gecəylə aydın gündüzə bərabər gündüz yoxdur" mənasındakı hədisi vaxt haqqındakı dediklərinə bir dəlil olaraq sərgiləyərlər (Cami, II, s.114) və bu xüsusda uydurma hədislər və təkrarladıqları olur.

## 31-ci sual: [Sufilərin] məkan haqqında baxışları, anlayışları necədir/nədən ibarətdir?

Sufilərə görə məkan kövnə, yəni var olmaya, var olana tabedir. Necə zaman baş verənlərin qiyaslanmasından (müqayisə edilməsindən – R.M.) ortalığa çıxan mücərrəd bir məfhumdursa, məkan da var olan şeydən doğan/ortalığa çıxan bir mücərrəd məfhumdur. [Əgər] Var olan (mövcud – R.M.) bir şey olmasa, onun məkanı da olmaz.

## 32-ci sual: [Sufilərin] İnsan haqqındakı baxışları, anlayışları necədir/nədən ibarətdir?

Sufilərə görə insan aləmin özü, xülasəsidir. Tanrı məzhərlərinin (təzahür etdiklərinin – R.M.) ən üstünü, ən kamil olanıdır. [Hətta] Kainatın qayəsi, yaradılışın səbəbi [elə] insandır. Varlıqların (məxluqatın, mövcud olanların – R.M.) hər biri Tanrının adlarından birinin, sifətlərindən birinin məzhəridir. İnsan bütün varlıqların sonudur. [O,] Tanrı sifətlərinin hamısının təcəllisinə məzhər olanıdır. Əslində kainat bir cəsəddir, insan [isə] onun canıdır. Kainat bir bədəndir, insan onun gözüdür.

Sufilər ruhu yaşamaq qabiliyyəti kimi qəbul edib onu dörd hissəyə bölürlər: Cansızlarda bu qabiliyyət [öz] şəklini\ formasını, varlığını\mövcudiyyətini qorumaq şəklində görünür. Buna

"ruh-i cəmadi" – "cansızlara aid ruh" deyirlər. Bitkilərdə özünü qorumaq qabiliyyətinə, bir də [öz] cinsini inkişaf etdirmək və böyüyüb yetişmə qabiliyyəti əlavə olunur ki, buna "ruh-i nəbati" – "bitkilərə aid ruh" deyilir. Heyvandakı bu iki qabiliyyətə duymaq və hərəkət etmək qabiliyyəti də əlavə olunur. Buna isə "ruh-i heyvani" – "canlılara aid ruh" deyilir. İnsanda bu üç qabiliyyətdən başqa anlamaq, danışmaq, xeyri-şəri başa düşmək qabiliyyəti də vardır. Elə əsl insanlıq bu qabiliyyətlə olur\baş verir və buna "ruh-i insani" – "insana aid ruh" adı verilir. İnsandakı o biri üç ruh cəsədlə vardır\ mövcuddur. İnsan ölən kimi onlar da əsillərinə gedər. Yəni cəsəd çürüyür, dağılıb gedir. Onlar da cəsədlə bərabər dağılır və cəsəd adətən yenidən yaradılış çənbərinə girir.

İnsanın bu surətə\formaya cəsəd baxımından gəlməsi əslində bir dövrlədir. Öncə insandan başlasaq bunu daha gözəl izah etmiş olarıq:

İnsan ana və atanın mənilərindən (burada xromosomlarından – R.M.) əmələ gəlmişdir. Ana və ata bunu yedikləri, içdikləri şeylərdən əmələ gətirmişdir. Yeyilən, içilən şeylərsə heyvan, bitki və cansızlardır. Bu halda insanın cəsədi sözügedən surətə/formaya bölünmədən öncə aləmdə dağınıq bir halda, cansızlarda, bitkilərdə, canlılardaydı. Onlardan öncə dörd ünsürdə və dörd təbiətdə, yəni, hava, su, od və torpaqda, soyuqluq, yaşlıq, istilik və quruluqdaydı. Bu dörd ünsür və dörd təbiət göylərin fırlanmasından/hərəkətindən meydana gəlməkdədir. Bu baxımdan [da] doqquz göy insana nisbətdə adətən atadır. Hükəma bunlara uca atalar mənasında "aba-i ulviyyə" demişlər. Dörd ünsür isə ana mahiyyətindədir. Buna görə də dörd ünsürə aşağı analar mənasında "ümməhat-ı süfliyyə" deyilir.

Doqquz göyün yeddisində yer üzündən başlayaraq Ay (Qəmər), Utarid (Merkuri), Zöhrə (Venera), Günəş (Şəms), Mərrih (Mars), Müştəri (Jupiter) və Zühəl(Saturun) ulduzları (planetləri), səkkizinci qat göydə [isə] sabitələr (bürclər) vardır. Doqquzuncu qat[da] olan Atlas göyündə heç bir şey yoxdur və aləm bu göylə/səma ilə bitər/tamamlanar. Göylərlə ünsürlərin birləşmə-

sindən “Məvalid-i səlasə - Üç uşaq/övlad” deyilən cansızlar (mədənlər), bitkilər və heyvanlar dünyaya gəlmişdir. Bu halda insan ünsürlər aləminə gəlmədən öncə göylərdə, ondan öncə qüvvət aləmində, on dövrlə bu aləmə/dünyaya gəldi. Sufilər əti yeyiləcək heyvanın kəsilmədən ölməsini, torpaqdakılara qarışmasını, yaxud [da başqa] heyvanlar tərəfindən yeyilməsini, [və] yaxud da ata belindəykən ana rəhminə (bətninə - R.M.) düşmədən itməsi kimi bir maneə (tavıyq) olmadığı təqdirdə Tanrı biliyindən insan surətinə gələnədək təxminən əlli min il keçəcəyini də “Mələklər və ruh (Cəbrail) Onun (Allahın – R.M.) dərgahına [dünya ilə müqayisədə] müddəti əlli min il olan bir gündə qalxarlar” mənasındakı ayəyə istinad edərək söyləmişlər (LXX, 4). Halbuki, sözügedən ayənin bu tərzdə şərh edilməsi doğru deyildir. Çünki, ayə enişdən deyil, çıxışdan/yüksəlmədən bəhs etməkdədir. Amma sufilər eniş, çıxış/yüksəliş, izafi və etibaridir (nisbidir) deyib buna da bir qulp qoyurlar.

Sufilər bu enişə “dövr” deyirlər. Üstəlik Bektaşilərdə buna dair hecayla yazılmış nəfəslərə də “dövriyyə” adı verilir. Xüsusən [də] peyğəmbərlərin, ərənlərin sıralarına, məzhariyyətlərinə (etdiklərinə - R.M.), sahib olmaqdan, onların mənəviyyatlarından feyz almaqdan bəhs edən şeirlərə də bu ad verilmişdir.

Ana bətnində uşaq insani ruha qabilliyyət qazanınca ona ruh-i insani bağışlanır. Ölümündən sonra qalacaq olan və qiyamətdə cəsəd təkrar/yenidən cəmləndikcə ona daxil olacaq ruh sözügedən insani ruhdur.

## 33-cü sual: Bu izahata görə Mütləq Varlığın sifətləri cəsədə (cismə, bədənə - R.M.) bürünür kimi bir baxış ağla gəlir ki, [bəs] buna nə deyirsiniz?

Belə bir şey yoxdur. Çünki, kainat [Allahın] Tanrı sifətlərinin, Tanrı adlarının təcəlli [etdiyi] (ortalığa çıxdıqları – R.M.) aləmdir. Amma təcəlli (ortalığa çıxmış – R.M.) təcəlli edənin (ortalığa çıxanın – R.M.) eynisi deyildir. Şəriətdən ayrılmayan,

maddəçiliyə (materializmə - R.M.) meyl etməyən sufilərə görə Tanrının zatı (mahiyyəti – R.M.) əslində bunlardan münəzzəhdir (safdır, təmizdir – R.M.). Bir daha xatırladaq ki, günəşin işığı günəş deyildir; aynada görünən aynaya baxan deyildir; fəqət günəş olmasa işığı olmaz; aynaya baxılmasa baxan onda görünməz. Halbuki, Vəhdəti Vücudu Vəhdəti Mövcud şəklində qəbul edən, hətta ruhu cəsədin mənası bilən, aləmin daima Adəm, Adəmin də aləm olduğunu və kainatın hadis-i qədim (əzəli – R.M.) olduğunu, önü (ondan əvvəlin – R.M.), sonu (axırı – R.M.) olmadığını inanc edilən sufilər də vardır.

## 34-cü sual: [Məgər] Təsəvvüfün insan[a] baxışı bundan ibarətdir?

Xeyir, bununla bitmir. Sufilərə görə uca aləmdən, ünsürlərdən üç övlad süzülüb gəlmişdir. Görünüşdə aləm insana görə çox böyükdür. Fəqət insan aləmdən kiçik olmaqla bərabər böyük aləm çəyirdək meyvədə, meyvənin ağacda olduğu kimi insanda olandır (sanki daxilindəki bir dürr-i-mirvaridir). Tanrının bütün sifətlərinə məzhər olan insan yer üzündə Tanrının xəlifəsidir. Amma bu məqama sahib olmaq üçün insanın insanlığını bilməsi, insan olması lazımdır. Özünün izafi varlığından keçib Tanrı varlığıyla var olan insanın iradəsi Tanrı iradəsi olur. Beləsi özü üçün artıq yaşamaz. [Onun] varlığı aləmlərə rəhmət olar. Bu kamillik mərtəbəsinə çatmış ancaq bir insandır ki, o da Həzrəti Məhəmməddir. Ondan əvvəlkilər də onun mənəviyyatından feyz almışdırlar. Ondan sonrakılarda [isə] Hz. Məhəmməd Tanrının zati iqtizasına (mahiyyət olmasına – R.M.) məzhər olan yeganə varlıqdır. Aləmlər insana nisbətdə necə bir cəsədsə və insan o cəsədin canıdırsa, Hz. Məhəmməd də insanların canıdır, insanlar ona nisbətlə bir cəsəddir.

[Necə ki, bütün bunlar] Həzrəti Əlinin bir şeirindəki:

“Dərman səndə, fəqət sənin xəbərin yox, dərdin səndən fəqət sən [bunu] görmürsən.

Özünü kiçicik bir bədən sanırsan, əslində daxilində böyük bir dünya gizlənmişdir.

Elə bir ap-açıq, ap-aydın bir kitabsan ki, gizli şeylər onun hərfləriylə meydana çıxmaqda.

Sənin [özündən] kənara ehtiyacın yoxdur, könlündə yazılmış yazılar hər şeydən sənə xəbər verir"

- beyitləriylə bir az oxşarlıq təşkil edir (Gölpınarlı: İmam Ali Buyruğu: Nehc-ül-Belağave Divandan seçmələr; Ankara – Emek basım yayım evi, s.240-241)...

Qurani Kərimdə insan həm zəiflikləri, həm [də] ucalığı baxımından izah edilir. Məsələn, IV sürənin 28-ci ayəsində insanın zəif olduğu bildirilir. X sürənin 12-ci ayəsində insanın ziyana düşdüyündə dua etməyə, yalvarmağa başladığı, dərddən, zərərdən qurtulanda isə bunu (dua etməyi, yalvarmağı – R.M.) unutduğundan bəhs edilir. XI sürənin 10-19-cu ayələrində [isə] insanın əlindən sərvətlər çıxdıqda qəmə batdığı, ümidsizliyə düşdüyü, nemət əldə etdikdə isə öyünməyə başladığı bildirilir. XIV sürənin 34-cü ayəsində insanın çox zalım, çox nankor, XVII sürənin 11-ci ayəsində olduqca tələskən, XVIII sürənin 54-cü ayəsində dalaşqan və inadkar olduğu bildirilir. [Amma] Bunların əvəzində XVII sürənin 70-ci ayəsinin mənası belədir: "Biz, Adəm övladını şərəfli və hörmətli etdik, onları suda və quruda [gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə] mindirib sahib etdik, özlərinə [cürbəcür nemətlərdən] təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik...". XXXIII sürənin 72-ci ayəsində: "Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalim və çox cahil olan insan isə onu götürdü..." deyilir. II sürənin 30-cu ayəsində Adəmin yer üzündə "xəlifə", yəni Tanrı vəhyinə məzhər (onu həyata keçirən, təzahür etdirən – R.M.), Tanrı buyuruğunu yerinə yetirəcək, Onun buyuruqlarına görə hökmdə olacaq bir yaradılmış olaraq xəlq edildiyi bildirilməklə, XXXVIII sürənin 26-cı ayəsində Davud peyğəmbərə Tanrının "Biz səni

yer üzündə xəlifə etdik, insanlar arasında ədalətlə hök et" buyurduğu anladılır. VI sürənin 165-ci ayəsində insanların "yer üzündə xəlifələr" olduqları, yəni hökm sahibləri olduqları, imtahan edilmələri üçün bir qisminin [digər] bir qismindən üstün edildiyi anlatılıb X sürənin 14-cu ayəsində insanlar yenə "yer üzünün xəlifələr[i]" kimi xatırlanır, 73-cü ayədə Nuh peyğəmbərə inananların qurtulub "yer üzündə xəlifə" olduqları bəyan edilməkdə, XXXV sürənin 39-cu ayəsində insanlar yenə eyni tərzdə anılmaqdadır.

Sufilərə gəldikdə isə, [onlar] bütün bu ayələri və Əbu Hüreyrədən rəvayət edilən "Allah Adəmi öz surətində yaratdı" hədisini (Cami, II, s.4) olduqca aşırı (ifrat şəkildə) izah etməkdədirlər. [Əgər] Bu hədis doğrudursa, sübhəsiz ki, Adəmin və soyunun, yəni insanların ağıl, fikir, anlayış, danışma, hökm [çıxartmaq], təklif etmək qabiliyyəti kimi sifətlərlə sifətləndirildiyi bildirilməkdədir. Yoxsa, Allahın surəti[nin olması] və bu baxımdan da cismi[nin] olmasını qəbul etmək İslam inancına daban dabana ziddir. Hesab edirik ki, bu söz "Əhd-i Ətiq"in "Təkvin" bölümündəki iki cümlə[sin]dən uydurulmuşdur (26-27). [Belə ki,] Sufilər insanı müqəddəs saymaqda çox ifrata gedirlər. Onlara görə "kamil insan"la Tanrı arasında demək olar ki, heç bir fərq qalmaz. Hətta [sufilərdən] batini inancları mənimsəyənləri həqiqətdə səcdənin insana olduğunu söyləməkdən belə çəkinmirlər. Məsələn, Qeybi Sunullah tərəfindən şeyxi Oğlanlarşeyxi, yaxud [da] Oğlanşeyx İbrahimin sözlərinin yazılmasından meydana gəlmiş "Söhbət-Namə" də "Surət-i adəm, sərpa (başdan ayağadək – R.M.) ləfzətullah numudarı (Allah sözünün nümunəsi) olduğu kimi bəzi əczasında (bədən üzvlərində) dəxi nümunə-i ism-i zat (Allahın adları – R.M.) mövcuddur; necə ki, dəstini (əlini – R.M.) mürəkkəbə qoyub/batırıb kağız üstünə qoysan ism-i zat surəti müşahidə olunur ki, [elə] Ləfzətullah budur" deyildiyi söylənməkdə, "Və dəxi həqiqət-i adəm indət-təhqiq (təhqiq edilməsi baxımından – R.M.) nədən ibarət olduğunu təhqiqində Fəzli Yəzdanın bu beyt-i rənalarını oxuyurdu:

“Ma Xoda-yi aləm adəm yaftim
İnçenin adəm vəli kəm yaftim” deməkdədir[29]

## 35-ci sual: Doqquz göy, yeddi ulduz haqqında nə düşünürsünüz?

Həqiqətən də doqquz göy, yeddi ulduz [ideyası] antik Yunan fəlsəfəsindən, elmindən, hətta qədim İrandan, sonra da Romadan [müsəlman aləminə] keçmişdir.

[Belə ki,] Qədim Hind-İran inancında bu yeddi ulduz bəzən mələk, bəzənsə təbii qüvvələr şəklində çıxış etmişdir. Məsələn, Mah, yəni Ay, Bəhram yəni Mərrix (Mars – R.M.), göy və göyün gözü olan Yam, yəni Günəş, Nahid – Zöhrə Hind-İran inancında da vardır. Hətta Yam sonradan Cəm və Cəmşid şəklində İranın mifologiya tarixinə də keçmişdir. Yunanlılarda Artemis (Diyana - Ay), Ermis, Hermis (Utarid), Afrodit[a] (Venus (Venera – R.M.) – Zöhrə), Mitera (Apollo[n] – Günəş), Ares (Mərrix), Zevs (Müştəri), Xronos (Zühəl) ayrıca tanrılardır. Yunan mifologiyasında bunların mövcudluqları, meydana çıxmaları, [gördükləri] işlər haqqında müxtəlif hekayələr vardır. Romada Hermis Merkuri, Afrodit Venus, Appolo[n] Febus, Ares Mars, Zevs Jupiter olmuşdur. Bütün bu mifoloji [olanlar] Romaya keçmişdir. Hind-İran, Yunan-Romadan da İslam aləminə keçmiş bu yeddi ulduz və doqquz göyə müxtəlif təsirlər aid edilmiş, “təncim” yaxud “nucum” adlanan, müsbət mənada işə yarayan, inanc baxımından gələcək zamanda baş verəcəkləri bildirdiyi iddia edilən bir bilik sahəsi meydana çıxmışdır (Dr. Muhammed Muinin “Mazdayasna ve tesir-i on dar Adabiyyat-ı Parisi” adlı kitabından Muhammadür-Razinin “Şarhul-Mektum”undan, rəh-

---

[29]“Biz aləmin Tanrısını Adəm olaraq tapdıq; amma bu cür insanı da az tapdıq, az əldə etdik”. Fikrimizcə, bu sətirlər aşağıdakı şəkildə tərcümə edilməlidir: “Biz aləmin Tanrısını Adəm etdik, Çünki [O] Adəmdir, amma [bununla da] az etdik (Yəni, Adəm=insan bundan da çoxuna layiqdir)”

mətlik üstadın Fərid Kamın “Şerh-i Mütin” qeydlərindən Karl Kerenyinin “Die Mythologie Der Griechen”ından və digər qaynaqlardan nəql edilən Divan-i Kəbir tərcüməmiz, I, Açılama, s. 401-403, 406-407, 412, 421-423, 427-428 və 436-437).

Qurani Kərimdə də yeddi göydən bəhs edilir (II, 29; XVII, 44; XXIII, 17; 86; XLI, 12; LXV, 12; LXVII, 3; LXXI, 15; LXXVIII, 12). XXXVI sürənin 38-40-cı ayələrində günəşin ona aid yolda axıb getdiyi/hərəkət etdiyi, ayın dövrlərdən keçərək quru əyri xurma budağı şəklinə düşdüyü, göydəki cisimlərin hamısının da kainatda/fələkdə üzdüyü bildirilir. LXXIX sürənin 3-cü ayəsində “Üzə üzə gedənlər”dən [danışıldıqda] ulduzların nəzərdə tutulduğu rəvayət edilmişdir (Gölpınarlı: Kuran-ı Kerim ve Meali, İst. Pemzi K. 1958, II, Açılama, s. CXVII). Halbuki, o dövrlərdə ulduzlar göylərə mismar kimi yapışmış hesab edilir, göylərin fırlandığına inanılırdı. Qurandakı yeddi qat yerin, adlarını çəkdiyimiz yeddi ulduz, yeddi göyün də onları bürüyən hava təbəqələri olduğu anlaşılmaqdadır ki, buna görə sufilərin təlakkiyləri (təsəvvürləri, izahatları – R.M.) çox qədim [olub] və çox geridə qalır (Seyyid Hibetüd-din-i Şəhristaninin “Əl-Hayatu val-İslam” adlı əsərinin İsmail Fardovs-i Farahani tərəfindən farscaya tərcüməsinə b. Seyyid Hadi Hosrovşahinin qeydlərilə; Təbriz- Kitab-furuşı-i Sabiri yayını, 1383 H., 1342 Şəmsi hicri, s.152-162 və 274-287).

Sufilərin göylər, ünsürlər və üç doğulmuşlar haqqındakı fikirləri, nəzəriyyələri, doğrudan doğruya antik Yunandan, İxvanus-Səfa”dan, Hukəma fəlsəfəsindən gəlmədədir (İslam ansiklopedisi, İhvanus-Safa bəndinə baxın. Cüz. 50, İst. 1951, s.946-947).

## 36-cı sual: Fırlanma/Dövr dediyiniz nəzəriyyəylə tənasüx arasında bir əlaqə vardırmı; yaradılış və qiyamət haqqında sufilərin fikirlərini bir qədər də açıqlaya bilərsinizmi?

Bundan əvvəlki suala verdiyimiz cavabda da açıqladığımız kimi dövr [nəzəriyyəsi] aləmin insan olduğuna inanmaqdır. Ruhu cəsədin bir anlamı, bir qabiliyyəti sayanlara görə isə ölümün-

dən sonra ya bu anlam cəsədlə birlikdə yox olub gedir, dağılır. Nəşr, yəni dağılma aləmindən gələn, həşr olan, yəni zərrə zərrə kainatdan süzülüb axırda insan surətini əldə edən maddə yenə nəşrə məruz qalır; zərrə zərrə dağılır, o zərrələr əsasən yenidən qəlibə girər və yeni bir insan varlığının zərrələri olur. Amma yenidən həşredilən, yenidən kainatdan süzülüb gələn insan o birisi olan insan deyildir artıq; o yox olub getmişdir. [Əgər insan] Həyatında bir şey etmişdirsə, bir yaxşı iz buraxmışdırsa, onunla anıla bildiyi qədər və anıla bilinəcəyi müddətdə xatırlanır. [Fikrimizcə] Bu tamamilə maddəçi (materialist – R.M.) bir inanc olub ruhu inkardan başqa bir şey deyildir.

İnsani ruhun yox olmayacağına inananlar isə ölümdən sonra iki inancı mənimsəyərlər:

İnsan bu dünyada tam kamilliyə nail olmuşsa ruh, Mələkut aləmində qalır. [Kamilliyə] çatmamışsa hansı mərtəbəyə nail olmuşsa o mərtəbənin məzhəri olan bir cəsədə/bədənə daxil olar. Ya yenidən insan olaraq [meydana] gəlir, yaxud heyvandan aşağıdırsa, mədənlər aləminə qovulur. İllər boyu fırlanıb/dövr edib axırda yenidən insan surətini tapır. Bitki mərtəbəsində isə bitki halına düşər, bitki olub qurtarar. Heyvan[at] mərtəbəsində isə özündən hansı heyvanın huyu üstün olarsa, o heyvanın cəsədinə bürünür, dünyaya o surətdə gəlir. Beləcə ölüb - dirilib, gedib – gəlib kamala çatır. İnsanın yenə insan olaraq [dünyaya] gələcəyinə, heyvan, bitki, mədən aləmlərinə qovulacağına inanmanın fərqli adları olmaqla yanaşı bütün bunlara “tənasüx” deyilir. Bu inancın kökü qədim Misir və Hindistana gedib çıxır.

İkinci inanc isə ruhun təkrarən bu dünyaya gəlməyəcəyinə inanmaqdır. Bu inancı mənimsəyənləri də iki yerə ayırmalıyıq. [Bunlardan] Bir qismi şəriətçilərdir. Onlar [insan] öldükdən sonra ruhun keyfiyyətini bilmədiyimiz bərzəx aləmində (sorğu-sual aləmi – R.M.) bu dünyadakı əməlinə görə mükafat və ya mücəzat (cəzalandırma – R.M.) görəcəyinə, qiyamət olduqda əvvəlki cəsədinin təkrar həşr ediləcəyinə (dirildiləcəyinə - R.M.) və ruhun həmin cəsədə girdikdə soruşulmadan, [haqq-]hesab [edildikdən]

sonra cənnətə yoxsa cəhənnəmə gedəcəyinə, cəhənnəmə gedənlər iman sahibi olduqda günahları qədər əzab görüb axırda cənnətə götürüləcəklərinə yaxud [da] cəhənnəmə getmədən hər hansı bir vəsiləylə ya Allah tərəfindən bağışlanacaqlarına, yaxud şəfaətə nail olacaqlarına [və] bu şəkildə cənnətə gedəcəklərinə inanırlar.

Şəriətdən ayrılmamağı şüar etmiş sufilər isə, iman əhlinin bərzəxdə kamala çatacağına, cəhənnəmə gedənlərin də əbədi olaraq orada qalmayacaqlarına inanırlar. [Bunlardan] Bir qismi axirəti sifətlər aləmi olaraq qəbul edər, bərzəx aləmini və o aləmdəki cəsədi [bu] dünyada edilən əməllərin mənəviyyatından meydana gəlmək misalında olan bir cəsəd olaraq başa düşüb həşredilən cəsədin dünyadakı cəsəd olmadığını iddia edərlər. Aralarında İbn Ərəbi kimi cəhənnəmin əbədi olmadığını söyləyənlər/iddia etmişlər də olmuşdur. Bütün bu inancları şəriət əhli "ilhad", yəni dində olmadığı təqdirdə dinə soxulmuş uydurma inanclar olaraq qeyd etmişlər.

Tənasüxün nəticəsi/hasili dövürdən/fırlanmadan tamamilə fərqlidir. Dövr insana gəlib çatana qədər maddənin cansızlar, bitkilər, heyvanlar aləmindən süzülərək insan şəklini tapdığı inancdır. Bu inancda ruh ana bətnindəki uşağın cəsədinə nəfedilən (can verən – R.M.) bir "lətifə-i rəbbaniyyə"dir (Allahın lütfüdür – R.M.)...

**37-ci sual: [Siz] Cansızlar, bitkilər, canlılar olaraq üç [qrupdan ibarət] bir təsnifat etdiniz. Təsəvvüf əhlinə görə bitkilər cansızlarla canlılar arasında bir yaradılmış olur. Onlar (sufilərə - R.M.) görə bitkilərdə can yoxdurmu?**

...Sufilərə görə hər şeyin canı vardır. Cansız bildiyimiz şeylərdə can [belələrinin] uzun müddət mövcudluqlarını qoruyub saxlamalarıdır. Fəqət bu qoruma da zaman keçdikcə dağılır, aşınır, aləmə qarışıb gedir. Onda (bitkilərdə - R.M.) da can vardır. Bitkinin canı böyüməsi[ndə və] törəməsi[ndə]dir. [Digər] Canlılarda isə bu can özünü duyğu, səsə və hərəkətlə göstərir. İnsan [isə] digər canlılardan anlamaqla, danışmaqla, hətta bəzilərinə

görə gülməklə, ağlamaqla, ağıl verməklə, düşünməklə fərqlənir. Bütün varlıq aləmi (mövcudat – R.M.) dayanmadan dəyişir, hər an yenilənir. Biz bu dəyişməni zaman keçdikcə başa düşə bilirk. Əslində dünyada bir an [olsa da] belə sükunət və dayanmaq yoxdur. [Belə ki, məsələn] Günəşin işığı hər an eyni işıq deyildir. Dənizin dalğaları heç bir zaman daha öncəki dalğaların eyni olmur. Aləm/dünya da eyni aləm/dünya deyildir.

[Beləliklə də] Sufilər hər şeyin canlı olduğuna inandıqları üçün hər şeyə qarşı mərhəmətlə, [əllərindən gələni] əsirgəməməklə yardım edərlər. Namaza qalxdıqları vaxt səcdə yerini öpərlər. Namaz başa çatanda yenə səcdə yerini öpüb qalxarlar. Bir yerə toplandıqları vaxt yeri öpərək şükür səcdəsini yerinə yetirərlər. Yeriyəndə belə yerə bərk basmazlar. [Çünki] yer ayaqlar altına döşənmişdir, [o] hər kəsi başının üstündə daşımaqdadır, hər kəsə xidmət etməkdədir. Bu üzdən də onlar addımladıqları yeri incitməkdən çəkinirlər. [Və ya] Su içdikləri vaxt bardağı astaca öpərlər. Qaşığı, çəngəli əllərinə götürdükdə [onların] sapını öpərlər. Süfrəni öpüb [ətrafında] otururlar. Yemək bitdikdə [süfrəni] öpüb qalxarlar. Bu [cür] öpməyə "görüşmək" deyərlər. Yatdıqları zaman yastığı, üstlərini örtərkən yorğanı öpərlər və yenə [yuxudan qalxarkən] yorğan və yastıqla görüşüb [yataqlarından] qalxarlar. Hətta dəsmaltək öpülməyən [bir] şeyi belə [əllərinə] alarkən onu öpən kimi [hərəkət] edib barmaq uclarını öpərlər. Bütün bunlar təriqət ədəbləridir və hər şeyi canlı qəbul etdiklərindən irəli gəlir.

## 38-ci sual: Təsəvvüf ilk insanın yaradılışı haqqında nə söyləyir?

İlkin [dövr] sufilərdə belə bir şey olmasa da sonrakılar ilk insanın təkamüllə meydana gəldiyi inancını qəbul etmişlər. Belələrinə görə cansızlar təkamül edərək mərcan [səviyyəsinə] gəlib çıxmışlar. Mərcan qatılıqda daş kimidir. Amma zərrə zərrədir (bölünəndir – R.M.), dənizdə bitər, çoxalar, dənizdən çıxdıqda

quruyur, daş olur. [Belə ki,] Mərcan adətən cansızlardan bitkilərə [doğru] bir meydana gəlməni həyata keçirir. Bitki[lər isə] təkamül edərək xurmaya gəlib çıxmışdır. Bitkilərlə canlılar arasında keçid də xurmadır. [Çünki,] Xurmanın başı kəsilərsə quruyur, cütləşdirməklə çoxalır. Heyvanlar da təkamül etdikcə insan meydana gəlmişdir. Bəzilərinə görə heyvanların ən təkamül etmişləri atdır. Bəzilərinə görə [isə] meymunla insan arasındakı bir yaradılmış olan "nəsnə"dir. Hətta [bunlardan] insan sözünün belə nəsnə sözündən meydana gəldiyini söyləyənlər olmuşdur (Haşim Baba, ölümü 1197 hicri, 1783: Divan, Taşbasması; s. 115, 117; Erzurumlu İbrahim Hakkı: Marifet-Name, İst. 1294, s.26-27).

[Biz (Ə.Gölpınarlı – R.M.) təsəvvüfdə] Bu təkamülün ilk insan meydana çıxdıqdamı olduğu yoxsa hələ[də]mi olmaqda olduğu haqqında aydın bir ifadə olmadığından [onun] ilk insanın meydana çıxmasına aid olduğu qənaətindəyik. Şəriətdə Adəm peyğəmbərin ilk insan və ilk peyğəmbər olduğu inancına qarşı Adəmdən öncə necə adəmlər vardı deyib Adəm peyğəmbərin insanlığını dərk edən və vəhyə məzhər olacaq qabiliyyəti qazanmış ilk insan olduğunu söyləmişlər. Ancaq burada (təsəvvüfdə - R.M.) Adəm peyğəmbərin indiki insan nəslinin atası olduğuna, ondan öncə də insanlar olub nəsillərinin tükəndiyinə dair xəbərlərin olduğunu qeyd edək (Seyyid Hibetüd-dır-i Şehristani: Al-Hayatü vel-İslam, Necef – Adab Mat. 1328, s.257, 290-291; Bıharul-Envar Hısal və Fütuhat-dan nəql edilərək).

**39-cu sual: Bundan əvvəlki suallara verdiyiniz cavabda kamillik mərtəbəsinə yalnız Həzrəti Məhəmmədin çatdığını söyləmişdiniz və ondan öncəkilərin də, sonrakıların da ondan feyz aldıqlarını bildirmişdiniz. Bu tam anlaşılmadı. [Çünki] ortalığa [başqa] suallar, cavablar, mövzular girdi. Zəhmət olmasa bunu daha aydın, daha ətraflı izah edərsinizmi?**

Mütləq Varlıq hər şeydən münəzzəh olan zatı, əvvəlcə də anlatdığımız kimi Əqli-kküllü (Fəal Ağlı) izhar etmişdir. Sufilər bu

ilk təcəlliyə “Vəhdaniyyət – Birlik” demişlər. “Həqiqət-i Məhəmmədiyyə - Məhəmmədin əsl məqamı” olaraq bu ilk təcəllini qəbul etmişlər. Mütləq Varlıqla aləm arasında bir bərzəx, bir keçid olan bu məqama hər zaman tək bir adam məzhərdir. Həzrəti Məhəmməddən əvvəl gəlib getmiş peyğəmbərlər həm bu məqamdan feyz almışlar, ondan sonrakı gələnlər də bu məqamdan feyz almaqdadırlar. Bu məqama hər zaman tək bir adam məzhər ola bilir. Ona “Qütbül-Əqtab – Qütüblərin Qütbü” deyilir. Qütb [isə] dəyirman daşının mili anlamında olan ərəbcə bir sözdür. Dəyirman daşı necə o milin ətrafında dönər və necə o böyük daşı mil fırladırsa, döndərirsə, bütün aləm də qütbün iradəsiylə fırlanar, hər kəs ona, o da Tanrı iradəsinə tabedir.

İmamiyyə məzhəbində Hz. Peyğəmbər Allahın əmriylə Əlinin vəsi və imam olduğunu ümmətə bildirmişdir. Hz. Peyğəmbərdən sonra imamət Əlinin və nəslindən olan on bir imamındır. On ikinci İmam Mehdidir. [O] sağdır, zühur edəcəkdir, zülmlə dolmuş dünyanı ədalətlə dolduracaqdır. Bu məzhəbi qəbul edən sufilərə görə Qütb on ikinci imamdır. Ondan başqa Qütb yoxdur. Ona ən yaxın olan insanın vilayəti də ancaq ondan niyabəd yoluyladır (Mehdi hədislərinin Əhli Sünnət kitablarında olduğunu [tapmaq] üçün Seyyid Murtazal-Fıruzabadi-nin “Fadailül-Hamse min Sıhahıs-Sitte” adlı kitabına baxın, c. III, Nəcəf-1348 H., s.324-343).

Qütbdən sonra mənəvi baxımdan ona ən yaxın iki adam vardır ki, bunlara iki imam mənasını verən “İmameyn” deyilir ki, bunlardan bir Qütbün sağında, o birisi isə solunda [olduğu] fərz edilir. Qəlb solda olduğu üçün Qütbün təsərrüfünə varis olacaq adam [onun] sol tərəfindəkidir. Qütb ölən kimi sol tərəfində fərz edilən insan [onun] yerinə keçər. İmameyn və İmamən deyilən bu iki insandan sonra dörd insan vardır. Bunlara dirəklər anlamında “Əvtad” deyilir. Bu ad [onlara] pis vəziyyətlərini yaxşı vəziyyətlə dəyişdirə bildiklərindən, yaxud [da] istədikləri vaxt, istədikləri yerlərdə özlərinə bədəl göstərə bildiklərindən, yəni bir anda bir çox yerlərdə göründüklərindən, yaxud Qütbün ölümündən sonra sol tərəfdəki qütb ölüncə onun yerinə keçmişlərdən bi-

ri, keçdikdən sonra da boşalan yerə də abdallardan biri keçdiyindən bu adla xatırlandıqları söylənilməkdədir. Abdalın doqquz, yaxud qırx adam olduğunu, daha da artıq olduğunu söyləyənlər də vardır. Abdaldan sonra yetmiş, yaxud yetmişdən artıq adam gəlir ki, onlar da özü, nəsli təmiz insanlar anlamında “Nücəba” (nəcabətlilər – R.M.) adlanırlar. Nücəbadan sonra üç yüz altımış nəfər təmiz insan vardır. Qütb öldükdə aşağı təbəqələrdən bir-bir adamlar daha yuxarı təbəqəyə keçirilir. Üç yüz altımış adamdam biri Nücəbaya qatılır, xalqdan biri də üç yüz altımış adamdan boş qalmış yerə götürülür və beləcə say tamamlanır. Xalq qütblə iki imama “üçlər”, abdalla [isə] “yeddilər, qırxlar” deyir. Bunlardan hər biri bir işi yerinə yetirir. Hamısına birlikdə “Ricalul-Qayb – Qeyb adamları, gizli insanlar” adı verilir (Nefehat tərc. S.26 və ardı; Sefinetül-Bıhar, II, s.438-439, Cami, I, s.102; Taraıkul-Hakaaık, I, s.503-533)...

Üçlər[in], yeddilər[in], qırxlar[ın] da yəni bu sayların müqəddəs sayılmasında pifaqorçuların təsirlərini görməmək mümkün deyildir. Əsasən Hükəmadan təsəvvüfə keçən bu inanclar hükəma məsləyinə də qədim Hind – İran, Aşşur, hətta Misir inanclarından, saabilikdən və Yunan fəlsəfəsindən keçmişdir (Gölpınarlı: Simavna kadısı oğlu Şeyh Bedreddin; Eti yayınevi – 1966, Batinilik bölməsi, s.12-29).

## 40-cı sual: Mehdi inancı haqqında fikriniz nədir [və] bu inancda qədim dinlərin təsirləri vardırmı?

Dinlər tarixini araşdırsaq hər bir peyğəmbərin özündən sonra gələcək [növbəti] bir peyğəmbəri müjdələdiyini görürük. Demək olar ki, bu həmin peyğəmbərin gələcəyi, gələcəkdə lazım olacaq şeyləri bilməsindən ortalığa çıxmışdır. Hz. Məhəmməd peyğəmbərlik dövrünün bitdiyini ilahi vəhylərlə bildirmiş son peyğəmbərdir. Qurani Kərimin XXXIII surəsinin 40-cı ayəsində Hz. Məhəmmədin şəriət sahibi olan peyğəmbər və Tanrıdan xəbər gətirənlərin (Nəbilərin) sonuncusu olduğu açıqca bildiril-

məkdədir. Nəbi, yəni Tanrı elçisi, Tanrıdan xəbər gətirən sözü ümumi bir sözdür. Nəbilərin şəriət sahibi olanlarına "rəsul" deyilmişdir. Hər rəsul Tanrıdan xəbər gətirməsi baxımından nəbidir, amma hər nəbi rəsul deyildir. Bu ayəyə görə həm rəsul, həm də Tanrının elçisi olan Hz. Məhəmməd şəriət sahibi olanların da, olmayanların da sonuncusudur.

[O (Məhəmməd peyğəmbər – R.M.)] Özü də özündən sonra artıq [heç] bir peyğəmbər gəlməyəcəyini açıqca söyləmişdir (Cami, I, s.90, Fadailül-Hamse, I, Necef – 1383, s.49-50; Buharı, Müslim və Müsnəddən nəql edilərək). Fəqət Hz. Məhəmməd öz nəslindən gələcək bir Mehdini[n] zülmlə dolmuş olan dünyanın onun tərəfindən ədalətlə dolduracağını müjdələmişdir. Ancaq bu Mehdi peyğəmbər deyildir, Hz. Məhəmmədin şəriətini dirildəcək bir zatdır/şəxsdir. [Belə ki,] Bu xüsusda bir çox hədislər vardır (Müslim, Tirmizi, Əbu Davud, İbni Macə, Müsnəd, üstəlik on hədis kitabından nəql edilən Fadailül-Hamse, III, Nəcəf-1384, s.324-343).

Yerigəlmişkən qeyd edək ki, şərqşünasların Mehdi haqqında fikirləri, araşdırmaları, gəldikləri nəticələr bütün İslama aid biliklərdə olduğu kimi əvvəlcədən verilmiş qəsdli hökmlərə, qəsdli oxşatmalara istinad etməkdədir və bu üzdən də [belələrinə] etibar ediləsi deyildir (İslam Ansiklopedisi. D.B.Macdonaldın yazdığı "Mehdi" bəndi, cüz.74, İst. 1956, s.474-479).

Səhih hədislərdə olan Mehdi bir-çox adamların Mehdilik iddiasıyla ortaya çıxmasına səbəb olmuş, bunun üzündən İslamda (müsəlman aləmində - R.M.) bu xüsusda müxtəlif əlaqədar hadisələr baş vermiş, hətta bu inancdan faydalanaraq hökümətlər qurulmuşdur ("Simavna kadısı oğlu şeyh Bedreddin" adlı kitabımızın "Batinilik" bölümünə baxın).

## 41-ci sual: Sabiilik nədir?

Sabii ibranicə "daldırmaq", "batırmaq" mənasını verən "Səba" sözündən törəmiş, sözün kökündəki "ayn" hərfi ərəbcədən

atılmışdır. [Sabilər] Qurani- Kərimdə müsəvilər və xristiyanlarla bərabər xatırlanmışdır (II, 62, V, 69). XXII surənin 17-ci ayəsində bunlara "Məcus", yəni Zərdüşt dinində olanlar da qatılmışdır. Sabiilərə "Hunəfa" deyildiyi də rəvayət edilmiş və bunların İbrahim Peyğəmbərin dininə uymuş adamlar olduqları söylənilmişdir. Hunəfa "hənif" sözünün cəmidir. Hənif [isə] azğınlıqdan doğru yola yönəlmiş mənasını verir (El-Müfredat fı Garıbil-Kuran, s.133-134). Qurani-Kərimdə II surənin 135-ci, III surənin 67-ci və 95-ci, IV surənin 125-ci, VI surənin 79-cu və 161-ci, X surənin 105-ci, XVI surənin 120-ci və 123-cü, XXII surənin 31-ci, XXX surənin 30-cu və XCVIII surənin 5-ci ayələrində "Hənif" və "Hünəfa" sözləri İbrahim peyğəmbərin dini, fitrət, yəni yaradılış, yaradılışdakı sağlam din olan İslam dini, həqiqi və doğru din adamlarından bəhs edilir. Britaniya Ensiklopediyasına görə Babildə yarıxristian bir məzhəbə uyanlara Sabii deyilmişdir. Bunlar Yəhya peyğəmbərə inanmışlara bənzəyirdilər. Həbib-i Nəccar, [Məhəmməd peyğəmbərin] səhabə[lərin]dən Əbu Zərr, Səlman və digərləri İslamdan öncə bu məzhəbdən sayılmışlar. Şəhristani "El-Milelu ven-Nihal" da bu firqəni Sabiə və Hunəfa deyə iki yerə ayırmışdır. Ona görə Sabiə cismani bir mütəvassitlə (vasitə ilə - R.M.), yəni peyğəmbərlər deyil, ruhanilərlə Tanrıya çatılacağına, Hünəfa isə peyğəmbər vasitəsi ilə həqiqətə çatılacağına inananlardır. Sabiəyə görə yeddi ulduzun aktiv və passiv qüdrətləri, yəni ağıl və nəfsləri vardır: bunlar müqəddəs atalardır (yaradıcılardır – R.M.). Bunların dövr etməsi ünsürləri meydana çıxarır; bunlardan (ünsürlərdən – R.M.) da cansızlar, bitkilər və canlılar doğur. Ulduzlar hər cür vəsfdən uca və münəzzəh olan yaradıcının qatında şəfaətçidirlər. Bu inancı güdmüş Sabiə ulduzları təqdis etmişdirlər (müqəddəsləşdirmişlər – R.M.) (Beyrut, daşbasması, s.136-137).

Sabiə varlıq aləminə məbdə (başlanğıc – R.M.) olaraq Tanrı, ağıl, nəfs, məkan və hala, yəni boşluqdan ibarət beş cövhər qəbul edərlər, insanın ünsürlərdən əmələ gələn cəsədə (cismə - R.M.) bürünməklə əslində ayrıldığına, bu aləmdə gözəl xüsusiy-

yətlərə sahib olub yaxşılıq etməklə də ruhanilər (mənəvi – R.M.) aləminə çata biləcəyinə inanırdı[lar] (eyni, s.151 və ardı). Bunlara "Mandeens" də deyilirdi. Bu ad elm və irfan mənasını verən Yunanca "Qnozis" sözünün təki olan "Manda" sözündən [irəli] gəlir.[30] Zəməxşəri bunları kitab əhlindən hesab edir. [Onların] Yəhudilikdən döndükləri, mələkləri müqəddəsləşdirdikləri rəvayət edilir. Hənəfiyyə [məzhəbi]nin imamı Nüman b. Sabitə istinad edilmiş bir rəvayətə görə bunlar xristiyanların firqəsidir; [onlar] Zəbur oxuyurlar. İslamın ilk dövrlərində mərkəzləri Urfanın güneyindəki qədim Hərran şəhəri idi. "Ginaz" (Qnozis – R.M.) adlanan müqəddəs kitabları vardı; vəftizi qəbul edirdilər. Manihizmin qurucusu olan Mani də əvvəlcə bu məzhəbdən idi (M.Şemseddin: Kablel -İslam Araplar ve Tedeyyünleri; Darül-Fünün, İlahiyat Fakültesi Mecmuası, I. Sene: sayı: 3, İst. Evkaf Mat. 1926, s.113-176; Sabie hakkındaki izahat, s.164-166).

Buxari Qüreyşin Əbu Zərri Qifariyə Sabii dediyini bildirir (Huseyn b. Mubareiz-Zebıdı: Kitabüt-Tecrid-is-Sarıh li Ahadısil-Camius-Sahıh; Mısır, Hayriyye Mat. 1322; II, s.48). İkinci xəlifə Ömər Əvfoğlu Əbdürrəhman Hz. Məhəmmədin Yəməndəki məcusilərdən, yəni Zərdüşt dininə uyanlardan cizyə (Kitab əhlindən alınmış can vergisi) aldığına şahidlik alanadək onlardan cizyə almamışdır (eyni, Kitabu Bedil-halk, s.39).

Rağibi-İsfəhani Səbiəyi Nuh peyğəmbərin dinindən hesab etmişdir (El-Müfredat, s.274).

Hicri IV əsrdə (X) Hind-İran, hətta Misir dinlərindən və xüsusən [də] Yunan fəlsəfəsindən formalaşmış inanclara sahib olan və özlərinə "İxvanus-Səfa va Xüllanül-Vəfa", yəni təmiz qardaşlar və vəfalı dostlar adını vermiş fəlsəfi və gizli qurum və bunların yazdıqları risalələr (Resailu İxvanüs-Səfa) bütün bu inancları, bu nəzəriyyələri İslam (müsəlmanlar, İslam bölgələri - R.M.) arasında yaymış və təsəvvüf fəlsəfəni rədd etməklə yanaşı bu

[30] Söhbət xristiyanlıqda maniliyin də (mandeizm) aid olduğu qnostiklərdən və ya qnostisizmdən gedir.

inanclarla sistemləşmişdir (İslam Ansiklopedisi, cüz. 50, İst. 1951, "İhvanus-Safa" maddesi, s.946-947; cüz. 100, İst. 1964, Sabiıler, s.9-10; Taraıkul-Hakaaık, I, s.296-309)

## 42-ci sual: Təsəvvüf niyə fəlsəfəni inkar edir?

Fəlsəfə ağıl vasitəsilə həqiqətə çatmağa çalışır. Təsəvvüf isə ağlın həqiqətə çata bilməyəcəyinə, həqiqətə ancaq eşq və cazibəylə çatmağın mümkün olacağına inanır. Fəlsəfə biliklə hərəkət edir. Təsəvvüfsə biliyi ancaq bir vasitə olaraq qəbul edir, qayəsinə diqqət edilərsə insana mənlik verəcəyini söyləyir. Fəlsəfə dinlə maraqlanmır. Sufilərsə əsl dini, dinin mahiyyətini özlərinin bildiklərinə inanırlar. Fəlsəfədə əxlaqı təmizləmək, varlığından (mövcudiyyətindən – R.M.) keçmək (onu aşağılamaq – R.M.) ancaq işraqilik nəzəriyyəsini qəbul edənlərdə vardır. Amma [burada (işraqilik fəlsəfəsində - R.M.)] bir mürşidə bağlanmaq, zikr, xəlvət və s. yoxdur. Təsəvvüf isə bunları əsas olaraq qəbul etmişdir. Sufilər buna görə fəlsəfəni və filosofları qınayarlar. [Sufilər] Təsəvvüfün batin elmi olduğunu söyləyirlər.

## 43-cü sual: Eşq və cəzb etmək nədir və nə deməkdir?

Eşq sevginin son həddə çatmasıdır. Sufilər eşqi iki yerə ayırırlar: Eşq-i Məcazi; Eşq-i Həqiqi. Yəni, keçici və gerçək eşq.

Keçici eşq kiməsə [münasibətdə] duyulan sonsuz özləm və istəkdir. Qədim [zamanlarda yaşamış] həkimlər/təbiblər eşqi bir malihulya (təxəyyül məsulu – R.M.), bir sabit fikir, lap dəqiqi bir xəstəlik olaraq qəbul etmişlər. Qəti olaraq sevilənlə görüşməklə, cinsi əlaqəylə, bu olmadığı, baş vermədiyi təqdirdə yeni bir eşqlə, yaxud səyahətə çıxmaqla bu xəstəlikdən qurtulmağın mümkün ola biləcəyini söyləmişlər. Eşqin maddi-mənəvi bütün bağları qırdığına, insanı ancaq sevgiliyə həsr etdiyinə diqqət edərək sufilər keçici eşqə də yaxşı baxıb "məcaz həqiqətin körpüsüdür" demişlər.

Həqiqi eşq [isə] Tanrıya [münasibətdə] duyulan sonsuz sevgi və özləmdir. Bunu müasir anlamda aşağıdakı şəkildə izah edə bilərik: Həqiqi eşq gözələ deyil, gözəlliyə, bir adama deyil, hamıya, fərdiyyətə deyil topluma duyulan sevgidir. Gözəllərdə gözəlliyi hər şeydə yaradanın qüdrətini, hikmətini, sənətini əsərində (xəlq etdiklərində - R.M.) görmək, fərdiyyətdən topluma yayılmaq/keçmək, özü üçün deyil, toplum üçün yaşamaq və çalışmaqdır. Bu cür eşq insanın toplumdan aldığı bütün pisliklərini yox etdiyi kimi toplumun pisliklərini də dözümlülüklə qarşılamağa, ən gözəl və yerində [olan] tədbirlərlə onları yaxşılığa döndərməyə insana [möhtəşəm] bir güc verir. Bu əsasən İslamın təməl işlərindəndir. Özünü dartmamaq, əsl-nəsl təəssübü çəkməmək, hər kəsə yardım etmək, hər kəsi sevmək, sevindirmək, həqiqəti demək, pisliyi əllə, dillə kənarlaşdırmaq, buna imkan tapmazsa heç olmasa qəlbində pisliyə razı olmamaq Quranın və Peyğəmbər buyuruqlarının əsasıdır. [Əgər biz] Bunlara aid nümunə göstərməyə çalışsaq [onda] başqa və qalın bir kitab meydana gəl[əcəkd]ir (“Hz. Muhammed ve Hadisleri” adlı kitabımıza b. İst. Okat Yayınevi – 1962, s.13-27, 45-48).

“Eşq” sözündə məcazi sevgi mənası da olduğundan Allahın qullarını sevməsinə, yaxud qulların Allaha bəslədikləri sevgiyə eşq deyilməsi yaxşı qəbul edilməmişdir (Sefinetül-Bıhar, II, s.197-198).Quranda da eşq sözü yoxdur. 83 yerdə “hubb-sevmək” sözü, müsbət, mənfi, müxtəlif mənalarıyla fərqli anlamlarda verilmişdir. Məsələn, III sürənin 31-ci ayəsində “[Ya Məhəmməd!] De ki: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın...” deyilir. Həmin sürənin 92-ci ayəsində [isə] inananların sevdikləri şeylərdən yoxsullara vermədikləri təqdirdə ehsan sahibi və xeyirli insanlar olmayacaqları bildirilməkdədir (Muhammed Fuad Abdül-Bakıy: El-Mucemul-Mufehres li Alfazil-Kuranil-Kerim, Kahire – 1364, s.191-193).

“Cəzbə” “çəkmək”, “dartmaq” mənasını verən və ərəbcə “cəzb” kökündən törəyən bir sözdür. Sufilər “rəhməti hər kəsi və

hər şeyi qavrayan Tanrının cəzblərindən bir cəzb insanlarla cinlərin (yaxud [da] dünya və axirət əhlinin) bütün ibadətlərinə bərabərdir" mənasındakı sözü hədis olaraq nəql edilsə də bu söz 161 yaxud 62, ya da 66 hicridə (770-782) Şamda vəfat etmiş İbrahim b. Ədhəmin "Haqqın cəzblərindən bir cazibə insanlarla cinlərin qulluqlarından/ibadətlərindən yaxşıdır" mənasındakı sözündən uydurulmuşdur (Mefehat tərc. S.96).

Sufilərə görə, zikrlə, xəlvət və müraqibəylə, yəni mürşidini daim göz önünə gətirməklə, [başqa] bir qisminə görəysə söhbətlə, salikdə cazibə meydana gələnə qədər gözündən ma-siva, yəni Tanrıdan başqa hər şey silinir. Beləcə də mənəvi yolçu tövhid mərtəbələrini fəth edir.

...Sufilər suluk/yol üçün cazibəni şərt bilirlər və onu salikə görə dörd hissəyə ayırırlar:

I Məczub-i qayr-i salik.

Bu [hər hansı] bir mürşidə beyət etmədən cazibəyə çatmış insandır.

II Salik-i qayr-i məczub.

Bu bir mürşidə qoşulmuş, mənəvi yolçuluğa başlamış amma cazibəyə məzhər olmamış [və] buna görə də yol tapmamış adamdır.

III Salik-i məczub.

Bu əvvəlcə mürşidə beyət etmiş, suluk mərtəbələrini bilik yoluyla anlamış, sonra [isə] cazibəyə məzhər olub biliklə bildiyi şeyləri görməyi və mahiyyətinə [görə] tamamlamış, yoxluq mərtəbələrindən Tanrı varlığıyla dönmüş, sulukunu tamamlamış adamdır.

IV Məczub-i Salik.

Bu əvvəlcə cazibəyə düşmüş, varlıqların izafi olduğunu [mövcud] olmaq yoluyla anlamış, özünü Haq[qın] varlığında yox etmiş, Tanrı varlığıyla var olmuş, sonra bir mürşidə qoşulub keçdiyi suluk mərtəbələrini biliklə öyrənmiş adamdır.

Məczub-i qayr-i salik yoxluq aləmində qalır, özü yoxluq mərtəbələrinə çatır. Amma cazibədən sonra suluk görmədiyi,

çatdığı mərtəbələri bilmədiyi, yaxud o mərtəbələrdən birində qaldığı üçün qüsur[lu]dur. Hətta bəzən iradə və ixtiyarı da olmur. Buna görə də [beləsi] təklifdən qurtulmuşdur, [yəni] şəriətdə ona cəza verilməz. Bu cür insan heç bir kəsi irşad edə bilməz.

Salik-i qayr-i məczub suluk mərtəbələrini bilgi yolu ilə öyrənmiş, amma cazibəyə məzhər olmadığından bilgisini görüş/baxışa və oluşa/mövcudluq, mahiyyətə çatdıra bilməmişdir ki, bu [cür olan] da heç kimi irşad edə bilməz.

Saliq-i məczub və Məczub-i saliq həm suluk gördüyü, həm cazibəylə suluk mərtəbələrini bilmək məqamından görmək və olmaq məqamına çatdırdığı üçün irşad vəzifəsini görə bilir. Ancaq bu ikisindən Məczub-i saliq daha üstündür. Çünki o digəri kimi zamanla suluk görməmiş, cazibəylə yoxluq və varlıq məqamlarını birdən aşmış, sonra da bir mürşidə qoşulub aşdığı məqamları, çatdığı mərtəbələri biliyiylə anlamışdır. Bu baxımdan yolda əylənmədiyi, məqamlardan [hər hansı] birinin zövqünə qapılmadığı üçün saliki də yolda əyləndirməz, cazibəylə lazım olan məqamlara çatdırar (Sarı Abdullah: Semeratül-Fuad fil-Mebdei vel-Maad, İst. Matş Amire – 1288, s.42-49).

...Məczub-i saliq və Saliq-i məczub[dan] biri öncə “mahv” aləminə çatmış, mürşidə qoşulunca “sahv” halına gəlmiş[dir]. O biri[si isə] əvvəlcə mürşidə qoşulmuş, sonra cazibəylə “mahv” aləminə çatmış[dır ki], mürşidin irşadıyla bu aləmdə qalmayıb “sahv” halına çatmışdır.

## 45-ci sual: “Sahv, mahv” nə deməkdir?

“Mahv” içkiylə sərxoş olanın etdiyini bilmədiyi kimi qulun (Allah bəndəsinin, insanın – R.M.) Tanrı təcəllilərindən etdiyini başa düşməyəcək, etdiyi işləri, söylədiyi sözləri ağlıyla düşünmədən edib deyəcəyi dərəcədə özünü itirməsidir (Tarifat, s.138). “Sahv” [isə] bu özünü itirmək halından duyğu aləminə/hissi dünyaya qayıtması, özünü tapmasıdır (eyni, s.88). Qüşeyri “Mahv”a “Səkr”, yəni sərxoşluq deyir və insanın mahvı nə qədər

gerçək/həqiqi olarsa sahva gəlməyi də o qədər gerçəkləşir hökmünü verir. [O (Qüşeyri – R.M.)] bu arada Musa peyğəmbərin təcəlliyə məruz qalıb özündən getməsinə dair ayəni də (VII, 143) yada salır. Ona görə qul mahv aləmində müxtəlif hallara düşər. Sahv halında isə bilik aləminə [geri] dönər (s.50).

Mahv cazibədə olur və bu haldaykən insandan ağlı və iradəsi xaricində bəzi pis və şəriətə xilaf sözlər və hərəkətlər də çıxa bilir. Bu cür sözlərə "şath" [şatahat halı] deyirlər. Lüğətdə şath [sözü] hərəkət mənasındadır. Termin olaraq [şath] varlıq, mübarizə və mənlik qoxusu duyulan sözlərə deyilir ki, əsl kişilər/ərənlər bunları kamil insanlar üçün qüsur hesab edərlər (Tarifat, s.76).

## 46-cı sual: Şath dediyiniz şeyi misllarla bir az daha açıklaya bilərsinizmi?

Şatha Bəyazid-i Bistaminin (261 H.784) sözləri arasında çox rast gəlinir. Məsələn, "Mən [elə] bir dənizə baş vurdum ki, peyğəmbərlər onun sahilindəydi/qırağındaydı" (Nəefahat tərc. s.15). "Cəhənnəm dediyin nədir ki? Onu görərəmsə xirqəmin (sufi geyimi – R.M.) ucuyla söndürərəm. Özümü nöqsan sifətlərindən tənzih edərəm. Necə də böyük bir zuhurum var" (Cemal-üd-din Ebul-Ferec Abdür-Rahman ibnil-Cevzi. Telbısu İblis; Mısır – 1928, s.342); "Ona (Allaha – R.M.) çatmadan Kəbənin ətrafını fırlanardım, çatanda gördüm ki, Kəbə mənim ətrafımda fırlanır"; "ilk haccımda evi (Kəbəni), ikincisində ev sahibini (Allahı – R.M.) gördüm. Üçüncüsündə nə Kəbəni gördüm, nə sahibini"; "Lövh-i Məhfuz mənəm" (s.345); "mənim bayrağım Məhəmmədin bayrağından daha böyükdür" (eyni s.); "Allahım xəlq etdiklərindən birisini əzablandırmaq biliyində sabit oldusa, bunu təqdir etdinsə məni o qədər böyüt ki, cəhənnəmə məndən başqa kimsə sığmasın" (eyni, s.346) kimi sözləri şath misallarıdır ( eyni kitabın Şath və mübarizələr fəslinə baxın, s.341-349).

...Məhəmməd b. Əliyyül-Hakimit-Tirmizi ilə (255 H. 868-869) başlamış İnsan-i Kamil (Kamil insan – R.M.) və Xətm-i

Vilayət (Vilayətin sonu – R.M.) nəzəriyyəsi İbni Ərəbidə olduqca ifrat bir həddə çatmışdır. [Belə ki,] Hz. Məhəmmədin son peyğəmbər olduğuna qarşı İbni Ərəbi zaman etibarıyla Mehdinin Xətmül-Övliya - ərənlərin sonuncusu olduğunu, amma əslində bütün ərənlərin feyz almaları baxımından hamısını xətm etmək, hamısının məzhariyyətlərini özündə toplamaq baxımından özünün Xatəm olduğunu, hətta Hz. Məhəmmədin vilayətinə məzhər olduğundan keçmiş peyğəmbərlərlə gələcək/sonrakı ərənlərin yalnız [onun] özündən feyz aldıqlarını iddia etməsi həqiqətən də böyük bir cürətdir. Hz. Peyğəmbər bir hədisində peyğəmbərliyi bir divara bənzətmiş, divarda bir kərpicin əskik olduğunu, özünün peyğəmbərliyi ilə o kərpicin də yerinə qoyulduğunu və özüylə peyğəmbərliyin tamamlandığını/başa çatdığını bildirməsinə münasibətdə İbni Ərəbi röyasında bir daşı qızıl, bir daşı gümüş bir divar gördüyünü, qızılların ərənlər, gümüşlərin peyğəmbərlər olduğunu, özünün də bir qızıl kərpic olaraq o divardakı əskik yerə girdiyini, beləcə divarın tamamlandığını bütövləşdiyini söyləmiş, vilayəti nübüvvətdən üstün saymışdır. Bütün bunlar yalnız hüsni zənnə sahib olmaq şərtiylə şath sayıla bilər (Mevlana Celaleddin adlı əsərimizə baxın, III basım, İst. İnkilap K. 1959, s.234. İbni Ərəbinin bu cür mübarizəsi və Şəmslə çəkişmələri üçün də eyni əsərin 52-53-cü səhifələrinə baxın).

...Bunu da qeyd edək ki, Bəyazidi Bistamidən nümunələrini verdiyimiz Hüsey b. Mənsuril-Həllacın (309 H.922) şeirlərində və sözlərində də bir çox nümunələrini tapdığımız ilk bölmədəki şathlardan Batini inancların izlərini tapmamaq qeyri-mümkündür.

# VII BÖLMƏ

## BATİNİLİK – TƏSƏVVÜF ƏHLİNİN HAMISI BATİNİ DEYİLDİR- TƏSƏVVÜFDƏ MƏZHƏB-TƏSƏVVÜFDƏ BEYƏT VƏ NİSBƏT- KƏRAMƏT

### 47-ci sual: Batinilik nədir, bunu izah edə bilərsinizmi?

Heç şübhə yox[dur] ki, [batinilik] mənası dərin və geniş bir söz[dür]. [Onun] başa düşülməsi üçün hər kəsin anlaya biləcəyi bir səviyyəyə enib [onun mənası] izah edilir və yenə [də] heç şübhə yox[dur]ki, [istənilən] bir sözü dinləyən, öz anlayışı, öz biliyi və duyduğu qədərdə [onu] başa düşər. Bu baxımdan əlbəttə, Qurani Kərimi anlamaqda, mənanı qavramaqda hər kəs eyni dərəcədə olmaz. Quranın zahiri mənası olduğu kimi batini mənası da vardır. Bu inkar edilməzdir.

Batinilik Quranın daxili mənasına çatanların xarici mənanın lazımsız olduğuna, daha doğrusu, dini hökmlərin və şəriətin aləmin nizamını qorumaq üçün və anlayışları/başa düşmələri bu dərəcəyə gəlməmiş olanların idarə [edilməsi] üzündən ortalığa çıxmış olduğuna inanmaqdır. Məsələn, namazda məqsəd Tanrıya yaxınlaşmaqdır. Tanrıya yaxınlaşanlara görə "Rəbbinə sənə yəqinlik gələnə qədər qulluq et" (XV,99)[31] ayəsi batinilərə görə bunu açıq-aşkar bildirməkdədir. Əslində bu ayədəki "yakıyn" [sözü] bütün müfəssirlərə görə ölümdür. Belə olduqda ayə ölənədək qulluq etməyi buyurmaqdadır, [nəinki] yəqinliyə çatdıqda ibadəti burax-

[31] Akademiklər Z.Bünyadov və V.Məmmədəliyev bu ayəni: "Və ölənəcən (əcəlin gəlib çatana qədər) Rəbbinə ibadət et!" şəklində tərcümə edib, şərh hissəsində: "və ubud Rəbbəkə hətta yatiyəkə-l-yəqinu". Burada əl-yəqinu inamın yox (inam peyğəmbərdə həmişə var), "ölümün" yəqin olmasıdır. Daha doğrusu bu, məşhərdir, qiyamət günüdür. 74-cü surənin 47-ci və 12-ci surənin 107-ci ayəsi ilə müqayisə et" yazılmışdır. Bax: Qurani-Kərim. Bakı, Azərnəşr, 1992, s.678

mağı əmr etməkdə deyildir (Mecmaul Beyan; Tehran, Şirketül-Maarifil-İslamiyye basımı, c.VI, 1379 H. s.346-347).

Batinilər həmişə hər ayəni, hər hədisi, hər buyuruğu, öz inanclarına görə şərh edərlər. Şərhlərində dəqiq bir metod da yoxdur.

## 48-ci sual: Bunu bir nümunəylə açqlaya bilərsinizmi?

Kim nə deyirsə desin, yaxşıca araşdıran başa düşər ki, İbni Ərəbi batinidir. [Onun] "Futuhat" [əsərin]də "[Ya Məhəmməd!] Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!" ayəsini (II, 6-7), "o kafir olanlara, yəni mənə (Allaha – R.M.) olan sevgiləri varlıqlarını örtmüş olanlara gəldikdə belələrini göndərildiyin və xəbərdar edilməyə vəzifələndirildiyin əzabla qorxutsan da, qorsutmasan da onlar sənin sözünə inanmazlar. Çünki onlar məndən başqa bir varlığı ağıllarına belə gətirməzlər. Onları yaratdığım şeylərlə qorxutsan onlarn nə ağılları çatar, nə [də] onları (deyilənləri – R.M.) görərlər. Belə olduğu təqdirdə [onlar] sənə necə inanarlar? Mən (Allah – R.M.) onların könüllərini möhürlədim. Məndən (Allahdan – R.M.) başqa bir varlıq girə bilməz könüllərinə. Qulaqlarını möhürlədim mən (Allah – R.M.), dünyada məndən (Allahdan – R.M.) başqasının sözünü eşitməzlər onlar. Gözlərində də məni (Allahı – R.M.) gördüklərindən əzəmətimdən (Allahın – R.M.) pərdə vardır [ki,] məndən (Allahdan – R.M.) başqa bir varlığı, bir var[olan]ı görməzlər onlar. Onları (kafirlər və təkzib edənlər – R.M.) bu görmək məqamından sənin (peyğəmbərin – R.M.) qorxutmaq məqamına endirdiyim üçün də olduqca böyük bir əzab vardır onlara. Çünki onları pərdə arxasına ataraq məndən (Allahdan – R.M.) ayırmış oldum. Necə ki, səni də yaxınlaşıb, yaxınlaşıb iki ox qədər məsafə qaldı, hətta daha da yaxın məqamından sonra səni (peyğəmbəri – R.M.) təkzib edənlərə göndərdim. Məndən

(Allahdan – R.M.) zahirən ayırdım səni. Mənim (Allahın – R.M.) haqqımda dedikləri necə də sıxmadı səni. Səni (peyğəmbəri – R.M.) mənim (Allahın – R.M.) yaxınlığıma çatdırdığım vaxtla bu vaxt arasında nə dəqər fərq var[dır]. Elə onlardan razı olduğum əmin adamlarım da belədir mənim (Allahın – R.M.). Mən (Allah – R.M.) onlara əbədi olaraq əzab etmərəm" kimi izahat vermişdir (Fütuhat, I, Mısır-1329, s.115); "Fusus"[əsərin]də Nuh qövmünün Tanrının bilik dənizində qərq olduqlarını söyləməkdədir. İşin diqqət çəkməsi lazım olan tərəfi budur ki, batinilərin izahatları ilə təmizə çıxartdıqları adamlar və toplum həmişə peyğəmbərləri inkar edənlər, Allaha qarşı duranlar, Quranda qınananlardır. [Məsələn,] İbn Ərəbiyə görə Firon belə tam və kamil bir mömindir. Əhlibeytə düşmənliyi ilə məşhur olan Abbas oğullarından Mütəvəkkil belə Qütübdür (Sefınetül-Bıhar, I, s.311-312).

412[ci il] hicridə (1021) vəfat etmiş Əbu Əbdür-Rəhman Süləminin təfsiri yalan hədislərlə və bu cür (batini – R.M.) şərhlərlə dopdolu bir kitabdır (Şez(c-R.M.)eratüz-Zehebdən nəql edilərək Esed Hayderin "El-İmamus-Sadıkı vel-Mezahib"i; III, Necef – 1363, H., s.170, 196).

Batinilik əvvəlcə imam haqqında qülüvv, yəni ifrat inanc irəli sürməyə başlamış, bu səbəbdən firqələrinə ifrata çıxanlar mənasında "Qaliyyə-Qalilər", bu [cür] firqə mənsublarına da ifratçılar anlamında "Qulat" deyilmişdir. Hz. Əlinin oğlu Məhəmməd b. Hənəfiyyəni (81, H.700) imam tanıyanlardan bəziləri onun ölmədiyini, bəziləri isə tanrılığını iddia etmişlər. Başqaları da onun peyğəmbər olduğunu söyləmişdilər. İsna əşərilərə görə (On iki imam[ları] tanıyanlar) beşinci İmam olmuş Məhəmmədül-Bağırla (114, H.733) oğlu və altıncı İmam Cəfərüs-Sadiq (148, H. 765) bunlara lənət söyləmişlər. Səid və Bəyan, yaxud Bənan adlı iki nəfər bu inancı yürütməyə çalışmış, [bunlardan] ikincisi [fəaliyyətini] 119 [cu il] hicridə (737) [ci ildə həyata keçirmişdir]. İmam Cəfər[əs-Sadiq] bunların "[Ey müşriklər] Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir

günahkara, yalançıya (cadugərlərə, sehrbazlara, falçılara və adlarını kahin qoyub xalqı aldadanlara) nazil olarlar" mənasındakı ayələrdə (XXVI, 221-222) bildirilən adamlardan olduqlarını söyləmişdi[r]. Kərbəlanın qısasını almış və dördüncü İmam Zeynül-Abidin Əliyy b. Hüseynin (94 H. 712) duasını qazanmış Muxtar b. Əbu Ubeydətüs-Səqəfini də (67 H, 686) özlərindən saymış qaali (ifrat, ğulat – R.M.) bir firqə ortalığa çıxmışdı. Əsasən Batinilərin [belə] bir taktikaları vardı[r] ki, hələ də eyni yolun yolçusu olan Bektaşilər, Ələvilər, hətta Bəhailər bu taktikanı tərk etməmişlər. [Bu taktikaya görə sözügedənlər] hər kəs tərəfindən sevilən, sayılan, bilikli tanınan adamları xalqa özlərindən [olduqlarını] göstərirlər, beləcə tanıdırlar.

Batini inancları mənimsəyən, ayələri istədiyi kimi şərh edən, həqiqətə çatdıqdan [sonra] ibadətlərin [ortalıqdan] qalxacaqlarını söyləyən, şəriətin dünyanın nizamını saxlamaq üçün gəldiyinə inanan, axırda hər şeyi inkar edən və maddəçilikdə qərar tutan topluluqlar içindən müxtəlif məzhəblər çıxmışdır. Aralarında zahirən İmamiyyədən olanlar tapıldığı kimi, məsələn, İbni Ərəbi kimi Maliki, Bədrəddin kimi Hənəfi olduğunu iddia edənlər də vardır. Bu baxımdan Batiniliyi yalnız bir məzhəbə, [yəni] İsmaililiyə aid etmək qeyri-mümkündür. Ancaq ismaililər hükəma məsləyini həyata keçirmək yolunu tutduqlarından batini bir sistem ortalığa çıxartdıqlarından batinilik onlara aid edilmişdir ("Simavna kadısı oğlu Şeyh Bedreddin" adlı əsərimizə baxın, s.12-29).

## 49-cu sual: Təsəvvüf əhlinin hamısını Batini saymağımız doğrudurmu?

Belə bir ümumi hökm vermək olduqca yanlış nəticələr meydana çıxara bilər. Heç şübhəsiz ki, sufilər içində şəriətə hərf-hərf riayət edənlər vardır. Amma aralarında bilərəkdən [yaxud] bilməyərəkdən tamamilə batiniliyi mənimsəmiş olanlar da olduqca çoxdur. Onsuz da bunlar həm sözlərindən, həm [də] hərəkətlərindən dərhal bilinir[lər]. Batinilik əsasına istinad edərək qurul-

muş [bir-çox] təriqətlər də vardır. Hətta bunların içində zahirən şəriətə uyan, amma hər hansısa bir nöqtədə ondan ayrılan və şəriət hökmlərinə görə küfrə aparıb çıxaran yollar da yox deyildir. Xüsusən də, Şeyxilik kimi məzhəblər, Kəldanilik, Bəhailik kimi törəmə dinlər də Batinilikdən və təsəvvüf prinsiplərindən ortalığa çıxmış, onların törəməsində Qərb imperializminin də böyük təsiri olmuşdur.

## 50-ci sual: Doğulan, yeyib-içən, uşağı olan, xəstələnən və ölən bir insanı yaradıcı (Xaliq, Tanrı [kimi] – R.M.) tanımaq necə mümkün [hesab] ola/edilə bilər?

Bu inancı meydana gətirən iki əsas vardır: Hülul və İttihad

Hülul bir şeyin [başqa] bir şeyə daxil olması, İttihad [isə] iki şeyin birləşməsi mənasına gələn iki ərəbcə söz[lər]dir. Termin olaraq Allahın, ilahi qüdrətin tam olaraq bir insanın maddi və mənəvi varlığına daxil olmasına "Hulul", qulun (insanın – R.M.) maddi varlığı olduğu halda ilahi qüdrətin o varlıqla birləşməsinə, quldakı maddi varlığın ilahi varlıq halına gəlməsinə "İttihad" deyilir. İslam dinində heç bir yaradılmış, heç bir qul Allahla birləşə bilməz. Çünki Allah bu cür olmaqdan tamamilə münəzzəhdir (uzaqdır, təmizdir, pakdır, üstündür – R.M.). Lakin batini inancı mənimsəmişlərə görə qul Allahın varlığında tamamilə yox olan kimi, onun (Allahın – R.M.) varlığıyla var olur. Arada (Allahla insan arasında – R.M.) pərdə qalmaz. Bu inanc təsəvvüfün fəna və bəqa inancına bənzəsə də, [onunla] eyni deyildir. Çünki, fəna məqamında mənəvi yolçu izafi varlığını yox bilir, yox görür [ki,] beləcə bir yoxluğa çatır. Bəqa məqamındaysa izafi varlığını Tanrı ilə qaaim (ayağda duran, var olan – R.M.) bilib bu cür təsəvvürə və mövcudluğa sahib olur. Amma qul heç bir zaman Tanrı ola bilməz, bu mümkün deyildir. Qeybi:

Ol bir ilə bir olan cümlə aləmə dolan,
Bu cür sultanlıq tapan qulluq edəsi deyil-

deyəndə Mövlana, “Canım bədənimdə olduqca Quranın quluyam, seçilmiş Məhəmmədin yolunun torpağıyam” söyləyir və “Qul varlığından mütləq olaraq yox olmadıqca onun qatında birlik (vəhdət – R.M.) gerçəkləşə bilməz. Birlik hülul deyildir, sənin (insanın – R.M.) yox olmandır. Yoxsa axmaq sözlərlə, olmayacaq işlərlə batil gerçək olmaz” rübaisi ilə hülulu rədd eyləyir (Rübailər: tərcüməmiz (Ə.Gölpınarlının – R.M.), D hərfi, s.83, 138. rübai). Qeybin təlaqqisiylə (əlaqədar olması, əl çatanlığı ilə - R.M.) Mövlanənin baxışları arasında nə qədər böyük bir fərq var[dır!].

Batinilikdəki inanc hülul və ittihad inancıdır. Bu inancı ya həqiqət olaraq mənimsəyən, təsəvvüfdəki bu incəliyi anlamadan qarışdıran, ağlını itirən, özünü üstün görən, yaxud da xalqı aldatmaq üçün belə bir yol[u] davam edən insanlardan özünü Mehdinin naibi sayan, Mehdi olduğunu iddia edən, peyğəmbərliyi kəsbi, yəni çalışmaqla, biliklə əldə edilən bir şey hesab edib peyğəmbərlik iddiası irəli sürən, axırda allahlığını elan edən çoxlu sayda adamlar olmuşdur. Əvvəlkilərdən Hüseyn ibni Mənsur-Həllac bunların tipik bir nümunəsi olduğu kimi, yenilərindən də əvvəllər özünü “Bab”, yəni İmamın qapısı, vəkili tanıdan, sonra [isə] Mehdi olduğunu söyləyən, daha sonra yeni bir dinlə, yeni bir kitabla gəldiyini iddia edən, axırda da Allah olduğunu söyləyib yaxalandıqda bütün iddialarından imtina edən, müsəlman olduğunu yazıyla təsbit edən və 1266[-ıncı] hicridə (1850) güllənərək öldürülən Babiliyin qurucusu Əli Məhəmməd-i Şirazini, onun müjdələdiyi yeni din sahibi olduğunu söyləyib özünü Allah [kimi] tanıdan, tanıyanlarına da “əğnam – qoyunlar” adını verməkdən çəkinməyən, utanmayan, amma özünə Bəhaullah dedirtən Hüseyn Əlini (1309, H.1892) bunların sırasında xatırlaya bilərik. Xüsusən də, bu sonuncuda, yəni Bəhailiyin qurucusunda və Bəhailikdə öncə Çar Rusiyasının, sonra İngiltərənin və nəhayət Amerikanın təhriklərini görməmək üçün düşüncədən əl çəkmək, həqiqətən [də] əğnəmə (qoyunlara – R.M.) qatılmaq gərəkdir (Baxın: Dr. M.H.T: Muhakeme ve berresi der tarih u akaaid-i ahkam-ı Bab u Beha. Tehran – 1338, Şemsi hicri).

## 51-ci sual: Hüseyn b. Mənsuril-Həllac haqqında bir qədər məlumat verə bilərsinizmi?

Bu şəxsin Nişapurlu, Reyli, Talkanlı, Mərvli olduğu rəvayət edilmişdir. [O] Xalqa özünü sufi göstərir, iqtidara [isə] Şiə[lər]dən [olan kimi] görünürdü. Ona qoşulanlar onun Allah olduğuna inanırdılar. On ikinci İmamın babı (qapısı, naibi) olduğunu iddia edirdi. İmam bir yazısı ilə (təvkiy) ona (Mənsur-Həllaca – R.M.) lənət etmiş/söyləmiş, onunla heç bir əlaqəsi, münasibəti olmadığını bildirmişdir. [Mənsur-Həllacın] “Kitabut-Tavasin” adlı kitabında nöqtələrə, hərflərə dair başa düşülməsi çətin, əsası[nda] saçma/uydurma şeylər[in] olduğu kimi, “döyüşlərdə olmaq şeytanla Əhməddən (Hz.Məhəmməd) başqasına düşmür/aid olmur. Çünki, İblisə səcdə et deyildi, etmədi. Əhmədə bax deyildi, nə sağına baxdı, nə soluna” kimi İblisi ucaldan sözlər (Louis Massignon basımı; Librairie Paul Geuthner – 1913; s.41-43), “Mən Haqqam, çünki əbədi olaraq Haqlayam, ondan heç ayrılmadım” kimi sözləri (eyni, s.52), ərəbcə [yazılmış] şeirlərindən meydana gələn Divanında “Ey diləyən adamın diləyi, sənin üzündən də çaşmışam, özümə də çaşmaqdayam. Məni özünə eləcə yaxınlaşdırdın ki, səni mən sandım. Vəcddə eləcə özümü itirdim ki, məni özündə yox etdin” (L.Massignon basımı; Journal Asiatique, Janvier – Mars, 1931, s.30), “Tənzih edərəm (uzaqlaşdıraram, təmizləyərəm – R.M.) maddi aləmi izhar edəni/ortalığa çıxaranı. Tanrılığını bu formada nümayiş etdirəni. Sonra da xalqı meydana gətirib özünü yeyən, içən şəkildə göstərəni” kimi şəriətə uyğun gəlməyən sözləri (eyni, s.41), bəzi şathiyələri vardır (s.33). [Onun] həyatına, öldürülməsinə aid ən əsaslı bilgilər “Əxbar əl-Həllac”[əsərin]dədir (L.Massignon basımı, Paris – 1957). Həllaca qoşulanların yollarına “Həllaciyyə” adı verilmişdir. [O] İnancı və sözləri ucbatından 309 [cu hicri ili] zilqədəsinin 24[-cü] günü (922) Bağdadda öldürülmüş, cəsədi yandırılmışdır (Sefinetül-Bıhara; I, Hlc mad. S.296-297; İbni Nədimin “El-Fihrist”inə, Mısır – 1348, s.296-272 və Tenkıyhul Makaalə b. I, s.346-347).

## 52-ci sual: Belə bir adamı bir çox sufinin, xüsusən [də] şair sufilərin, üstəlik Mövlana kimi həqiqətən bilikli bir şəxsin [onun tərəfini] tutmasına, [onu] öyməsinə/tərifləməsinə nə deyirsiniz?

“Nəfahat”da Mənsur haqqında təsəvvüf əhlinin lehinə və əleyhinə sözlər dedikləri yazılmaqda “Əksər məşayix (şeyxlər – R.M.) onu rədd etmişlər. Amma bir neçə şəxs: Əbül-Abbas Əta, Şibli, Şeyx Əbu Abdullahi Xəfif və Şeyx Əbül-Qasımi Nəsrəbadi kimi[lər istisna olmaqla]” deyilməkdədir (s.199). Amma bu da bir həqiqətdir ki, Hüseyn b. Mənsur, sufilərin daha çox dedikləri kimi Mənsur Həllac şeirdə bir simvol halına gəlmişdir. [Onun] Həyatı, öldürülərkən dirənişi/mətanəti, öldürülməsi, varlığın birliyi (vəhdəti – R.M.) inancını mənimsəyən şair sufilərə [sanki] bir məcaz dünyası, bir ilham mənbəyi bağışlamışdır. Bu baxımdan məsələn, Mövlananın “ “Mən Haqqam” sözü Mənsurun dodağında nurdu[r]. “Mən Allaham” sözüysə Fironun dodağında yalandı” deməsi (Mesnevi, II, s.264, beyt: 305), “Dövlət gözü mütləq sehrlər etmədə; ruh mənsur oldu mən Haqqam demə[k]də” buyurması (V, s.163, beyt: 2536), yaxud Yunus Əmrənin
Sən səni əldən burax dost üzünə sənsiz bax
Mənsurlayın ənəl-Haqq dəxi səbukbar (yüngül yük – R.M.) gərək –
beyti (tıpkı basım, s.208; mətn, s.76) ancaq bir cazibənin (çəkiçiliyin), eşqin məcazi ifadələridir. Hətta deyə bilərik ki, Mənsurdan bəhs edən şairlərin əksəriyyəti onun əsərlərini belə görməmiş, haqqındakı hökmləri belə bilmirlər.

## 53-cü sual: Bundan əvvəlki 41-ci suala verdiyiniz cavabda təsəvvüfün biliyi arxa plana atdığını deyən kimi oldunuz ki, diqqətimizi çəkməyə bilməzdi. [Sizcə] təsəvvüf biliyi necə başa düşür/təsəvvür edir?

Təsəvvüf biliyə düşmən deyildir. Hətta [təsəvvüfdə] yəqin dərəcələrinin əvvəlincisi biliyə əsaslanır. Ancaq [təsəvvüfdə] bi-

liyin vəhmi artıracağı, şübhəni oyandıracağı, insana bir varlıq, mənlik verəcəyi düşüncəsiylə biliyi bir qayə deyil, bir vasitə olaraq qəbul edirlər...

Son dövrün qüdrətli sufilərindən və Məlamət nəşəsinin müməssillərindən [olan] Əbdülqadir-i Bəlhi (1341 h. 1923): "Niyazinin boğulduğu dənizə girdim: suyu topuğumu aşmadı" buyurmuş[dur]. Niyazı-i Misri Mehdilik iddia etmiş İsa olduğunu söyləmiş, peyğəmbərlik mübarizəsinə qalxmış, əqli baxımdan çatışmazlığı onu ölümdən qurtarmışdır (Niyazı haqqında ətraflı bir məqaləmiz çıxacaqdır. Hələlik İslam Ensiklopediyasına yazdığımız "Niyazı" bəndinə baxın). Fateh türbəçisi/türbədarı Əhməd Amiş (1338 H.1920) öna qoşulanlara "Bundan sonra [sizlərə] təsəvvüf kitablarını oxumaq qadağandır. Quran oxuyun, hədis oxuyun, Məsnəvi oxuyun: başqa kitabla[rla] məşğul olmayın [ki, xüsusən də] təsəvvüf kitabları yazanların çoxu [onları] yoldaykən yazdılar. [Burada] nəşə və mərtəbə baxımından birbirinə zidd sözlər olur [ki], siz[lər]i çaşdırar. Hətta Mövlana [da] getdi, dönüb gəldi, sonra Məsnəvisini yazdı" deyərmiş. Yenə bu şəxsin "Allah Mühiyyədinə məndən nə istəyirsən desə Muhiyyəddin məni dünyaya yolla bütün yazdıqlarımı toplayıb yandırım və sonra gəlim deyərdi" ifadəsi çox məşhurdur...

...bir qədər olan biliyinə güvənib "...Hər bilik sahibinin fövqündə [ondan üstün] bir bilici də vardır!" ayəsindən (XII, 76) xəbərdarsız olaraq iddialı (gek-gek gəyirən) adam biliksizdən daha çox pisdir. Özünə güvənib doğru deyə etdiyi əyri iş biliksizin etdiyindən daha çox pis nəticələr ortalığa çıxarır.

Təsəvvüf [də] buna görə biliyi üstələyər/yenər. Halbuki, biliyi bir qayə deyil də bir vasitə hesab edən adam axırda acizanəliyə, heyrətə düşər: öyrənə bilmədiyinin hədsizliyinə qarşı bilmədiyini bilər. Bu cür biliyi təsəvvüf qəbul etməz/yenməz. Bir də bu var[dır ki]:

Bilikdə eşqdə olduğu kimi bir üçlü[k] vardır: Bilən, bilinən və bilik. [Necə ki,] Eşqdə də sevən, sevilən və sevgi vardır. [Belə ki,] Aşiq sevdiyinin vəsflərinə bürünürsə özü də, sevdiyi də

yox olub gedər. Bilən də bilinənə çatır, onda özünü itirirsə, [onda] bilik də qalmaz, bilən də. Təsəvvüf birliyi/vəhdəti məqsəd etdmişdir; ikiliyi, üçlüyü deyil. Bu üzdəndir ki, [onlar] bilik insana pərdə olur demişdirlər.

### 54-cü sual: Təsəvvüf əhli müəyyən bir məzhəbdədirmi; məsələn, bir təriqətə daxil olan eyni zamanda o təriqətin qəbul etdiyi məzhəbə də daxil olurmu?

Təsəvvüfdə müəyyən bir məzhəb yoxdur. 161[ci il] hicridə ölmüş ([miladi]777) və İmam Cəfərüs-Sadiqə geyiminə görə etiraz edən, eyni zamanda da ondan rəvayət yolu ilə yalan hədislər uydurmuş və bütün bunlara görə də Əhli beyt tərəfdarları tərəfindən heç də yaxşı bir tərzdə xatırlanmayan, fiqhdə ayrı[ca] bir məzhəbi olan Süfyan-i Səvri açıqca Əhli beyt İmamlarının və onların yollarının/əqidələrinin əleyhindəydi (Tenkıyhu-Makaal, II, s.36-38, Sefınetul-Bıhar, I. s.631-632).[32] Cüneyd-i Bağdadi (297 H. 909-910), Süfyan-i Səvrinin məzhəbindəydi və Şafiinin şagirdiydi (Nefehat tərc., s.132). Həmdun-i Qəssar (271 H. 884), Süfyan-i Səvri məzhəbindəydi (eyni, s.113). Zun-Nun-i Misri (245 H. 859), malikiydi (s.87); Davud-i Tai (165 H. 781), Əbu Hənifənin şagirdiydi (s.95); Əbu Yəzid-i Bistami (261 H. 874) hənəfiydi (s.110). Bişri Hafi (227 H. 841), Əhməd b. Hənbəli həmişə üstün tuturdu (s.102); XII-XIII əsrlərdə təriqəti Konyaya qədər yayılmış olan Əbu İshaq İbrahim b. Şəhriyar-i Qazəruni (426 H. 1034-1035) hənbəliydi, hətta Mücəssimə, yəni Allaha cisim [olduğunu] iddia edənlərdəndi (Taraık, II, s.496). Maruf-i Kərhi (165 H.781) səkkizinci İmam Əliyyur-Rızanın (203 H.

[32] Başqa bir məlumata görə Süfyan-i Səvri Əbu Hənifə kimi İmam Cəfər əs-Sadiqin yetirmələrindən olmuşdur. Beləliklə də, qeyd edilmişin əksinə olaraq Süfyan-i Səvri Əhli-Beytə göstərdiyi sayqıdan və ustadının İmam Cəfər əs-Sadiq olmasına görə şiə olmaqda ittiham edilmişdir (Zəhəbi, Siyər, 7/241; İbn Nədim, əl-Fihrist, 1/266). Hətta bütün fiqh nümayəndələrinin bunun belə olduğunu bildikləri iddia edilməkdədir.

818) əlində müsəlman olmuşdu; İmamın qapısında xidmət edirdi (Nefehat tərc. s. 93); Səriyy-i Səqəti (253 H.867), Marufun tələbəsindəndi (eyni, s.106). Şəqiyq-i Bəlhinin (174 H. 790) İmam Musail-Kazıma (183 H.799) mənsub olduğu rəvayət edilməklə bərabər (Taraık, I, s.526), "Nəfahat"a görə "sahib-rəy"[i]di (rəy sahibi/öz fikrinə üstünlük verən və ya birdən çox mənaya dəlalət edən və təvilə ehtiyacı olan məsələlərdə rəyə üstünlük verən – R.M.), Züfərin şagirdiydi, Əbu Yusufla dost idi, Əbu Hənifənin məclislərində olurdu (s.103). Hüseyn b. Mənsuru və inancını daha əvvəllər/yuxarıda izah etmişik. Bu [durum] son dönəmlərədək beləcə davam etmişdir. Bir şeyxə mürid olan adam bir müddətdən sonra şeyxinin məzhəb və məşrəbini (hərfən: içdiklərini, yəni etiqadını/getdiyi yolu – R.M.) mənimsəyirdi. Amma ümumi olaraq hansısa təriqətin bu məzhəbdəndir deyərək bir hökm vermək mümkün deyildir.

Təriqət əhlinin məzhəb və məşrəbində onun yayıldığı ölkənin də böyük bir təsiri vardır. Məsələn, Əbdülqadir Gilani (561 h. 1166) şiəliyin qəti əleyhində olduğu təqdirdə (Sefine, II, s.197) Anadolu və Rumelidəki Qadirilər [bu] mühit[lər]dəki Ələvi nəşəsini mənimsəmişdilər, adətən şiələşmişdilər. Bunda Əbdülqadirə sonradan aid edilən seyyidliyin də böyük bir təsiri ola bilərdi (Umdətut-talib Əbdülqadirin seyyid olmadığını, bu iddianın nəvəsi tərəfindən ortaya atıldığını bildirir, s. 117-118). Rifailərlə Sədilər Anadoluda, Rumelidə və İstanbulda Fütüvvət əhliylə/tərəfdarlarıyla qaynaşmış, onların ayin və ərkanlarını mənimsəmiş, adətən bir Fütüvvət qolu halına çevrilmişdilər (Xoca-zadə Məhəmməd Tahir b. Abdullah b. İsmailin bizdəki (Ə.Gölpınarlı – R.M.) öz əlyazısı "Minhacül-Müridin"[əsər]i. Bu kitab tam olaraq tək nüsxədir; 150 yarpaq[dan ibarət]dir. 1221[ci hicri ili] zilhiccəsinin 23[cü] günü yazılması bitirilmişdir. "İslam ve Türk illerinde Fütüvvet ve Kaynakları" adlı məqaləmizə baxın: İst. Üniv. İktisat Fakültesi Mecmuası, 11. Cilt, № 1-4, ekim 1949 – Temmuz 1950; s.70-72).

Ancaq burada bir tək təriqətin bu qaydadan istisna təşkil etdiyini söyləmək lazımdır:

Bektaşilər nəsib olma törənində/üzv olma tədbirində, yəni kiminsə Bektaşi olanda edilən törəndə müridə Cəfəri (İmami-isnaəşəri) məzhəbinə uyğun olaraq dəstnamaz aldırırlar və ata/başçı/mürşid təriqətə daxil olan adama məzhəbin Cəfəri olduğunu deyir; özünü də mürid hələ yanına gətirilmədən Cəfəri məzhəbi üsulunda iki rükət namaz qılar. Amma müridin aldığı dəstnamaz [elə] o dəstnamazdan ibarətdir; gördüyü namaz da [elə] o namazdan ibarət[dir]. Çünki bu təriqət tamamilə batini olduğu üçün şəriət əmirlərinə əməl etməyi təlqin etməz və daha ilk gecədən etibarən mürid dəm süfrəsinə oturur. Aralarında şəriətə əməl edənlər tam [olaraq] Cəfəriliyi qəbul edənlər və Bektaşilikdən adətən ayrılmış olanlarıdır. Ələviliyə gəldikdə: Biz bu yola bir təriqət, bir məzhəb deyil, ibtidai bir din demək məcburiyyətindəyik (İslam Ansiklopedisi, yenə yazdığımız (Ə.Gölpınarlının – R.M.) "Kızılbaş" maddəsinə baxın; cüz. 64, İst. 1954, s.789-795).

## 55-ci sual: İnsanı yaranmanın, yaradılışın səbəbi bilən təsəvvüfdə din, irq, soy-boy və rəng ayrı-seçkiliyi varmı?

İrq, soy-boy və rəng ayrı-seçkiliyi, əsalət davası kimi olanlar təsəvvüfün deyil, İslamın [aradan] qaldırdığı əsilsiz/ əsassız davalardır. "Düşün və bax, sən qızıl[ı] yaxud qapqara rəngindən ötrü heç bir kimsədən xeyirli deyilsən. Üstün olmaq istəyərsən, xeyirli olmaq istəyirsən Allahdan çəkin" (Camius-Sagıyr, I, 71), "İnsanlar bez toxunan darağın dişləri kimidir; bir-birinin bərabəridir (Künuzül-Hakaaık, II, s.185), "İnsanlar Adəm oğullarıdır, Adəmsə torpaqdan yaradıldı" (Cami, II, s.175), "Hamınız da Adəm övladısınız; Adəmsə torpaqdan yaradılmışdır; artıq soylaboyla, babayla, atayla öyünən toplumun dövrü bitsin; yoxsa Allah qatında nəcis böcəyindən də aşağı olarsınız" (Cami, s.79), "Yaratdıqlarının hamısı da Allah əyalı (nisbətində)dir, Allaha ən sevimli olanı, əyalına (xalqa) ən faydalı olanıdır" (eyni, s.10)

mənasındakı sözlər Peyğəmbərimizin buyurduqlarıdır. "Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinənizdir. Həqiqtən, Allah [hər şeyi] biləndir, [hər şeydən] xəbərdardır" (XLIX, 13)

İslamda din[lə] əlaqədar [olanlar] da bu əsasa dayanır. Batil dinlər, təbiət qüvvələrinə tanrılıq istinad edən, insan qurban etmək, insandan üstün yarı ruhani, yarı cismani mövcudluqlar qəbul etmək kimi yanlış inanclara, pis adətlərə dayanan dinlərdir. Əsl din yaradılış dini olan, salamatlıq dini olan, şəxsi təmziliyi, qarşılıqlı yardımlaşmanı əsas bilən İslam dinidir; "Allah yanında [məqbul olan] din, əlbəttə, İslamdır..." (III, 19). Həzrəti Məhəmməd də "Hər [bir] doğulan uşaq yaradılışı sağlam olaraq dünyaya gələr; [bu hal uşağın] dili, məramını anlatacaq dövrə gələnə qədər belə qalır. Sonra anası, atası onu müsəvi, xristian, məcusi edər" buyurmuşdur (Cami, II, s.79). Kamil bir insan olan, kamil insan olması lazım olan müsəlman xeyirdən başqa bir şey düşünməməli və "möminlər qardaşdırlar" (XLIX, 10), "İman əhlindən bir mömin bir bədəndəki baş timsalındadır; bədən baş ağrısından necə xəstələnirsə mömin də iman əhlinin uğradığı dərd üzündən xəstələnər; qəm-kədərə uğrayar" (Cami, II, s.175).

Sufilər bu İslami qənaəti, bu İslami inancı çox geniş bir dözümlülüklə/tolerantlıq/səbr sərhədsizləşdirmişlər/intəhasız etmişlər. Məsələn, Mövlana bu dözümlülüklə necə xristianları müsəlman etmiş, necə ona qarşı qalan kimi köksünü gərənləri islatmış, xəmir kimi yoğurmuş, istədiyi şəklə salmışdır (Mevlana Celaleddin, s.191-208). Yunus Əmrə [də] bu dözümlülüklə

Cümlə yaradılmışa bir göz ilə baxmayan
Şərin (şəriət – R.M.) övliyasıysa həqiqətdə asidir -

söyləmişdir (Divan, tıpkı basım, s.136-137; mətn, "R" hərfi, XIX, şeir, 4-cü beyt).

Ancaq burada bunu da deyək ki, Mövlananın bu sərhədsiz dözümlülüyü onu heç bir vaxt şəriət hədlərindən kənara çıxartmamışdır. O heç bir zaman Vəhdət-i Vücuda istinad edib İbni Ərəbi kimi "bütə tapınan da Allaha tapınar" deməmişdir. Ona aid edilən bəzi şeirlər ən etibarlı və qədim divanlarda yoxdur. Əsasən bu şeirlər əda etmək baxımından da Mövlanaya yaraşmayacak qədər qüsurlu, saxta şeirlərdir. [Çünki,] O, "canım bədənimdə olduqca Quranın quluyam; seçilmiş Məhəmmədin yolunun torpağıyam. Kimsə sözlərimdən bundan başqa bir söz söyləyərsə, o deyənlərdən də mən bezmişəm, bu [cür] söz[lər]dən də bezmişəm" deyir (Rubailer; tərcüməmiz (Ə.Gölpınarlı – R.M.), "M" hərfinin 112-ci rübaisi, s.152).

Mövlana heç bir zaman Əbu Yəzid-i Bistamitək "Tanrı birliyinə/vəhdətinə bürününcə bədəni birlik/vəhdət, qanadlrı ölümsüzlük olan bir quş oldum; on il Tanrının necəliyinin havasında yüz minlərcə dəfə uçdum; deyəndə əzəlilik meydanına gəldim, orada birlik/vəhdət ağacını gördüm...Sonra da hamısının bir-bir saxta olduğunu başa düşdüm" (El-Luma, Şath bölməsi, s.384-387) kimi sözlər deməz. Sufilərin "fəna fir-Rasul" ("Rəsulullahda fani olmaq") adlandırdıqları məqamda "Bu gün Əhməd (Məhəmməd peyğəmbər – R.M.) mənəm, dünənki/keçmişdəki Əhməd deyil; bu gün ənkəə mənəm, yemsiz qalan quşcuğaz deyil" beytinin olduğu mənada belə bu beytdən əvvəlki tərcii beytində "Əhməd sararmış üzümü bu cür sərxoşluğumu görərsə gözümü öpər, mənsə onun ayağına qapanaram" deyir və bu bəndi qüdrət dilindən "sus, sir pərdələrini çox yırtma, çünki, qırılanı qurmaq, yırtılanı tikmək, bütövləşdirmək də bizə yaraşır, pərdələri örtmək də" beytiylə bitirir (Konya, Mövlana müzeyi, müzey hissəsi, №66, 2-ci cild; rübailərin ilk qismindən sonrakı 2-ci səhifə). O, heç bir zaman İbni Ərəbinin oğulluğu Sədrəddinin (637 H. 1274) mənsubları kimi xristiyanlara [xitabən]: "biz də İsanın Tanrı olduğunu bilirik, amma demirik" kimi sözləri[n deyilməsini] qəbul etməmişdir/yaxşı hesab etməmişdir ("Fihi mafih" [əsərinin] tərcüməmiz (Ə.Gölpınarlı – R.M.), İst., Remzi K., 1959, s.166).

Sufilərdə bir "Ədəb-i Muhəmmədi" sözü [də] vardır ki, bu sözlə şəriət[i] qorumağı, şəriətə zidd söz deməməyi, şəriətə uyğun olmayan bir hərəkətdə olmamağı qəsd edər. Hətta [Mövlanənin] bir də "Allahla dəli divanə ol, amma Məhəmmədlə oldunsa ədəbini tax" mənasında:

Ba Xoda divanə baş u ba Muhamməd ba ədəb -

misrası vardır ki, ədəbə riayət edən sufilər arasında atalar sözü halına gəlmişdir/çevrilmişdir. Həqiqi ərənlər heç bir şəkildə şəriət hədlərini aşmazlar və onlara qoşulanlar da bu həddi aşdırmazlar.

## 56-cı sual: Sufilər təsəvvüf nisbətini Hz. Məhəmmədə qədər necə aparıb çıxarırlar?

Öncədən də qeyd etdiyimiz kimi sufilərə görə təsəvvüf nisbəti şeyxdən şeyxə Hz. Məhəmmədə qədər gedib çıxır. Bunu [onlar] "əl ələ, əl [də] Haqqa" sözüylə qısaca ifadə edirlər. Qurani Kərimdə XLVIII surəsinin 10-cu ayəsinin mənası belədir: "[Ey Peyğəmbər! Hüdeybiyyə səfəri zamanı bir ağacın altında beyəti-rizvanla] sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın [qüdrət] əli onların əllərinin üstündədir. Kim [beyəti] pozsa, ancaq öz əleyhinə pozmuş olar...Kim Allahla etdiyi əhdi yerinə yetirsə, Allah ona böyük mükafat verər!"

Hz. Peyğəmbər Məkkə fəthindən öncə ümrə etmək (Ərafata çıxmadan həcc ayinini icra etmək) üçün səhabəylə Məkkəyə gedərkən məkkəlilər icazə vermədiklərindən Hüdeybiyyə adlanan [bir] yerdə, bir ağacın altında oturmuş və səhabələrinə ölənədək döyüşəcəklərinə, canlarını, başlarını İslam uğrunda [qurban] verəcəklərinə dair beyət etmələrini buyurmuş və onlar da bir bir gəlib Hz. Məhəmmədin əlinin üstünə əllərini qoymaqla ona beyət etmişlər. Bu beyətdən sonra yuxarıdakı surənin "[Ya Peyğəmbər!] And olsun ki, [Hüdeybiyyədə] ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu..." mənasındakı 18-19-cu ayələrində beyət edənlərdən razı olduğunu bildirməkdə

"And olsun ki, Allah təala öz Peyğəmbərinin [Məkkə fəthi] röyasının çin olduğunu təsdiq etdi..." mənasındakı 27 ayəsində də Məkkə fəthi[ni] müjdələnməkdədir. [Bu] Ayələrin məallarına /anlamlarına görə birinci ayəyə beyət ayəsi deyilmiş, bu beyətə [isə] "razılıq beyəti" mənasında "Beyətür-Rıdvan", həmin ağaca da "razılıq ağacı" mənasında "Şəcərətür-Rıdvan" deyilmişdir.

Sufilər şeyxə beyəti, yəni təsəvvüf yoluna qoşulmanı bu ayələrlə sübut etməyə çalışırlar. Şeyxə qoşulan tövbə edər, nəfsiylə mübarizə aparacağına söz verər. Bəzi təriqətlərdə beyət ayəsi ilk qoşulmada, bəzilərindəysə [bu] yolunu bitirdiyi fərz edilən salikə xəlifət veriləndə oxunur.

Üstəlik sufilər Həzrəti Məhəmmədin Əliyə və Əbu Bəkrə cəhri, yəni açıq və səsli; xəfi, yəni səssiz, daxili zikri təlqin etdiyini də söyləyirlər. Onlara görə Hz. Əli də Həsən-i Bəsriyə, Küməylə [bunu] təlqin etmiş, [onlara] xirqə, hətta tac geydirmişdir. Yuxarıda biz Həsən-i Bəsrinin davranışını qeyd etmişdik. Küməyl b. Ziyad (83 H.702) Hz.Əliyə qoşulmuşlardandır. Amma bu cür bir təlqin haqqında heç bir doğru rəvayət yoxdur.

O biri qola, yəni Əbu Bəkrdən gəlmiş gizli və daxildən zikir qoluna gəldikdə isə: Yenə də onlara görə Əbu Bəkr Səlmana, o da Əbu Bəkrin oğlu Məhəmmədin oğlu Qasıma təlqin etmişdir (Taraık, II, s.11-12). Halbuki, Səlman Əbu Bəkrə beyət etməyənlərdəndir, ona qarşı müsbət bir davranışı olmamışdır. Qasım isə 102[-ci il], yaxud 112[-ci il] hicridə (720, 730 [miladi]) yetmiş iki yaşında vəfat etmişdir. Səlman [isə] 36[-cı il] hicridə (656[-cı il miladidə]) Mədaində vəfat etmişdir. Yəni, Qasımın vəfatı ilə Səlmanın vəfatı arasında yetmiş altı, yaxud səksən altı il [fərq] vardır (Taraık, eyni səhifələr).

Nəticədə bir sözlə [deyilərsə] təriqət şəcərələrində şeyxdən şeyxə gedən nisbət ilk süfilərə qədər gedib çatır. Bir çox təriqətlər [öz] silsilələrini Cüneydə aparıb çıxartdıqlarından bu şəxsə sufi toplumunun böyüyü mənasında "seyyidüt-taifə" deyilmişdir. İlk sufilərdən Həzrəti Məhəmmədə gedib çıxan silsiləni ancaq sufilər aparıb çıxarırlar. Yəni [Məhəmməd peyğəmbərdən

nəql edilmiş] hədislərdə bu xüsusa dair müsbət heç bir xəbər yoxdur. Hətta yuxarıdakı tarixi uyğunsuzluqlar sufilərin də diqqətini çəkmişdir. Məsələn, Əbu Yəzid [Bistami] 261[-ci il] hicridə öldüyü halda onu 148[-ci il hicri]də vəfat etmiş İmam Cəfərüs-Sadiqə mənsub saymaq onlara (sufilərə - R.M.) görə də olması qeyri-mümkün bir şey hesab edildiyindən Əbu Yəzidin İmam Sadiqin ruhaniyyətindən feyz aldığı (təsirləndiyi – R.M.) qəbul edilmiş, veysi olduğu deyilmişdir. Son zamanlarda isə Fəridəddin Əttarın (627 h., 1229-1230 [m]) "Təzkirətül-Övliya"sında Əbu Yəzidin Cüneydlə çağdaş göstərilməsinə istinad edilərək Əbu Yəzidin İmam Cəfərüs-Sadiqə deyil, İmam Əliyyun Naqinin (254 h., 868 [m.]) oğlu olub qardaşı İmam Həsənül-Əsgərinin vəfatından sonra (260 h., 874 [m.]) imamət iddiasına qalxmış və "Kəzzab" deyə adlanmış Cəfərə mənsub olduğunu, yaxud Əbu Yəzidin atasının məcusi ikən müsəlman olması, babasının adının İsa, atasının Adəm, onun babasının da Əli oğlu İsa olması, İsa və Əli adlarınınsa məcusilərdə olmadığı üzündən 261[-ci il hicri]də ölmüş Bəyazidin Əbu Yəzid Tayfur b. İsa b. Adəm b. Süruşan olub [bundan] başqa bir də Əbu Yəzid Tayfurun olduğunu, yəni iki Əbu Yəzidin mövcudiyyətini sübut etməyə çalışanlar [da] olmuşdur (Taraık, II, s.428-440). Fəqət təkrar edək ki, əsasən Həzrəti Peyğəmbərin və Həzrəti Əlinin belə bir təlqinləri haqqında heç bir dəlil olmadığı üçün bunlara çatmaq, gedib çatmışlarla çağdaş olmaq həqiqi və tərəfsiz [bir] baxışla heç bir şey ifadə edə bilməz.

## 57-ci sual: Üveysi deyə bir söz dediniz. Bu nə deməkdir?

Üveysə mənsub [olmaq], onun məşrəbində[n (içdiyindən-R.M.) içmək] deməkdir. Üveysül-Qarani xalq dilində Veysəlqərani tərzində deyilir. Üveysin adı Amirdir. [O] Həzrəti Məhəmmədi görməmişdir. Amma Həzrəti Məhəmməd onun səhabələrə gedib çatanların xeyirlisi olduğunu, ümmətindən Rəbiə və Mudar boylarının qoyunlarının yunları qədər [bir] çox adama şəfaət

edəcəyini bildirmişdir. [Belə ki, adları çəkilmiş] Bu iki boy qoyunlarının çoxluğu ilə məşhurdu. Üveys Siffin döyüşündə gəlib Həzrəti Əliyə: "Uzad əlini, [qoy] beyət edim"- demiş, Əli [isə]: "Nə edəcəyinə beyət edəcəksən?" – soruşduqda [o] "Sənə itaət edəcəyimə, ölüncəyədək yolunda savaşacağıma beyət edəcəyəm" demiş və beyətdən sonra döyüşə girib şəhid olmuşdur" (Tankıyhul-Makaal, I, Mukaddime, s. 196, bu kitabın 87-ci sualı)

Həzrəti Peyğəmbəri görmədiyi halda ona inandığı, onun tərəfindən müjdələndiyi üçün sufilər bir mürşidə gedib çatmayıb onun ruhaniyyətindən feyz alanlara üveysi deyirlər.

Mövlana "Məsnəvi"[sin]də Əbu Yəzidin Əbül Həsəni Xərəqaninin (425[-ci il] h., 1033 [-cil il m.]) gələcəyini müjdələdiyini bildirir və bu münasibətlə Üveysdən də bəhs etmişdir (Iv, s.384-392; beyt: 1802-1934; Nefahat, s.337-339).

## 58-ci sual: Təsəvvüf əhlinin beyət ayəsinə istinad etməsi haqqında nə düşünürsünüz?

Beyət ayəsi yuxarıda da dediyimiz kimi Hüdeybiyyədə enmişdir və bu beyət tarixi bir hadisədir. Məkkə fəthində də erkəklərdən sonra müsəlman olaraq [Məhəmməd peyğəmbərin yanına] gəlmiş qadınlara heç bir şeyin Allaha bərabər və ortaq [olaraq] tanımayacaqları, zina etməyəcəkləri, uşaqlarını öldürməyəcəkləri, ərlərinə: "uşaqlarından başqalarını mən doğdum" - deyə tanıtmayacaqları, onlara [qarşı] iftirada olmayacaqları, Peyğəmbərə qanuni şeylərdə qarşı çıxmayacaqları şərt edilərək beyət edilmişdir (LX, 12). Amma bu beyətdə Həzrəti Məhəmmədin əlinin üstünə heç bir qadın əlini qoymamışdır. Bu beyət sözlə olmuş, Buxarinin rəvayətinə görə isə, [qadınlar] su dolu bir qaba öncə özləri əllərini salmış, şərtləri söyləmişlər, sonra əllərini sudan çıxartmışlar, [yəni, bir sözlə] qadınlar əllərini suya salmış və [beyət] bu şəkildə olmuşdur (Mecmaul-Beyan, IX, s.275-277).

Sufilərdə isə, mürşid beyət edənin sağ əlini, əl barmaqları bir-birinə qovuşaraq yalnız şeyxin baş barmağı bir az yuxarıda

olmaq şəklində, baş barmaqlarının içərisi bir-birinə dəyən tərzdə, yaxud baş barmaqlar iç hissələri bir-birinə dəymək şəklində ovuc içinə doğru qalaraq tutar. Buna "beyət əli" mənasında "Yəd-i beyat" deyilir. Bəzi təriqətlərdə qadınların əlləri baş örtükləri ilə tutulur. Bəzilərində isə bir örtüyün (havlu) bir ucunu şeyx, ö biri ucunu isə qadın tutur. Bundan öncəki suala verdiyimiz cavabda da izah etdiyimiz kimi, şəriətdə edilməsi fərz (vacib – R.M.), yaxud sünnət olan belə bir şey yoxdur. Amma tövbə etmək, nəfsiylə döyüşə girmək üçün belə bir beyət bidət, yəni dindən olmadığı halda sonradan ortalığa çıxan bir şey olmaqla bərabər gözəl bidətlərdən sayıla bilər.

## 59-cu sual: Təsəvvüf əhli bir güc halına gəldikdən sonra başçılarla, iqtidarla münasibətləri necə idi? İqtidar bu gücə də istinad etdimi?

Təriqətlər qurulduqdan, təsəvvüf əhli şəriətçilərin onlara qarşı durmalarına rəğmən bir güc halına gəldikdən sonra iqtidarı təmsil edənlər bunları da ovlamağa cəhd etdilər və [buna] vəqflərə görə müvəffəq də ola bildilər. [Belə ki,] Təkkələrə, bu təriqət[lər]ə mənsub varlılar və hökümətin qüdrətli vəzifələrində olanlar tarlalar, evlər/xanələr, hamamlar, dükanlar vəqf etdilər. Təkkələrdə dərviş hücrələri (otaqları) [olan] səmaxana, yaxud muqabələxana, tövhidxana adlanan səma (ilahilər – R.M.) [oxunan] və zikr edilən mehrablı, bəzən [də] minbərli yer, şeyxə aid hərəm dairəsi, qonaqları qəbul etmək, onlara xidmət etmək üçün qonaq dairəsi, [xörək hazırlamaq üçün] mətbəx və yemək yeyilən yer, çadırlıq, məscid, türbə və qəbristanlıq düzəldildi. [Beləliklə də] təkkələr bu qurumla demək olar ki, [dəbdəbəli] saray övladı halına çevirilmiş oldu.

[Bütün] Bunlar elə bəzi sufilər tərəfindən də yaxşı qəbul edilməmişdi[r]. Məsələn, Qüşeyri [öz] "Risalə"sində "Bu tayfanın (sufilərin – R.M) həqiqətlərinin çoxu yox oldu. Dövrümüzdə yalnız əsərləri qalmışdır. [İndiki sufilərin qurduğu] Çadırlar on-

ların çadırlarına bənzəyir, amma içəridəki qadınların onların qadınları olmadığını görürəm. Bu yolda fitrət çaşdı, hətta həqiqətdə təriqət yox oldu getdi. Onlara qoşulub doğru yol tapanları çıxıb getdilər. Onların tərzlərinə, yollarına-izlərinə qoşulan gənclər isə azaldı...” demiş, ürəklərdən şəriətə hörmətin getdiyini, dinə qoşulmanın azaldığını, haramla halalın ayırd edilmədiyini, padşahlardan əldə edilən şeylərlə keçinmək mümkün olduğunu söyləmişdir (s.2).

Mövlana da həqiqi sufinin mindən birinin də az olduğunu söyləyir (Mesnevi, II, s.276, beyt: 534)...davulla, bayraqla şeyxlik satanları qınayır (s.417, beyt: 256-2549).

Elə bütün təsəvvüf kitablarında bu cür qeydlər vardır. Nə edək ki, belə bir cığır açılmış, vəqf [təsisatı] onları (sufiləri – R.M.) da iqtidara qul etmişdir. Mövlana kimi həqiqi şəxsiyyətlərdən/ərlərdən sonra gəlmişlər də çarəsiz [şəkildə] bu batallığa düşmüşlər. Çünki, həqiqətən də bundan qurtulmaq əsl kəraməddir.

## 60-cı sual: Kəramət demişkən: təsəvvüfçülərə görə kəramət nədir və kəramət haqqında fikirləri, baxışları necədir?

Peyğəmbərlərdən peyğəmbərliklərini sübut etmək üçün [onların] istəmədən, yaxud istədikdə ortalığa çıxan fövqəladə hadisələrə “möcüzə”, yəni insanı aciz edən şey[lər]/hadisələr deyilir. Ərənlərdən ortalığa çıxan fövqəladə hadisələrə isə ululuq, böyüklük mənasında “kəramət” deyilir. [Qeyd edək ki,] Peyğəmbərlər peyğəmbər olaraq yaradılmışdır, yəni [onlar] günah etməzlər, məsumdurlar. Ərənlər [isə] günah edə bilərlər, amma [onlar] məhfuzdurlar, yəni Allah onları qoruyur. Şəriətə uymayan, dindən, imandan xəbəri olmayan insanlardan da fövqəladə hadisələr ortalığa çıxa bilər ki, bunlara nizam və tədricən əzaba alışmaq mənasında “məkr” və “istidrac” deyilir.

Sufilərin bir-çoxundan fövqəladə hadisələr rəvayət edilmişdir. Bu rəvayətlər adətən müştərəkdir, yəni [eyni] bir kəramət bir-çox sufilərə aid edilmişdir. Məsələn, Loğmani Sərəxsi uça

bilmiş, Hacı Bektaş göyərçinə dönmüş, Abdal Musa bir geyim olurmuş, Budha[nın] da bir fil şəklində görünməsi [buna] bir misal ola bilər. Heyvanlara iş gördürmək, yırtıcı bir heyvana minmək Əbu Yəzid-i Bistamiyə, Əbül-Həsən-i Xərəqaniyə, Hacı Bektaşa aid edilmişdir. Az yeməklə çox adamı doyuzdurmaq "Əhd-i Cədid"də olduğu kimi bir-çox adama/ərənə aid edilmişdir. Əhməd-i Cami, Əbul-Həsən-i Xərəqani, Əhməd Sarban qadın dərdi/sevgisi çəkmiş ərənlərdir. [Bu] Fövqəladə hadisələr nağıllarımıza qədər gəlib çıxmışdır (tərəfimizdən bügünün dilinə çevrilən "Vilayet-Namə Manakıb-ı Hacı Bektaş-ı Veli"nin "Açılama"sına baxın: İst, İnkılap K. 1958, s.105-120).

"Kuşeyri Risalesi"ndə, "Nefahat"da bir gəmidəki gənci oğurluqda ittiham etdikdə onun dua etməsi [və nəticədə] dənizdən ağızlarında çoxlu sayda incilər olan balıqların görünməsi (Kuşeyri, s.215; Nefahat tərc. s.89), "Mesnevi"də [bu hadisə] başqa bir tərzdə İbrahim b. Ədhəmə aid edilərək nəql edilməkdədir (II, s.427-429). Bir sufiyə aid edilən, birindən nəql olunan kəramətin bir-çox sufilərə aid edildiyini, [bunun] dövrümüzədək davam etdiyini...hekayələrimizdə olduğu kimi dövr dəyişdikcə, məkan dəyişdikcə onlarda da dəyişikliklər edildiyini və bütün bunların daha qədim dinlərdə, ənənələrdə olduğunu bildirməyimiz yerinə düşərdi.

Sufilər kəraməti iki yerə ayırırlar: kəraməti kövniyyə və kəramət-i ilmiyyə.

Kəramət-i kövniyyə nümunə göstərdiyimiz kəramətlər kimi [müəyyən] bir zaman içində baş verib, bitən və keçib gedən/qurtaran kəramətlərdir. Kəramət-i ilmiyyə ilahi, lədüni /gizli bilgi baxımından olan kəramət [kimi] yazılan kitablar, söylənən sözlərdir ki, bunlar daimi olaraq qalır və əsl önəmli kəramət[lər] də [elə] bunlardır. Qüşeyri "Risalə"sində birinin Əbu Yəzid-i Bistamiyə bir gecədə Məkkəyə gedən [başqa] birisindən bəhs edilincə onun: "Şeytan bir anda şərqdən qərbə gedər, amma Allah da ona lənət etmişdir"-dediyi, filankəs havada uçur deyənə də, quş da uçur, balıq da dənizdə üzür deyə [onu] susdurduğu; Səhl b. Ab-

dullahın (283 h.,896) "kəramət pis huyların yaxşıya dönməsidir"dediyi qeyd edilmişdir (s.213).

Mövlanə də söhbətlərinin toplusundan meydana gəlmiş "Fihi ma-fih" [əsərin]də söyləyir ki, "birisi bir gün içində, yaxud [da] bir soluqda/göz qırpımında Kəbəyə getdiyini [söyləyərsə] bu o qədər [də] çaşdırıcı bir şey deyildir; kəramət də deyildir. [Çünki] Şam küləyində də bu kəramət var[dır]: [belə ki, o] bir gündə bir soluqda dilədiyi yerə gedər/əsə bilir. Kəramət ona deyərlər ki, səni aşağı bir vəziyyətdən uca bir vəziyyətə aparıb çıxartsın ki, oradan buraya, bilgisizlikdən ağla, cansızlıqdan/ölülükdən canlılığa/diriliyə səfər edəsən" (s.100). Əbu Səid Əbül-Xeyr də (440 h., 1049): "filankəs havada uçur" deyənə, "ağcaqanad da uçur" demiş, "filankəs bir soluqda bir şəhərdən [başqa] bir şəhərə gedir"-deyənə, "Şeytan da bir soluqda gün doğandan gün batan çatır" sözünü demiş, "bu cür işlər lazımlı, dəyərli şeylər deyil. Gərəkli olan xalq içində oturmaq, alış-verişdə olmaq, evlənmək, xalqa qarışmaq [və beləliklə] yenə də bir soluq belə Allahdan qafil/bixəbər olmamaqdır" [deyə] bildirmişdir (Nefahat tərc. s.345). Sufilərin ulularından Xacə Abdullah-i Ənsari (481 h., 1088): "su üstündə yeriyirsənsə saman çöpü olursan; havada uçarsansa ağcaqanada çevrilirsən. Bir könül ələ al ki, adam olasan" deyir (Nasayih u Münacat; İst. 1301, s.33)...

Sufilərin kəramət baxışları, kəramətə dəyər vermələri belə [olmasına baxmayaraq] xalq kəramətlə ələ alınır... [Təsəvvüf] Şeyxin[in] hər sözündən, hər işindən, hətta sayıqlamasından kəramət çıxaran sadəlövlər, yaxud şeyx vasitəsiylə dolanan və saf görünən dələduzlar vardır...Yalnız məlamət əhli [buna] önəm verməzlər. Çünki, onlar təsəvvüf əhlinin təkkə, geyim, keçim, zikr kimi təməl inanclarına, hətta bir ritualla dərviş etmək kimi adətlərinə də qarşıdırlar.

# VIII BÖLMƏ

## TƏSƏVVÜF İÇƏRİSİNDƏ TƏSƏVVÜFƏ MÜXALİFƏTÇİ CƏBHƏ – MƏLAMƏTİLİK HAQQINDA QƏNAƏTLƏR-İLK MƏLAMƏTİLƏR-FÜTÜVVƏT VƏ MÜRÜVVƏT-SİYASƏTDƏ MÜRÜVVƏT- FÜTÜVVƏTNAMƏLƏR – BAYRAMİ MƏLAMİLƏRİ VƏ AXIRINCI MƏLAMİLƏR

### 61-ci sual: Axırıncı sözlərinizdən məlamət əhli adlandırdığınız toplumun təsəvvüf içərisində təsəvvüf əhlinə qarşı müxalifət təşkil edən bir zümrə olduğu başa düşüldü. Bunu izah edərsinizmi?

Əlbəttə! Məlamətilər adlanan toplum təsəvvüf içərisində təsəvvüfçülərə qarşı çıxan bir zümrədir. Məlamətilər Tanrıya çatmaq üçün zikrin deyil, fikrin rol oynadığına inanırlar. Onlara görə Tanrıya ancaq eşq və cazibəylə çatmaq olar. Zikr insanı xəyallara salır, hətta dəli edə bilir. “[Ya Məhəmməd!] De ki: “Bu mənim [təbliğ, dəvət] yolumdur. Mən və mənə tabe olan [möminlər] açıq-aşkar bir dəlillə [insanları] Allaha çağırırıq. Allah pak və müqəddəsdir...Mən isə müşriklərdən deyiləm” (XII, 108) ayəsiylə “[Ya Məhəmməd!] İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (İslama) dəvət et, onlarla ən gözəl surətdə...mübahisə et...” anlamındakı ayə (XVI, 125) Məlamət əhlinin şüarı olmuşdur. Onlara görə röya çox nadir hallarda doğru[dur], amma əksər hallarda daxili aləmin, şüur altındakı halların bir əksidir. Əsma[nı], yəni Tanrı adlarını ardıcıl olaraq anmaq/sadalamaq, insanı əsma dəlisi edər. Sufilər zaviyə, təkkə və dərgah kimi nisbətən şəhər xaricindəki malikanələrdə yaşamaqda, geyimləri, keçimləri ilə xalqdan ayrılmaqda, vəqflərlə dolanmaqda idilər. Özlərini Tanrıya aid edən bu adamlar təşkilatlanmış, şeyx olmaları imtahan etmək, şeyxliklərini təsdiq etmək üçün “Bab-ı Məşihati ulya” yə-

ni, şeyxulislamlığa aid "Məclisi-məşayix" qurulmuş, bu məclisə şeyxlərdən rəislər və əza (üzvlər – R.M.) təyin edilmiş, vəqflər, əvqaf idarəsinə görə təmsil olunmuş, padşah dəyişdikcə bəratların/diplomlarının yenilənməsi adət halını almışdır. Şəriətin irfan yönünü təmsil edən, dözümlülükləri ilə hər kəsi eyni gördüklərini söyləyən şeyx və dərvişlər geyimlərindən, keçimlərindən başqa aralarındakı adət və terminlərlə də xalqdan ayrılmışdılar. [Belə ki, onlar] Xalqa avam (kütlə- R.M.), yaxud zahid (tərkidünya – R.M.) və zahir (üzdə olanı bilən – R.M.) deyir, özlərini [isə] arif (bilən, bilici, bilikli – R.M.) sayırdılar. [Belə ki,] Təsəvvüf əhli ayrı bir zümrə olmuş və iqtidar isə bunları əlinə almışdı.

Məlamət sufilərin bu hallarına qarşı təsəvvüf inancının əsasına dayanan və təsəvvüf əhlinin içindən çağlamış bir reaksiya/münasibət idi. [Belə ki,] Məlaməti qəbul edənlər zaviyə, təkkə, dərgah və xənəkə qəbul etmirdilər. Üç-beş hal əhlinin toplandığı xəlvət bir yer, harada olursa olsun, onlara görə [ancaq] söhbət məclisi ola bilərdi. Vəqf isə onlara görə [təsəvvüf] qayə[sin]dən tamamilə ayrılmaqdır. Eyni zamanda xalqdan uzaqlaşmaq, xüsusi geyim və keçimlə özlərini bildirmək yoxluğa deyil, tamamilə varlığa bürünməkdir və təsəvvüfün ruhuna ziddir. Tanrını zikr [etmək] Onun qüdrətini, hikmətini seyr etməkdən, Onu[n barəsində] düşünməkdən başqa cür ola bilməz. Vəqflə (Vəqf gəlirləri ilə) deyil, hər kəs öz qazancı ilə yaşayacaq, həmçinin eyni zamanda da yaşadacaq. Varlığını Haqqa vermək [öz] varını-yoxunu xalqa verməkdən başqa bir şey ola bilməz. [Məlamətilər]Deyirdilər ki, "Şəriətdə bu sənin bu mənim; təriqətdə həm sənin, həm mənim; həqiqətdə isə nə sənin, nə mənim[dir]".

[Daha] Sonra Məlamət əhli özlərini zahidliklə, irfanla, yaxşılıqla göstərməyi də bir qeyd, hətta özünü bir bəyənmə və bəyəndirmə çalışmasına düşmək bilirdilər. Onlara görə, özlərini hər kəsdən aşağı görmək və göstərmək, hər yaradılmışdan aşağı sayılmaq başlıca şüar idi. Başqa bir şüarları isə edilmiş yaxşılığı gizlətmək, pisliyi isə gizlətməyə çalışmamaq idi. Bu şüar getdikcə nəfsi aşağılamaq örtüyü altında özünü xalqa pis göstərmək üçün

pis şeylərin edilməsinə qədər gedib çıxdı və bir qism ibahaçıların, yəni hər şeyi [etməyi] mübah (yol verilən, gözəl – R.M.) görənlərin özlərini məlamətlə gizlətmələrinə yol açmış oldu.

## 62-ci sual: Məlaməti haqqında sufilərin qənaətləri nədir?

"Kəşfül-məhcub" [əsərinin] sahibi Əliy b. Osman b. Əbu Əliyyil-Qəznəvi (464 h., 1071-1072) kitabının altıncı fəslini "Məlamət"ə həsr etmişdir. [O,] Təriqət başçılarının bir qisminin də məlaməti seçdiyini, sevginin mənimsənilməsində məlamətin böyük bir təsiri[nin] olduğunu, insanı öz doğruluğuna və sevgiyə bu yolun götürdüyünü söləyir və Həzrəti Məhəmmədin belə peyğəmbər olmadan hər kəs tərəfindən sevilib sayıldığını, ancaq peyğəmbər olub hər kəsi həqiqətə çağırmaya başlayan kimi hər kəs tərəfindən qınandığını anladır. Məlaməti bir az təriflədikdən sonra [o] Məlamət əhlini "Əsl, müəyyən bir məqsədlə məlamətiliyi seçənlər və şəriətdən ayrılanlar" deyə üç [qism]ə ayırır. Ona görə əsl olanlar [məlamətilər], şəriətə riayət edənlər, nəfsləriylə savaşanlar xalqın qınağına tuş gəlməyənlərdir. [Hansısa] Bir məqsədlə məlamətiliyi seçənlər xalq arasında şöhrətə sahib olduqdan sonra özlərini bu şöhrətdən, bu şöhrətin verəcəyi mənəmlikdən qurtara bilmək üçün şəriətdə açıq-aydın qüsur və günah sayılmayan, amma xalq tərəfindən yaxşı qəbul edilməyən bəzi hərəkətlər edərək o şöhrətdən çıxmışlar[ı] xalqın qınağına məruz qalanlardır. Üçüncü qrupsa məlamətilik icabı deyib hər cür pisliyi edənlər, şəriət buyruqlarına uymayanlardır. [Qeyd edək ki, məlamətiliyə aid] bu fərqləndirmə indi [də daxil] olmaqla bərabər X-XI əsrlərdə sufilər tərəfindən məlamət ərbabının (üzvlərinin – R.M.) necə görüldüyünü anlamaq baxımından önəmlidir. Bu [cür] fərqləndirmədən sonra öz baxışını, daha doğrusu sufilərin baxışlarını açıqlayan müəllif, riyakarların özlərini xalqa xoş göstərmək, yaxşı tanıtdırmaq qeydində olduqları kimi məlamət əhlinin də xalqın özlərini pis görmələri qeydində olduğunu, bu baxımdan [da] hər iki qrupun da baxışlarında xalq

olduğunu söyləməkdə, bu cür məqsədlərdən qurtulmuş olan sufilərin məlamət əhlindən üstün olduqlarını bildirməkdədir. 632-ci ildə vəfat etmiş (1234) və Abbasoğullarının Anadolu elçiliyini etmiş Şihabəddin-i Sührəvərdi də bu fikirdədir. [Onun] "Əvariful-maarif" [əsərində]də eyni fikir/tezis müdafiə edilir. Bundan başqa "İdalətül-iyan ələ-burhan" adlı əsərində də eyni fikir güdülür. Hətta [o] fütüvvəti belə təsəvvüfün bir hissəsi hesab etmişdir (Bu kitab Murad Molla kitabxanasında, I Əbdülhəmid kitabları arasındadır: nö. 132 a. – 134 b. 1447). Cami "Nəfahat"ında sufilərin Haqqda fani olduqlarını mütəsəvviflərin, yəni sufilik edənlərin bu yolu tutduklarını, amma hələ istədiklərinə çatmadıqlarına, məlamət əhlinin isə hər cür əmrə uymaqla bərabər yaxşılıqlarını gizlətmək, pisliklərini izhar etmək (bildirmək – R.M.) istəyi ilə baxışlarından xalqın silinmədiyini, bu baxımdan [da] ixlas sahibi (mömin – R.M.) olsalar da ixlasa (saflığa – R.M.) çatmadıqlarını, xalq[ın] nəzərindən çıxmadıqlarını söyləyərək sufiləri məlamətilərdən üstün görmüşdür.

Sufilərdən məlamətiliyi qəbul edənlərə görə isə məlamət ən yüksək bir mərtəbədir. Əbu Əbdür-Rəhman-ı Süləmi (412 h, 1021) bu qənaətdə olduğu kimi İbn Ərəbi də məlamətdən üstün dərəcənin ancaq peyğəmbərlik olduğunu söyləmişdir. Seyyid Şərif də [özünün] "Tərifat"ında eyni fikri irəli sürmüşdür ("Melamilik ve Melamiler" adlı əsərimizin IV bölümünə baxın: s.17-21).

Sufilər arasında məlamətiliyin şeyxdən şeyxə ötürülən bir yol olmayıb bir nəşə olduğunu qəbul edənlər də vardır. Belələrinə görə hər [bir] təriqətdə məlamət əhli ola bilər. [Belə ki,] Özünü xor görən və göstərən bir nəşəyə sahib olan insan məlamətilikdədir. Bəziləri isə məlamətiliyi mənəvi məqamların ən ucası/alisi hesab etmişdir. Belələrinə görə hər cür lütfə çatan salik axırda məlamətə daxil olur, varlığın heçliyini başa düşər; hər kəsə qul olar, hər kəslə hal yoldaşı olur. [Yəni] su kimi onun rəngi də, şəkli də/forması da yoxdur. Hansı qaba tökülərsə onun rəngini və formasını almış olur; kamilliyini belə nöqsan bilir. Bu məqama "təlvin", yəni rəngdən rəngə daxil olmaq/çevrilmək məqa-

mı deyirlər. Sufilərin əksəriyyətinə görə bu məqam "təmkin" yəni durğunluq, səbrli olmaq məqamından aşağıdır. Amma məlamətilərə görə [bu məqam] məqamların ən üstünüdür. Tanrı hər an fərqli təcəlli (görsənmə - R.M.) nümayiş etdirir, [yəni Onun] təcəllisində təkərrür (təkrarlanma – R.M.) yoxdur: "...O hər gün [hər an] bir işdədir..." anlamındakı ayə (LV, 29)[33] "təlvin" məqamının aliliyini nümayiş etdirir ki, bu məqama yüksələn də bu ayənin həqiqəti ilə təhəqqüq edər (həqiqətə çatmış olar – R.M.) (İbni Ərəbinin "İstilahat"ı, "Tərifat"ın axırında, s.7)...

## 63-cü sual: Bu istiqamət nə vaxt başlamışdır; ilk məlamətilik nümayəndələrinə nə vaxt rastlaşırıq; "məlamət" sözü hansı dövrdə [ortalığa] çıxmışdır?

Məlamətilik nümayəndələrinə "məlaməti", yollarına [isə] "məlamətiyyə" (məlamətilik) deyilmişdir. Sufilər xüsusən də İraqda çoxaldığından bunlara "iraqilər" deyildiyi kimi, məlamətilər də Xorasanda çoxaldığından [onlara] buna görə "xorasanilər", sonradan [isə] "Xorasan ərənlər, Xorasan ərləri" deyə anılmışlar. Bu baxımdan "xorasanilər"dən "xorasani" deyə anılanların hamısını xorasanlı hesab etməmək lazımdır...

---

[33] Ə.Əmirəhmədova görə bu ayə: "Göylərdə, yerdə olan kim varsa dilənər Ondan; hər gün bir işdə olur O, [deyil heç vaxt boş qalan]".(29) şəklində tərcümə (s.66); "29. Yəni O (Allah – R.M.) Öz mahiyyəti etibarilə (Özlüyündə) Öz yaratdıqlarına heç bir ehtiyacı Olmayandır, böyük səxavət və hörmət Sahibidir, bütün yaradılmışlar isə Ona möhtacdırlar, özlərinin bütün ehtiyaclarının ödənilməsini öz halları və dilləri ilə Ondan diləyirlər, bir göz qırpımı, hətta bundan da az vaxt belə Ona möhtac olmadan yaşaya bilməzlər".
Ucalardan Uca Allah "hər gün bir işdə olur"- yoxsulu varlandırır, sınığı birləşdirir, bir tayfaya var-dövlət verir, başqalarından alır, birini öldürür, birini dirildir, kimisə endirir (alçaldır), kimisə qaldırır (ucaldır); bir iş Onun başqa bir işi görməsinə maneçilik törədə, məsələləri qarışdırmasına səbəb ola bilmir, israr edənlərin israrı, dilək diləyənlərin uzunçuluğu Onu bezdirmir..." şəklində, s.74-də təfsir edilmişdir .

Sufilər arasında Əbu Turab-i Nəxşəbi, Həmdun-i Qəssar, Əhməd-i Hidraveyh, onun ustadı və Şəqiq-i Bəlhinin müridi Hatəm-i Əsamm, Əbu Hafsul-Həddad, kürəkəni Əbu Osmanul-Hiri kimi hicri III əsrdə (IX) yaşamışlar, Abdullah b. Munəzil kimi IV əsrin ilk yarısına (X) [qədər] gedib çıxanlar Quşeyri "Risalə"sində mənsub olduqları adamlar baxımından olduğu kimi məsələn, Həmdun-i Qəssarın məlamətiliyi yayması, Əhməd-i Xüdrəveyhin fütüvvətlə anılması, Əbu Həfsul-Həddadın fütüvvət haqqında fikirlərinin olması (s.21-22), Abdullah b. Münəziləyə (332 h., 943-944) "məlamətilər[in] şeyxi" deməsi (s.34) dolayısı ilə də ilk məlamətilik təsisçiləridir. Bunlardan Əbu Həfsul-Həddada (271 h., 884) "Nəfahat" [əsərin]də "Əhl-i məlamət şeyxi" deyilməkdədir (s.111).

Əbu Bəkr Şiblinin (334 h., 945) müridi [olmuş] Nəsrəbadiyə (372 h., 982) aid olan və "Təbəqati sufiyyə" və təfsir yazmış Əbu Əbdür-Rəhman-i Süləmi (412 h., 1021) kiçik, ancaq verdiyi məlumat baxımından olduqca dəyərli "Ər-risalətül-məlamətiyyə" adlı bir risalə qələmə almışdır. Bu risalədə din əhlini, zahir bilənləri, xəvas, yəni sufilər və məlamətilər deyə üç yerə ayırmış və məlamətiliyi ən üstün dərəcədə göstərən Süləmi yuxarıda adları çəkilmişlərdən başqa IV əsrdə (X) yaşayanlardan Əbu Əmr b. Nüceyd, İsmayıl b. Nuceyd kimi bəzi adlar[ı] xatırlatmaqda və Məhəmməd b. Əhməd il-Məlaməti kimi məlaməti şöhrətiylə tanınan adamlardan və məlamətilik barəsində sözlərindən bəhs etməkdədir. Bu arada [sözügedən əsərdə] Əbu Yəzid-i Bistaminin adı da bir neçə dəfə çəkilməkdədir. Bütün bunlardan başa düşürük ki, məlamətilik dərhal təkkələr qurulub təsəvvüf dəyişildikdən və sufilər xalqdan ayrıldıqdan sonra meydana çıxmışdır. Risalədə adı xatırlanan Məhəmməd b. Əhmədil-Məlaməti, Əbu Bəkr Məhəmməd b. Əhməd b. Həmdunil-Fərra (370 h., 980) ola bilər (Nəfahat, s.238-239); necə ki, bir neçə dəfə də Məhəmmədül-Fərranin adı çəkilmişdir.

"Nəfahat" [əsərində] sufilərin həqiqətən də böyüklərindən və aşiqlərindən biri olmuş Əbu Səid Əbül-Hayrın şeyxi Əbül-Fəzlin vəfatından sonra Süləmiyə keçdiyi yazılmaqdadır (s.350).

**64-cü sual: Məlamətilər bu adı [özlərinə] götürdükdə istinad etdikləri bir şey vardırmı?**

[Quranın] V sürə[si]nin 54-cü ayət-i kəriməsində dindən dönüldüyü təqdirdə "Allahı sevən və Allah tərəfindən sevilən tayfanı" onların yerinə gətiriləcəyi bildirilməkdədir. Sufilərin adətlərini, xalqdan ayrılmalarını, idarəçilərə yarınmalarını bəyənməyib yenə [də] təsəvvüf ümdələrinə (qabaqcıllarına) istinad etməklə bərabər onlara qarşı etirazçı bır münasibətdə olanlar məlamət və məlaməti terminlərini bu ayətə istinadən əldə etmişlər.

**65-ci sual: Məlamətilik yalnız etirazçı bir hərəkat olaraqmı qalmışdır; bu etiraz fəal bir durum ortalığa çıxartmamışdır; məlamətilərin xalqa istinad etdiklərinə görə xalqa münasibətdə vəziyyətləri necə olmuşdur?**

Məlamətilik bir ideologiya və ya belə demək olarsa, bir nəzəriyyədir. İstənilən ideologiyanın, istənilən nəzəriyyənin, xüsusən də xalq tərəfindən irəli sürülmüşsə, mütləq müsbət yaxud mənfi bir nəticəsi ortalığa çıxır. Məlamətilər xalqdan ayrılmayan, xalqı qucaqlayan bir ideologiyanı təmsil etmiş, bu ideologiyanın xalq arasında yayılması [isə] xüsusən də zəhmətkeşləri və sənətkarlar sinfini təşkilatlandırmışdır. Bu təşkilata "Fütüvvət" adı verilmişdir.

Əsasən [də] məlamətiliklə fütüvvət eyni şeydir. [Əgər bunlardan] biri (məlamətilik – R.M.) ideologiyanı təmsil edirsə, o birisi (fütüvvət – R.M.) bu ideologiyanı xalq [arasınd]a yaymaqla xalqı təşkilatlandırmışdır. Fütüvvətlə mürüvvət, yəni kişilik, igidliklə adam olmaq, insanlıq daima bərabər anılmaqdadır. Yəni onlara (məlamətilərə -R.M.) görə məlamət əhli eyni zamanda

kişidir/ərdir, igiddir və insandır. Məlaməti həm nəfsiylə savaşır, həm [də] həyat mübarizəsində müsbət[bir şəxsiyyət]dir: çalışır, yaşayır və yaşadır. Bu yolda hər kəsin bir iş, bir güc sahibi olması şərtdir. Hər kəs əlinin əməyi ilə, alnının təriylə yaşamalı, kimsə başqa birinə əyilməyib, heç kim başqasının hesabına yaşamamalı, qazancına şərik olmamalıdır. [Yəni hər kəs] Vəqf malıyla deyil, əl[inin] əməyi ilə yaşamalıdır.

## 66-cı sual: Mürüvvət və fütüvvəti bir az daha [da] açıqlaya bilərsinizmi?

İmam Cəfərüs-Sadiq: "Fəta, yəni igid, Allaha inanan, pislik etməkdən çəkinən şəxsdir. Əshabi Kəhf yetkinlik yaşlarındaydılar: inancları üzündən Allah onları igidlər deyərək xatırlayıb" və "Fütüvvət pisliklə, günahla əldə edildiyi sanılır. Əslində fütüvvət yedizdirmək üçün qazanılan yeməkdir; əldə ediləni yoxsullara xərcləməkdir; doğru yolda, xeyirli olmaqdır; heç kimsəni incitməməkdir. Bunların fütüvvətiysə oyunbazlıqdan, günah etməkdən başqa bir şey deyil. Mürüvvətsə insanın yeməyini qapısının ağzına qoy[ul]masıdır, yəni hər kəsi maddi və mənəvi doyurmasıdır" söyləmişdir (Sefinətül-Bihar, II, s.345). Həzrəti Məhəmməd də "Mən igidəm, igidin oğluyam, igid qardaşıyam" deməklə atası (ulu əcdadı – R.M.) İbrahim peyğəmbəri və qardaş edildiyi Əlini qəsd etmişdir. [Məhəmməd peyğəmbər] Uhud döyüşündə "Zülfüqardan başqa qılınc, Əlidən başqa ərən/igid yoxdur" demişdir (eyni s.). "Nəhcül-Bəlağə"ni şərh edən İbni –l-Hədid (655 h., 1257) fütüvvəti "Başqasında gördükdə belə pislədiyin şeyi yaxşı və gözəl görməməkdir" tərzində tərif etmişdir (eyni s.). Həzrəti Əli "Mürüvvət açıqca etdiyin vaxt utanacağın şeyi kimsə görmədən də etməməkdir" buyurmuşdur. [O,] bir gün mürüvvətdən bəhs edən əshabına "Niyə Allah kitabına müraciət etmirsiniz?" deyə soruşmuş və "Ey möminlərin əmiri, Quranda mürüvvət harada[dır?]" deyə soruşulduqda [buna cavab olaraq] "Həqiqətən, Allah [Quranda insanlara] ədalətli olmağı, yaxşılıq etməyi, qohum-

lara [haqqını] verməyi... buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər...” ayəsini (XVI, 90) oxumuşdur (Səfinə, II, s.533). Yenə Əli: “İnsan dininin hüquqa aid əmrlərini bilmədikcə, yaşayışında iqtisadiyyata riayət etmədikcə sıxıntılara, bəlalara qarşı dirənmədikcə, qardaşlarının gücünə təhəmmül etmədikcə (dözmədikcə - R.M.) mürüvvət tamamlanmaz” demişdir (eyni s.). İmam Həsəndən (50 h., 670) mürüvvət [haqqında] soruşulduqda [o] “İnsanın dininə sarılması, malını halaldan qazanması, haqlara riayət etməsidir” cavabını vermişdir. İmam Məhəmmədül-Baqir (110 h., 733): “Mürüvvət budur: tamaha düşmə, aşağı bir duruma düşərsən; çox istəmə, çoxdan olarsan; pis olma, pislənərsən; biliksiz olma, bilənə düşmən kəsilərsən” demişdir.

Qurani Kərimdə XII sürənin 30-cu ayəsində Yusif peyğəmbərə, XVIII sürənin 10 və 18-ci ayələrində Əshabi Kəhfə, XVIII sürənin 60 və 62-ci ayələrində Musa peyğəmbərə yoldaşlıq edən Yuşaaya, XXI sürənin 60-cı ayəsində İbrahim peyğəmbərə bu cür təqdim edilmişdir. Həqiqətən də [fütüvvənin] gənc mənasında istifadə edildiyi yerlər də vardır (A. Gölpınarlı: Kuran-ı Kerim ve Meali; İst. Remzi K. 1377-1958; Açılama (Giriş), s.LXXX-LXXXI).

Göründüyü kimi fütüvvət və mürüvvət təsəvvüf kimi sonradan uydurulmuş bir termin deyildir. Fütüvvət əhlinə görə Əshabi Kəhfə Tanrıya inandıqları, bütə səcdə etməyib mağaraya sığındıqları üçün, Yusifə pislik etmədiyinə, Yuşaaya da Musaya qoşulduğuna görə “ər, igid” deyilmi°dir.

Təsəvvüf terminində olduğu kimi fütüvvət və mürüvvət haqqında da bir-çox təriflər, təvsiflər (vəsf etməklər – R.M.) vardır. O cümlədən də bunu bildirək ki:

Şəqiqi Bəlhi İmam Cəfərüs-Sadiqdən “Fütüvvət nədir?”- deyə soruşur. İmam: “[Bəs] sən nə deyirsən?”- deyə buyurur. Şəqiq [buna cavab olaraq]: “[Allah ruzi] verirsə şükr edirik, vermirsə səbr edirik”- deyən kimi İmam: “Mədinənin köpəkləri də belə edirlər” deyir. Şəqiq: “Ey Allahın Rəsulunun qızının oğlu!” – deyir: “Sizə görə fütüvvət nədir?” İmam [cavab olaraq] deyir ki: “Verirsə ehsan edirik, verməzsə şükr edirik” (Qüşeyri, s136-137).

Məlamət haqqında bir risaləsi olan Süləminin fütüvvət haqqında da bir risaləsi vardır ("İslam – Türk illerinde fütüvvet teşkilatı ve kaynakları" adlı məqaləmizə baxın: İst. Üniv. İktisat Fakültəsi Mecmuası, 11.cilt, ekim 1949-Temmuz 1950; №1-4, s.6-11). İbni Ərəbi də "Futuhat"ında fütüvvəyə ayrıca bir fəsil ayırmışdır (Mısır – 1329, c.I, bab. 42, s.241-244).

## 67-ci sual: Niyə məlamətilik və fütüvvət Xorasanda cəmləşmişdi?

Üməyyəoğulları (Əməvilər – R.M.) Həzrəti Əliyə və övladlarına xəlifəliyə görə düşmən olduqları, onlara əllərindən gələn zülmü etdikləri kimi İslam ölkəsinə qatılan yerlərdə də ərəb olmayanlara qarşı çox şiddətli hərəkət edir, ərəb olmayanlara qarşı daima qərəzli davranırdılar. Bunda ikinci xəlifə Ömərin bir iranlı tərəfindən öldürülməsinin, öldürənin oğlunun günahsız olaraq Ömərin oğlu tərəfindən qətl edilməsinin Osmanın, Əlinin və bəzi səhabələrin israrına rəğmən qisas hökmünü yerinə yetirməsinin, Əlinin Küfəni mərkəz /paytaxt etməsinin, İraqda ərəb[lər]dən başqalarının da olmasının, Osmanı İraqdan və Misirdən gələnlərin öldürülmələrinin [də] böyük təsirləri vardır.

Əməvilər ərəb olmayanlara "məvali-kölələr" adını vermişdilər. Ərəb olmayanlar müsəlman olsalar belə kitab əhlinin verdiyi vergidən qurtula bilmirdilər. Məvalilərdən kimsə bir ərəblə qarşılaşanda miniyindən enməyə, ona yol verməyə məcbur [olur]du. Bütün bunlar ərəb olmayanları əməvilərin düşmən saydıqları Həzrəti Əliyə və Əli övladlarına bağlamışdı. Beləcə Əli tərəfdarları (şiə[lər]) xüsusən də İraq və Xorasan ellərində çoxalmışdı. Əbu Müslimin xilafəti Ali Muhəmmədə (Məhəmməd peyğəmbərin ailəsinə - R.M.) vermək/qaytarmaq üçün başladığı hərəkatda istinad etdiyi qüvvə məvalinin yardımıydı. Beləcə xəlifəliyi əldə edən Abbasoğulları (abbasilər – R.M.) də Əli övladlarını özlərinə rəqib saymaqda, tez-tez Əli övladları[tərəfdarları]nın üsyanları bu

düşmənliyi artdırmaqda idi. Bu səbəbdən fütüvvət əhli abbasoğullarının ilk dövrlərində İran və Xorasanda cəmləşmişdi.

[Əgər] Cüneydin "Fütüvvət Şamda, gözəl söz söyləmək/natiqlik İraqda, doğruluq Xorasandadır" fikrinə diqqət edilərsə, hicri III əsrdə (IX) fütüvvət əhli Suriyada da olduqca az bir zümrə halına gəlmişdi. Necə ki, Fatimilərlə Misir bölgəsi də fütüvvət əhlinin [yayılmış] bir bölgəsi olmuşdu.

Abbasoğulları ilk vaxtlarda "abbasiyyə" deyilən və şiəliyin ğulatından, yəni ifrata gedənlərindən olan firqəyə istinad edərək xəlifəliyi əldə etdikləri halda (Ebu-Muhammed Hasan b. Musan-Nevbahti: Kitabu Fırakış-Şıa, Seyyid Muhammed Sadık Alu Bahril-Ulumun düzəliş və qeydləriylə, Necef, Haydariyye Mat. 1355, 1936, s.30-41), sonradan müxtəlif vaxtlarda sünni yaxud şiə və mütəzilə olmuşlar. Məsələn, Məmun 200-cü hicri ilində (815) İmam Əliyyur-Rızanı özünə xələf təyin etmiş, ona beyət etmiş, Abbasoğullarının qəbul etdikləri qara rəngi ləğv etmiş, ələvilərin, yəni Əli övladlarının rəngi olan yaşıl rəngi qəbul etmiş, fəqət abbasoğullarının Məmunun yerinə İbrahim b. Mehdini xəlifə etmək istəmələri üzərinə İmam Rızanı 203-də (819) zəhərlədib təkrar siyah rəngi və sünniliyi qəbul eləmişdi. Belə ki, həm Məmun, həm oğlu Mötəsim (218-227 h., 833-841) və onun yerinə keçən qardaşı Vasiq (227-232 h., 841-846) mötəzilə inancını qəbul etmişdilər. Mütəvəkkil isə (232-247 h., 846-861) Nəcəf (Əli bin Əbu Talibin məzarının – R.M.) və Kərbəla (Hüseyn bin Əlinin məzarının – R.M.) ziyarətlərini ləğv etdirmiş, İmam Hüseynin türbəsini yıxdırmış, Əli nəslinə ağla gəlməyən zülümlər etmişdir. [Mütəvəkkilin] Oğlu Müstənsir (247-248 h., 861-862) imamiyyə məzhəbini qəbul etmiş, Mədinədəki Fədək xurmalığını Əli övladlarına vermiş/qaytarmış, imamların ziyarətinə icazə vermişdir. Abbasoğulları hicri IV əsrin ilk illərindən etibarən (X) Ali Büveyhinin (Büveyhilər sülaləsinin – R.M.) nüfuzu altına düşmüş, qeyri-ərəblərdən toplanmış orduyla hökm etməyə başlamışdılar. Son dövrlərində isə Səlcuq oğullarının himayəsinə sığınmışdılar. Bu zəiflik dövründə (575-622 h., 1179-1225)

Nasir li-dinillah imamiyyə məzhəbini qəbul etmiş, eyni zamanda Bağdadda böyük bir güc olan fütüvvət əhlini əldə etmək üçün bu yola da əl atmış, dövründəki fütüvvət əhlinin imamı sayılmışdı (Mesudi, c.II, Bulak -1283, s. 173-247; bu səhifələrdəki qeydlərə də baxın: Makrızı, Kahire – 1934, s.215-218; İslam ve Türk illerinde fütüvvet teşkilatı ve kaynakları, s.57 -63).

[Xəlifə] Nasir imamiyyə məzhəbini qəbul etməklə Misirdə belə xəlifə [kimi] tanınmış, Suriya və Anadoludakı fütüvvət ərbabı/nümayəndələri onu imam qəbul etmişdi. Anadolu Səlcuq hökmdarı İzzəddin Keykavusa (617 h., 1220) fütüvvət icazəsi və geyimlə səltənət qanuniliyi[ni təsdiqləyən] yollamış, Əlaəddin Keyqubada (635 h., 1237) məşhur sufi Şihabəddin-i Sührəvərdini (632 h., 1234) hədiyyələrlə göndərmiş və [nəticədə] bir-çox adam bu şeyxə intisab etmişdir (qoşulmuşdur) (İbni Bibi; M.Th.Houtsma basımı; Leiden – 1920, s.139-141-220-227 və 360-371).

Əvvəlcə Xorasanda toparlaşan fütüvvət nümayəndələri [daha sonra] Bağdadı mərkəz etmiş, hətta əyyar adlanan sivil əsgərlər də fütüvvət yolunu tutmuş və beləcə fütüvvət Anadoluya, Suriyaya və Misrə yayılmışdır. İbni Bətutə "Siyahətnamə"sindən, "Mənakibul-arif"indən, Sultan Vələd "Divan"ından və digər qaynaqlardan fütüvvət əhlinin Anadoluda nə qədər geniş yayıldığını görmüş oluruq. Osmanoğulları dövləti fütüvvət əhlinə istinad edərək qurulduğu kimi ilk futuhat dövründə də türklər arasında "Alp ərənlər" adını almış və fütüvvətin seyfi, yəni qılınclı qolunu təmsil edən qazilərin çox böyük bir rol oynadıqları həqiqətdir (İslam – Türk illerinde, V. Bölüm, s.78-83).

## 68-ci sual: Fütüvvət əhliylə təriqətçilər yəni, təsəvvüf əhli arasındakı fərq yalnız geyim-keçim özəlliklərini, zikri, təqiyyəni qəbul etmədikləridirmi; bunların ortaq nöqtələri yoxdurmu?

Fütüvvət əhli ilə təsəvvüfçülər arasındakı fərq zikr, təkkə, geyim-keçim özəlliyi[ni] qəbul etməyib xalqdan ayrılmazlıqdır.

Amma bundan daha önəmli fərq fütüvvətçilərin ticarətçilərlə sənətkarları təşkilatlandırmasıdır. Halbuki, sufilərin təkkələrinə qarşı onların da "zaviyə"ləri olmuşdur. [Onlar] Zaviyədə "məhfil" adlanan geniş otaqlarda söhbət edənlər fütüvvət adətlərini yerinə yetirir, yeyir, içir, səma (ilahi nəğmələr – R.M.) belə oxuyurdular. Hətta İbni Bətutə [fütüvvətçilərin] zaviyələrində geydikləri, ucu yuxarıdan qıvrılıb arxaya – iki omuz arasına yaxın yerə qədər sallanan bir külahları (baş geyimləri, papaqları – R.M.) olduğunu da söyləyir ki, sonradan bu külah yeniçəri üsküfü olmuşdur. Bunlar da fütüvvət silsiləsini Həzrəti Məhəmmədə aparıb çıxarırlar. Ancaq onlar[da] da təsəvvüfçülərin bir qolunda olduğu kimi Əbu Bəkrə gedib çıxan silsilə yoxdur. Bütün fütvvət əhli Əlini baş[çı] sayır və əxi deyilən fütüvvət şeyxlərinin silsilələri mütləq Əliyə aparılıb çıxarılır. Onlara görə Əlinin belini Həzrəti Məhəmməd sarımış, ona geyim geydirmişdir. Bel sarımaq, yəni şədd adlanan yun qurşaq fütüvvət yoluna daxil olan adamın belinə sarıyıb ona geyim geyindirmək, içinə duz tökülmüş suyu içirtmək fütüvvət şüarıdır. Bu duzlu su içmək adəti duzun romalılar, yunanlılar dövründən bəri müqəddəs sayılması, bərəkət və kamillik simvolu qəbul edilməsi üzündən olduğu güman edilə bilər (eyni məqaləmizə baxın: s.86).

[Biz] Qurşaq bağlamağın zərdüştilikdən keçdiyi qənaətindəyik. Necə ki, sufilərin geyindikləri xirqənin əslini də bu dində tapırıq. [Belə ki,] Zərdüştilikdə "Kusti" adlanan və on iki cüt iplikdən meydana gəlmiş altı parçanın hörülməsiylə düzəldilən belə üç dəfə sarıldıqdan sonra ucları aşağıya sallanacaq qədər uzun olan qurşaq erkək uşağa yeddi yaşında, qızlara altı ilə doqquz yaşları arasında, mübid adlanan zərdüşt rahibi tərəfindən sarılır. Bəyaz bir qoyunun, keçi və yaxud dəvənin yunundan hörülmüş olan kustinin önünə və arxasına iki cüt düyün vurulur ki, bu düyünlər Tanrının varlığına, dinin həqiqiliyinə, Zərdüştün Tanrı tərəfindən göndərildiyinə və zərdüştiliyin əsası olan "xeyir fikir, xeyir söz və xeyir iş/ əməl"ə işarədir. Eyni zamanda uşağa qısa qollu bir də köynək geydirilir.

Təsəvvüf əhlindəki xirqə, xüsusən [də] mövləvilərdəki tənnürə geyildikdən sonra belə sarınan "əlifi nəməd", yəni yundan düzəldilmiş və ərəb əlifbasındakı "əlif"[hərfin]ə bənzəyən qurşaq bektaşilərdə "əli[ni] tək, dilin[i] pak, belin[i] bərk tut" öyüdüylə belə sarılan və o gün kəsilmiş qurbanın yunundan hörülmüş olan "tıyqbənd – qılınc bağı", digər təriqətlərdəki kəmər bu ayindən keçdiyi güman edilə bilər (eyni məqalə, s.83-85).

Göründüyü kimi silsilə, hətta bir az ayin baxımından təsəvvüf əhliylə fütüvvət əhlinin ortaq nöqtələri olduqca çoxdur. Amma dediyimiz kimi onları təsəvvüfçülərdən ayıran nöqtə: zaviyədə oturub riyazətlə (məşqlə, ibadətlə - R.M.), zikrlə məşğul olmayı, vəqf malını yeməyi xoş görməyib hər kəsin Mütləq bir iş, bir sənət sahibi olmasını, çalışmasını, əlinin əməyi ilə dolanmasını əsas bilmələri və ixvan, yəni qardaşlar arasında çox geniş bir yardımlaşmağı qorumalarıdır.

Onlara görə hər iş sahibinin, hər sənət ustadının bir piri (öndəri – R.M.) vardır. Bu pirlərin bir qismi real insanlar olub çalışdıqları, yaxud çalışdıqları zən edilən iş o iş ustadını, o ərəni öndər/pir qəbul etdirmişdir. [Bunlardan] Bir qismiysə uydurma şəxslərdir. Fəqət [buna baxmayaraq] hər sənət və hünər sahibinin mütləq bir piri vardır. Şəhərlərdə "əxi" adlanan fütüvvət şeyxlərinin bağlı olduqları bütün təşkilatın ümumi rəisi sayılan əxiyə şeyxlərin şeyxi mənasında "şeyxuş-şuyuh" deyilir[di]ki, buna əksər hallarda "Əxi türk" (türk qardaş – R.M.) və "Əxi baba" (ata qardaş – R.M.) da deyilir[di].

## 69-cu sual: Əxi nə deməkdir?

Bu sözün türk dilində comərd, əli açıq anlamında "axı"nın dəyişilməsi olduğunu deyənlər olmuşdur. Amma fütüvvət yolunda bir yol qardaşı dəstəkləmək şərtidir. Eyni zamanda həm məlamətilərdə, həm [də] məlamətilikdən bir təriqət halına çevrilmiş olan mövləvilikdə birisinə filan şeyxin bəndəsi, yaxud dərvişi [demək əvəzinə] "filankəsin ixvanından"[dır] deyilir. Onlara gö-

rə qoşulmuş şəxs həm qoşulduğunu mənəvi atası, həm də yol/təriqət qardaşıdır. Və bütün fütüvvət əhli ixvandır, yəni qardaşdır. Bu baxımdan biz bu sözün ərəbcə "qardaşım" mənasını verdiyini israr edirik.

### 70-ci sual: Fütüvvət nümayəndələri arasında hər [bir] sənətin bir piri var[dır] de[miş]diniz. Bunlara nümunə göstərə bilərsinizmi?

...Qədimdə xalq arasında dərzilərin piri İdris peyğəmbər, bərbərlərin Səlman, sənətkarların Adəm peyğəmbər, çulhaların, yəni toxuyucuların Şit peyğəmbər, dəmirçilərin Davud peyğəmbər...olduğu və arabaçılığa "pirsiz sənət" deyildiyi məşhurdur. Hər dükanda dükan sahibinin çalışdığı işin, sənətin pirini bildirən bir lövhə olurdu. Məsələn, bərbər dükanlarında mütləq:

Hər şəhərdə Bismillahla açılır dükkanımız,
Həzrəti Səlmanı Pakdır pirimiz, sultanımız

Lövhəsini görə bilərdik.

### 71-ci sual: Fütüvvətdə ticarətçilər necə təşkilatlanmışdı?

Sənətə daxil olan mütləq [şəkildə] fütüvvət yoluna da girirdi. Hər işdə [isə] çıraqlıq/şəyirdlik silsiləsi vardır. Şəyirdin usta olub dükan aça bilməsi, özünün o işi davam etdirməsi müəyyən [bir] silsiləni bitirməsinə, ustasının və həmin işin şeyxinin icazə verməsinə bağlıdır. Şəyirdlik müddətində ustadına, işinə bağlı olduğu kimi aldığı gündəlik və həftəlik [əmək haqqın]dan müəyyən bir qismini mütləq [bir şəkildə] lojaya/təşkilata yatırmaq məcburiyyətindədir...

Hər hansı bir şəyird, kalfa yaxud usta fütüvvət yoluna zidd bir iş edərsə, xüsusən də müştərini aldadar, yalan deyərsə, məhkəməyə verilməz. [Beləsinin] Mühakiməsi Əxi atanın yaxud onu təmsil edən sənətkarlıq şeyxinin olduğu məhfəldə, ixvanın qarşı-

sında edilir. Şahidlər dinlənilir, özü də müdafiəsini ayaq üstdə duraraq edilir. Bundan sonra beləsinə [müəyyən] bir cəza verilir. [O,] Ya bir müddət məhfilə daxil ola bilməz, sənətdən uzaqlaşdırılır, yaxud da ustadırsa dükanı qapadılır. Dükanı bağlanacaq adam dükanın önünə gətirilir, ixvanın qarşısında dükan qıfıllanır, açar lojaya baxan şəxsə təslim edilir. [Təqsirli] Adamın sağ ayağındakı papuc/ayaqqabı çıxarılaraq ticarət şeyxi tərəfindən dükanın damına atılır[dı]...Günah etmiş insanın günahını ancaq Əxi Ata bağışlaya bilərdi...

Təşkilata ödənilən və orada toplanan pul ehtiyacı olanlara, xəstələnənlərə, dükan açmaq istəyənlərə qarşılıqsız olaraq xərclənir[di]. Əxi, yəni fütüvvət yoluna qədəm atmış və şeyxilik mərtəbəsinə yüksəlmiş adam dövrünə görə, məsələn, XIII əsrdə özünə yaşayış məbləği olaraq ancaq on səkkiz dirhəm gümüş ayıra bilir[di] (Abdülbaki Gölpınarlı: Burgaazı ve Fütüvvet-namesi, İst. Üniv. İktisat Fakültesi Mecmuası, 15. Cilt, ekim 1953 – Temmuz 1954, № 1-4, s.76-153...)

## 72-ci sual: Hər məlaməti mütləq [bir şəkildə] fütüvvətə daxil olmuşdurmu və bu yol nə vaxta qədər davam etmişdir? [Onların] Məzhəbləri nə idi?

Məlaməilik fütüvvət əsasını qəbul edən, daha doğrusu fütüvvət yolunu qurub sənətkarlığı təşkilatlandıran bir əsasdır. Bu baxımdan məlamətiliklə fütüvvəti fərqləndirmək mümkün deyildir. Ancaq hər məlaməti olanın fütüvvətə daxil olması[nı], hər fütüvvət əhlinin də məlaməti olduğunu demək olmaz. Əsasən məlamətilik hicri VI (XII), hətta V (XI) əsrlərdən etibarən məlamət əsasına istinad edən təriqətlər şəklinə düşmüş və əsl məlamətilik, bu təriqətlərin təməli də məlamət olmaqla bərabər tarixə qarışıb ortalıqdan getmişdir.

İlk vaxtlarda məlamətiliyin və fütüvvət nümayəndələrinin müəyyən bir məzhəbi yox idi. Ancaq onlara görə, yollarının Əliyə istinad etməsi və Əhli beytə sevgiləri bunlarda başlıca bir

inanc idi. Bu baxımdan məlamətilərlə fütüvvət nümayəndələrində sünnilikdən daha çox şiəlik səciyyəsi daha aydın olaraq görünür.

Məlamətilikdən ortalığa çıxmış təriqətlər aşağıdakılardır:

- Camiyyə: 536 [-cı il]də (1141) vəfat etmiş Əhməd Namiqiyy-i Camiyə aid olanlar;
- Kübrəviyyə: 618[-ci il]də (1221) vəfat etmiş Nəcməddin-Kubraya aid olanlar;
- Heydəriyyə: 618[-ci il]də (1221) vəfat etmiş Qütbəddin Heydərə aid olanlar;
- Qələndəriyyə: 666[-cı il]də (1267) vəfat etmiş Zəkəriyyəyi Multani müridi [olmuş] Seyyid Cəlali Buxariyə aid olanlar;
- Bektaşiyyə: 669[-cu il]də (1270) vəfat etmiş Hacı Bektaşi aid olanlar;
- Mövləviyyə: 672[-ci il]də (1273) vəfat etmiş Mövlanə Cəlaləddin Məhəmmədə aid olanlar.

735[-ci il]də (1335) vəfat etmiş Seyid Səfiyəddin İshaqi Ərdəbili tərəfindən xəlvətiyyə ilə qələndəriyyənin birləşdirilməsi ilə qurulmuş Ərdəbiliyyə (Səfəviyyə) təriqəti və XI əsrə qədər (XVII) davamçıları olmuş və Şəmsəddin Məhəmmədi Təbriziyə (645 h., 1247) aid edilən, amma mövləviliyin ələvi və rind qolu olan şəmsilər, rum abdalları (Abdalan-ı rum) adlanan tayfa da məlamətilikdən ayrılmış qollardır.

Məlamət 833[-cü il]də (1429-1430) Ankarada vəfa etmiş Hacı Bayrami Vəli tərəfindən yenidən canlandırılmış və məlamətilik, "məlamilik" adını almışdır. Bu qoldan gəlmiş və X əsr[in] sonlarında (XVI) İstambulda şəhid edilmiş Həmzə Balıdan sonra həmzəvilik adı ilə xatırlanan məlamilik son zamanlarda (XX əsrdə - R.M.) xüsusən [də] Seyyid Əbdülqadiri Bəlxi (1341 h., 1923) tərəfindən təmsil edilmişdir. Bayrami məlamilərinə "ikinci nəsl məlamiləri" də deyilmişdir.

Nəqşibəndiyyədən "məlamiyyə" adlanan bir qol ayırmış və tövhidi (təktanrıçılığı – R.M.) elmi bir dərs, bir təlqin halına gətirmiş, təkkələr qurmuş Məhəmməd Nurul-Ərəbinin (1305 h.,

1888) qurduğu Məlamiyyəyi nuriyyə, yaxud üçüncü nəsl məlamiliyi, Bayrami məlamiləri (həmzəvilər) tərəfindən qəbul edilməmiş və bunlar "mütəməlamiyyə", yəni məlamiləşənlər deyə adlandırılmışdır.

Sənətkarlar təşkilatı, osmanoğullarının ilk dövrlərində padşahların da fütüvvət əhli olmaları və fütüvvət əhlinin rəisi sayılmaları üzündən dövlətlə bir birlik halındaydı. Fəqət sonralar mədrəsənin qüvvətlənməsi, şeyxülislamlığın qurulması, sünniliyin qüdrəti üzündən dövlətdən qopmuş, Fateh dövründən etibarən də adətən İrana (Səfəviliyə - R.M.) bağlı bir təşkilat halına gəlmişdir. Ələvi və bektaşilərlə məlamət nümayəndələri osmanoğullarının dini siyasətinə tamamilə əks bir cəbhə [şəklini] almışdır ("Alevi-Bektaşi nefesleri"nə baxın, s.83-108. "İslam ve Türk illerinde fütüvvet teşkilatı, s.57 və davamı). [Sultan] Səlim və Süleyman dövründə ələvilərə qarşı hökümətin tənkil siyasəti məlamilərə də aid edilmişdir. Mədrəsə məlamiləri və fütüvvət əhlini dindən kənar görür, onları yox etməyə çalışırdı. Onlar da bu siyasətə qarşı dirəndikcə dirənirdilər. 1029[-cu il]də (1619-1620) Belqradlı Müniri tərəfindən yazılmış "Nisabül-intisab ve abadül-iktisab" adlı əsər fütüvvət əhlinin inancları İrana bağlılıqları, adətlərinin uydurma olması və sairə haqqında və xüsusən Rədəvinin "Fütüvvətnamə"si əleyhinə yazılmışdır. Hicri 749[-cu] ilin sonlarında verilmiş əleyhinə [verilmiş] fitva isə, hətta ərəb ölkələrində də XIV əsrdə belə bunların xoşlanmadığını bizə göstərməkdədir ( eyni məqaləmiz, s.63-66).

Bütün bunları diqqətə almış dövlət sənətkarlıq təşkilatını nəzarət altına almaq ehtiyacını hiss etmiş, Əxi ataların, sənətkarlıq şeyxlərinin dövlətə görə təsdiq edilməsini şərt qoymuş, lazım olduqda bunları cəzalandırmaq səlahiyyətini istifadə etməyə başlamışdır. Amma yenə də sənətkarlıq lojaları /birlikləri müstəqilliklərini qoruya bilmiş, xüsusən də peştəmalçı əsnafı/sənətkarları həmzəliyə qoşularaq ikinci məşrutiyyət [hərəkatı]na qədər dövlət içində bir dövlət halında fəaliyyət göstərmişdir.

Amma xaricdən məmləkətə gələn fabrik malları təşkilatın rəğminə [baxmayaraq] sənətkarlar içərisinə daxil olan və müsəlman olmayan azlıqlar, əl dəzgahlarını, əl əməyini, intizamı yox etməyə başlamış və bankalara karşı birliklər/ lojalar heç bir şey ifadə etməz hala gəlmiş, fütüvvət təşkilatı artıq bütün əsnafı və sənət əhlini ehtiva etməyən olmuş və nəhayət bu iqtisadi müəssisə tarixə qarışıb getmişdir.

## 73-cü sual: Fütüvvət nümayəndələrinin təşkilatı və inancları haqqındakı biliklərimizin qaynaqları nələrdir?

Fütüvvət yolu, təşkilatı, nizam qaydaları, adətləri, ədəb və ərkan haqqındakı qaynaqlarımız "Fütüvvətnamə" adı verilən və əksəriyyəti fütüvvət yolundan ənənəvi olaraq bəhs edən, bəziləri də müəyyən bir zümrəyə, bir sənət nümayəndəsinə aid olan kitablardır. Bunların bir qismi mürüvvət və fütüvvət haqqında, böyüklərin sözlərini, tərif və təvsiflərini (vəsf etdiklərini – R.M.) ehtiva edir. [Digər] Bir qismiysə həm tərif və təvsifləri, həm ərkanı, həm [də] fütüvvət ədəblərini ehtiva edər ki, əslində işə yarayanlar da bunlardır. Əvvəlcə ərəbcə, sonralar farsca yazılmış fütüvvət türk ellərində yayıldıqdan sonra isə türkcə yazılmaya başlanmışdır. Əksəriyyəti nəsrlə, bir qismi nəzmlə yazılmış olan bu kitabların ümumi adı "Fütüvvət namə" olmaqla bərabər bəzilərinin xüsusi adları da vardır. Üstəlik fütüvvət və məlamət [mövzusu] "Əl-Lümə", "Risalətül-Qüşeyriyyə", "Kəşfül-Məhcub", "Nəfahat", "Təzkirəi Övliya", "Təbəqaat" kimi təsəvvüfdən və təsəvvüf nümayəndələrinin tərcüməyi hallarından bəhs edən kitablarda da ayrı[ca] bir yer almış, sufilərin sözlərində də qeyd edilmişdir.

Əlimizdəki ən qədim Fütüvvətnamə Sülэminin "Kitabül-fütüvvə"[əsəri]dir. Bundan sonra məşhur səlcuqi[lər] vəziri Nizamül-Mülk[ün] (485 h., 1092) adına Əliyy ibnil-Həsən b.Cədveyh tərəfindən yazılmış olan "Miratül-mürüvvat" [əsəri]dir. Nəqqaş, yəni rəssam Harputlu Əhməd Abbasi xəlifəsi Nasir li-

dinillahın oğlu Əbül-Həsən Əlinin (611 h., 1214) adına "Tuhfətül-vasaya" adlı ərəb dilində bir fütüvvətnamə yazmış, bu kitabında Əbül-Həsən Əlinin "Ümdətül-vəsail" adlı fütüvvətnaməsindən də faydalanmışdır ki, bunun mətni indiyədək əlimizə keçməmişdir. Abdullahi Ənsari[nin] və Şihabəddini Sührəvərdinin də hər birinə aid fütüvvətnamə[lər]i vardır. Bunlardan başqa Nəcməddin Əbu Bəkr Məhəmməd Zərkubun (712 h., 1312)(Said Nafısı: Tarıh-i nazm u nesr der İran ve der zeban-ı Farisı ta payan-karn-ı dehum-ı hicrı, c., I, Tehran-1344, Şemsı hicrı, s.176-177), Kəmalüddin Əbdür-Rəzzaqi Kaşaninin (730 yaxud 735 h., 1329, 1335), Əlaüd-Dövləi Simnaninin (736 h., 1335) farsca və nəsrlə VII əsrdə (XIII) Anadoluda yaşamış Nasirinin farsca mənzum fütüvvətnamələri vardır. Türkcə yazılmış ilk fütüvvətnamə XIII əsrdə Burqazinin fütüvvətnaməsidir. Bunlardan sonra Şeyx Seyyid Qeybi oğlu Şeyx Seyyid Hüseynin Fateh Sultan Məhəmmədin adına (hökmdarlıq illəri: 855-886 h., 1451-1481) yazdığı fütüvvətnamə və Bursada Şafii qazılığı ilə məzhəbini gizlətmiş Seyyid Məhəmməd b. Seyyid Əlaüddinül-Hüseyniyyur-Rədəvinin 931[-ci hicri ili] səfər [ayının] əvvəllərində (1524) yazdığı "Miftahud-dəqaiq fi bəyanil-fütüvvəti vəl-həqaiq" adlı fütüvvətnaməsidir.

Bunlardan "Tuhfətül-vəsaya"[əsərinin], Nəcmi-Zərkubun, Kaşaninin, Əlaüddövlənin və Nasirinin fütüvvətnamələrini eyni çaplarını tərcümələriylə nəşr etdik (İslam – Türk illerinde Fütüvvet teşkilatı ve kaynakları, tıpkı basımlar, s.115-203), tərcümələri, 204-253). Burqazinin və Seyyid Hüseynin Fütüvvətnamələri də mühtəvaları (məzmunu – R.M.), dil xüsusiyyətləri və s. Haqqında araşdırma və açıqlamalarla tərəfimizdən (Ə.Gölpınarlı – R.M.) çap edilmişdir (İst. Üniv. İktisat Fak. Mec. XV. Cilt, Ekim 1953 – Temmuz 1954, sayı: 1-4, s.76-153, XVIII. Cilt, s.1-4).

## 74-cü sual: Fütüvvət nümayəndələri ilə məlamətilərin və sonrakı [nəsl] məlamilərin məzhəbləri haqqında fikriniz nədir?

Fütüvvət nümayəndələrinin özlərini Əliyə aid saymaları, yollarının Əli yolu olduğuna inanmaları, Əhlibeytə böyük bir sevgi bəsləmələri, Əhlibeyt imamlarını "əleyhussəlam, əleyhussəlatu vəssəlam" cümləsiylə xatırlamaları, Vida həccində Həzrəti Peyğəmbərin, Əlini Allah[ın] əmriylə vəsi və imam olaraq ümmətə bildirdiyini söyləmələri, ilk üç xəlifənin adlarını çəkməmələri, [onların adlarını] çəkdikdə belə ancaq üzdə olanları qurtarmaq üçün andıqlarını bəlli etmələri, "tərcüman" adlandırdıqları əksəriyyəti mənzum farsca, yaxud türkcə və ayin əsnasında müəyyən yerlərdə oxunan qitələrdə, xütbə adlanan dua və sənalarda, kitablarının başlanğıclarında on iki imam[lar]ın adlarını çəkib, on ikinci imamı Mehdi qəbul etmələri və zuhurunu gözləmələri, daha bir-çox əsaslarda imamiyyə inanclarını mənimsəmiş olmaları bilindiyi təqdirdə [onların] sünni olamlarına imkan və ehtimal[ın] olmadığı açıqca anlaşılır və sünni olduqlarına dair yazı yazanların könüllərinin istədiyini dilə gətirib zəhmətə düşərək öncədən verdikləri hökmü məsnədsiz (istinadsız, sübutsuz, dəlilsiz – R.M.) olaraq sətirə aldıqları anlaşılır (İslam ve Türk illerinde Fütüvvet teşkilatı ve kaynakları, s.57-63; Seyyid Hüseynin Fütüvvet-Namesi, eyni nəşr, ön söz, s.1-25).

Səfəvilər təriqətlərin və təsəvvüfün əleyhində olduqları halda Fütüvvət əhlini qorumuşlar, xüsusən [də] seyfi, yəni qılınclı qolunu dəstəkləmişlər. Seyfi qol[u] şahın fədailəri olaraq istifadə edilmiş, bunlara "əyyar" və "cuvan-mərd" deyilmişdir (İktisat Fakültesi Mecmuasının XVII. Cildinin 1-4. Sayısında, "Fütüvvet-Name-i Sultanı ve Fütüvvet hakkında bazı notlar" adlı məqaləmizə baxın. Eyni nəşr, s 101-129).

Məlamət əhlinin xüsusən Bayrami Məlamilərinin hələ Hacı Bayrami Vəlinin Sonuncu Ata deyə xatırlanan Əbu Hamidi Əq-

sarayinin xəlifəsi olmasını, onun da Ərdəbil sufilərinə, yəni səfəvilərə mənsub olduğunu düşünsək, həmzəvilərin əsərlərini araşdırsaq, hökümətin bunlara qarşı nə qədər zalım[lıqla] davrandığını gözönünə alsaq, onların da eyni inancda olduqları nəticəsinə gəlmiş olarıq (Melamilik ve Melamiler, s.33-217 və xüsusən [də s.] 197-199). Halbuki, bir sual da soruşmaq lazımdır:

Həqiqətən də həm məlaməti əhli və onların yerlərinə keçmiş Bayrami məlamiləri, həm də Fütüvvət nümayəndələri tam olaraqmı isnaəşəri – Cəfəri məzhəbinə, yəni imamiyyəyə mənsub idilərmi; usulda və furuda bu məzhəbə əməl edirdilərmi? [Buna cavab olaraq qeyd edək ki,] Bektaşilər də, Ələvilər də imamiyyədən olduqlarını, Cəfəri məzhəbinə əməl etdiklərini deyirlər. Amma inancları, adətləri heç də bu məzhəbə uyğun gəlməyən xürafatlara bürünmüşdür. Fütüvvət əhlinin fütüvvətnamələrə görə ayinləri, adətləri heç bir vaxt imamiyyə inanclarına tam uyğun gəlməyib bunlarda da uydurmalar, xürafatlar yer almış, batinilik izləri görünməkdədir. [Daha] Sonra [vurğulayaq ki,] Fütüvvət əhli arasında sünni olanlar yox idimi? [Əlbəttə] Osmanoğulları ölkəsindəki hafizlər, din adamları, dövlət məmurluğuna qoşulmuşlar [məgər] imamiyyə məzhəbinəmi daxil olmuşdular? Bu suala müsbət cavab verə bilmərik. Bu baxımdan biz, istər fütüvvət əhli, istər[sə də] məlamilər arasında tam mənasında Cəfəri məzhəbinin üsulunu, furusunu bilənlərin, onlara qoşulmuşların olduğunu bir həqiqət saymaqla bərabər tam olaraq bu toplumun imamiyyə məzhəbinə mənsub olduğunu iddia edə bilmərik. Bunlar da mövləvilərin Şəms qolu kimi, rifai və səidilər kimi və nəhayət bektaşilər kimi batini təmayüllərlə yoğrulmuş, amma əsas baxımından şiə olmasa belə mütəşiyyi (şiələşmiş) bir toplum olduğuna, amma heç bir vaxt da tam sünni olmadıqlarına inanırıq.

Son [nəsl] məlamilərdəsə əsasən məlamət və fütüvvət [eyni] bir sözdən ibarət olmuşdur. [Belə ki, bunlar] Geyim-keçim özəlliyini qəbul etməsələr də [özlərinin] təkkələri olmuşdur. Eşq və cazibə təməlini dərs verir kimi öyrədir, "zikri daim" adlandırdıq-

ları daxili zikri qəbul edirdilər. Beləcə [onlar arasında] işraqi gediş elmi bir örtüyə bürünmüşdü. Son zamanlarda bunların masonlarla birləşdiklərini də bilirik. Bu yola məlamət və bunlara məlami deyilməsi qeyri-mümkündür. Bunlar ancaq məzhəbə qoşulmağı bir qeyd [olunmaq] bilən, vəhdət inancını maddiləşdirən, batini xarakterdə bir toplumdur.

# IX BÖLMƏ

## SOSİAL ASPEKTDƏN TƏSƏVVÜF-SƏMA-TƏSƏVVÜFDƏ İSLAHAT-BU İSLAHATA TARİXİ NƏZƏR-ƏLƏVİLİK TƏRİQƏTDİRMİ-TƏSƏVVÜFDƏ QADIN-TƏSƏVVÜF VƏ İQTİDAR

### 75-ci sual: Səma haqqında nə düşünürsünüz?

"Səma" və "sima" [sözləri] "eşitmək", "gözəl və yaxşı şöhrət[l]i", xatırlamaq, duymaq mənalarını verir. Termin olaraq müsiqi nəğmələrini dinləməyə, dinlərkən vəcdə gəlib hərəkətdə olmağa, özündən getməyə, oynamaya, dönməyə/fırlanmaya deyilmişdir.

Nəğmələrə dalıb rəqs etmək bəşəriyyətin tarixi qədər qədimdir. Cəmiyyət inkişaf etdikcə müsiqi də iki istiqamətdə inkişaf etmişdir:

İbtidai toplumlarda elə ibtidai alətlərlə ifa edilən coşdurucu müsiqiyə dalaraq rəqs etmək, alətlərin daha bədii, coşqunluğun daha ritmik bir şəkil alması rəqsə də daha bədii, daha ritmik bir şəkil verməyə başlamış, [başqa] bir tərəfdən də bir qədər ehtiraslı mahiyyətə bürünmüş və dinlə əlaqəsini kəsmiş bir müsiqi və rəqs meydana gəlmişdir.

Müsəlmanlıqda müsiqi, rəqs və bu ikisinə təməl olan şeir haqqıda din bilicilərinin mübahisələri, deyə bilərik ki, İslam dini [ortalığa çıxandan] başlamışdır. [Belə ki,] Qurani Kərim[də] Həzrəti Məhəmmədə şair deyildiyini, ona şeir bəlli edilmədiyi, şeirin də ona yaraşmadığı bildirilir (XXI, 5; XXXVII, 36; LXIX, 14; XXXVI, 69). Şairlərə ağılsızların, ziyankarların qoşulacağını, onların (şairlərin – R.M.) hər yerdə sərsəmlərtək dolaşdıqlarını, etmədikləri şeyləri söylədiklərini ifadə edir, amma inananların, yaxşı işlərdə olanların zülmə məruz qaldıqdan sonra yardıma ehtiyacı olanların bu hökmdən kənarda olduğu söylənmişdir (XXVI, 224 – 227). Həzrəti Peyğəmbərin əshabı arasında Rəva-

ha oğlu Abdullah, Malik oğlu Kəb, Sabit oğlu Hassan kimi şairlər də olmuşdur. Döyüşlərdə əksər hallarda bir misralı və sərt vəznli rəcəz oxumaq adəti İslamdan sonra da davam etmişdir. Hətta Həzrəti Peyğəmbər də:

Peyğəmbərəm, yalançı deyiləm mən,
Əbdülmüttəlib oğluyam mən.

anlamında bir şeir oxumuşdur (Cami, I. S.89). [Məhəmməd peyğəmbər] Bəzi şeirlərin hikmət sayılacağını [da] buyurmuşdur (eyni, s.82). [O həmçinin] “Mən ən gözəl danışanızam; qüreyşdənəm, dilim də sədoğullarının dilidir” deyə öyünmüşdür (eyni, s.90). XXXV sürənin “yaradılışda nəyi istəyərsə çoxaldar” mənasındakı ilk ayədə çoxaldıldığı bildirilən şeyin gözəl huy və gözəl səs olduğu qəbul edilmişdir (Mecmaul-Beyan, VIII, s.400-401). Hər peyğəmbərin gözəl səslə göndərildiyi (Cami, II, s.120), Quranın səslə bəzədilməsi gərəkdiyini (eyni, s.120), gözəl səslə oxunması[nın] lazımlılığı haqqında hədislər vardır (Müslim, İst. Mat. Amire-1334, c.I, s.4). Nəticədə İslamda əsasən ifrata varmış şəriətçilər müstəsna olaraq istənilən bir məzhəbdə şəhvətə aid olmamaq, pisliyi qamçılamamaq şərtiylə gözəl səslə Quran, nət, mədhiyyə, mərsiyyə oxumaq, insanları vəcdə gətirmək haqqında mütləq şəkildə qadağanedici bir hökm olmadığı qənaəti mövcuddur (“Mevlevi Adab ve Erkanı” adlı kitabımıza baxın. İst. İnkilap K. 1963, II. Bölüm, s.48-77; “Taraıkul-Hakaaık”, I, s.477-482).

Sufilər Həzrəti Peyğəmbəri Mədinəyə köçdüyü zaman Mədinəli qadınların, qızların dəflər çalaraq nəşidələr/şux nəğmələr oxuya-oxuya qarşıladıqları kimi (As-Siyretül-Halebiyye, Mısır, Muhammed Ef. Mat.II. s.60) bəzi hadisələrə istinad edərək bunu daha [da] inkişaf etdirmişlər. İlk dövrlərdən etibarən gözəl səslə və dövrünə görə müsiqi alətləriylə ilahi mövzulara aid bir şeir oxunduğu zaman vəcdə gəlməyə, rəqs etməyə, xirqələrini çıxararaq fırlanmağa başlamışlar. Təriqət süftəsi/ilkini olan nəqşibəndilərdən başqa bütün təriqətlərdə bu yaxşı hesab edilmiş, ayin halına çevrilmiş, zikr və ilahilər oxunması, zilsiz dəflər

(məzhər) çalınması, küdümlə, yaxud "xəlilə" adlanan və iki ələ taxılaraq bir-birinə sürtülərək çalınan, kənarları bir-birinə sürtülə biləcək tərzdə edilmiş mədəni alətlə usul tutulması bir adət halına gəlmiş, vəcdə gəlməyənlərin belə təvacüdlə vəcdə gəlmələrini həyata keçirilməsi yaxşı hesab edilərək beləcə də dini bir müsiqi ortalığa çıxmışdır.

Mövləvilərdə isə daxili zikr edilən İsmi Cəlalla (Allah [la]) sağdan sola doğru və sol ayağını geriyə doğru çəkərək yenə sola yürüyüb dönmək, Mövlananın vəcddən ortalığa çıxan səmanı daha ritmik bir şəklə salmış və mövləvi müqabiləsi XV əsrdə [özünün] son şəklini almışdır (Mevlevı Adab ve Erkanı, s.63-77).

İbtidai dinlərdəki coşqun və gürültülü, çox hərəkətli rəqs təriqətlərdə getdikcə daha bədii bir vəziyyətə yüksəlmiş, məsələn, ələvilərdə hərəkətli və real bir xarakter göstərdiyi təqdirdə [bu] mövləvilikdə tam bir estetik huviyyete (ilahiliyə - R.M.) bürünmüşdür.

Müsiqi aləti camiələrə daxil olmamaqla bərabər klassik müsiqi camilərdə də, xüsusən [də] camaatla qılınan namazlarda, cümə və bayram namazlarında, bayram təbriklərində, xətm cəmiyyətlərində, mövludda, şiələrin mərsiyələrində xalqın bu mənəvi ehtiyacını ödəmişdir.

## 76-cı sual: Təsəvvüfdə [hansısa] bir islahat olmuşdurmu; olmuşdursa bunu kim etmişdir?

Təsəvvüfdə ilk islahatı təkkə, zikr, geyim-keçim fərqliliyi və vəqf maliyyə dolanışılığını qəbul etməyən, hər kəsin əlinin əməyi ilə çalışıb [çörək] yeməsini, hətta yalnız özünə, soyuna kökünə deyil, bütün insanlara faydalı olmasını, özü üçün deyil, bütün insanlara faydalı olmasını, özü üçün deyil, ixvanı və bütün insanlar və insanlıq üçün yaşamasını şüar edən və bu ideologiyanı ta sasanilər dövründən [üzü] bəri əsnaf təşkilatını quraraq inkişaf etdirmiş, xalqı bağırlarına basmış məlamətilər etmişdir.

Təsəvvüf İbni Ərəbidə bəzən bir bilik sistemi, əksər hallarda isə xəyali bir idealizm şəklindədir və ondan başlayaraq sufilərin əksəriyyəti vəqfullahla dolanaraq röyalara dalmağa, hər zuhuru Haqqdan bilib müxtəlif hərəkətlərə, hətta zülümlərə, istismarlara gülümsəyərək baxmaya, [üstəlik] daha irəli də gedib bu cür hallara qarşı durmanın Tanrı təcəllisinə qarşı durmaq olduğuna inanmaya, bəziləri də hər işi Haqqdan bilib dünyanı özlərinə görə bir irfan cənnəti sayıb zövqə, ibahaya (səfaya – R.M.) atılmaya/qurşanmaya/ alüdəçiliyə başlamışdılar. Bütün bunlara qarşı birlik [dünya]görüşü, dünya anlayışı ilə təsəvvüfü real və əxlaqi bir islahata sövqedən böyük insan isə Mövlana Cəlaləddin Məhəmməddir.

Mövlana təsəvvüfü irfan, mövcudluq, eşq və cazibə aləmində təkamüldən ibarət olub bunun fərdi və sosial təcəllisi geniş və mütərəqqi bir [dünya]görüş, insani birliyi məqsəd edilən hüdudsuz bir dözümlülük, pisləri belə pislikləri ilə inanc qazanında əridib yaxşılaşdıran əxlaqi bir təkamüldür.

Mövlanədə nə terminlər xəstəliyi, nə röyaya dalmaq, nə göylərə çıxmaq, [nə də] xəyallara qapılmaq vardır. Onun xalqçı ruhu fəlsəfə nəzəriyyələrini belə qəbul etməmişdir. [O,] Xalqa, xalq kimi və xalq səviyyəsinə enərək xalq diliylə xitab etmişdir. Farsca, bəzən ərəbcə, bir qədər rumca və bir az türkcə şeirlər söyləmiş Mövlana [şeirlərini] əruzla deməklə bərabər hər [bir] dili xalq diliylə söyləmişdir.

Qiyasın (müqayisənin – R.M.) nə qədər pis nəticələrə gətirib çıxaracağını anlamış Mövlana İmam Cəfərüs-Sadiqə uyğun olaraq qiyası qəbul etməmişdir. [O,] Gülyağı şüşələrini boşaldıb başına vurulub tükləri tökülən quş, saçını, saqqalını, qaşlarını və bığlarını usturayla (ülgüc – R.M.) təraş etdirmiş qələndərini gördükdə [ona]: "sən də mənim kimi gülyağı şüşələrinimi boşaltdın" demişdir (Mesnevi, I, s.17-18, beyt: 246-265). [Ona görə] Sidik topasında saman çöpünə qonmuş ağcaqanad sidiyi dəniz, saman çöpünü gəmi, özünü də kapitan hesab edir (I, s. 67-68, beyt: 1082-1090). Xəstə ziyarətinə gedən kar [insan] soruşduq-

larına verilən cavabları anlamayıb, "həkim gəlirmi?" sözünə "Əzrayıl gəlir"- demiş əsəbli xəstəyə "Qoy gəlsin, ayağı olduqca uğurludur!" deyərək xəstənin xətrini əldə etdiyindən məmnun olması da bir qiyasdır (I, s.207-208, beyt: 3360-3376).

Mövlanaya görə bilik də qiyasla, məntiqi dəlillərlə xəyallara qapılmaq, azacıq biliklə özünü əllamə (alim – R.M.) sayıb xalqa təkəbbür etmək deyildir. [Əslində] xalqa faydalı olan biliyə bilik deyilir və hər kəs bir şey bilir və [bu da] imkan verir ki, [onun] biliyi xalqa yarasın. Heç kimsə onun biliyini bilməyəni aşağılamasın.

Gəmiyə minmiş filoloq kapitanın qrammatika bilmədiyini başa düşdükdə "Ey vay – demiş – ömrünün yarısı [hədər] getdi". Dəniz coşanda da kapitan [bu] bilikliyə: "Üzmək bilirsənmi?" – deyə soruşmuş. "[Üzməyi] Bilmirəm" cavabını eşidən kimi "Ey vay – demiş - [səninsə] ömrünün hamısı [hədər] getdi" (I, s.175, beyt: 2835-2852). Mövlana da qiyası rədd edərkən İmam Cəfərüs-Sadiqin qiyasla ilk davaranmışın İblis olduğuna dair fikrini İmamın adını çəkmədən zikr etmişdir (I, s. 209. 3395-ci beytdən sonrakı başlıq, 3396-cı beyt və ardı. Muhammed b. Yakub b. İshakıl-Küleynı: Usulül-Kafı. daşbas.1311, s.29-30).

Mövlanada da doqquz göy, dörd ünsür və s. inancı, yəni dövrünün doqmatik qənaətləri vardır, amma o, bunlarla bir sistem qurub yalançı şeyxlər kimi özünü xalqa göstərməyə çalışmamış, onlar kimi dükan açıb xalqı aldatmağa tənəzzül etməmiş, əksinə onları şiddətlə qınamışdır (II, s.379-380: beyt: 2382-2399); bu cür insanları dərvişin forması sayıb, "köpək rəsminə sümük atma" söyləmiş, onları quruda yaşayan balıq rəsminə, evdəki quşa bənzətmişdir. [O,] belələrinin bir tikə yemək üçün, keçinmək üçün özlərini Tanrı aşiqi [kimi] göstərdiklərini deyib, əsmanın, yəni Tanrı adlarını zikr etmənin insanda vəhmi (qorxunu – R.M.), xəyalı doğuracağını söyləmişdir (I, s.169-170, beyt: 2752-2760).

Mövlanaya görə Vəhdəti Vücüd bütün kainatın tək və tam [bir] birliyidir və bu birlik hər an yenidən yeniyə yaradılmaqda-

dır. Bu bir xəyal deyil, həqiqətdir. Rəngi işıq göstərir; könüldən doğan xəyal rəngi də ucalıqlar işığıyla bəlli olur. Gecə işıq olmadığından rəng görünməz; bu halda hər şey ziddiylə bilinməkdədir. Surət/forma mənadan doğmaqdadır; səs və söz düşüncədən meydana gəlməkdədir. Surət surətsiz aləmdən doğmaqda; dalğa dənizdən bəlli olmaqda, sonra yenə dənizdə yox olmaqdadır. Ömür irmağ (axar su – R.M.) kimi axmaqda, ötən keçməkdə, yenisi [əmələ] gəlməkdədir. Amma bütün dünya olduqca tez dəyişdiyindən zahirində bir daimilik göstərməkdədir. Ucu yanan bir çubuğu sürətlə fırlatsaq düz bir od cizgisi/şəkli görünəcək. Halbuki o od bir an [olsa] belə durmamaqda lap onun ( dünyanın – R.M.) [olduğu] kimi (I, s.70-71, beyt: 1121-1149).

Fəlsəfi düşüncə İslam dünyasına hakim olduqca həll edilməsi lazım olan düyünlərdən biri də iradə və ixtiyar, qəza və qədər düyünü olmuşdu. [Belə ki,] Dini inanca görə hər şey Tanrı təqdiriylədir (istəyi ilədir – R.M.); Tanrı hər şeyin nə vaxt və necə olacağını bilir və o (Allah – R.M.) müqəddərdir (qədəri müəyyən edəndir – R.M.); zaman gəldikcə [Allahın] bildiyi necədirsə o iş [də] elə olur. Bəs qulun etdiyi yaxşılıq və pislikdə qulun/insanın rolu nə[dən ibarət]dir və nə dərəcədədir/səviyyədədir? Cəbərilər yaxşı - pis hər şeyin Tanrı iradəsi ilə olduğuna, qulda az, yaxud tam bir iradə və ixtiyar olmadığına inanmışdırlar. Bu inancı güdmüş məzhəbə “Cəbriyyə, Cəbəriyyə” deyilmişdir. Nəqli əqlə qoşan mötəzilə isə qulun yaxşılığı, pisliyi öz iradəsiylə, öz ixtiyarı ilə etdiyinə, bunun qarşılığında da Tanrının o qulu mükafat[landırıb] və ya cəzalandırdığına inanmışlar. [Onlar] buna “ədl” demişlər və ədli (ədalətli olmanı – R.M.) də Tanrıya vacib bilmişlər. Bu inancı qəbul etməyənlər mütəziləyə “Qədəriyyə” demişlər. Əhli Sünnə cəbəriyyəyə meyl etmiş, quldakı cüzi iradənin qul tərəfindən istifadə ediləcəyini və bunun əsasında qulun edəcəyi işi Tanrının yaradacağını söyləmişlər. Şiə[lik isə] mötəziliyə meyl etmiş, cəbr, yəni hər şeyi qula Tanrının etdirməsi olmadığı kimi təhfiz, yəni qulun istədiyini öz istəyilə etməsi kimi bir şeyin də olmadığını, qədərin bu ikisi arasında bir şey

olduğunu, Tanrının hər kəsin edəcəyi işi bilməsinin, o işi etməyə qulu məcbur etmədiyini, qulun etdiyi işi öz iradəsi və ixtiyarı ilə fəqət Tanrı biliyinə uyğun olaraq Tanrı qüdrətiylə etdiyini qəbul etmişdir (Usulül-Kafı, s.74-77).

Mövlanə cəbr və ixtiyar problemində mötəzilənin haqsız olduğunu, fəqət cəbrilərin də haqlı olmadıqlarını söyləyib Əhlibeyt imamlarının hökmünü qəbul etməkdədir. [Yəni, başqa sözlə desək] Etdiyimiz iş üzündən ağlayıb inləməyimiz acizliyimizə dəlalət edər, amma utanmağımız da ixtiyarımıza dəlildir. [Mövlana] deyir [ki, əgər] ixtiyarımız olmasaydı müəllimlərin tələbələrini, ustalarınköməkçilərini danlamaları, xətrimizin vəziyyətdən vəziyyətə dəyişməsi mənasız olardı. [Yəni] istədiyimiz şeydə qüdrətimizi görməzdik, istədiyimiz şeydə Tanrı təqdir etmiş deməz, özümüzü aldatmazdıq (Mesnevı, I, s.39-40, beyt: 718-634); Tanrı nemətinə şükr etməyimizin qüdrətimizə dəlil olduğunu, cəbrə inanmanın isə o neməti inkar etməkdən başqa bir şey olmadığını bildirir və cəbrə inanmaq yol kəsənlərin (quldurların – R.M.) arasında yolun üstünə uzanıb yatmaq kimidir. [Mövlanə] vaxtsız banlayan xoruzun da başını[n] kəsildiyini buyurur. [O,] insanın əkini əkdikdən sonra Tanrıya ümid etməsinin gərəkliyini [də] söyləyir. (eyni, s.58-59, beyt: 937-945). [O,] Deyir ki: "Bir adamın əli titrəyər. Beləsinə [hansısa] bir xəstəliyə tutulmuşdur; ya da istəyi ilə əlini titrədir [deyilə bilər]. [Halbuki] ikisi də Tanrı[nın] qüdrətindəndir amma bunlar arasında fərq var[dır]. Əlini istəyi ilə titrədən etdiyinə peşman ola bilər, amma əsməsi olan adam peşman olmaz (eyni, s.92, beyt: 1496-1499). Nəticədə Mövlana bu inancda da Əhlibeyt yolunu tutmuş, doğru bir nəticəyə gəlmişdir (Mevlana Celaleddin, III. Bölüm, .182-187).

Mövlana[ya görə] vəhdət coşqusuyla bütün kainat öz dövrəsində dönür, hər şey öz mövcudluğunda yox olur, hər şeyin varlığı özü kəsilən kimi bir xəyalə düşməyən qüdrətdir. Belə bir xəyala düşənlər hədsiz bir eqoizmə qapanmışlar. Yaxud da bu tam-

lıq, bu bütövlük, bu zuhur təcəllisində özlərini itirmişlər. Mövlana isə özünü xalqa, insanlığa həsr etmiş bir şəxsiyyətdir...

Mövlanə insana və bəşəriyyətə belə səslənir:

"Daha yaxın gəl, daha yaxın, nəyə görədir bu yol ayrılığı? Məgər sən mən, mən sən deyilmiyəm? Nəyə görədir bu sənlik və mənlik?..." (Eyni, VI, 1340 Şemsi hicri, s.243-244).

Mövlanə kəsrət (çoxluq, ayrıcalıq) aləmiylə vəhdət (birlik) aləmini "Məsnəvi"sində belə anladır:

"İndi qurdların növbəsi Yusif quyunun dibində; Qibt toplumunun dövrü Firon padşah[dır]..." (VI, 1933, s.379-380; beyt: 1871-1878).

Görünür ki, Mövlananın dünyagörüşü fərqli, dövrünə görə olduqca mütərəqqi və həyat tərzinə tam layiq bir baxış[dır]. Əslində, bəylərə, padşahlara əyilməyən, qəsidə yazmayan, yer üstündə əkilmiş bir ağacı, yüksəldilmiş bir evi olmayan, vəqfdən çörək yeməyən, verdiyi dərs, fitva müqabilində aldığı az bir miqdar pulla dolanan, padşahlara da, vəzirlərə də ən acı, ən doğru sözləri deməkdən çəkinməyən, lazım olduqda onları yanına buraxmayan, heç bir vaxt onların ehsanlarına tənəzzüldə olmayan Mövlanənin təsəvvüfü də ancaq bu ola bilərdi (Mevlana Celaleddin, II. Bölüm, Mevlananın hususiyetleri; s.218-231. Müasirləriylə müqayisə etmək üçün III. Bölümə də b. S.232-246).

## 77-ci sual: Bu islahat davam etmiş və təsəvvüf xalq [səviyyəsinə] enmişdir? Yoxsa elit zümrənin bir fantaziyası olmuşdur?

Təsəvvüfün fütüvvət əhliylə xalq [səviyyəsinə] endirildiyini izah etmişdik. Ələvilər də xalqa qarışmışdır. Hətta mövləvilərin sofu (sufi) dərvişləri adlandırılan əsmaçılar, yəni Tanrı adlarını zikr edərək gerçəyə çatmaq yolunu tutanlarla da xalqı başa düşmüşlər. Fəqət bunu da qeyd etməliyik ki, fütüvvət ərbabında da, ələvilərdə də, əsmaçılarda da xalqın təsəvvüfü ayinlər toplusuna inanmaq, ənənələrə bağlanmaq kimi şeylərə münhəsir (çərçivə-

lənmiş – R.M.) qalmış, əsl təsəvvüfü əsaslar, təsəvvüf ümdələri, bu ayin və ənənələr xəlitəsi içərisində ərimiş getmişdir. Ələvilər isə daima kəndlərdə [fəaliyyət göstərmiş] və gizli bir zümrə halında qalmışlar. Əleyhlərində olan hərəkətlər onları dəyişdirməmiş, daxillərindəki inanclarıyla qala bilmişlər.

Mövlanənin ətrafında toplanan əxilər, fütüvvət namayəndələri, əsnaf və sənətkarlar Mövlanədən sonra onun düşüncələrini kəndlərdə yaymış, ələvi kəndləri kimi mövləvi kəndləri meydana gəlmiş, amma əsl çələbilik məqamı və o məqama bağlı [olmuş] ziyalılar vəqflə bəslənmiş təkkələrdə toplanmış elit zümrəni qəbul etmiş, ali bir müsiqi və həqiqətən də aşağı bir bilik və ədəbiyyatla formalaşmış bu zümrə qüvvətləndikcə mövləvilik kəndlərdən şəhərlər, xalqdan ziyalılar təbəqəsinə keçmişdir ("Mevlanadan sonra Mevlevılik" adlı əsərimizə (Ə.Gölpınarlının – R.M.) baxın. İst., İnkilap K. 1953, s.244-266).

## 78-ci sual: Ələvilik təriqətdirmi?

"Ələvi" [sözü] lüğəti mənada Əli nəslinə mənsub [olmaq] deməkdir. Özlərinə ələvi deyən və Anadoluda, Rum elində və İranda olan zümrəyə Anadoluda müxalifləri tərəfindən "mum söndürənlər", İranda eyni mənaya gələn "çerağküşan" deyildiyi kimi yenə [onlara] Anadoluda "dovşan yeməyənlər", Makuda "qaraqoyunlular", Urmiyada "abdalbəylilər", Luristanda "gulailər", Təbrizdə "görənlər", Qaradağda "şamlılar", Qarabağda "millilər", Məşhəd tərəflərdə "əliallahilər" kimi adlarla adlandırılmışdır. Tərəzidə yanlışlıq olacağı, doğru olmayan tərəziylə çəkərkən bilməyərəkdən haqqı pozmaq qorxusuyla əksəriyyəti ədədlə satılan şeyləri satdıqlarından İstanbulda bunlara "tərəzi götürməyənlər" də deyilir. Bektaşilər bunlara "sufyan" və "sofu ardıcılları" deyirlər. "Əliallahi" adı Həzrəti Əliyə Allahlıq aid etdiklərinədn [onlara] verilmişdir. Digər adların əksəriyyəti boy/nəsil adlarıdır. Fəqət xalq bu adları müxtəlif izahatlarla mənalandırmışdır. Məsələn, xalqa görə bunlar İmam Hüseynə öz

aralarında "Xan Abdal" dediklərindən "abdalbəylilər", başçıları on ikinci imamı gördüyünü iddia etdiyindən "görənlər" adlarını almışlar. O biri adlara da bu cür uydurma mənalar verilmişdir. Xalqın ələvilər haqqında mum söndürdükləri inancı tamamilə iftiradır. Bu boylar hökümət qurarkən Şah İsmayıla kömək etmiş boylardır. Şah İsmayılın atası Şeyx Heydər on iki laylı qızıl tacı sərpuş (baş geyimi – R.M.) olaraq qəbul etdiyindən və bunlar da Şeyx Heydərə, Şah İsmayıla, ondan sonrakı səfəvilərə qoşulduqlarından ümumi olaraq farscada "sorx səran", türkcədə "qızılbaşlar" kimi də xatırlanmışlar.

Ələvilik şiələrin ifrat inanc daşıyıcılarından Həzrəti Əliyə Allahlıq aid edənlərindən, yəni Qulatındandır. [Belə ki,] Ələvilər batini inancları mənimsəmişdirlər. [Onlar] İranda özlərinə "Əhli Haqq" deyirlər. "Haqq" [sözü] əbcəd hesabında yüz səkkiz sayına uyğun gəlir; "qaf/q" hərfinin iki nöqtəsiylə yüz on olur. Əli adının da əbcəd hesabı yüz ondur. Buna görə Əhli Haqq [elə] Əhli Əli deməkdir. [Onların] inancları xürafələrlə dolu olub burada Türk şamanizminin, Uyğur adətlərini, digər dinlərin, fütüvvət yolunun təsirlərindən bir xeyli şeylər vardır. İmamiyyə şiələri bunları müsəlman qəbul etməz; [elə] sünnilərin bunlar haqqındakı qənaətləri də eynidir.

Ələvilər özlərindən olmayanlara "Yezid, zahid, yad" deyərlər və onlardan qız almazlar, onlara qız verməzlər. [Hansısa] Bir ələvi yetkinlik dövrünə çatınca eyni çağda olan başqa bir ələvi ilə müsahib olur (ailə həyatı qurur – R.M.) və bu yolla ələviliyə intisab edir (qoşulur-R.M.). Müsahib axirət və yol yoldaşı mənasına gəlib bu intisaba "Musahib qövlünə (ünsiyyətinə - R.M.) girmək/daxil olmaq" deyilir. Ələvi olmayan biri bu yola intisab edə bilməz. Bu baxımdan ələvilik usulu və furunu müsəlmanlığa uyğun olaraq tədvin (davam, tətbiq – R.M.) edilmədiyindən bir məzhəb olmadığı kimi bir təriqət də deyildir ("İslam Ansiklopedisi"nə yazdığımız (Ə.Gölpınarlı – R.M.) "Kızılbaş" maddəsinə baxın, cüz.64, s.789-795).

## 79-cu sual: Hürufilik haqqında fikriniz necədir?

Hürufilik 740[-cı hicri il]də (1339-1340) meydana çıxıb 788[-ci il]də (1386) sistemini yaymaya başlamış və 796 [-cı hicri ilin]də (1394) Əlincədə öldürülmüş Şihabəddin Fəzlullah tərəfindən qurulmuşdur. Fərqli tərzdə namazları, Əlincədə edilən həcc ayinləri və bütün inanclarıyla hürufiliyə kökləri qədim Hind və İran, hətta Misirdə olmuş batini bir məzhəb deyə bilərik. Fəzlullahı Mehdi və Allah tanıyan bu məzhəb daha az bir müddətdə müstəqilliyini qoruya bilmiş, sonradan [isə] xüsusən Ələvi-Bektaşilərə və bir az da digər təriqətlərə inanclarını ötürərək tarixə qarışmışdır...

## 80-cı sual: Təsəvvüfün toplum həyatındakı təsirləri nələr[dən ibarət]dir və bu təsirlər hansı nəticələrə gətirib çıxartmışdır?

İndiyədək izah etdiklərimiz bu xüsusda kifayət qədər məlumat verdiyini zən edirik. Təsəvvüf inancı bir yandan təkkələrin qurulmasına və bunlara vəqflər əlavə edilməsinə yol açmış və bu vəchlə toplum yaşayışında yeni bir mənimsəyici və istehlakçı sinif meydana gəlmişdir. Eyni zamanda bu sinif inancları baxımından şəriətçilərlə mübarizəyə başlamış, şəriətçilər səmanı, zikri ifrat riyazatı (məşqi – R.M.), müxtəlif şəkillərdəki sufi taclarını, onların geyim-keçimlərini şəriətə yad görmüş, bidət saymış, həmçinin daima şəriətçilərlə təriqətçilər arasında mübahisələr, münaqişələr XVI-XVII əsrlərdə osmanoğullarının ölkəsində olduğu kimi sufilər əleyhinə zəcri (zorakı, məcburi – R.M.) hərəkətlər olmuş və bütün bunlar toplumun ikiyə bölünməsiylə nəticələnmişdir.

Ancaq eyni zamanda aşağıda bəhs edəcəyimiz kimi təsəvvüf düşüncə və [dünya]görüş hədlərini genişlətmiş və bu üzdən təəssüb bir qədər azalmış, rintçə (əzilmiş, müti – R.M.) görüş, dö-

zümlülük, müsiqi, dini rəqs təsəvvüf təsiriylə ortalığa çıxmış, xüsusən [də] Mövləvi dərgahları ayrıca təsəvvüf ədəbiyyat və müsiqi institutları halına gəlmişdir. Ədəbiyyat və müsiqi tariximizdə getdikcə köhnəni yeniləyən, yeni bir tərzə çevirən, dövrlərini qabaqlamış şairlər, elm sahəsindəki tarixçilər, təzkirəçilər, şərh etməklə tənqidçilər, müsiqi ustadları mədrəsələrdən deyil, təkkələrdən feyz alaraq yetişmişlər.

Fütüvvət əhlinin isə dövrlərində hırfet (tərəfdarlarının – R.M.) və sənət nümayəndələrini təşkilatlandırıb bir nizam qurması, yardımlaşmağı geniş bir tərzdə inkişaf etdirməsi, heç şübhəsiz ki, təsəvvüfün müsbət təsirlərindən biri və bəlkə də ən önəmlisidir.

## 81-ci sual: Təsəvvüfün qadın[lar] haqqında düşüncələrini izah edərsinizmi?

Təsəvvüf qadınla erkək arasındakı fərqi [ortalıqdan] qaldırmağa çalışmışdır. Əsasən [də] İslamda hərəm həyatı yoxdur. Cahiliyyə dövrünə nəzərən qadın İslamda olduqca böyük haqlar qazanmışdı. Səhabə Aişədən, Ümmü-Sələmədən hədislər rəvayət edər, şairlər şeirlərini İmam Hüseynin qızı Səkinəyə oxuyar, fikrini soruşur, tənqidinə önəm verirdilər. Hərəm həyatı saray həyatı ilə başladı və mədrəsə [təsisatı] qadını toplumdan ayırdı.

Sufilər IV surənin 34-cü ayəsində qadınların erkəklərdən (ayədə əksinədir – R.M.) üstün olmasını yetkinlik məqamına çatmışlar, yəni fəal bir rol oynayanlar passif qalanlardan üstündür tərzində izah edilmiş, qadınlardan "rical-ərənlər" (kişilik – R.M.) dərəcəsinə yetişənlər olduğunu qəbul etmişlər. Süləminin sufi qadınlar haqqında ayrıca bir kitabı vardır. Hətta bəzi sufilər "qadınların erkəklərə üstünlüklərini anlatsaydıq şəmsə (günəşə) müənnəs deyilməsi ayıb olardı. Müzəkkərlik də erkəklərdə bir üstünlük olmazdı" deyəcək qədər irəli getmişdilər (Nefahat, tərcüməsi, s.692).

Mövlanə "Məsnəvi"sində biliksiz kişilərin qadınları xor gördüklərini, çünki onlarda heyvanlıq sərtliyinin olduğunu, ağılları, könül sahiblərininsə qadınların üstün olduğunu, sevginin, incəliyin insan vəsfi olub hirs və şəhvətinsə heyvanlıq sifətlərindən sayıldığını, qadının sevgili deyil, Tanrı işığı, hətta əslində yaradılmış deyil, yaradan vəsfinə sahib olduğunu söylər (I, s.150, beyt: 2430-2437) və Həzrəti Məhəmmədin "Xeyirliniz əhlinə xeyirli olanınızdır. Mən əhlimə ən xeyirli olanınızam", "xeyirliniz qadınlara xeyirli olanınızdır" və "Xeyirliniz əhlinə xeyirli olanınızdır, mən əhlimə xeyirli olanınızam; qadınları ancaq böyük və şərəfli kişi[lər] sayar, hörmət edər; onlara ancaq alçaq kişi[lər] xəyanət edər" hədislərinə işarə etməkdədir (Cami, I, s.90). Mövlanənin söhbətlərinin qeydlərindən meydana gəlmiş "Fıhi ma-fıh"-dəsə daha çox irəli gedərək qadını örtmənin, onu kimsəyə göstərməmək cəhdinin, qısqanclığın olduqca pis nəticələr meydana gətirəcəyini, bu tədbirin müsbət deyil, mənfi bir tədbir olduğunu başa salır (tərcüməmiz (Ə.Gölpınarlının – R.M.) s.74-75; Mevlana Celaleddin, s.211-213). "Mənaqıbül-Arifin" Mövlanənin qadınların təşkil etdikləri səma məclislərinə getdiyini, onlarla görüşdüyünü nəql edər (Eyni s.lər).

## 82-ci sual: Təsəvvüfdə məşhurluq qazanmış qadınlar vardırmı və [onlar] kimlərdir?

"Nəfahat"[əsərin]də və sufilərin tərcüməyi hallarını ehtiva edən kitablarda təsəvvüfü mənimsəmiş, erkək sufilərlə mübahisələr etmiş qadın sufilər də eyni bir bölüm təşkil edir. Bunlardan 135[-ci hicri ilin]də (752) ölmüş Bəsrəli Rəbiə, Əhməd b. Hidrəveyhin arvadı Ümmü Əli, 203[-cü hicri ilin]də (818) vəfat etmiş Nişapurlu Fatimə, Şeyx Əbu-Abdullah b. Xəfifin anası Ümmü Muhəmməd və daha adları məlum və məlum olamayan bir-çox sufi qadınlar vardır ("Nefahat" tərc., s.692-709; "Taraıkul-Hakaaık", II, s.213-219).

Mövləviliyin ilk dövrlərində “Mənaqibul-arifin” [əsərin]də Mövlanaya soy, yaxud nisbət baxımından əlaqəliliyi olmuş bir-çox qadınlardan rəvayətlər vardır. Sultan Vələdin qızı Şərəf xatun bir-çox müridlərə sahib bir Mövləvi xəlifəsidir. Konyalı Arifə xoş-liqaa (gözəl çöhrəli, gülüzlü – R.M.) Tokatda mövləvi xəlifəliyi məqamındandır; bütün böyüklər onun mürididir. Qadının mövləvilərdə erkəklər kimi şeyxliyə, xəlifəliyə yüksəlməsi XI əsrədək (XVII) davam etmişdir. Divanə Məhəmməd Çələbinin (XVI əsr) nəvəsi və Xızır Şah Çələbinin oğlu Şah Məhəmməd Çələbidən sonra qızı Dəstinə Afyon dərgahında şeyxilik etmişdir. Dəstarlı sikkəylə gəzmiş bu xanımdan başqa kiçik Məhəmməd Arif Çələbinin vəfatından sonra böyük qızı Günəş Xan mövləvi müqabiləsini idarə etmişdir. Günəş Xanı Suğra da eyni dərgahda şeyxlik məqamında olmuşdur. “Səfinəi nəfisəi mövləviyan” müəllifi Saqib Dədəni (1148 h., 1735) özünə övlad etmiş Haccə Fatimə Xanım da mövləvilərin başçılarındandır. [Onun] əruzla şeirləri də vardır (Mevlanadan sonra Mevlevılik, s.278-281).

Ələvi və bektaşilərdə isə qadınlar eyni cəm (Ayın-i Cəm) adlanan təriqət ayininə erkəklərlə yanaşı iştirak edərlər; məhəbbət süfrəsində, yəni yollarına görə dəm görülən, yəni rakı (spirtli içki – R.M.) içilən süfrəyə yanaşı otururlar; birlikdə nəfəs/nəğmə oxuyur, səma/rəqs edirlər.

Təsəvvüfün qadın[lar] haqqında baxışı, təlaqqisi (əlaqədar olanları – R.M.) dövrünə görə qadını cəmiyyət həyatına daxil etmiş, amma sonradan mövləvilər də daxil [olmaqla] digər təriqətlərdə mədrəsə[lər]in təzyiqi qadın dərvişləri nisbətən toplumdan ayırmış, yalnız bektaşilərlə ələvilərdə qadın[lar] erkəklərlə bərabər ayinlər[d]ə iştirak etməkdən geri[də] qalmamış[lar] və bu beləcə davam etmişdir.

## 83-cü sual: Təsəvvüf uyuşdurucu bir rol oynamışdır deyildiyini eşidirik. Buna nə deyirsiniz?

Bu hökmdə az da olsa həqiqət payı vardır. Məşrəb (qaynaq – R.M.) baxımından olduğu qədər bilikdə dərinliyə enməmək baxımından bəzi sufilər hələ xeyrin şərə, şərin də xeyrə nisbətiylə, yəni iki işin qarşılaşdırılması ilə müəyyən edildiyi, hər işin Tanrı işi, hər hadisənin Tanrı təcəllisi olduğu qənaətinin nəticəsində küfrü də, zülmü də, pisliyi də doğru və lazımlı görmüşlər. [Hansısa] bir şeyə, bir işə qarşı durmağı Tanrı təcəllisinə qarşı durmaq hesab etmişlər. Ancaq deməyə ehtiyac yoxdur ki, bu [cür] inanc, bu boyunbükmə sufinin özünə bir pislik olmaması ilə əlaqədardır. [Məgər] Hər şey doğrudursa, yerindədirsə, bir işə qarşı durmağın da lazımlı olması, doğru hesab edilməsi vacib olmazmı? Bu inancı güdənlər belə bir ziddiyyətə düşdüklərini anlamayanlardır. Kamil sufilər [isə] zövq və şəhvət üzündən mənimsənilən bu inanca "sümüklü təsəvvüf" deyərdilər...

Təsəvvüf bəzilərinə də hüdudsuz bir təvəkkül aşılayar. Bu cür insanlar arasında "zuhurat" sözü baş alıb gedərdi. [Belə ki, belələri] "Zuhurata tabeyik" deyib, müqavimətdən, çalışmaqdan əl çəkərdilər...Bu cür inanclara düşənlər sanırıq ki, təsəvvüfün özünü anlamayanlar, sufilərin tərcümeyi-hallarından bəhs edən, onların riyazatlarını anladan kitablara dalmışdırlar. Eyni zamanda təkkə vəqflərinin də bir dəstə hazır yeyən[lər] törətdiyini [də] unutmamaq lazımdır.

Amma təbii olaraq təsəvvüfün uyuşdurucu bir rol oynadığına inanmaq üçün sufilərdən ortalığa çıxmış rəssamları, xəttatları, müsiqiçiləri, şairləri, boyunbağı düzəldən, fildişi, sədəf hazırlayan, təsbeh çəkən, yəni hədli təsbeh düzəldən sənətkarları, əsərlər yazan, tədqiqatlarda, təndiqlər ortalığa qoyan biliklilər, şərhçiləri, hətta din adamlarını, habelə təsəvvüfə istinad edərək dövlət qurmağa cəhd edənləri, bu işin öhdəsindən gələnləri, yaxud bu yolda can verənləri, o cümlədən də təsəvvüfün verdiyi hü-

dudsuz istiğna (əminliklə - R.M.) ağaya, bəyə, paşaya, padşaha belə əyilməyənləri unutmaq iqtiza edər/yanlışlıq olardı.

Bayrami məlamilərindən Əhməd Sarbanın (953 h., 1546): "Dərvişlərin məsləyini bilmək istərsən dinlə: Sevənə quluq, köləyik; sevməyənə isə padışahıq biz" – deyilən bu beytini qeyd etməyə bilmərik:

Bilmək istərsən əgər məsləki dərvişanı
Sevənin bəndəsiyik sevməyənin sultanı.

## 84-cü sual: Təriqətlərin xalq hərəkətlərində, xalqın mübarizələrində müsbət yaxud mənfi bir rolu olmuşdurmu?

[Əgər] Cəmiyyət içində bir sinif törəyər, xalq tərəfindən dəstəklənər, bir qüvvət halına gələrsə [onda] əlbəttə [beləsi] topluma təsir edəcəkdir. Səlcuqlular dövrünün axırlarındakı Babalılar/Atalılar üsyanı təsəvvüfdən sürət almış sırf bir xalq hərəkatı idi. Cimri üsyanı [da] onun (sufiliyin – R.M.) bir təmadisindən (hissəsindən – R.M.) başqa bir şey deyildi. Qaramanoğulları bəyliyini quranlar babalıların nufuzuyla bu işi bacarmışlar. Osmanoğulları höküməti qurularkən ən böyük rol fütüvvət nümayəndələrindəydi. Fütüvvət təşkilatına bağlı olanlar bu dövlətin qurucularına yardım etmişlər. Alp Ərənlər fütüvvətin seyfi (qılınc, döyüşən – R.M.) qolu idi. Ankara əxilər tərəfindən özlərindən olmuş I Sultan Murada döyüşsüz təslim edilmişdi. [Onun] Oğlu İldırımın dövründə Bursa bazarını bağlamış əsnaf və sənətkarlar iqtidara qarşı ilk etiraz edənlərdir. II Murad bütün fütüvvət əhlinə görə başçı qəbul edilmişdi. Yeniçərlik fütüvvət əhlinin məhfillərdə geyindikləri börkü qəbul etmişdi. Qazilər başçısı hesab edilən Hacı Bektaş bu ocağa pir tanınmışdı. Ərdəbiliyyə, yaxud Səfəviyyə dövləti, Səfiyyəddin İshaqı Ərdəbilinin nəvələri tərəfindən xalqa, xalq[ın] boylarına istinad edərək təsis edilmişdir. Bədrəddin üsyanıyla Cəlali üsyanlarında, Şahqulunun və Pir Sultanın hərəkatlarında, Babalılar üsyanının izlərini görməmək mümkün deyildir.

Bütün bu hərəkətlərdə hakim[iyyətdə olan] iqtidar bəzən çətin vəziyyətə düşmüş, bu[nun] üzündən təsəvvüfün bu müqavimətlərdə dövlət bünyəsi baxımından mənfi rolu olmuşdur. Bəzən də hökümətlər bu nüfuza istinad edərək qurulmuş və təsəvvüfün rolu müsbətləşmişdir ("Mevlana Celaleddin"in "Giriş" bölümünə, s.3-21, "Mevlanadan sonra Mevlevilik" in ayni bölümünə, s.3-13; "İslam ve Türk illerinde Fütüvvet teşkilatı ve kaynakları" adlı məqaləmizin (Ə. Gölpınarlının – R.M.) V bölümünə, s.74-83 və (yenə də onun – R.M.) "Alevı-Bektaşi Nefesleri"nin 83-88-ci səhifələrinə baxın)...

## 85-ci sual: Hökümətin təriqətlərdən faydalandığı, yaxud bunlar əleyhinə yönəldiyi olmuşdurmu?

Təriqətçilər höküməti dəstəklədikcə hökümət də onları dəstəkləmiş, onları vəqflərlə özünə bağlamışdır...Həmzəvilər hökümətə müxalifət olduqdan, hökümət daxilində xalqçı bir hökümət kimi mövcud olduqlarından, xüsusən də XVI əsrin sonralarında Həmzə Balı tərəfindən bir hökümət qurma təşəbbüsünə keçdiklərindən ələvilər də İrana bağlı olduqlarından, osmanoğulları hökümətini qanuni hökümət qəbul etmədiklərindən getdikcə çox şiddətli təqiblərə məruz qalmışlar, bir çox qurban vermişdirlər ("Melamılik ve Melamıler" ə, "Alevı-Bektaşı Nefesler"-inə və Ahmed Refikin "XVI asırda Rafızılik ve Bektaşılik" adlı məqaləsinə baxın, nəşri: İst. Ahmed Halid Kitabevi – 1932).

Səfəvilər ərdəbiliyyə-səfəviyyə mənsublarına, ocaqlarına bağlı olan boylara istinad edərək hökümətlərini qurmuşlar, osmanoğullarının qurulması dövründə, öncə də bildirdiyimiz kimi fütüvvət əhlinin böyük rolları olmuşdur. Amma yeniçəri ocağı nizamını itirdikdən, Avropanın silahlarına sahib nizamlı bir ordu qurmaq lüzumu duyulduqdan sonra III Səlimdən etibarən mövləviliyə meyl artmış, nəhayət II Mahmud tərəfindən Ocağı Bektaşiyyə, yəni yeniçərilik [aradan] qaldırılmış, son hərəkatda Sancağı Şərif altında deyil, qazan dibinə gedən bektaşilər və bekta-

şiilik də rəsmən qadağan edilmişdi. Amma bektaşilər bütün tənkil və imha (yasaqlanma – R.M.) tədbirlərinə baxmayaraq yenə də gizli-gizli ayin və ənənələrini icra etmiş, Əbdülməcid dövründə isə "padşah yasağı üç gün sürər" deyiminə uyğun olaraq təkkələrini yenidən qurmaya, geyim-keçimlərini gizlətmək lüzumunu duymamağa başlamış, bundan sonra da dövrün hökümətləri getdikcə bu təriqətə də cəmilələr (xoşluqlar) nümayiş etdirmişlər...

## 86-cı sual: Təriqətlərdə xarici istismara qarşı mübarizə olmuşdurmu?

Təriqətlərin qüvvətli dövrlərində müasir anlamda bir xarici istismar olmadığı kimi, son zamanlarda, məsələn Tənzimatdan sonra və xüsusən [də] II Əbdülhəmid dövründə başlayan istismar siyasətini anlayıb ona qarşı duracaq milli şüur da olmadığından, təriqətlərin bu xüsusda müsbət, yaxud mənfi rolları olmamışdır. Ancaq İttihadçıların tövhidi ənasir siyasətindən sonra büründükləri milliyyət cərəyanı qüvvətləndikcə Türk bektaşiləri Balkan bektaşilərinə qarşı cəbhə almış, bektaşiliyin milli bir təriqət olduğu, hətta Hacı Bektaşın "Məqalət"ini ərəbcə yazdığını xatırlatmadan [onun] bir milliyyətçi olduğu, Ərəb və Fars harsına (mədəniyyətinə - R.M.) qarşı Türk harsını qorumaq cəhdini güddüyü kimi həqiqətən də xəyali və gülməli mübarizəyə başlamışdılar.

Bütün İslam aləmindəsə qaziyanilərin Hindistan müstəqilliyinə qarşı İngiltərəni dəstəklədikləri kimi hərəkətlər mövzumuzun xaricindədir. Çünki, istər qaziyanilər, istər babilər və bəhailər qurucularını müsəvilərlə xristianlara qarşı Məsih və İsanın müsəlmanlara qarşı Mehdinin zuhurunu göstərmiş, özləri tərəfindən isə son və dövrün peyğəmbər[i] və Allahın zuhuru sayılan, getdikcə bu və ya digər yad dövlətin qoruduğu, kök[ləri] xaricdə uydurma dinlərə uymuş əğnamlardır (qoyunlar) və bu ifadə bu uydurma dinləri quranlar tərəfindən özlərinə verilmiş ən uyğun addır.

# X BÖLMƏ

## ƏDƏBİYYATDA TƏSƏVVÜF-TƏSƏVVÜF TERMİNLƏRİ-TERMİNLƏRƏ DAİR YAZILMIŞ ƏSƏRLƏR-DİVAN VƏ XALQ ƏDƏBİYYATINDA TƏSƏVVÜF

### 87-ci sual: Təsəvvüf terminləri hansılardır; bunlar necə meydana çıxmışdır; bunları təsnifatlandıra bilərikmi?

[Əgər] Sufilərin istifadə etdikləri terminlər izah edilərək yazılarsa, mübaliğəsiz deyək ki, bu kitab kimi bəlkə üç kitab [tapmaq] olar. Bunların bir qismi "təqva, vəraa, zühd, zikr" kimi dini terminlərdir. Bu terminlərdə şəriətçilərlə təriqətçilər arasında bir o qədər [də] böyük bir fərq yoxdur; onsuz da hər iki qrup arasında lüğətdəki mənaları eynidir. Yalnız "zikr" kimi bəzi terminlər sufilərə görə fərqli mənalarda istifadə edilmiş, "cəhri xəfi, qiyami, quudi, zikri daim" yəni, "səsli", "səssiz və daxili", "ayaqüstə", "əyləşərək" yaxud da dilini damağına yapışdıraraq hər nəfəs almaq və verməkdə üç dəfə "Allah" demək tərzində uzun zikirdə olmaq kimi qismlərə ayrılmışdır. Bunlardan başqa "yaşlı və böyük, diləyən, dilək, doğru yol göstərən, yola getmək, yola gedən, birinin yerinə keçən" mənalarını verən "şeyx, mürid, murad, mürşid, suluk, salik, xəlifə" kimi sözlər də təriqət qurucusunu təmsil edən şeyxə iradəsini vermiş, şeyx, mənəvi yolçuluq, mənəvi yola gedən, kimisə təriqətə almaq, kiməsə şeyxlik və xəlifəlik vermək səlahiyyətinə sahib olan kimi xüsusi mənalarla istifadə edilmişdir. Xüsusən də "zamanın zehndə təsəvvür edilən öncəsi, yaxud önsüzlüyü, sonu yaxud sonsuzluğu, zamanın bölünməz qismi, biliklə anlamaq, gözlə görmək, bütöv bir inanca varmaq və mövcudluq" kimi fəlsəfədən və dindən alınmış "əzəli, əbədi, an, ani-daimi, ilməl-yəqin, aynəl-yəqin, haq-

qəl-yəqin” kimi terminlərə də xüsusi mənalar verilmişdir ki, bunları yuxarıda yeri gəldikcə izah etmişik.

Bütün bunlardan başqa bir də təsəvvüfdəki suluka, tərbiyə etməyə, hətta [ayrıca] bir təriqət əhlinə aid terminlər vardır; bunların müsiqiyə, müsiqi alətlərinə, geyim və keçimə, təşkilata aid olanları da mövcuddur (Mevlevı Adab ve Erkanı, s. 5-47).

Bütövlükdə terminlər əsl orjinal olanlar, ədəbiyyatdan alınmışlar və xüsusi anlamda istifadə edilənlərdir. Bunlardan bir neçə nümunə verək:

Məhbub (sevilən): Tanrı; aşiq (sevən): Tanrının camal və cəlalına qapılmış adam; məşuq (sevilən): Tanrı; iştiyaq (özləm): Tanrını diləmək; hüsn (gözəllik): bütün kamillik; cəmal (gözəllik): Tanrının kamilliklərini izhar etməsi; cəlal (ululuk): Tanrının böyüklüyü; liqaa (görüşmək): Tanrının sifətlərini izhar etməsi; məlahət (ehtivaedicilik): kamilliyin sonsuzluğu; kərişmə (cilvə, aldatmaq): Tanrının lütfü, təcəllası; şəkl (qılıq/forma): Sevgilinin, Tanrının varlığı, zuhuru; şəmail (geyim, huy-xoş): cəlal və cəmal sifətləri; şivə (naz, əda): bir qədər cazibə; məkr (hiylə, nizam): Tanrının bəzi hallarla, kəramətlərlə qula mənlik verməsi; cəng (savaş): sınanmaq; hicab (örtü, pərdə): Tanrının mahiyyətini örtən sifətlər, adlar, aləm; şərabxana (şərab içilən yer): mələküt (mələklər – R.M.), sifətlər, qüvvətlər aləmi; meyxanə (içki içilən yer) : təcəllilər aləmi; xumxanə (içki küplərinin durduğu yer, meyxanə): təcəllilər yurdu, aləm; saqi (şərab, içki paylayan): mürşid, şeyx; çəlipa (büt, xaç): təbiətlər (maddi olanlar – R.M.) aləmi; naquus (çan): xalqın Haqqdan ayrı olduğuna inanmaq; büt (büt, gözəl): arzu edilən, istənilən, Tanrı məzhəri, Tanrı eşqi, birlik; çeşm, ləb, zülf, xətt (göz, dodaq, saç, saqqal): Tanrı sifətlərinin məzhəri (görüntüsü – R.M.) olan aləm; şərab, mey (içki): məna, feyz, nəşə/sevinc; şəm (mum, şam): irfan, təcəlli; tərsa (xristiyan): varlıqlardan ayrılan, özünü Tanrı sevgisinə həsr edən; tərsa beçə (kafir oğlanı): kamil mürşidin üzündəki nur, salikə cəzbə verən baxışı, baxışındakı qüdrət; küfr (dini hökmləri inkar): gerçəyi örtmək, zatı örtən sifətlər; ru (üz):

zat/mahiyyət; zülf (saç): küfr, sifətlər; xal (üzdəki nöqtə): qorxudan doğan izafi varlıq...

Göründüyü kimi bu terminlər bir yandan ədəbiyyatı xüsusən də mənası baxımından zənginləşdirməkdə, [başqa] bir tərəfdən izaha hüdudsuz bir yol, bir sahə açmaqdadır.

## 88-ci sual: Bunlar haqqında yazılmış kitablar vardırmı?

Təsəvvüfdən bəhs edən hər kitabda çoxlu sayda təsəvvüf terminləri vardır. Bu terminlər ən şox İbni Ərəbinin "Fütühat"ında rast gəlinir. 805 [-ci il] hicridə (1402) vəfat etmiş Əbdül Kərimi Ceylinin "Əl-insanül-kamil fi mərifətil-əvaxiri val-əvail" ("Başlanğıc və sonun anlaşılmasında kamil insan") [əsərin]də təsəvvüf terminləri olduqca gözəl və ətraflı şəkildə izah edilmişdir (Misir, 1304). Qüşeyri dövrünə qədər gəlib çıxmış təsəvvüf nümayəndələrinin ən başlıcalarının tərcüməyi halların[ı yazdıq]dan sonra "Risalə"sinə qeyd etmişdir (s.40-242; axırda səma, kəramət, röya kimi bölmələrdə də bir xeyli terminlər olduğundan bu bölmələri fərqli hesab etmirik).

Bu baxımdan ən faydalı kitab fiqh və digər biliklərlə fəlsəfəyə aid terminlərə də hali olmaqla bərabər təsəvvüfü ön plana çəkmiş Seyyid Şərifi Cürcaninin (816 h., 1413) "Tərifat" adlı kitabıdır. [Belə ki,] Bu risalədə yüz yetmiş beş maddə təsəvvüfə aiddir. [Bu əsərin]1300[-cü il] nəşrinin sonuna əlavə edilmiş və İbni Ərəbinin "Futuhat"ında yer almış yüz səksən səkkiz terminə də aid on səhifəlik [başqa] bir risalə[si də] vardır.

Bunlardan başqa Əbdürrəzzaqi Kaşaninin (736 h., 1335), Şah Nemətullahi Vəlinin (834 h., 1431), "Dai iləllah" deyilərək anılmış Seyyid Nizaməddin Mahmudun (869 h., 1464) sufilərin istifadə etdikləri terminlərə dair farsca risalələri və bu xüsusda müəllifləri məlum olmayan bir sıra risalələr vardır. Əbdürrəhim b. Şəmsəddin Məhəmmədi Əktabi (859 h., 1454) Kaşaninin risaləsini şərh etmişdir (bunlar üçün Səid Nəfisinin "Taarıh-i Nazm u nesr der İran ve

der zeban-ı Farisı ta payan-ı karn-ı dahum-ı hicrı" adlı əsərinə b. Tehran – 1344, şemsı h., I, s.187-188, II, 758-759).

[Mahmud Şəbüstərinin] "Gülşən-i Raz" [əsərinin] xüsusən 13-cü sualının cavabından sonrakı hissəsi təsəvvüfdəki ədəbi terminləri olduqca gözəl açıqlayır (Tərcüməmiz (Ə. Gölpınarlının – R.M.), II nəşr, İst. M.E. b., 1968, s.60-81).

## 89-cu sual: Təsəvvüfün ədəbiyyata təsirləri haqqında fikriniz necədir?

Buna qədər soruşulmuş suallara verdiyimiz cavablardan da anlaşılır ki, əsasən fəlsəfi bir düşüncədən doğmuş Hükəma fəlsəfəsiylə bütövləşmiş təsəvvüf düşüncənin hədlərini zamanına görə olduqca genişləndirmiş, bir tərəfdən dini terminlərlə, [başqa] bir tərəfdən təsəvvüfi terminlərlə dili zənginləşdirmiş, Tanrıyla qulu üz-üzə gətirərək qorxunun yerinə sevgini, ümidin yerinə vusalı qoymuş, insanı edə bildiyi qədər qüdsiləşdirmiş (saflaşdırmış – R.M.), dünyanı və bütün kainatı, Tanrı məzhərləri tanıdaraq zahidlər kimi yaşanması lazım [olan] dünyanı Tanrının dayanmadan dəyişən yaradıcı dəzgah[lığın]ı göstərmiş, hər tərəfdən təfəkkürə hüdudsuz bir sahə açmışdır.

Üstəlik [təsəvvüfün] aşiqanə və ehtiraslı xüsusiyyətləri əks etdirən beytləri belə terminlər üzündən çətinliyi bu hüdudsuzluğu olduqca genişləndirmişdir. Ötəri eşqi belə həqiqi eşqə bir körpü saymış təsəvvüf hər cür sözə bir izah tapmışdır.

Bir tərəfdən Hind-İran, Roma-Bizans əfsanələri, [başqa] bir tərəfdən Quran və hədislərdən götürülmüş sözlər, bir tərəfdən [də] peyğəmbərlərin və ərənlərin həyatlarına aid hadisələr, bir tərəfdən təsəvvüfi ümdə olanlar türk divan ədəbiyyatını formalaşdırmış, bu ədəbiyyata insani və düşüncəvi bir istiqamət vermişdir.

Zuhdi ədəbiyyatda da təsəvvüfün təsiri az deyildir. Amma bu ədəbiyyat olduqca dinə istinad etməkdədir. [Beləliklə də] bu [cür] ədəbiyyatda təsəvvüf adətən arxa planda qalmışdır.

## 90-cı sual: Zuhdi ədəbiyyat dedikdə nəyi nəzərdə tutursunuz?

Din hökmlərindən bu hökmlərə uymuşların əldə edəcəkləri mükafatdan: cənnətdən, cəhənnəmdən, ölümdən, axirətdən bəhs edən, peyğəmbərlərə aid qissələri (hekayələri – R.M.), dini hadisələri təsvir edən ədəbiyyata "zuhdi ədəbiyyat" deyirik. Bunlarda da şeriyyət vardır. Məsələn, Süleyman Çələbinin (825 h., 1422) "Mövlud" [əsər]i bu ədəbiyyatın şah əsərlərindən bir nümunədir. Məhəmməd-i Bıcanın "Muhəmmədiyyə"si də bu ədəbiyyatın ən gözəl məhsullarındandır. Ancaq bu əsərdə təsəvvüfün təsirləri daha barizdir və bir çox yer[lərin]də Həzrəti Məhəmmədə yazdığı təriflərdə eşq və cazibə ön plana keçirilmişdir...

## 93-cü sual: Xalq ədəbiyyatındakı təsəvvüfi ədəbiyyatı izah edərsinizmi?

Xalq ədəbiyyatının zuhdi və təsəvvüfi bölmələrini, təsəvvüfi bölümündəki zümrə ədəbiyyatının, hətta dinlə əlaqəsi olmayan xalq şeirinin yeganə bir qaynağı vardır: Yunus Əmrə.

[Belə ki, biz] Onun şeirlərində bu bölümlərin hamısının səciyyəsini tapa bilərik.

Təsəvvüfi xalq ədəbiyyatının aşağıdakı zümrələrə ayırmaq lazımdır:

I. Bektaşi-ələvi zümrə ədəbiyyatı.

Bu ədəbiyyatda Əhlibeyt sevgisi, ifrat dərəcədə Əliyə bağlanmaq, onu Tanrı hesab etmək, On iki İmamı təqdis edən, adlarını xatırlayan və aralarında "Duvazdə İmam", yəni "On iki İmam" sözünün təhrif edilmiş formada "Duvazman" yaxud [da] sadəcə "Duvazdə" adlanan şeirlər, İmam Hüseynə mərsiyyələr, Hacı Bektaşı, Ələvi və Bektaşi müqəddəslərini öyən, onların düşüncələrini əks etdirən, geyim-keçim xüsusiyyətlərini, ayinlərini məlum edən, XVI-XVII əsrlərdə İrana və Ərdəbil ocağına (Azər-

baycana – R.M.) bağlılığı, hətta Osmanoğullarına düşmənliyi əks etdirən nəfəslər (deyimlər – R.M.) vardır...

Ələvi-Bektaşi şeirində Əhlibeyt sevgisi, təvəlla və təbərra, yəni Əhlibeyti sevmək, sevənləri sevmək, sevənləri sevənlərə dost olmaq, sevməyənləri sevməmək, onları sevənləri də sevməmək ön plandadır. Olduqca dərin və ətraflı bir biliyə ehtiyacın olduğu Vəhdəti Vücüd inancı bu zümrə ədəbiyyatında olduqca arxa plandadır. Yaradılışa aid fikirlər, Kərbəla faciəsinə, Ələvi və Bektaşilərə [qarşı] edilmiş zülmlərə aid dastanlar da bu ədəbiyyatda yer almışdır. Amma bunlar olduqca az [sayda]dır. Ələvi və Bektaşi nəfəslərində şair Allahla iç-içədir. Zahirən ələ salmaya, yaxud anlamayanlara görə Allaha baş qoşmağa bənzəyən bu şeirlər, əslində inancın, amma qorxudan ifrat sevgiyə əsaslanan bir inancın ifadələridir.

Ələvi-Bektaşi ədəbiyyatının ən didaktik şeirlərini lirik bir ifadə ilə dilə gətirmiş Şah Xətaidir (İsmaili Səfəvi 930 h., 1524). Ən lirik və gerçəkdən də orjinal şairi XVI əsrdə yaşamış və bu əsrin sonlarında təşkil etdiyi üsyan nəticəsində Sivasda asılmış Pir Sultan Abdal və onun davamçılarından Qul Himmətdir...

II. Məlami- Həmzəvi ədəbiyyatı.

Bu ədəbiyyatda da Tanrı eşqi, Əhlibeyt sevgisi ön planda olmaqla bərabər Vəhdəti-vücüd inancı olduqca mühüm yer tutub xlaq ədəbiyyatımızın bu qolunda bilik daha böyük bir rol oynamaqdadır... Bu zümrə içərisində Hacı Bayram, Qayğısız və İdrisi Möhtəvi əbədi əsərlər qoyub getmişlər.

III.Zuhdi xalq ədəbiyyatı

Bu ədəbiyyatda nə Ələvi-Bektaşi ədəbiyyatının xarakterləri, nə Məlami-Həmzəvi ədəbiyyatındakı irfan, vəhdət inancı, eşq və cazibə yoxdur. Bu ədəbiyyat namazdan, orucdan, peyğəmbərlərin və Həzrəti Peyğəmbərin həyatından, həcdən, həc yollarından, cənnət və cəhənnəmdən, dünyaya bağlılığı baxımdan deyil, dünyanın keçici olması, ləzzətlətlərinin əsilsiz olduğu baxımından və qorxu üzündən ölümdən bəhs edən, bu zaman bəzi

səhabənin, ərənlərin etdiklərindən bəhs edən və zahidliyi hər şeydən önə çəkən bir ədəbiyyatdır...

Hər üç zümrə ədəbiyyatında da texniki və estetik baxımdan xətasız olmamaq və cüzi olmaqla bərabər əruzla yazılmış şeirlər də vardır. Amma [bu şeirlərdəki] başlıca vəzn/ölçü hecadır...

# XI BÖLÜM

## TƏSƏVVÜF, [İNCƏ]SƏNƏT VƏ BİLİK – FOLKLORDA TƏSƏVVÜF- TƏSƏVVÜF VƏ MUSİQİ

### 94-cü sual: Təsəvvüfün [incə]sənət və bilik dünyasında nə kimi rolu olmuşdur?

[Dünya]Görüş[ü] və anlayış sahəsini genişləndirən təsəvvüfün elm, ədəbiyyat və müsiqidə olduqca böyük və müsbət təsirləri olmuşdur. Anadoluda XIII-XIV əsrlərdə Türk diliylə meydana gəlmiş və inkişaf etmiş klassik ədəbiyyata, Mövlanənin, xüsusən [də onun] oğlu Sultan Vələdlə Yunus Əmrənin təsirləri gün kimi aşkardır. Ədəbiyyat tariximizlə müsiqi tariximizi araşdırsaq Heyrəti, Yusufi Sinə-çak, Divanə Məhəmməd Çələbi, Nəvi, Atayi, Nəfi, Nazim, Naili, Nəbi, Nəhifi, Nəşati, Bəliğ, Fasih, Şeyx Qalib, Əsrar, Avni kimi bir çox şairlərin, Camiud-Düvəl sahibi Münəccim Əhməd Dədə, "Şəkaik zeyli"[əsəri]ni yazmış Atai, hətta yaxın tariximizdki Fateh kimi müvərrix (tarixçi – R.M.) və təzkirəçilərin (ensiklopediyaçıların – R.M.), hətta "Osmanlı müəllifləri"ni qələmə almış Bursalı Tahirin; XV əsrdə Köçək Mustafa Dədədən etibarən İtri, Həmami İsmail Dədə, Müsahib Əhməd Ağa, Zəkai Dədə, hətta Rəfiq bəy, Rauf Yəqta, Tanburi Cəmil Zəkaizadə Əhməd kimi bir sıra müsiqi ustadlarının təriqət nümayəndələrindən olduğunu görürük; vaxtilə naxış[lamaq] adlanan minüatür sənətində, əl işlərindən olan kəlamtəraş, məqtə, yazı üsulu olan [incə]sənət[sahələrin]də mədrəsə[lər]in deyil, təkkənin [başlıca] amil olduğunu başa düşərik. Bu gün müzeylərimizdə nümayiş etdirilən tək və cüt üzlü təbərlər (baltalar – R.M.), fildişindən, ağacdan, tuncdan düzəldilmiş kəşküllər[34], əqiqdən, mərcandan,

[34] Nəfsi aşağılamaq üçün dilənçilik edən dərvişlərin qayığa oxşayan, zəncirlə [çiyindən] asılan içi boş alətləri. Sədəqə buna atılırdı

sədəfdən, kukadan, səndəl ağacından və başqa ağaclarla mədənlərdən çıxarılmış imamələri, duraqları/muncuqları ən incə əl işini, iti göz tələb edən təsbehlər, rifailərin odda qızdırıb formaya salaraq "gül" adlanan ucu yastı incə şişlər, yanaqlarına, omuz boşluqlarına taxdıqları zəncirli toppuzlar, təriqət aləti adlanan şeylər, tikişli taclar, tacların üzərinə qoyulan və "gül" adlanan parçalar, üzərilərindəki bəzəmələrlə həqiqətən də baxanları heyran edən sənət nümunələridir. Yazı sənətinin, təzhibin ən usta sənətkarları adətən təriqətlərdən ortalığa çıxmış sənətkarlardır. Bütün bunlarda fütüvvət nümayəndələrinin də böyük təsirlərini unutmamaq lazımdır...

## 95-ci sual: Folklorda təsəvvüf izləri vardırmı?

Təsəvvüf elə ələvilər və bektaşilərlə, [bunlardan] daha öncə Rum abdalları adlanan zümrəylə o qədər xalqı qavramışdır ki, nağıllarımızda, bilməcələrimizdə, atalar sözlərimizdə belə mənalarını unutduğumuz halda hələ [də] bunların izlərini görməkdəyik...

## 96-cı sual: Təsəvvüfün müsiqiyə təsirlərindən bəhs edə bilərsinizmi?

Təsəvvüfün müsiqimizə çox müsbət təsirləri mövcuddur. Mövləvilərin sofu dərvişləri adlandırdıqları zikri əsas hesab edən dərvişlərdə ilahi, şüul, duraq növləri, Mövləvilər[in özlərin]də nət və ayinlər klassik müsiqimizin dini hissəsini əmələ gətirmişdir. Cami[lər]də yalnız müsiqi məqamlarına uyğun olaraq Quran və Mövlud oxunarkən, təkkələrdə bu cür olanlar meydana gəlmiş və "məzhər" adlanan zilsiz/cıqqasız dəflərlə xəlilə adlanan çalparalarla (ç[a]har-parə), küdümlə usul/ritm tutularaq ilahilər oxunmuşdur. İlahi müxtəlif məqamlarda və zikrə temp verən ilahiçilər tərəfindən ifa edilən təsəvvüfi və əksəriyyəti heca vəzni ilə yazılmış şeirlərə deyilir. Şuul [da] ərəblərdən

keçmişdir. [Bu] Müxtəlif məqamlarda əksəriyyəti ərəbcə yüksək səslə və zikri sürətləndirmək üçün ifa edilən şeirlərdir. Zikr edənlər yorulduqda bir qədər durğunluq vermək üçün [aralarındakı] kimsə tərəfindən xəfif və asta nəğmələrlə ifadə edilən ilahilərə isə "duraq"/məqam deyilirdi.

## 97-ci sual: Digər təriqətlərin musiqisiylə Mövləvi musiqisi arasında hansı fərqlər vardır?

Əsma, yəni Tanrı adlarını zikr [etmək] əsasına dayanan təriqətlərdəki müsiqi zikrə temp verən, zikri idarə edən, zikr edənləri coşduran, lazım olduqda xəfiflədən/yavaşıdan bir müsiqidir; zikrə dayanır. Mövləvi müsiqisində isə başlıca olan səmanı idarə etməkdir. Mövləvilərdə ney və küdüm birinci dərəcədə gəlir. Küdümlə usul tutulur; xəlilə və bəzən məzhər küdümə yardımçı [olanlar]dır. Ney ayin adlanan və ayin-xanlar, yəni ayin ifa edənlər tərəfindən inşad edilən və əksəriyyəti Mövlanənin şeirlərinin ahənginə uyğun olur. Ayin-xanları küdümzənbaşı (baş küdümcü) idarə edir. Səmadan əvvəl oxunan və Itrı (1124 h., 1712) tərəfindən bəstələnmiş nət, rast məqamından olub bir nəfər tərəfindən ifa olunur. Bu məqam içərisində nət oxuyan təsərruflarda ola bilir. Ancaq sofu ilahiçilərdə olduğu kimi gaygaycı bir əda nətdə qəbul edilmir. Çünki, nət adətən bir inşaddır.

Dörd mərhələdən və üç salamdan meydana gəlmiş Mövləvi müqabiləsində (toplantısında – R.M.) neyzənləri (ney ifa edənləri – R.M.) idarə edən də neyzənbaşıdır. Elə ayin oxuyanları da o idarə edir.

Mövləvi səmasına kaman, ud, tənbur və santurun, [əgər] olarsa, əsl[ində] Mövlanənin və oğlunun ifa etdiyi rübab da iştirak edə bilər..

# XII BÖLÜM

## TƏSƏVVÜFÜN GÜNÜMÜZDƏKİ VƏZİYYƏTİ-ŞƏRİƏT VƏ TƏRİQƏT İFRATÇILIĞI – TƏSƏVVÜF TARİXİNİ OXUTMAQ, TƏDQİQ ETMƏK LAZIMDIRMI?-MÜASİR BƏƏRİ DURUMDA TƏSƏVVÜFÜN GƏRƏKLİLİK VƏ MÖVCUDLUQ TƏRƏFLƏRİ VARDIRMI?

### 98-ci sual: Şəriət və təriqət ifratçılığı nədir?

[Bunların] Hər ikisi də bir-birindən betər olan iki böyük yara, iki sağalmaz xəstəlikdir. Şəriət ifratçısı qarışqanı əzməkdən çəkinir. Çünki, Qurani-Kərim “sizə salam verərək sizinlə qarşılaşan adama: “müsəlman deyilsən” deməyin” buyurulduğu (IV, 94), kitab əhlin belə toxunmadığı, onları dinlərində sərbəst buraxdığı Həzrəti Peyğəmbər və Allahın birliyinə inananın cənnətə girəcəyini bildirdiyi halda ən kiçik müsəmahanı belə qəbul etməz, din uğruna, Allah eşqinə insan öldürməyi cihad hesab edər, öz gözündəki tiri görməyib başqalarının gözündəki çöpə işarə edər. Təriqət ifratçısı hər şeyi Tanrı təcəllisi görüb hər kəsə eyni gözlə baxmanı irəli sürər. Amma onun yoluna uymayanları “avam, zahid, Yezid, yad” sözləriylə qınayar, insan yerinə qoymaz. Şəriət ifratçısına görə müsəlman yalnız özüdür, ona uymayanlar dinsizdir. Üstəlik başını ülgüclə təraş etdirməyən, saqqalını çənbərvari buraxmayan, başına bərə geyməyən adamı kafir sayır, hər yeniyə, hər yeniliyə düşməndirlər. [Necə ki,] mərhum Neyzən Tofiqin söylədiyi kimi: “İfratın məntiqə varmaz bərələnmiş başı!”

Təriqət ifratçısı özünü əsmaya qapadaraq röyalara dalır, xəyal[lar] aləminə daxil olub dünyanı sanki tərk etmişdir. Amma [əslində] ağlı məngənədədir, könlü [isə] dünyaya bağlı[dır]. Fəqət [bütün bunlara baxmayaraq] kəramətlər nümayiş etdirər, qeybdən xəbər verər, ağlına görə dünyanı təsərrüf/izah edər.

Yenə [də] mərhum Neyzən [ifrata varmışların] bu mənəvi hallarını izah edərkən söyləmişdir ki: “Bunlar ya qərəzdir, ya mərəz (xəstə - R.M.)”

Həqiqətən də belədir. İfrata varmışlar ya mənafelərinə görə danışar, iş görər, ya da zamanını anlamayacaq, mühitin hiss etməyəcək qədər özünü sabit fikirlərə vermiş, ağlını itirmiş bir xəstədir.

Hər iki ifrata varmışlar da cəmiyyət üçün təhlükəlidir. Həqiqi din insanı dünyanı da, axirəti də taraz tutan, insan[lıq] şərəfini gözləyən, müstəqilliyi cəmiyyət üçün əsas sayan, bunu qorumaq üçün döyüşü [ortalığa] qoyan, insanları bir görən, yardımlaşmayı, sevməyi buyuran, ağlı ön plana çəkən, iqtisadi nizamı ən qabaqcıl baxışlarla məqsəd edən, həyatı dəstəkləyən, yalnız haq bilən, xürafatı rədd edib batil hesab edən, hikməti inanan insanın itirilmiş malı bilib haradan və kimdən olursa olsun əldə etməyi əmr edən, ancaq dinlərin sonuncusu və ən kamili olan İslam diniylə peyğımbərlərin sonuncusu Həzrəti Məhəmmədin buyruqlarına uyan[lar]dır. Beləsinin dini də ən həqiqi dindir, inancı da yalanlarla, dolandırmalarla, xəyallarla hörülmüş bir inanc olmaz.

Həqiqi din inancına sahib olan şəriətçi Həzrəti Peyğəmbərin nəhy etdiyi (tərk etdiyi – R.M.) müsiqini yazmaz/qəbul etməz (Cami, II, s.152), üfürüklə xəstə müalicəsinə qalxmaz (eyni, I, s.67); “Bizə qarşı silah daşıyan bizdən deyildir” demiş (II, s.153) Peyğəmbərin əmrinə qarşı gəlməz; “Müsəlmanları ayıran məndən deyildir” (II, 161) buyurduğunu inkar etməz.

Həqiqi din inancına sahib olan təsəvvüfçü qeybin ancaq Allah tərəfindən bilindiyini aydın şəkildə anladan Qurani Kərimin (VII, 188, XXXI, 34) hökmünə qarşı çıxıb gələcək zamanda baş verəcək şeyləri bilmək mübahisəsinə girişməz; cifrlə məşğul olmaz, gələcəyin Tanrı nuruyla baxıb görən inanan adamın anlayışından başqa bir şeylə bilinib anlaşılmayacağına inan[and]ır (Cami, I, s.7); üstəlik “inananlar bir özək, bir divar kimidir; birbirilərini qüvvətləndirirlər” və “Müsəlman müsəlmanların əlin-

dən, dilindən əmin olduqları adamdır" mənasındakı hədislərə qarşı (II, s.172) birisini öldürmək üçün qəhriyyə oxumaz, "Ya Qəhhar" deyə zikr edib onun ölümünü istəməz; sevdiyi insanın vüsalına çatmaq üçün cəlbiyyə oxumaya dili gəlməz.

Həqiqi şəriətçi kamil [bir] insandır. [O,] həqiqi irfan sahibi, aləmlərə rəhmətdir. [Bütövlükdə] Həqiqi olanlar varlıqlarını insanlığa verən, fərdiyyətlərindən keçən insanlardır.

### 99-cu sual: Təsəvvüfün tarixini öyrətmək, tədqiq etmək lazımlıdırmı?

Hər [bir] hadisə əvvəlki hadisələrin nəticəsidir və hər [bir] nəticə hadisələrə səbəbdir. Dünəni bilməyən bu günü anlamaz; bu günü anlamayan sabahı görməz, sabaha hazır ola bilməz. Əlbəttə ikinci əsrdən (VIII) bəri İslam aləmini təsiri altına almış, əsrlər boyunca həm siyasət, həm elm və sənət baxımdan cəmiyyətə təsir etmiş, sosial həyatda müsbət və mənfi təsirləri olmuş bir inanc və düşüncə sisteminin və bu sistemin meydana gətirdiyi zümrələrin tarix boyunca çıxışları, bünyələşmələri/oturuşmaları, təsirləri baxımından və hər tərəfdən tərəfsiz olaraq araşdırılması vacibdir. Qədim, yaxud qədim sayılan müəssisələr haqqında bir cəhddən mənfi hökm vermək, bunların dövrlərindəki rollarını inkar etmək, tarixə nəzər salmağı inkar etmək hadisələrin səbəblərinə göz yummaq deməkdir.

Təsəvvüfün tarixi dini tarixin bir qoludur. Dini tarix [isə] sosial tarixin bir qoludur və bu qolların mütləq [şəkildə] bilinməsi, öyrənilməsi, öyrədilməsi, bunlara aid bioqrafiyalar, araşdırmalar, tənqidlərin edilməsi gərəklidir.

## 100-cü sual: Müasir bəşəri vəziyyətdə təsəvvüfün lazımlılıq və mövcudluq tərəfləri vardırmı?

Təsəvvüf bu məsləyi mənimsəyənlər, bu məsləyə bağlananlar[dır], [amma beləri] bizi bağışlasınlar, günümüzdə [təsəvvüf] bir irfan, eşq, söhbət, zövq [işi] olmuş, tarixi bir araştırma mövzusu, bir bilik halına çevrilmişdir. Əsasən ilk dövrlərdə başda Əhlibeyt İmamları olduğu halda şəriəti təmsil edənlərin təsəvvüfü qəbul etmədiklərində [bizim] ilk suallarda izah etdiyimiz kimi təsəvvüfün mənşəyi, sufilərin cazibə aləmində olduqlarını iddia edərək söylədikləri ifrat sözlər, etdikləri ifrat hərəkətlər, İslamın əsaslarına uymayan qaba zahidlik və nəhayət Vəhdəti vücudu Vəhdəti Mövcud şəklində qəbul etdikləri böyük bir rol oynamışdır.

Məlamət və Fütüvvət nümayəndələrinin sufiləri və təsəvvüfü qəbul etmələrində onların hər cəhətdən xalqdan ayrılmaları təsir etməklə bərabər, hesab edirik ki, yuxarıda xülasə etdiklərimiz xüsusların da təsiri olmuşdur. [Bir daha qeyd edək ki,] Məlamət nümayəndələri təsəvvüf içində təsəvvüfə qarşı cəbhə almışlar. Böyük bir sufi olan Mövlananın özünü Abdaladan saymasında imamlığın təsəvvüf və təmkin əhlinə yaraşdığını söyləyərək Sədrəddini Konəvini imamlığa keçirməsində də [başlıca] amil budur ("Menakıbul-Arifın"dən nəqlən Mövlanə Cəlaləddin, s.235)...

Cəfəri olduqlarını iddia edən, fəqət bu İslami məzhəbinin nə üsulundan, nə də furuusundan xəbərləri olmayan Ələvi və Bektaşilərdən ayrılmışlar, [ya] mənsub olduqlarını iddia etdikləri məzhəbi öyrənib xürafatlara əsaslanan inanclarını tərk edirlər, yaxud da metafizik inanclar[ın]dan vaz keçirlər.

Əlbəttə, təsəvvüfün insani baxışları, mütərəqqi dünyagörüşü, dözümlülüyü, intiqadi huviyyəti, mistisizmin real bir ifadəsi olan şeiri[yyəti] [əbədi] yaşayan yönləridir. Fəqət fikrimizcə, artıq bu yönlərin də keçmiş ayinlərlə davam etdirilməsi müm-

kün deyildir. [Belə ki,] keçmişdəki tərbiyyə sisteminin, o ədəblər tamlığının müasir şərtlərlə davam etdirilməsi artıq mümkün deyildir.

Fikrimizcə, bu inancı mənimsəyənlərin böyük şəxsiyyət və misilsiz mütəfəkkir Mövlanənin buyurduğu kimi...dünyanı heçə saymamaq şərtiylə könül aləminə dalmaları lazımdır ki, həqiqi dinin buyuruğu da ancaq budur. Çünki, Allah [həqiqətən də] könüllərimizin niyyətlərinə baxar/üstünlük verər (Cami, I, s.62).

***Qeyd:***

## ƏBDÜLBAQI GÖLPINARLI

## “TƏSƏVVÜFƏ DAİR 100 SUAL”

*(müxtəsər tərcümə, qeyd və şərhlər Radif Heybət oğlu Mustafayevindir)*

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Səma Qasımova

Çapa imzalanmış 17.12.2022
Şərti çap vərəqi 22,5. Sifariş № 416
Kağız formatı 60x84. 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4